REDAKTOR GÜŞƏSİ

# QURBAN BAYRAMI DİVANI

Müsəlman aləmi hər il **"Qurban bayramı"** adı ilə tanınan müqəddəs bir ayini qeyd edir. El arasında buna bəzən "İsmayıl qurbanı" da deyilir. Hicri təqviminin ritmi ilə hər il on gün əvvələ çəkilən bu bayram, adətən iki gün davam edir və min illərin yaddaşını bu günə daşıyır. Elə buna görə də həmin günlərdə dünyaya gələn oğlan uşaqlarına çox vaxt Qurban və ya İsmayıl adı verilir — sanki qədim bir hekayətin izi yeni doğulan körpələrin taleyinə hopur.

Bu bayramın kökündə insanlığın ən qədim və ən təsirli hekayətlərindən biri dayanır — İbrahimlə İsmayılın hekayəti. Rəvayətə görə, İbrahim peyğəmbər Tanrıya sədaqətinin sınağı olaraq ən əziz varlığı — oğlunu qurban verməyə hazırlaşarkən, ilahi mərhəmət yerə enir və insanın yerinə bir qoç göndərilir. Deməli, həmin günə qədər Tanrı yolunda insanlardan qurban kəsirmişlər. O gündən bəri isə dəvə, qoyun, keçi və inək qurbanlıq simvoluna çevrilir; qurban ayini isə əsrlərin içindən keçərək bu günə gəlib çatır.

Lakin zaman dəyişir, insan düşüncəsi də onunla birlikdə dəyişir. Əsrlər öncə müqəddəs sayılan bir ayin, XXI əsrin vicdanında yeni suallar doğurur. Adi günlərdə ərzaq ehtiyacı üçün müəyyən sayda heyvan kəsildiyi halda, bayram günlərində bu mənzərə dəfələrlə böyüyür. Küçələri bürüyən qan qoxusu, həyətlərdən yüksələn mələşmə səsləri bəzilərinə ibadətin nişanəsi kimi görünür, digərlərinə isə mərhəmətin susduğu bir səhnəni xatırladır.

Qurban bayramı İslam dünyasında paylaşmağın, ehtiyacı olanın əlindən tutmağın, fədakarlıq və mənəvi yaxınlığın rəmzi hesab olunur. Bayramın mahiyyəti təkcə qurban kəsməkdə deyil; insanın nəfsindən keçməsində, əlindəkini bölüşməsində və başqasının dərdini öz qəlbində hiss etməsindədir. Bunu hamı, xüsusən də varlılar edə bilirmi?

Bununla bərabər başqa bir baxış da mövcuddur. Müasir dünyanın bir çox insanı heyvan hüquqları və etik düşüncələr baxımından bu ənənəyə etiraz edir. Onlara görə, yardımlaşmanın və mərhəmətin yolu artıq yalnız qan üzərindən keçməməlidir. İnsanlıq inkişaf etdikcə, xeyirxahlığın da yeni formaları yaranmalıdır.

Heyvanlara qarşı soyqırımın dayandırılması vaxtı gəlib çatmışdır. Məncə, bundan o tərəfi yoxdur.

**Hörmətlə: Əli BƏY AZƏRİ,**
**Baş redaktor**
**27-28 may 2026, Xırdalan şəhəri**

**XƏZAN**
**Ədəbi-bədii jurnal**
**C11, N3, 2026**
**May-iyun, 2026**

**Baş REDAKTOR:**
**Əli BƏY AZƏRİ**

**Redaksiya heyəti:**
*Şahməmməd Dağlaroğlu, Arzu Heydərova, Nəcibə İlkin, Məhəmməd Əli, Hafiz Əlimərdanlı, Damət Salmanoğlu, Nəzakət Eminqızı, Kirman Rüstəmli, Gülnarə İsrafil, Zaur Ustac, Ələsgər Talıboğlu*

**Baş redaktorun MÜAVİNİ:**
*Ramiz İSMAYIL*
**Dizayner:** *Aynur Çingizqızı*

**Redaksiyanın ünvanı:**
*Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı (Fevralın 1-dən BMM-ə köçürülüb)*

**Əlaqə telefonları:** *(070) 575 03 99*

**Email ünvanı:**
*xezan23@mail.ru,*

**Çapa imzalanıb: 05 iyun 2026-cı il**
*Ədliyyə Nazirliyində 15 yanvar 2016-cı ildə qeydə alınmışdır: 5331*

*Jurnal aylıqdır.*

*JURNALI Azərbaycan Yazıçılar Birliyinin "Bayatı" və KİTABEVİM.AZ kitab mağazalarından əldə edə bilərsiniz.*

# ƏSƏD CAHANGİR – 60



## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN BƏDİİ TƏRCÜMƏ VƏ ƏDƏBİ ƏLAQƏLƏR MƏRKƏZİNİN RƏHBƏRİ ƏSƏD CAHANGİRƏ

**Hörmətli Əsəd müəllim!**

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirəm!

Sizin çoxillik ədəbi, elmi yaradıcılıq fəaliyyətiniz diqqətəlayiqdir. Ədəbiyyata münasibətinizdəki konseptual yanaşma, milli-mənəvi dəyərlərlə çağdaş düşüncə arasında körpü quruculuğuna, klassik irsə və çağdaş ədəbi prosesə analitik baxışınız sizi fərqləndirən keyfiyyətlərdəndir.

Bədii tərcümə və ədəbi əlaqələr sahəsində gördüyünüz işlər ədəbi mühit üçün, bütövlükdə Azərbaycan ədəbiyyatının təbliği, tərənnümü üçün önəm daşıyır. Rəhbəri olduğunuz Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi müxtəlif dillər, mədəniyyətlər, ədəbi məktəblər arasında bağları gücləndirməyə xidmət edir.

Eyni zamanda, tənqidçi kimi cəsarətiniz, ədəbi hadisələrə fəlsəfi yanaşmanız və milli ədəbiyyatın gələcəyi ilə bağlı narahatlığınız ədəbi mühitdə təqdirlə qarşılanır.

İnanıram ki, bundan sonra da Azərbaycan ədəbiyyatının, bədii tərcümə sənətinin inkişafına töhfələr verməyə davam edəcəksiniz.

Sizi 60 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, möhkəm cansağlığı, uzun ömür, yeni yaradıcılıq uğurları arzulayıram!

**Fazil MUSTAFA,**
**Azərbaycan Respublikası Milli Məclisi**
**İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri**

**SABİR RUSTƏMXANLI,**

**Xalq şairi**



# AZADLIQ MEYDANINDAN SÖZ MEYDANINA

## Əsəd Cahangirin 60 yaşına

**Ədəbi tənqidçi, esseist, şair Əsəd Cahangir** çağdaş ədəbi-bədii fikrimizin görkəmli təmsilçilərindən, 90-cılar ədəbi nəslinin parlaq isimlərindən biridir. Təxminən iyirmi il öncə - biz şəxsən tanış olanda, o, artıq bir imza kimi yetərincə tanınırdı. Əsədin məni tanıması isə hardasa daha iyirmi il öncə baş vermişdi. Bunu onun Bakı Dövlət Universitetinin tələbəsi olanda mənə həsr etdiyi **«Verin kürsüləri şairlərə siz»** şeiri də göstərirdi. Mən «tanımaq» deyəndə insanın ad-soyadını bilmək, efirdə səsini dinləmək, qəzetdə şəklini, ekranda üzünü görməkdən yox, sözün daha ciddi, fəlsəfi anlamında onun kimliyinə bələd olmaqdan danışıram. «Verin kürsüləri şairlərə siz» göstərir ki, şairi və şeiri, bədii sözü Əsəd hələ gənc yaşlarından yaxşı bilir, gözəl tanıyırmış.

Şeir 1989-cu ilin yayında bir dövlət məmuru ilə mənim aramda Parlamentdə baş verən qarşıdurmadan yaranmışdı. Moskvanın adamı olan rus qafalı dövlət məmuru məni kürsüdən düşürməyə nə qədər çalışsa da, bunu bacarmamışdı. Görünür, o dönəm üçün çox səciyyəvi olan və ən dürlü şəxslərlə bağlı tez-tez baş verən bu dramatik olay gənc Əsədi güclü etkiləmiş və o, bundan ilhamlanaraq, «Verin kürsüləri şairlərə siz»i yazmışdı:

*Kəsməyin önünü şah misraların,*
*Qoy, sözləri salsın ürəklərdə iz!*
*Götürün dövlətin, götürün varın,*
*Verin kürsüləri şairlərə siz!*

*Görünməz gözünə nə ölüm, nə qan,*
*Çağlayan ilhamı sönməyəcəkdir!*
*Əgər şairdirsə, haqqın yolundan,*
*Soyun dabanından, dönməyəcəkdir!*

*Şairin sözünü kəsmək günahdır,*
*Dağları, daşları yıxacaq bir gün!*
*Qayalar altından sızan bulaqdır,*
*Özünə yol tapıb çıxacaq bir gün!*

*Tanrının səsidir şairin səsi,*
*Zülmət gecələrdə çaxar bir anda!*
*Elə bir mehdir ki, şair nəfəsi*
*Milyon qığılcımı yaxar bir anda!*

*Sözdür ən müqəddəs duzu, çörəyi,*
*Bunu ondan başqa kim dada bilər?!*
*Bircə himə bənddir şair ürəyi,*
*Dağları yerindən oynada bilər!!!*

*Qopsa da qasırğa, günəş də sönsə,*
*Şairin haqq sözü dəyişməz qalar!*
*Bir sözün başında şair dayansa,*
*O yerdə ədalət göyə ucalar!*

*Ən ağır zülmə də çökməyərək diz,*
*Yalnız şair deyər sözün düzünü!*
*Verin kürsüləri şairlərə siz,*
*Yoxsa öz qanıyla deyər sözünü!*

*Əyilər zirvə də, susar dəniz də,*
*Şairin sözünü kəsmək nahaqdır!*

*Onu versəniz də, verməsəniz də,*
*Təbiət şairə verib bu haqqı!*

Ola bilər ki, təvazödən bir az uzaq səslənsin, amma xalqın ölüm-dirim savaşına qalxdığı o təlatümlü günlərdə bir universitet gəncinin və onun timsalında gəncliyin məni məhz belə görməsi və belə təsvir etməsi, doğrudan da, qürurverici idi. Amma indi bu şeirdən sadəcə mənə həsr olunduğu üçün danışmıram. Ona görə danışıram ki, şeir meydan olaylarının üsyankar ruhunu, oyanmış xalqın düşmənə qarşı hiddəti və azadlıq həsrətini, ümumən hadisələrin çoşqunluğunu bütün vüsəti ilə özündə əks etdirirdi. Özəlliklə də, olayların Qanlı Yanvara qədərki coşqun



romantizmi, bayraqdarlığın Əlahəzrət Zamanın hökmüylə şair-yazıçılara verilməsi şeirdə özünün parlaq ifadəsini tapıb.

...Şeir məni ixtiyarsız olaraq keçmişlərə aparır. Kürsülərə sinə gərən şair-yazıçılar arasında kimlər yox idi? Öz işıqlı anılarını bizə yadigar qoyub, ölməzlik dünyasına köçən İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Yusif Səmədoğlu, Vaqif Səmədoğlu, Nüsrət Kəsəmənli...

Nəhayət, bu şeirdən danışmağa nədən olan daha bir amil də var. «Verin kürsüləri şairlərə siz»də ümummilli təsəvvürdə yaşayan bir şairin - boy boylayıb, soy soylayan Dədə Qorqud, zindana salınan Xaqani, mənalar mülkünün hökmdarı Nizami, dabanından soyulan Nəsimi, qılıncla qələmi birləşdirən Xətai, könüllər sultanı Füzuli, dara çəkilən Vaqif, dəryada dağ kimi duran Sabir, şeirini satmaq zorunda qalan Hadi, Sibirə sürülən Cavid, repressiya baltasına tuş gələn Müşfiqin... ümumiləşdirilmiş obrazı var. Şeirin hər bəndindən öz ağrılı, acılı taleyi ilə bir şair boylanır. Şeirdə xalqımızın şeirə, sənətə olan sevgisi, ehtiramı var. Şairin, şeirin, ümumən ədəbiyyatın tarixi rolunun təsdiqi var. Bədii sözün olağanüstü gücünə iman var. Haqqın qələbəsinə inam var. Azadlıq uğrunda savaşa çağırış var, bir sözlə, çox istəklər var.

«Verin kürsüləri şairlərə siz» öz müəllifinin sonrakı yaradıcılığında qabarıq üzə çıxan bir yönündən də xəbər verir. Yaşıdlarının önəmli qismindən fərqli olaraq, ümummilli taleyüklü sorunlara, vətəndaşlıq konularına, sosial-siyasi problemlərə güclü maraq, xalqın taleyi ilə yaşamaq və bu taleyə yanmaq! Ən ilginci isə budur ki, qabarıq sosial-siyasi tematika onda mistisizmlə çulğalaşır və beləliklə, bu iki əks qütbün birləşməsi çağdaş dönəm ədəbiyyatımızın unikal isimlərindən biri olan Əsəd Cahangir imzasını meydana gətirir.

Məhz bu iki cəhətin birləşməsi hesabına onun olaylara baxışı fərqli və hərtəfəlidir, bütövdür, tamdır. Məsələn, Meydan hərəkatına bizdə ya əksərən birmənalı müsbət, ya da mənfi yanaşırlar ki, bu da onun əsl anlamının dərkinə mane olur. Əlbəttə ki, bu konuda həqiqəti bütün yönləri ilə əks etdirən əsərlər də var - məsələn, Sabir Əhmədlinin «Kütlə», Əli Əmirlinin «Meydan», Əjdər Olun «Lo» romanları. Amma poeziyanın bir üstünlüyü var ki, romana sığacaq mətləbi bəzən iki-üç misra, hətta bircə söz vasitəsilə də çatdıra bilir. Ə.Cahangirin «Namaz» poemasında Meydan hadisələrini əks etdirən bu parçada olduğu kimi:

***Tez ol, aç pəncərəni,***
***seyr et bu mənzərəni:***
***sığmır daş məcralara***
***qıjıldıyır insanlar,***
***vızıldıyır adamlar,***
***nümayiş seli daşır.***
***Dalğalanır bayraqlar,***
***çalxalanır yumruqlar,***
***mitinq dənizi qalxır,***
***qiyam şəhəri basır!***

«Verin kürsüləri şairlərə siz»i yazan Əsəd hələ olayların içindədir, azadlıq savaşının özü kimi gəncdir, romantikdir. Şeirdəki romantik vüsət, üsyankarlıq məhz bununla bağlıdır. «Namaz»da isə bütün bunların üstündən az qala iyirmi il keçib. Burda olaylara meydandan yox, meydana açılan pəncərədən, yəni həm kənar, həm də hündürdən baxılır. Bu, müəllifə imkan verir ki, faktları daha soyuq başla saf-çürük eləsin, onlar haqqında daha sakit tonda danışsın, hər cür romantik idealizədən qaçsın, hər şeyi mənfi-müsbət yönləriylə bir yerdə, tam, bütöv görsün. Bu yöndən diqqəti yuxarıdakı sitatdan iki həmqafiyə sözə çəkmək istəyirəm: qıjıldayır və vızıldayır. Bu sözlərdən birincisi məcrasına sığmayan coşqun çay, hər şeyi öz qabağına qatıb aparan sel, ikincisi isə boş-boş vızıldamaqla zəhlə tökən həşərat (eşşə-

karısı!) assosiasiyası doğurur. Özü də hər iki növdən olan adamlar eyni bir olayın iştirakçısıdır. Meydanda doğrudan da, qıjıldayanlara da, vızıldayanlara da rast gəlmək olurdu və Əsədin uğuru ondadır ki, mənzərəni bütün zidd yönləri ilə görə və göstərə bilir.

Yeri gəlmişkən, bu parçada müəllifin uğurla yaratdığı və real özülə malik bir bənzətmədən də danışmaq istəyirəm. Ə.Cahangir «Azadlıq» meydanındakı coşqun mitinqləri Xəzərin tez-tez qalxması və Dənizkənarı parkı basmasına bənzədir. Bu, 90-cı illər Bakısının ən səciyyəvi mənzərəsi idi. Amma burda söz sadəcə zahiri bənzəyiş effektindən getmir. Ondan gedir ki, dənizin stixiyası ilə Meydan olaylarının ilk dönəmləri üçün səciyyəvi olan kortəbiiliyi, idarəolunmazlığı arasında daxili, semantik bir bənzəyiş var.

«Verin kürsüləri şairlərə siz» şeirini Əsəd universitetdə Qabil və Nüsrət Kəsəmənlinin tələbələrlə görüşündə oxumuş və mənə həsr etdiyini bildirmişdi. Bunu mənə şair dostlarım dedi və mən onun haqqında ilk dəfə belə eşitdim. İllər keçdi, dövrü mətbuatda onun çoxsaylı yazıları üzə çıxdı...

İş elə gətirdi ki, Əsədin bir imza kimi parlaması, geniş oxucu kütləsinin rəğbətini qazanması mənim sədrlik elədiyim «Vətəndaş Həmrəyliyi Partiyası"-nın eyniadlı qəzetində baş tutdu. Onun bu qəzetdə dərc olunan «Yeni əsrin ibtidası» silsilə yazılarında, doğrudan da, yeni yüzilin ədəbiyyatının gələcək istiqamətlərinin ibtidası qoyulurdu.

Əsəd Cahangirin yazılarından biri - «Söz» essesi haqqında xüsusi danışmaq istəyirəm. Tarixi dəqiq xatırlamıram - təxminən doxsanıncı illərin ortaları idi. Elə bir vaxt ki, qarmaqarışıq siyasi olaylar fonunda ikinci plana, iqtisadi dalana sıxışdırılan elm, ədəbiyyat, incəsənət çoxlarının yadına düşmürdü. Bəziləri olayların gərginliyinə dözməyib dünyadan köçmüş, bəziləri qələmi yerə qoymuş, bəziləri taleyin sərt dönüşündən küsərək vətəndən uzaqlara üz tutmuşdu. Belə bir boşluqda ədəbiyyatda hələ yalnız ilk addımlarını atan bir gəncin bədii sözü ilahiləşdirib Tanrı mərtəbəsinə qaldıran «Söz»ü...

Amma mən sözün yaxşı anlamında, «Söz»ə təəccüb etmədim. Çünki «Verin kürsüləri şairlərə siz» deyən bir gəncin «Söz»ü yazması doğal və qanunauyğun idi. Yalnız şairi Tanrının yer üzündəki sözçüsü sayan bir şəxs sözü ilahi qatda görə bilərdi.

Adətən, yazıçı oxucunun gözü qabağında böyüyür və o, ilk addımlarını necə atır, necə gəlişir, necə biçimlənir, bunu hamı görür. Əsəd Cahangir «Azadlıq» meydanından söz meydanına qəfil, gözlənilmədən, hazır bir biçimdə gəlmişdi, Afina yaraq-əsləhəsi də üstündə Zevsin başından çıxdığı, birdən-birə peyda olduğu kimi... Başqalarının mətbuat səhifələrində illərlə keçdiyi yolu o, öz içində keçmiş, öz içində böyümüş, öz daxilində biçimlənmişdi. Başqa sözlə desək, o, ədəbiyyata öz içindən, öz daxilindən, öz ruhundan, öz taleyindən gəlmişdi. Məncə, onun ədəbi-bədii yaradıcılığı üçün səciyyəvi olan və qabarıq görünən orijinallığı da, yazılarındakı subyektiv başlanğıc da məhz burdan qaynaqlanır.

Hər bir qələm adamının öz fərdi ədəbiyyat tarixi olur, kimsə bunu yazıya alır, kimsə yox. «Söz» essesində Əsəd Cahangir özü də fərqinə varmadan öz ədəbiyyat tarixini yaradıb. Bu, sözün yaranışından günümüzə qədərki «tarix»dir. Əgər inansaq ki, hər insan öz ömründə insanlığın, hər şair şairliyin, hər alim də alimliyin yolunu qısa sürədə təkrar edir, onda Əsəd bu essesində özünün milli ədəbiyyatımızda ilk ədəbiyyat tarixi yaradan Firudin bəy Köçərli dönəmindədir.

Amma o, Firidun bəyin yüz il əvvəl dediklərini sadəcə təkrar etmir, əvvəla, sözün tarixini zamanca genişləndirərək tarixəqədərki dönəmin özünə qədər gedib çıxır. Əgər Firidun bəy ədəbiyyat tariximizə Füzulidən başlayırdısa, Əsəd Cahangir «Dünya Sözün bətnindən doğulub, söz isə dünyanın» deyə tarixəqədərki dönəmdən başlayır. Yəni o, ədəbiyyat tarixindən daha çox, əslində, «əbədiyyət tarixi» yazır. Elə bir dönəm ki, söz var idi, amma tarix hələ yox idi, əbədiyyyət var idi, ədəbiyyat hələ yox idi. Tarix çox-çox sonralar əzəli və əbədi sözün, ədəbiyyat əbədiyyətin görüntüsü kimi meydana çıxacaqdı. Zaman bükülmüş xalça kimi idi, o, söz-söz açılacaq, bu açılışda Nizamidən Muğannaya qədərki minillik ədəbiyyat tariximizin naxışları görünəcəkdi.

Sözün iki üzü var - əbədi və ədəbi, tarixəqədərki və tarixi. Əbədiyyət sözün noumenal, ədəbiyyat isə fenomenal tərəfidir. Odur ki, məsələ təkcə zaman intervalının genişlənməsində deyil, həm də ondadır ki, Əsəd Cahangir öz essesində sözün ikili mahiyyətini, ilahi və bəşəri üzünü göstərib. İlahi üzünü Söz, bəşəri üzünü isə sadəcə söz adlandırıb. İlahi söz dünyaya enir və insaniləşir. Şairin, yazıçının missiyası Tanrının yanından yerə enmiş sözü yenidən Tanrı mərtəbəsinə qaldırmaqdır. Şair Tanrı işinin davamını görür, onu tamamlayır və başa çatdırır. Essenin ifadə etdiyi başlıca məna budur. Nizami, Füzuli, Vaqif, Anar və İsa Muğannanın yaradıcılığına söykənən Əsəd Cahangir bu eniş və yüksəlişi minillik milli ədəbiyyat fakturasında izləyib.

Mən Əsəd Cahangirin bu illər ərzində yazdığı digər əsərlərini də oxumuşam və hər dəfə görmüşəm ki, bu əsərlərdə «Söz»dən gələn nəsə var. «Söz» onun bütün öncəki və sonrakı əsərlərinin fundamental özülündə durur. Bəs onun dürlü əsərləri arasındakı bu səsləşmənin, onların vahid bir sistemin üzvi tərkib hissələrinə çevrilməsinin daxili özülündə nə durur?

Hər cür gəlişmənin düz xətt deyil, çevrə modelində olmasına dair genəl qənaət!

Bu o deməkdir ki, dərinə gedəndə Əsəd Cahangirin dünyaqavramının özülündə bədiilik durur. Çünki bədii düşüncə çevrə, elmi düşüncə isə düz xətt quruluşunda olur. Elmi düşüncə daha çox müstəvi, bədii düşüncə isə daha çox fəza həndəsəsi qanunları ilə işləyir. Elmi düşüncə özünün düz xətt saydığı bir şeyin hansısa anda çevrəyə dönəcəyini görmür. Bədii düşüncə isə bunun fərqindədir. Odur ki, şair-

lər alimlərin fraqmentar şəkildə gördüklərini bütöv halda görürlər. Onlar başlanğıcla sonun birliyinə dair həqiqətə alimlərdən daha yaxındır. Təsadüfi deyil ki, Əsədin ilk esselərindən biri elə belə də adlanır - «Bir əvvəl var, bir axır var, deyirlər». Bu sözlər on doqquzuncu yüzil Güney Azərbaycan şairi Mir Mehdi Şükuhinin qəzəlindəndir:

***Bir əvvəl var, bir axır var deyirlər,***
***Bu bir sözdür, nə əvvəl var, nə axır.***

Şükuhi əvvəl-axırı varoluş yönündən olmasa da, idraki yöndən inkar edir, yəni əvvəl-axır var, amma biz onları qavraya bilmirik. Əvvəl-axır sadəcə bir sözdür. Əsəd Cahangirin fikrincə isə, söz hər şeyin başlanğıc və sonudur. Hər şey sözdən başlayıb, sözdə də qurtarır. Söz həm yaradan, həm yaradıcılıq prosesi, həm də yaradılandır. Həm ideya, həm də onun gerçəkliyə çevrilməsidir. Həm enerji, həm də onun maddiləşməsidir. Bir sözlə, dünyanın bu üzündə də, o üzündə də nə varsa, hamısı Sözdür. Təsadüfi deyil ki, o, dahi Füzulinin sözə dair şahanə misralarını «Söz»ə epiqraf seçir və bununla da, Şükuhi qatından Füzuli qatına keçir:

***Can sözdür, əgər bilirsə, insan!***
***Sözdür ki, deyirlər, özgədir can!***

Çevrə və düz xətt məsələsinin üstündə belə yerli-yataqlı durmağım, məsələnin həndəsəsinə qədər getməyim səbəbsiz deyil. Ədəbi-ictimai fikir Əsəd Cahangiri daha çox tənqidçi kimi tanıyır, çünki o, özünü daha çox belə təqdim edib və toplum da onu belə qəbul edib. Amma məsələnin məğzinə gedəndə görürük ki, onun yazılarının özülündə gəlişmə və hərəkətin çevrə modelində olması liə bağlı bədii düşüncə durur, elmilik isə bu özül üzərində ucalan binaya bənzəyir.

Eyni daxili bədiilik onun bu yaxınlarda «Ədəbiyyat qəzeti»nda dərc olunan «Səs» essesi üçün də səciyyəvidir. Əsəd Cahangir bu essesində də çevrə modelində düşünür, söz, səs və rəngin çevrə boyunca bir-birini əvəzləməsi, bir-birinə keçməsi qanunauyğunluğundan danışır. Sadəcə, «Söz»də söhbət ədəbi-bədii, «Səs»də isə ümumi kulturoloji yöndən gedir. «Söz» kimi «Səs»ə də söz və dil oyunları, yüksək metaforizm, şairanəlik xasdır. Lakin «Səs»in ən orijinal tərəfi esse müəllifinin Azərbaycanı söz, səs və rəng üzrə üç geokulturoloji məkana bölməsi, ən aktual tərəfi isə onun Qarabağ mövzusu ilə bağlılığıdır.

Əsəd Cahangir Qarabağı səs bölgəsinə aid edir, onu bu səs vasitəsilə yerlə göy arasındakı bağ kimi səciyyələndirir, Qarabağdan çıxan onlarla səs incəsənəti nümayəndəsini ilahi səsin yerdəki işarəsi sayır. Onun fikrincə, Qarabağın bədxah qonşular tərəfindən tutulması sadəcə ərazi itikisi yox, yerlə göy arasındakı bağı, ilahi səsi itirmək, onun azad olunması isə bu bağın və səsin geri qaytarılmasıdır.

Qarabağ haqqında indiyə qədər onlarla əsər yazılıb - qarabağnamələr, tarixi romanlar, poemalar, şeirlər, məqalələr... «Səs» özü də bir «Qarabağnamə»dir və özünəqədərki «Qarabağnamə»lərin ədəbi-fəlsəfi yekunudur. Amma onun bir fərqləndirici özəlliyi var. «Səs» Qarabağ tarixinə metatarixi rakursdan baxan yeganə «Qarabağnamə»dir. Yəni essedə ilk dəfə olaraq Qarabağ olaylarına ilahi amilin müdaxiləsi göstərilir, tarixin sadəcə insani yox, həm də ilahi yönü qabardılır. Əsəd Cahangirə görə, Qarabağ itkimiz hər şeydən öncə ilahi cəza, Qarabağ zəfəri ilk növbədə ilahi mükafatdır.

Əsəd Cahangirin «Dəmirbaşlar» essesi də eyni çevrə modelində düşünülüb. Sadəcə, burdakı mövzu-problema öncəki iki essedən daha genişdir. «Söz» essesindəki ədəbiyyat konusuna «Səs»də tarix və incəsənət, «Dəmirbaşlar»da isə elm, siyasət və fəlsəfə də əlavə olunur. Bu «əlavələr» esseistin maraq dairəsi və dünyagörüşünün zamanla genişlənməsindən xəbər verir. Onun «Aprel tezisləri. Postinsan haqqında esse» əsəri isə artıq keçmişə yox, gələcəyə yönəlib, insanın postinsan sabahına boylanır və bu sözügedən konuya Azərbaycan ədəbi-bədii, ictimai-fəlsəfi fikrində ilk boylanışdır. Bu essenin yazılmasından dərhal sonra baş verən bir sıra olaylar, özəlliklə də, pandemiya olayı Əsəd Cahangirin süni intellekt və süni seçim məsələsi ilə bağlı uzaqgörənliyində haqsız olmadığını üzə çıxarır.

İndi mənim amacım Əsəd Cahangirin esselərini bütün detalları ilə araşdırmaq deyil. Belə bir araşdırma daha geniş vaxt və böyük həcmli yazı istəyir. Amacım Ə.Cahangir və onun yaradıcılığı timsalında bədii düşüncə ilə elmi fikir arasındakı daxili sınırları bəlirləməkdir. Ə.Cahangirin adını çəkdiyim və çəkmədiyim istənilən yazısında gəlişmə çevrəsini başa vurub, ilkin nöqtəyə qayıtmaq istəyi (və ehtirası!) var ki, bu da onun, alt qatlarda poetik düşüncəyə sahib olmasından irəli gəlir.

Əsədin «O Adam», «Namaz», «Xarıgülnar» poemalarında bu qayıdış arzusu sadəcə açıq bədii okeana çıxır. Odur ki, bu poemalara «tənqidçinin şeir yazması» rakursundan baxmaq məsələyə səthi yanaşmaq deməkdir. Mövzu və məzmunundan asılı olmayaraq, hər üç poema bir konuda birləşir. Bu poemalar zərrənin küllə, damlanın dəryaya qayıdışına dair orta çağ sufi ideyasının yeni biçimdə ifadəsidir. «O Adam»da bu qayıdış insana, «Xarıgülnar»da Vətənə, «Namaz»da isə Tanrıyadır:

***A koruş, görmürsənmi,***
***Tanrının balasısan?!***
***Tanrının Çənlibeli,***
***Tanrının qalasısan?!***
***Səndə Tanrı gizlənib!***
***Bilmirsən?!***
***Təndən anrı gizlənib!***
***Görmürsən?!***

***Hey! Həvva törəməsi,***
***samariyalı qadın!!!***
***Adam nədi, ər nədi,***
***bilmirsən bəşər nədi?!***
***Bilmirsən ki, cisminlə***

***Tanrının məbədisən?!***
***Tanrı kimi ölümsüz,***
***Tanrı tək əbədisən?!***
***Tanrıdan doğ balanı!!!***
***(«Namaz»)***

Amma bu qayıdış istəyi birdən-birə meydana çıxmamış, sözügedən poemalardan daha öncə öz ifadəsini Əsəd Cahangirin «Qaytar məni dənizlərə» şeirində tapmışdı:

***Tanrım, səndən başqa heç kəs***
***Kiməm, nəyəm, bilmir, axı!***
***Mən dünyayla dolanardım,***
***Dünya yola vermir, axı!***
***Qaytar məni dənizlərə!***

***Ya daş elə, ya quş elə,***
***Apar məni bir yuxuya.***
***Bulud elə, yağış elə,***
***Döndər bircə damla suya,***
***Qaytar məni dənizlərə!***

***Dənizlərin məhəbbəti***
***Sonsuz olur, dərin olur!***
***Orda hər şey təmiz olur,***
***Orda hər şey sərin olur,***
***Qaytar məni dənizlərə!***

***Dişim olsun mirvarilər,***
***Yosunlar saçlarım olsun!***
***Qızıl balıq dostum olsun,***
***Su pərisi yarım olsun,***
***Qaytar məni dənizlərə!***

***Yolub yosun saçlarımı***
***Selə vermək istəyirəm!***
***Suda ölüm necə olur?***
***Suda ölmək istəyirəm,***
***Qaytar məni dənizlərə!***

Aydındır ki, klassik sufi ədəbiyyatında dəniz, yaxud «dəryayi-mühit» hər şeyi özündən doğuran ilahi başlanğıcın simgəsidir. Təsadüfi deyil ki, Nəsimi bir məsnəvisində bu yaranış, doğulma sürəcini belə təsvir edirdi:

***Dəryayi-mühit cuşə gəldi,***
***Kövn ilə məkan xüruşə gəldi.***

***Sirri-əzəl oldu aşikara,***
***Aşiq necə eyləsin müdara?***

Klassik sufi düşüncəsinə görə, hər bir ruh ruhlar ümmanından ayrılmış bir damladır. O damlanın ən böyük istəyi öz ümmanına qayıtmaq və bununla da, ruhi-mənəvi rahatlıq tapmaqdır. Amma nə qədər ki, insan bu dünyadadır, bu istəyin gerçəkləşməsi mümkünsüzdür. Bu vüsalın ancaq bir yolu var - dünyanı tərk etmək. Yalnız bu zaman zərrə küllə, damla dəryaya qovuşa bilər. Təsadüfi deyil ki, Füzuli Leylinin ölümü ilə bağlı yazırdı:

***Şövq əhlinə qürb hasil oldu,***
***Dəryasına qətrə vasil oldu.***

Nəsimi, Füzuli kimi divan şeiri dahilərindən sitatlarım təsadüfi deyil. Bu, Əsəd Cahangirin klassik divan şeiri ilə ən dərin qatlarda bağlılığını göstərmək amacı güdür. Digər tərəfdən isə dünya ədəbi-fəlsəfi fikrinin son nailiyyətləri olan postmodernizm və postinsanla bağlı ilk yazıların da müəllifi bizdə məhz Əsəd Cahangirdir. Bu, onun «Söz»ünün diapazonunun genişliyi, «Səs»inin amplitudasının yüksəkliyindən xəbər verir. Bu yüksəklikdə insanla Tanrı, bu genişlikdə isə tarixlə indi bir yerdədir. Bunu Əsədin 44 günlük İkinci Qarabağ savaşındakı tarixi qələbəmizə həsr olunan son poeması - «Xarıgülnar»da daha aydın görmək olur.

Az qala başdan-başa dua-alqışdan ibarət poema Dədə Qorqudun hər boyun sonunda gəlib verdiyi yumlamaları xatırladır. Əsəd Cahangirin hər şeiri, hər poeması bir yumlamadır. Bu əsərlər şeir duadan doğulub fikrinin əyani təsdiqi, Tanrı bu şeirlərin son ünvanıdır. Əgər «O Adam» və «Namaz» poemaları bu yöndən orta çağ divan şeiri ilə səsləşirdisə, «Xarıgülnar» Dədə Qorqud poeziyasına mesaj göndərir:

***Gəlin qəm-qüssəni könüldən ataq,***
***Uca dağ başında üç tonqal çataq!***
***Ozanlar ozanı Dədəm Qorqudla,***
***Yazanlar yazanı Anar***
***dərə-təpə düz gəlsinlər,***
***bir əlində qələm,***
***o biri qolça qopuz - gəlsinlər!***
***Boy boylasınlar***
***Soy soylasınlar!***
***Qaynasınlar, daşsınlar,***
***Düzüb-qoşsunlar!***
***Səsimiz batıdan batıb,***
***Doğudan car olsun!***
***Üzü görklü***
***Məhəmməd Mustafa eşqinə***
***Tanrı bizə yar olsun!***

Əsəd Cahangirin «Verin kürsülərü şairlərə siz» deyəndə nəzərdə tutduğu ümumiləşdirilmiş şair-ozan obrazında Dədə Qorquda məxsus özəlliklərin də olması bu üzdən təsadüfi deyil.

Əsədin adını rəhmətlik Qabildən ilk dəfə eşitdiyim, elə bil, dünən idi. Bu gün isə onun artıq 60 yaşı, yaradıcılığının 40 ili tamam olur. Gəlin etiraf edək ki, Əsəd Cahangiri də, onun bir çox ədəbi nəsildaşlarını da gənc deyə-deyə qocaltmışıq. Fakt isə öz faktlığında qalır - son iyirmi -otuz ilin ədəbiyyatının ağırlığı ən çox məhz onların çiyninə düşüb.

Əzizim, Əsəd! «Söz»ün söz, «Namaz»ın qəbul olsun! «Səs»in uca kürsülərdən gəlsin! Səni 60 yaşın və yaradıcılığının 40 illiyindən dolayı ürəkdən təbrik edir, sənə möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.



ƏSƏD
CAHANGİR

# S Ö Z Ü M Ü N   C A N I

## Metafizik-strukturoloji essedən bir hissə

İnsanın özünütanıma tarixi üç dönəmə ayrılır - mif, din və elm dönəmləri. Homer mif, Nizami din, biz isə elm dönəminin şairləriyik. Mif şeirin qardaşı, din rəqibi, elm yoldaşıdır. Nizaminin dastanları minacat, nət kimi "rəsmi" dini bölümlərlə başlayır. Homerin poemalarının rəsmi mifik bölümlərlə başlamasına gərək yoxdur – onlar zatən başdan-başa mifdir.

Homer də, Nizami də şeirə bir ayin kimi baxırlar. Antik və orta çağ şairləri üçün şeir qoşmaq, yaxud yazmaq dua eləmək kimiydi! Biz şeir yazanda hər hansı ayinə, rituala ehtiyac duymuruq, nədənki başımızın üstündə tapına biləcəyimiz hər hansı qüvvənin varlığını görmürük. Bu üzdən şeirimizin göylərə doğru çırpınan qanadları kəsilir. Biz uçarlar yox, qaçarların, bəzilərimiz hətta sürünənlərin nümayəndələriyik. Şeir pərisi bir zamanlar uçurdu, indi qaçır, gələcəkdə sürünəcək! Bu üzdən şeirimiz klassik dönəmlərdən fərqli olaraq, daha teyyül-ərz eləyə bilmir. Bizim dönəmin şairi ilham pərisinə ən yaxşı halda Məmməd Araz kimi müəyyən şərt daxilində "inana" bilər:

***Ey ilham pərisi, varsansa əgər,***
***Bu axşam üstümə qanadını gər!***

Varsansa əgər!.. Amma ilham pərisinə hətta belə tərəddüd, şübhə dolu inamın özü də bu gün bir az qəribə, arxaik görünür, klassik poetik ənənəyə sadəcə hörmət kimi təsiri bağışlayır. Homer isə muzaya, Nizami isə Allaha münasibətdə "varsansa" deyə şərt qoymurdu. Onlar bu ilhamverici qüdrətin varlığını qeyd-şərtsiz qəbullanırdılar. Bu ilham mənbəyi onlar üçün qeyd-şərtsiz var idi!

Homer də, Nizami də vertikal düşünür - hər ikisi yuxarı baxırlar. Lakin antik Yunanıstanın kor ozanı ilə orta çağ Azərbaycanının huşyar şairi arasında bir önəmli ayrıntı var. "Sirlər xəzinəsi"ndən ta "İsgəndərnamə"yə qədər Nizaminin bütün dastanları Allaha minacatla açılır:

***Sən ey yaranmışlara həyat verən, can verən,***
***Gildən yaranmışlara nəfəs verən, qan verən!***
***...Biz hamımız faniyik, əbədiyyət sənindir,***
***Uca göylər, qüdsiyyət, təmiz niyyət sənindir!***

Homer isə öz "İliada"sını mifik varlığa – ilham pərisi, epos muzası Kalliopaya müraciətlə başlayır və anındaca mifik qəhrəman Axillesin, sonra isə mifik məkanın – yeraltı Aid aləminin təsvirinə keçir. Homerdə hər şey – ilahə də, insan da, məkan da mifikdir:

***Söylə, söylə, ey ilahə, Peleyoğlu Axillesin***
***Axeyləri min bəlaya düçar edən qəzəbindən.***
***Çox igidin mərd ruhunu atdı Aid aləminə,***
***Bədənini yem elədi qurda, quşa həmin qəzəb.***
***(tərcümə Mikayıl Rzaquluzadənindir)***

"Odisseya" müdrik Mentorun sifətində təccəlla eləyən ilahə Afinanın təsviri ilə bitir, Allah insanla eyniləşir. Mif "İliada"nın ilk misrasından "Odisseya"nın son misrasınacan Homerin bütün ruhuna hopub.

***Bax, Afina belə dedi. O sevincək razılaşdı,***
***Qalxantutan Zevsin qızı tərəflərin arasında***
***Əhdnamə bağlatdırdı, and-amanla möhkəmlətdi.***

Onun səsi və görkəmi mərd Mentoru andırırdı.
(Tərcümə Ələkəbr Ziyatayındır)

Homerin düşüncəsi amorf, Nizamininki morfolojidir. Bu, nə Homerin suçu, nə də Nizaminin hünəri deyil. Homer dönəmi düşüncəsi özü amorf, Nizami dönəmi düşüncəsi özü morfoloji idi. Homerdə iki qardaş - mifik və poetik düşüncə alfadan omeqayacan qaynayıb-qarışıb, konsentrasiya olunub. Nizamidə isə iki rəqib - dini və poetik düşüncə ayrı-ayrı qütblərə çəkilib. Bu iki antiqütb arasında barışdırıcı missiyasını, körpü rolunu fəlsəfə oynayır. Nizaminin bədii düşüncə triadasını Hegel belə təsnif edərdi:

Tezis – şeir, lirik qəzəllər;

Antitezis – din, "Sirlər xəzinəsi";

Sintez - fəlsəfə, "Xəmsə"nin yerdə qalan dastanları, özəlliklə də, "İsgəndərnamə".

Nizamidə sintez məkanına gedən fakt öncə ciddi senzuradan keçir, nələrsə saxlanılır, nələrsə içəri ötürülərək düşüncənin kosmik orbitinə düşür. "Xəmsə"nin son sözünü nə poeziya, nə də din deyil, fəlsəfə deyir.

"Sirlər xəzinəsi"ndə Nizami Sözün tərənnümçüsüdür:

***O zamandan ki qələm yazı yazdı, dür saçdı,***
***Bu dünyanın gözünü ilk dəfə Sözlə açdı.***
***...Söz eşqin lüğətində öz canımızdır bizim,***
***Biz Sözük, görkəmimiz – eyvanımnızdır bizim***!

(tərcümə Süleyman Rüstəm və Abbasağa Sarovlunundur)

Amma bu xəzinədəki incilər şairin özünə aid olmaqdan daha çox, başqalarınınkıdır. Şair burda özündən yuxarıdakılar (İsa, Məhəmməd...) və öncəkilərin (Sənai və s.) layiqli davamçısıdır. "Xəmsə"nin sonuncu üç dastanında ("Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə") isə mövzuları əksərən Firdövsidən götürməsinə baxmayaraq, "orijinal şair" epiteti Nizami üçün azdır. Bu əsərlərdə o, dövrün bədii düsüncəsini kosmik sürətlə geridə qoyan düşünərdir. "Xosrov və Şirin"in "Xəmsə" müstəvisindki yeri bu iki qütb arasındadır və bədii düşüncənin çoxəsrlik gəlişməsi bu dastandan keçir.

"Xosrov və Şirin" "Xəmsə"nin ikinci dastanı, Nizaminin yenidən doğuluşudur. Şair cismən 1141-ci ildə, ruhən isə 1181-də - "Xosrov və Şirin"in yazıldığı il dünyaya gəlib. O bu sevgi dastanını üzdə Atabəy Məhəmməd Cahan Pəhləvanın sifarişiylə, içdə isə metafizik işarəylə - taleyin mesajıyla yazıb. Dastanın yazıldığı il Nizaminin qırx yaşı vardı. Həzrət Məhəmmədə Qurani-Kərim qırx yaşından etibarən göndərildiyi kimi, bu dastanın da Nizamiyə məhz eyni yaşda göndərilməsi (bəli, bəli, məhz göndərilməsi!) boşuna deyildi. Qırx yaş cavanlıqdan müdrikliyə keçid, ehtiraslardan arınma yaşıdır. Təsadüfi deyil ki, Koroğluya aid edilən bir vücudnamədə bu ələmətdar yaş dönəmi belə səciyyələndiriir:

***Otuzunda kəklik kimi səkərsən,***
***Haramlar eyləyib qanlar tökərsən.***
***Qırx yaşında əl haramdan çəkərsən,***
***Sonası ovlanmış gölə bənzərsən.***

Qırx yaş hələ bədəni tərk eləməyən cavanlıq enerjisi ilə artıq yetkinləşmiş, durub toxtamış ağlın unikal görüş məqamıdır. Yəqin bu üzdən hər kəs özünün ən gözəl əsərlərindən birini, bəlkə də, şah əsərini məhz bu yaşda yazır. Məsələn, Füzuli "Leyli və Məcnun"u bu yaş sınırlarında yazıb. Bu yaşda insanın həyatında, şairin yaradıcılığında bir dönəm bitir, digəri başlayır. Qırx yaşda yazdığı "Xosrov və Şirin" Nizaminin söz-sənət peyğəmbərliyinin başlanğıcıdır. Füzuli üçün "Leyli və Məcnun" nədirsə, Nizami üçün "Xosrov və Şirin" odur. Füzuli rakursundan baxanda Nizaminin "Leyli və Məcnun"u "Xosrov və Şirin"dir. "Leyli və Məcnun"da olaylar Ərəbistan səhralarında, "Xosrov və Şirin"də isə Qafqazın səfalı yaylaqlarında baş verir. Nizami Ərəbistan coğrafiyası deyil, Azərbaycan-Qafqaz-İran coğrafiyasının şairidir.

Söz yaşdan düşmüşkən, bir məsələ ilə bağlı haşiyə çıxmağa ehtiyac duyuruq. Nizaminin vəfat tarixi və neçə il yaşaması konusunda nizamişünaslıqda iki fərqli fikir var. Rəsmi versiya tərəfdarları onun 1209, bəziləri isə 1204-də vəfat etdiyini yazır. Birinci versiya bir söz, ikincisi isə Sözdür və şübhəsiz ki, ikinci daha məntiqidir. Nədənki Həzrət Məhəmməd, Həzrət Əbubəkr, Həzrət Ömər, Həzrət Osman, Həzrət Əli, Məhəmməd Füzuli, Üzeyir Hacıbəyli..., eləcə də, Siseron, Lüter, Rembrandt, Lobaçevski... kimi Nizami də 63-lər silsiləsinə daxildir, 63 il yaşayıb və bu hesabla onun vəfat tarixi 1204-cü ilə düşür. Yeri gəlmişkən, Füzulinin də doğum və vəfat tarixləri ilə bağlı iki versiya var: 1496-1554; 1494-1556. Birinci versiya bir söz, ikincisi Sözdür. Nədənki Füzuli də 63-lər silsiləsinə daxildir və ikinci versiyaya görə o dünyanı 63 yaşında tərk edib.

"Xosrov və Şirin" Nizaminin bir şair və düşünər kimi özünəməxsusluğunun başlanğıcıdır. Bu gün Nizami Gəncəvi deyə dünya çapında tanınan, planetin bir sıra ölkələrində abidəsi ucaldılan gəncəli şair bu dastandan başlayır. "Sirlər xəzinəsi"ndə Nizami özündən öncəkilərə nöqtə qoyur, "Xosrov və Şirin"-də özünə çatır, "Leyli və Məcnun" "Yeddi gözəl", "İsgəndərnamə"də nəinki özgələri, özü özünü də ötüb keçirdi.

Yaraşıqlı, əhli-kef Sasani şahzadəsi Xosrovla Bərdə hakiminin gözəl, ağıllı qardaşı qızı Şirin arasındakı sevgi macəralarından danışan "Xosrov və Şirin" sözün misilsiz dərəcədə gözəl örnəyidir. Amma

bu dastana Sözə keçidin toxumları da səpələnib. Şair Xosrovla Şirinin romanını bütün erotik çalarları ilə verir. O, bu mövzunu daha öncə nəzmə çəkən Firdovsinin yaşlı olması və bu üzdən qəhrəmanlıq dastanı yazması, özünün isə köhnə olaya yeni yöndən yanaşması, məhz sevgi mövzusuna müraciətini vurğulayaraq yazır:

***Söylərkən o həkim bu xoş dastanı,***
***Çıxarıb içindən eşqi, fəğanı.***
***Altmış yaşındaydı yazanda bunu,***
***Saxlaya bilmirdi yayda oxunu.***
***Altmışında eşqin şux həyəcanı,***
***Tutrədə bilməzdi yorğun qocanı.***
***Onun yazdıqları cəngavər eşqi,***
***Mənim yazdıqlarım bir dilbər eşqi.***

(tərcümə və "Xosrov və Şirin"dən bundan sonrakı tərcümələr Rəsul Rzanındır)

Ah, bu Firdovsi, sən demə, zavallı qoca oxunu yayda saxlaya bilmirmiş! "Min bir gecə" nağıllarının üslubunu xatırlatsa da, hər hansı bir şeyxin birbaşa deyə bilməyəcəyi fikri rəmzlərin diliylə gözəl anladır, deyilmi? Başında çalma, əlində vərəq İçərişəhərin Qoşaqala qapıları önündə heykəlləşən müdriklərin müdriki hara, bu misraların müəllifi hara? Bunların hansı əsl Nizamidir? Hələ Xosrovla Şirinin zifaf gecəsinin təsvirindəki ağlagəlməz dərəcədə gözlənilməz bənzətməyə baxın:

***Sanki şah Xızr idi, zülmət də gecə,***
***Buraxdı balığı suya gizlicə.***

Üstəlik də Nizami burda Həzrəti Musa, Xızr və balıqla bağlı Quran ayəsinə ("Əl Kəhf", 61) incə bir eyham vurur, atəşpərəstliklə islamı poetik müstəvidə məharətlə bir araya gətirir. Amma şair eşqə fallosla vaginanın sadəcə şirnikləndirici oyunları kimi baxmır, əksinə, əks cinslərin sevgisinə eşqin ali mənasının saysız-hesabsız konkret təcəssümlərindən biri kimi yanaşır. Dastanda eşq varlığın üsulu, həyatın başlanğıcı, ilhamın mənbəyi, insanı kamilləşdirən ali duyğu kimi tərənnüm olunur:

***Eşqdən başqa söz könlümə yaddır,***
***Könlümün quşuna sevgi qanaddır.***
***Eşqdir mehrabı uca göylərin,***
***Eşqsiz, ey dünya, nədir dəyərin?***
***Eşqin qulu ol ki, doğru yol budur,***
***Ariflər yanında, bil, eşq uludur.***
***Eşqsiz olsaydı xilqətin canı,***
***Dirilik sarmazdı böyük cahanı.***
***Kainatda hər şey cəzbə bağlıdır,***
***Filosoflar bunu eşq adlandırır.***

"Xəmsə" boyu mövzuya yanaşma ardıcıl olaraq dəyişir: "Xosrov və Şirin"də eşq kosmik planda qavranılır, fəlsəfi məna daşıyırsa, "Leyli və Məcnun"da metafizik qatlara keçir, platonikləşir, sufiyanə anlam qazanır; "Yeddi gözəl"də artıq öz yerini ağla verir:

***Nə şəhvət, nə yatmaq, nə də ki yemək,***
***Həyatın mənası olmasın gərək.***
***İnsana arxadır onun kamalı,***
***Ağıldır hər kəsin dövləti, malı.***
***Kim ki yetişmədi ağıldan bara,***
***Bənzər insansifət əjdəhalara.***
***(tərcümə Məmməd Rahimindir)***

Türkcə "Beşlik" anlamını verən "Xəmsə" ayaqüstə durub qolları və ayaqlarını yana açan beşguşəli insanı xatırladır - baş + qollar + ayaqlar = 5. Və "Xəmsə" boyu bu beşguşəli insanın çakralarında aktivləşmə yüksələn xətt üzrə gedir: Muladxaradan (cinsiyyət) Anahataya (ürək); ordan da Sahasraraya (baş) doğru! Bu, sözdən Sözə yüksəliş idi.

Dahi italyan şairi Aligyeri Dante də öz "İlahi komediya"sında bir qədər fərqlə anoloji yüksəliş yolunu keçir. Bəs, onda Kiplinq niyə deyirdi ki, şərq şərqdir, qərb də qərb, yəni onlar arasındakı uçurum əbədidir. Əgər elədirsə, onda Nizami ilə Dante arasında bu "paralel" yaradıcılıq "tərcümüeyi-halı" (Plutarx) hardan qaynaqlanır? Bəlkə, bu ümumən dünyanın hər yerində insanın eyni yolu keçməsi, hamımızın Adəm övladı, "həpimizin bir günəşin zərrəsi" (A.Şaiq) olmağımızdan doğur. Bəli, antropoloji rakursun bu paralellikdə rolu şəksizdir, amma ən ümumi şəkildə. Məsələnin Nizami və Dante ilə bağlı konkret tərəfi də var və ən ilginci, bizcə, budur – onlar hər ikisi eyni bulağın gözündən su içmişdi.

Tanrının hüzuruna gedən yolda Dantenin qarşısına üç vəhşi çıxır – vaşaq, dişi canavar və şir! Bu vəhşilər üç dünyəvi ehtirası, eləcə də bu ehtiraslara uyğun çakraları rəmzləşdirir:

-vaşaq (şəhvət) Muladxara çakranı;
-dişi canavar (acgözlük) Svadxistana çakranı;
-şir (təkəbbür) isə Sahasrara çakranı.

Tanrıya yetmək üçün cəhənnəm və ərafdan keçən, nəhayət, cənnətə varid olan Danteyə iki şəxs yol göstərir. Onun cəhənnəmdəki bələdçisi Roma şairi, dünyalarca ünlü "Eneida" poemasının müəllifi Vergilidir. O, poemada antik düşüncəni, ümumən ağlı, məntiqi təmsil eləyir. Amma, Danteyə görə, nə qədər vergili bir şair olsa da, Vergilinin əraf və cənnətə girişi mümkünsüzdür. Şeirlərindən birində Həzrəti İsanın mövluduyla bağlı müjdə verməsi belə ona bu haqqı vermir. Bütpərəst bir şairin nəinki cənnət, hətta ərafa ayaq basması xristian inancı baxımından bağışlanmaz bir günah, küfr olardı!

Bu üzdən əraf və cənnətdə bələdçilik görəvini

Dantenin uşaqlıq sevgilisi, ilahi gözəllik və imanın simvolu olan Beatriçe öz üzərinə götürür. Sonucda Dantenin doqquz qat mələklərlə çevrələnmiş Allahın hüzuruna yüksəlişi Manipura - ürək çakrası, yəni sevgi vasitəsilə gerçəkləşir. Dante xristian idi, xristianlıq sevgi, "ürək dini"dir (Ernst Renan) və italyan dahisinin Allaha məhz ürək vasitəsilə qovuşmaq ideyası bu yöndən məntiqidir.

Nizami isə ürəkdə dayanmır, sevgiylə kifayətlənmir. Ürəkdən yuxarıda başdır! Şair özünün sonuncu və həcmcə ən böyük əsəri - "İsgəndərnamə"də intellektual intuisiya əsasında xoşbəxt həyata çatmaq yolunu cızır. Dahi xristiandan fərqli olaraq müdrik müsəlman cənnəti göydə axtarmır. Bütün utopizminə baxmayaraq, Nizaminin xoşbəxtlik anlayışı göydə yox, yerdədir. Bu, insanların mənəvi azadlıq və maddi rifah içində yaşadığı, ölümdən başqa heç bir qayğının, əndişənin olmadığı bir diyar - xoşbəxt şimal ölkəsidir. Sonucda, "Xəmsə"nin xronoloji dinamikası duyğudan intellektə, yalandan gerçəyə - sözdən Sözə keçid üzərində qurulur.

Dante asketik, tərki-dünya xristianlığın təmsilçisidir, Nizami gerçəkçi, praktik İslamın. Xristianlıq İslamdan yeddi yüzil öncə meydana çıxmışdı. Odur ki, Dante Nizaminin ölümündən 60 il sonra doğulsa da, öz düşüncəsinin tipinə görə daha öncəki, daha əski dönəmin təmsilçisi idi. Asketik xristianlıq gedonist, ən yaxşı halda epikürçü antik mədəniyyəti rədd edirdi (Təsadüfi deyil ki, "İlahi komediya" Epikürü "görmür") Şeirin şadlıq, sevincdən qaynaqlanmasına dair bu Nizami kredosu "İlahi komediya" müəllfinə yaddır:

***Şadlıqdır, eyhamdır sözün arğacı,***
***Bunlarla düzəlir söz ehtiyacı.***
***Gərək söz meydanı gen olsun müdam,***
***Atını dördnala səyirtsin ilham.***
***Daşlığa, qumsala ilham gedərmi,***
***Getsə də, torpağa təsir edərmi?***
(tərcümə Səməd Vurğunundur)

Öz ilham köhlənini nəinki daşlığa, qumsala, hətta cəhənnəmin dibinə qədər çapan Dante bu kredonun diametral əksinədir. Onun ağlasığmaz dərəcədə dəhşətli cəhənnəm lövhələrinin anoloqu dünya ədəbiyyatında indiyəcən yoxdur və yəqin ki, bundan sonra da olmayacaq. Dantenin cəhənnəmi Hollivudun "dəhşət" filmlərini yüz illərlə qabaqlayıb.

Antik dönəm həyatsevərliyi, dünya nemətlərini, xristianlıq bunun tam əskinə zöhd, təqva, riyazəti təbliğ eləyir, islamda bu ikisi bir araya gəlirdi.

Antik dönəm düşüncəsi ifrata, xristianlıq təfritə, islam bu ikisi arasındakı ədalətə köklənir.

Antik dönəm tezis, xristianlıq antitezis, islam sintezdir.

Peyğəmbər Əfəndimizin bu ünlü kəlamı islamın qızıl orta mövqeyini dəqiq səciyyələndirir: "Sabah öləcəyin kimi ibadət et, heç vaxt ölməyəcəyin kimi çalış". Xristianlıq antik dövrün həyatsevərliyinə - kişinin kişiyə amansızlığı və qadına düşkünlüyünə qarşı nifrət üstündə yaranmış, ifrat mərhəmət və məhrumiyyət təbliğ eləyən bir dindir. Dante təəssübkeş xristian kimi antik düşüncəni tam qəbul eləyə bilməzdi, qəbul eləmirdi və bu amil onu xalis intibah şairi olmağa qoymurdu. Amma istənilən halda o, beşinci yüzilin deyil, on üçüncü yüzilin xristianı idi. Xristianlığın başlanğıcdakı sərt imperativləri, güzəştsiz mövqeyi zamanla dəyişir, Dantenin bütün fanatizm və təəssübkeşlyinə baxmayaraq, dövr onun düşüncəsinə öz təsirini göstərir, onu xristinalıqdan intibaha keçid şairinə çevirirdi.

Batı intibahı Aligyerinin bir dəfə yeddi, ikinci dəfə on yeddi yaşında gördüyü adi bir florensiyalı qızdan – Beatriçedən başlamışdı! Onların ataları dost olmuşdu. Aligyerinin utancaqlığı və fərsizliyi üzündən qız başqasına qismət olsa da, vur-tut iyirmi dörd yaşında taundan ölsə də, Dante qələminin qüdrəti ilə ilahi gözəlliyin rəmzinə çevriləcək və sənətdə əbədi yaşamaq hüququ qazanacaqdı! Batı ədəbiyyatındakı bütün sonrakı qadın obrazları Beatriçenin köynəyinin yaxasından keçib, ətəyindən çıxacaqdı! O, Petrarkanın şeirlərində Laura, Bokkaçşonun romanlarında Fyametta ilə əvəzlənəcək, öz qadınlıq dönəminə qədəm qoyacaqdı! Bunun ardınca Şekspirin Cülyetta, Ofeliya, Dezdemona, Kordeliya, Gertruda, Qoneriliya, Reqana, Ledi Maqbeti gələcək – bu qadın özünün vahid kristal üzünü itirib ikiləşəcək, mənfiyə və müsbətə bölünəcəkdi! Və nəhayət, Servantesin Tobosolu Dulsineyası bu qadına parodiya kimi yaranacaq, batı özünün mələkli-şeytanlı bütün intibah qadınlarından gülə-gülə uzaqlaşacaqdı! Marks demişkən, insanlıq öz keçmişindən gülə-gülə ayrılır. Beatriçedən Dulsineyaya gedən bir neçə yüzillik yol Sözdən sözə gedirdi!

Alma dolu səbət yüklənmiş uzunqulağın belində yol gedən al yanaqlı, kök Dulsineya və Rosinant kimi təmtəraqlı ad verdiyi yabısının belində müqəvva kimi oturan qoca, arıq, uzundraz, keçisaqqal Don Kixot özündən öncəki şair-yazıçılara, ümumən insanmərkəzçi, antroposentrist intibah düşüncəsinə Servantesin parodiyasıdır.

Servantes doğulanda Kopernikin ölümündən üç il keçirdi. Onun "Lamançlı Don Kixot"u Kopernikin qırx illik əməyinin məhsulu olan "Göy cisimlərinin fırlanması haqqında" elmi əsərinin ədəbi-bədii anoloqu idi. Hər iki müəllif insanın özü barəsindəki ifrat özündənrazı fikirlərinə zərbə vururdu. Kopernik deyirdi ki, kainatın mərkəzi Yer deyil, Günəşdir və ay adam, özündən bu qədər razı olma, sən kainatın paytaxtı yox, bir küncündə, əyalətində yaşayırsan!

Bu, insana vurulan astronomik zərbə idi və məkanla bağlıydı! Servantes deyirdi ki, ay adam, bəlkə də, bir zamanlar sənin kişilərin cəngavər, qadınların gözəl olub, amma indi sənin kişin də, qadının da gülüncdür, ironiyaya layiqdir. Bu insana vurulan ədəbi-bədii zərbə idi və zamanla bağlıydı!

Dulsineya bəzən ülvi, bəzən şeytani, amma hər iki halda ciddi planda verilmiş qadın obrazlarına parodiyadır, Don Kixot orta çağ cəngavərlik romanları qəhrəmanlarına! Don Kixot bir tərəfdən sözün Sözə, digər tərəfdən isə Sözün sözə kinayəsidir! Dünya bədii düşüncə tarixi "Lamançlı Don Kixot" qədər ikibaşlı, paradoksal əsər tanımır! Bu, roman-paradoksdur! (Şekspirin özü, Servantesin isə Sözü müəmmmalıdır!) Bu romandan fələk də baş aça biməz: o, həm söz, həm də Sözdür; o nə söz, nə də Sözdür. Nədənki Servantes bədii düşüncə koordinatının nə iks, nə iqrek oxunda deyil, bu ikisinin kəsişdiyi sıfır nöqtəsində dayanır. Özünü bu cür sıfırlamağa, yox eləməyə heç kəs Servantes qədər nail olmayıb! O, "müəllifin ölümü" ilə bağlı Rolan Bartın ideyasını yüzillərlə qabaqlayıb.

***

Batı intibahı xristianlığı rədd edib yenidən antik mədəniyyətə qayıdırdı. Doğuda isə intibah islamla bir yerdə idi. Bu amil islam üçün səciyyəvi olan həyatilik, gerçəkçilik, realizmdən doğurdu. Nədənki intibahın başlıca özəlliklərindən biri gerçəkçilik, həyatilik, dünyəvilikdir. Məhz bu özəlliklərə malik olmadığından xristianlığın qəbulundan sonra min il ərzində batıda diqqətəlayiq hər hansı elmi, fəlsəfi, bədii əsər yaranmamışdı. Doğuda isə elmi, fəlsəfi, bədii düşüncənin çiçəklənməsi məhz islamın yaranmasından sonra baş vermişdi.

Amma bu ayrıntılara baxmayaraq, dərin qatda Nizami və Dante bir araya gəlirlər. Nədənki onların hər ikisinin mənəvi-ruhi yüksəlişi eyni mənbədən – Həzrət Məhəmmədin meracından qaynaqlanırdı. Deyəsən, təəccübləndiniz! Absurd! Sən demə, qatı katolik Dante özünün və bütün xristian dünyasının şedevrini yaradanda İslam peyğəmbərindən təsirlənibmiş! Üstəllik də, "İlahi komediya"da İslam peyğəmbəri "ortalığa düşüncə ayrılığı, nifaq saldığı, bəşər övladının önəmli bir qismini çaşdırıb Tanrının düz yolundan sapdırdığı, yanlış istiqamətə yönəltdiyi üçün" cəhənnəmin axırıncıdan öncəki - səkkizinci qatında dəhşətli əzablar içində təsvir olunur! İliklərinə qədər xrsitian şairin öz şah əsərini İslam peyğəmbərinin meracını təqlidən yazması bütün bunlardan sonra mümkündürmü? Sabir demişkən, "heç əqlə sığan təhər deyil bu!"

Amma, yox, sığır, özü də əməlli-başlı! Medievistika və komparativistika üzrə görkəmli ispan alimi, akademik Asin-Palasios "İlahi komediya"da müsəlman esxatologoyası" (1919) əsərində bu məsələyə belə aydınlıq gətirir: dahi mistik İbn Ərəbi İslam peyğəmbərinin isra gecəsini təsvir eləyən "İsra gecəsi" adlı əsər yazıb, Dante bu əsərin latıncaya çevirməsini oxuyub və öz ünlü "Komediya"sının süjetini əndəluslu mistikin kitabından götürüb. Fransız metafiziki Rene Genon isə "Dantenin ezoterizmi" əsərində İslam peyğəmbərinin "İlahi komediya"da cəhənnəmdə təsvir olunmasına belə aydınlıq gəitirir: bu, "İlahi komediya"nın üzünü köçürən təəssübkeş xristian rahiblərinin əsərə sonradan elədiyi əlavədir; Dante kimi iman və idrak sahibi belə yanlışa əsla yol verə bilməzdi! Vəssəlam, şüttəmam, sorun çözüldü - Dante də belə xilas oldu!

İnsanın bütün elmi, fəlsəfi, bədii yaradıcılığı onun meraca yüksəlmək istəyinin ifadəsidir. O gəldiyi yerə dönmək istəyir! Bu, daim yüksəlişə can atan ruhun ehtiyacı – daxili tələbatıdır. Ruh ancaq və ancaq öz qopub gəldiyi yerdə - "ruhlar səltənətinin dinc qoynunda" (Höte) aram tapa bilər. Dünya ruh üçün bir ayrılıq gecəsi – şəbi-hicrandır. Füzuli özünün ən gözəl qəzəlinin şah beytində bu barədə belə deyir:

***Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,***
***Oyadar xəlqi-əfqanım, qarə bəxtim oyanmazmı?***

Dünyanın ilk şairi əlinə qələm alıb şeir yazandan bəri bundan sadə, bundan dərin, bundan mənalı heç nə deməyib. Bu təkcə "Məni candan usandırdı..." qəzəlinin deyil, təkcə Füzuli yaradıcılığının deyil, ümumən bütün şərq klassik divan şeirinin şah beytidir. Bu beyt qoca şərqin taleyi - alın yazısıdır. Bu beyt qoca şərqin alnına damğa kimi basılıb. Ən son İran, İsrail, Amerika - Xameneyi, Netanyahu, Tramp olayları da göstərir ki, şərqin qara bəxti hələ oyanmayıb. Amma bu beyt təkcə şərqin deyil, Adəmdən Xatəmə, Xatəmdən bugünə, bugündən qiyamətəcən insanlığın alın yazısı, pozulmaz bəxti, qaçılmaz qismətidir. Füzuli buna işarəylə qəzəlin məqtə beytində yazırdı:

***Füzuli rindü şeydadır, həmişə xəlqə rüsvadır,***
***Sorun kim, bu nə sevdadır, bu sevdadan usanmazmı?***

Bu sualın cavabı qiyamətə qədər verilməyəcək. Bu Şekspirin "ölüm, ya qalım" sualının metafiizik qardaşıdır. Şekspirin sualı həyatla ölümün ayrıcına dairdir, Füzulinin sualı isə ölümün o üzünə- əbədiyyətə!

Sevgili oxucu, "Məni candan usandırdı..." qəzəli ilə bağlı təriflərimin şiddəti səni təəccübləndirməsin. Mən "Şəbi-hicran yanar canım..." beytini yuxuda (daha dəqiqi, vaqeədə) bir film kimi görəndən sonra bu qəzəli də, Füzulini də, şərqi də, qərbi də, dünyanı da, insanı da anlamağa başladım. Mən o anda fərqində deyildim ki, Sözü görürəm. Rəsul Rzanın sözləriylə desəm, "yuxuda yuxudan ayıldım." Və ayılandan

sonra bildim ki, dünya özü bir yuxudur. Yuxu bizim özümüzlə dialoqumuz, ruhumuzla söhbətimizdir. Biz təkcə yuxudan ayılmırıq, biz həm də yuxuda ayılırıq. Rene Dekart deyirdi ki, yuxu da bir gerçəklikdir. Məncə, yuxu gerçəklikdən daha gerçəkdir. Ayıqlıq bir söz, yuxu Sözdür. Nədənki yuxu bizə ruhumuzun qopub gəldiyi başqa bir dünyanı və bizim o başqa dünyaya qayıtmaq istəyimizi xatırladır. Ramiz Rövşən bu qayıdışın naturfəlsəfi tablosunu şeirlərindən birində belə rəsm edib:

***Özünə qayıdır, hər şey özünə,***
***Gözümə qayıdır göz yaşlarım da...***
***Qısır nəfəsini quşlar, böcəklər,***
***Günəş***
***İstisini çəkiir içinə.***
***Küləklər hirsini çəkir içinə,***
***Ətrini içinə çəkir çiçəklər.***
***Özünə qayıdır hər şey, özünə...***

Merac insanın özünəqayıdışıdır. İnsanın digər canlılardan ən böyük fərqi onun məhz şüurlu merac arzusudur. Daşın, ağacın, quşun belə arzusu yoxdur, nədənki merac ruhun tələbidir, daşın, ağacın, quşun isə ruhu yoxdur. İnsan özünün merac istəyinə iyirminci yüzildə kosmosun fəthindən sonra çatmağa başladı. Bədii düşüncə isə Nizami və Dante kimi dahilərin timsalında elmi fikri yüzillərlə qabaqlamışdı. “Xəmsə” Nizaminin, “İlahi komediya” Dantenin meracıdır. Onlar fəzanı kosmik uçuşlardan yüzillərlə öncə Sözdə fəth eləmişdilər. Onlar Sözün koperniklәri, brunoları, qalileyləri, keplerləri, nyutonları, eynşteynləri, tsiolkovskiləridir. Şairlər Sözün kosmosdan da ötə metafizik fatehləridir. Ünlü alman filosofu Martin Haydeggerin dediyi kimi, bədii diskurs elmi dikursla müqayisədə birbaşadır və ünvana daha tez çatır.

Alimlər isə oracan gedə bilmir və çağdaş məhdud, qeyri-konseptual “elmi” təsəvvürlərindən əl çəkməsələr, heç vaxt gedə bilməyəcəklər. Ora getmək insanın yox, Allahın iradəsiylə baş verə bilər. Amma Allah dağına baxıb, qar yağdırır, “sən mənə doğru bir addım at, mən sənə doğru ikisini atım” deyir. Alimlər sözə inanır, Sözə iman gətirmirlər. Ora getmək üçün isə sözün başını buraxıb, Sözün peşində qoşmalısan. Vaqif Bayatlı Odər bu barədə gözəl deyib:

***Orda vermək olmaz nəfəs-nəfəsə,***
***Orda yaşamazlar, orda ölməzlər,***
***Orda gecə-gündüz sevərlər ancaq!***

Orda! Harda, axı? Bilinmir! Nədənki söz onu işarələməkdə acizdir. Semiotika elmi onu açıqlamaqda gücsüzdür. Ora adı, dadı, rəngi, qoxusu, zamanı, məkanı olmayan bir yerdir. Ora Nəsimi kimi laməkandır! Ora beşmərtəbəli evin altıncı mərtəbəsidir!

***Bu misralar Vaqif Bayatlı Odərin meracıdır!***
***Vaqif Bayatlı Odər burda öz zirvəsindədir!***
***Bu misralar Vaqif Bayatlı Odərin Sözüdür!***

Nizamiyə görə, tarixdə merac bircə dəfə olub və əzəldən əbədəcən bütün yaranmışlar arasında yalnız və yalnız Peyğəmbər Əfəndimizə məxsusdur. Danteyə görə isə hər bir xristian meraca yüksələ bilər. Nizamiyə görə Peyğəmbəri Allah seçir, Danteyə görə isə ruhi təmizlənmə hesabına hər kəs peyğəmbərliyə yüksələ bilər. Nədən ki xristianlığın atalarından Həvari Pavel öz məktublarından birində belə yazıb. Nizaminin rəsmi meracnamələri dastanların girişində bitir, sonra xosrov, şirin, leyli, məcnun, bəhram, isgəndərlərin məxfi meracnamələri başlayır. Florensiyalı dahidən fərqli olaraq, gəncəli müdrik kiminsə meracından açıq-aşkar yazıb, onu Peyğəmbərə tay tuta bilməzdi. Ulduzlar çox olur, Günəş isə təkdir! Hər bir mömin müsəlman kimi Nizamiyə də görə, Peyğəmbər Əfəndimiz insanlığın günəşidir! İslam şairinə görə, Meracdan başqa merac ola bilməz. Bunu inkar eləmək “la ilahə illəllahın” inkarı kimi bir şey olardı!

***

“İsgəndərnamə” Sözün sınırlarına maksimum yaxınlaşmaq deməkdir. Lakin Nizamidən sonra poetik düşüncə bu qatda duruş gətirməyib aşağı endi və estafeti “Xosrov və Şirin”dən götürdü. Nədən ki şeir artıq özünün yüksəliş deyil, eniş dönəmini yaşayır, Sözdən sözə keçirdi. Təsadüfi deyil ki, Nizamidən Füzuliyə qədər yaranan “Xəmsə”lərin ən parlaq dastanları ya bu mövzu ilə bağlı olur (Dəhləvi, Nəvai) ya da məhz bu mövzu secilir (Arif Ərdəbili) və ya tərcümə edilirdi (Qütb) Lakin Arif Ərdəbilinin “Xosrov və Şirin”ə yanaşmasından görünür ki, şagird öz ustadına xas romantik ehtişamı birmənalı qarşılamır, tənqidi-realistik düzəliş cabaları göstərirdi. Bu sözün Sözü “düzəltmək” çabası idi. Söz Sözü özünün dar qəlibinə salmaq istəyirdi. Sözün realizm anlayışı Sözünkü qədər geniş, konseptual deyildi.

Nizami zamanı yüzillərlə qabaqlayan dahi idi. Onun əsrdən-əsrə ucaldığı zirvəyə bədii düşüncə əsrdən-əsrə gəlib çatırdı. Nizami ədəbi məktəbinin uzunömürlü olmasının səbəbi bu idi. Xəmsə”nin “Leyli və Məcnun” sərhədlərinə şeir Füzulinin düşüncəsində çatdı. Onun son hüdudlarının dərki isə ötən yüzilәcən uzandı. Lakin şeirin funksional imkanlarının məhdudlaşması, məna tutumunun daralması sonucunda “Xəmsə” mövzularında dünya miqyaslı poetik abidələr daha yaranmırdı. Nizamiyə cavablar indi başqa bədii növ və janrlarda verilirdi.

Mirzə Fətəli Axundovun altı komediyadan ibarət “Təmsilat”ı “Xəmsə”yə on doqquzuncu yüzildə ən azı numeroloji yöndən verilən dramaturji qarşılıqdır.

Deyəsən, yenə təəccübləndiniz! Yenə absurd! Altı komediya beş dastana numeroloji qarşılıq? Bəyəm, altı beşə bərabər ola bilər? Axı, hələ xaldeylərdən, Pifaqordan üzü bəri belə şey olmayıb.

Gəlin, sirr pərdəsini qaldıraq. "Xəmsə" "beşlik" demək olsa da, əslində, özündə altı dastanı birləşdirir, nədənki "İsgəndərnamə" iki bölümdən ibarətdir – "Şərəfnamə" və "İqbalnamə". "Xəmsə"nin altıncı qatı - "İqbalnamə" bəxtin, taleyin, iqbalın özü kimi gözəgörünməzdir. O həm var, həm də yoxdur. Anarın ünlü metaforası ilə desək, o, "beşmərtəbəli evin altıncı mərtəbəsi"dir. Ruh bədəndə gizləndiyi kimi, Nizami də altılığı beşliyin içində gizləyib. Bunun iki nədəni vardı: əvvələ, müdrik Nizami çılğın Nəsimi deyildi ki, sirri-nihanı faş eləyə, sonra da dabanından soyula; ikincisi isə hələ sirri-nihanın faş olunması zamanı deyildi!

Mirzə Fətəli Axundovun "Təmsilat"a daxil olan ilk komediyası - "Kimyagər" "Xəmsə"nin sonuncu dastanı olan "İsgəndərnamə"yə batı üslubunda dramaturji-teatral cavabdır. Şeyxin nöqtə qoyduğu yerdən Mirzə başlayırdı. Bu aksiomdur – Söz qurtaran yerdən söz başlayır.

"İsgəndərnamə" və "Kimyagər" təxminən minillik bir dilogiya - Sözlə sözün dialoqudur. Cəlil Məmmədquluzadənin dünya dram sənətinin möcüzələrindən olan "Ölülər"i yazmasıyla bu dilogiya trilogiyaya çevrilir və öz sonluğunu tapır. "Kimyagər" komik, "Ölülər" isə tragikomik "İsgəndərnamə"dir:

"İsgəndərnamə" deyir: ey insan, acgöz olma; özünü boşuna yorma; dünyaya aldanma; "bu dünya bir qoca dişi qoyundur, uyma quyruğuna, işi oyundur"; lap İsgəndər Zülqərneyn də olsan, bil ki, bu dünyada ölməzlik deyilən bir şey yoxdur; əl çək bu dünyagirliyin, bu cahangirliyindən; ömür fanidir; anan Olimpiya sənə yalan deyib, sən ölməz Zevsdən yox, ölümlü Filipdən doğulmusan; Misir kahinləri qorxularından səni aldadıblar, sən Allahın yox, hamı kimi adi bir insanın övladısan; atan kimi sənin də sonun ölümdür; bir dəfə verilən ömrünü savaşlara, baş kəsib qan tökməyə, ölkələr fəth eləməyə, torpaq tutmağa sərf eləmə, özün də axırı bir ovuc torpağa dönəcəksən; ölməzlik ruha məxsusdur, o yalnız və yalnız axirətdə ola bilər; hətta insanların hər cür dərddən, qayğıdan azad olduğu xoşbəxt şimal ölkəsində belə ölümün çarəsi yoxdur; əgər adının bu dünyada qalmasını istəyirsənsə, "çalış öz xalqının xeyrinə yara, geysin əməlindən dünya zərxara", bacardıqca xeyirxah işlər gör - aqil ol!

"Kimyagər" deyir: ey insan, gör neçə min illərdir ki, kimyagərlik edir, misi qızıla çevirmək üçün bihudə baş sındırırsan; əvvələ, qızıl nədir ki - parıldayan metal, öz-özlüyündə onun elə bir anlamı yoxdur; qızıl çürümədiyi üçün, sadəcə olaraq, ölməzliyin rəmzidir; sən o qədər cahilsən ki, ölməzliyi mahiyyət deyil, rəmzdə axtarırsan; və saniyən, küllü ədyan axirət sevdası ilə səni aldadır; ölməzlik nəinki bu dünya, heç axirətdə də yoxdur, nədənki axirətin özü yoxdur; və salisən, əbədi var olan bircə şey var, o da ağıldır, maarifdir, elmdir; misini qızıl eləmək istəyirsənsə, ağlını başına cəm elə, maariflən, elm dalınca get; sənin qızılın ağıl, ən öyük sərvətin maarif, ölməzliyin elmdir; elm qazan - alim ol!

"Ölülər" deyir: ey insan, sən ki bu qədər danabaşsan, ölü ilə sənin nə fərqin; iki minillik bir zəlalət içində ölmüsən, yerdən götürənin yoxdur; o qədər zəlil olmusan, Xorasandan gələn bir lotu səni aldadır ki, ölülərini dirildərəm, bəşərta ki, hər gecə mənə doqquz yaşında bir qız ver, sən də bu lotuya inanırsan; ay evi tikilmiş, bu nə dirilmək sevdasıdır; lap tutaq ki, dirilib qayıtdın bu dünyaya, bunun anlamı nədir, nə qədər ki adamlığın yoxdur, onsuz da ölü kimi bir şeysən; nə savadsızında bir şey var, nə də oxumuşunda; vallah-billah, ölülər dünyası o dünya deyil, sənin bu dünyadakı həyatın, yaşayışındır; qurtar iki minillik kəsavət qoxusu verən bu yalanlardan, cismani deyil, mənəvi dirilişə çalış - adam ol!

***"İsgəndərnamə" qəflətdən ayıl – aqil ol deyir!***
***"Kimyagər" cəhalətdən ayıl – alim ol deyir!***
***"Ölülər" zəlalətdən ayıl – adam ol deyir!***
***Hər üç əsər insanı oyanışa, dirilişə səsləyir!***

Məğzi, mahiyyəti ölünü diriltmək olan "Yasin" surəsində Allah insana öz sirrini açıb, ey insan, ölümdən qorxma, sən ruhən ölməzsən, antakiyalı Həbib Nəccar kimi sən də axirətdə diriləcəksən deyib! "Ya Peyğəmbər, de ki, onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir!" ("Yasin" surəsi, 79) "Yasin" Quranın ürəyidir. Özünün dirilməyə çağırış pafosu ilə hər üç əsər - "İsgəndərnamə" də, "Kimyagər" də, "Ölülər" də Allahın ürəyindən xəbər verir. Bu əsərlər üçü birlikdə ədəbiyyatımızın yüz illər boyu nazil olan "Ya sin" ("Ey insan") surəsidir. Düz min ildir ki, şair-yazıçılar qəflət, cəhalət, zəlalət yuxusundakı insana "Yasin" oxuyur, onu dirilişə səsləyirlər!

***Mollalar "Yasin"i ölü dirilər üçün oxuyurlar!***
***Şair-yazıçılar "Ey insanı" diri ölülər üçün!***
***Mollalar "Yasini" ərəbcə oxuyurlar!***
***Şair-yazıçılar "Ey insan"ı bütün dillərdə!***
***Mollalar "Yasin"i dini janrda oxuyurlar!***
***Şair-yazıçılar "Ey insan"ı ədəbi-bədii janrda!***
***Mollalar "Yasin"i hökm kimi oxuyurlar!***
***Şair-yazıçılar "Ey insan"ı sevgi kimi!***

Diri ölülər! Bu, məntiqi paradoks, linqvistik oksimoron barədə Rəsul Rza gözəl deyib:

*Kimi dərdindən içir,*
*kimi kefindən,*
*Kimi təzə paltardan qorxur,*
*kimi kəfəndən.*
*İsgəndəri soruşdunuz məndən?*
*İsgəndər içərdi,*
*Ləqəbi də Kefli İsgəndərdi.*
*Gecə-gündüz düşündürərdi onu*
*Diri ölülərin dərdi.*
*Yoxsa o da bir poçt məmuru olar,*
*Nə dərdlənər, nə içərdi,*
*Ömrü ölülər içində*
*Sakit, səssiz keçərdi.*
*Qınamyın İsgəndəri,*
*Yaman olur anlamaq dərdi.*

Nizami mömin, Axundov ateist, Cəlil Məmmədquluzadə skeptikdir. Dünyagörüşü fərqlərinə baxmayaraq, insana sevgi onları vahid bir inancda birləşdirir. Bu inancın adı insansevərlikdir. Nizami insanın ölməzlik axtarışlarına tragik, Axundov komik, Cəlil Məmmədquluzadə tragikomik yanaşır. Nizami ölüm və ölməzlik mövzusunun məntiq, Axundov təbiət, Cəlil Məmməquluzadə insan mərhələsidir. Bu üzdən Cəlil Məmmədquluzadə Kefli İsgəndərin diliylə deyirdi: "Hamı deyir ki, oxu alim ol, bircə nəfər də demir ki, oxu, adam ol" Bu çağırış Axundov maarifçiliyinin bitib, Cəlil Məmmədquluzadə maarifçilyinin başlamasından xəbər verirdi. Bu yeni sosial-mənəvi kredo idi! Bu, sözün bətnində yenidən doğulmağa başlayan Söz idi!

Hegeldən soruşan olsaydı, Nizamini özünüdərkin tezis, Axundovu antitezis, Cəlil Məmmədquluzadəni isə sintez dönəminə aid edərdi. Nizami Axundovda inkar, Cəlil Məmmədquluzadədə dərk olunurdu, Həmid Herisçinin diliylə desək, parodik formada olsa da, özünəqayıdış başlayırdı:

***Kefli İsgəndər Makedoniyalı İsgəndərə parodiyadır;***

***qaranlıq danabaşlar mühiti qutsal zülmət aləminə parodiyadır;***

***şərab dirilik suyuna parodiyadır!***

***Söz hər şeyin orijinalı, söz isə parodiyasıdır.***

Söz Sözdən "Kimyagər"də gülüşlə, "Ölülər"də göz yaşları içində gülüşlə ayrılır. Qaldı bircə Axundovun nuxalı Hacı Nurusu! Dahi düşünərin "Kimyagər"dəki yeganə müsbət qəhrəmanına Nuru adı verməsi on doqquzuncu yüzildə maarif "nuru"na inamın hələ aradan qalxmadığını göstərirdi. Elm hələ əxlaqdan, alimlik hələ adamlıqdan üstün tutulurdu. İsgəndər "oxu, adam ol", deyirdisə, Hacı Nuru "oxu, alim ol" deyirdi. Axundov Füzulini tənqid, Nizamini tərif eləyir, amma onların heç birini Cəlil Məmmədquluzadə qədər dərk eləmirdi. Bu, Axundovun suçu, Cəlil Məmmədquluzadənin hünəri deyildi. Axundovun dönəmində ümumən milli ədəbi-bədii düşüncə hələ nə Füzuli, nə də Nizamini dərk həddinə çatmamışdı.

"Kimyagər" və "Ölülər" vahid milli bədii özünüdərk prosesinin fərqli dönəmləridir. Ləzzət və təsir, şübhəsiz ki, "Ölülər"də daha çoxdur. Amma əgər "Kimyagər" olmasa, "Ölülər" də yazılmazdı. Axundov baniyi-kar – işin bünövrəsini qoyandır. Axundov Cəlil Məmmədquluzadəyə nisbətdə rəhnüma – yolgöstərəndir. Axundov birinci, Cəlil Məmmədquluzadə ikinci və məntiqi olaraq daha yüksək pillədir. Ayağı pilləkənə bir-bir qoyarlar.

Lakin buna baxmayaraq, tale dahiliyi Cəlil Məmmədquluzadəyə deyil, Axundova nəsib elədi. Nədən ki yeni düşüncə perspektivini, yeni yolu təkcə Azərbaycan üçün deyil, bütün Yaxın və Orta Doğu üçün Cəlil Məmmdquluzadə deyil, Axundov müəyyən etdi. O, sağlığında ərəb əlifbasından latın qrafikasına keçidi gerçəkləşdirə bilməsə də, yeni düşüncənin əllifbasını yarada bildi. Cəlil Məmmədquluzadə isə Mirzənin açdığı yolla gedən, Mirzənin yaratdığı əlifba ilə yazan ən istedadlı davamçı idi! Bütün Yaxın və Orta Doğu nə Mirzədən öncə, nə də sonra onun özü qədər titanik zəkaya malik ikinci bir şəxs görməyib!

***

Nizami məktəbi zamanla fərqli ədəbi növlər və janrlardan keçir, hər dəfə zamana uyğun yeni cilvəyə girir, səməndər quşu kimi vaxtın, zamanın külü altından qəfil, gözlənilmədən baş qaldırır. Bizcə, bu prosesin sonu olmayacaq. Nədənki Nizami əbədi Sözün daşıyıcısıdır! Əmir Xosrov Dəhləvi, Arif Ərdəbili, Əbdürrəhman Cami, Əlişir Nəvai, Məhəmməd Füzuli... Nizami məktəbinin poetik dönəmi idi. Məktəb özünün klassika dövrünü yaşayırdı. Axundov, Cəlil Məmmədquluzadə, Səməd Vurğun ("Fərhad və Şirin"), Nazim Hikmət ("Fərhad ilə Şirin") Nizami məktəbinin dramaturji dönəmi idi. Məktəb özünün modern dönəminə qədəm qoymuşdu. İlqar Fəhminin "İsgəndərə yeni namə" pyesinin timsalıında o dönəm bu gün də davam edir.

Dünyalarca ünlü türk yazarı, Nobel ödülçüsü Orxan Pamukun "Mənim adım qırmızı" romanı Nizami məktəbinin prozaik-postmodern dönəmindən xəbər verir. "Mənim adım qırmızı" Nizaminin "Xosrov və Şirin"inə özünəməxsus postmodern nəzirədir. Romanın qəhrəmanları Qara və Şəkura Nizaminin Xosrov və Şirininin postmodern təcəllasıdır. Təsadüfi deyil ki, Orxan Pamuk öz qəhrəmanlarını dönə-dönə Nizaminin qəhrəmanları ilə müqayisə edir. Odur ki, Türkiyə ədəbi tənqidinin "Mənim adım qırmızı"-nınm müəllifini amerikan yazıçısı Norman Meylerin "Köhnə axşamlar" romanından plagiatda suçlaması məsələyə birtərəfli yanaşmaq deməkdir. Nədənki bu romanda türk nasirinin əsas ideya qaynağı amerikan yazıçısı deyil, Azərbaycan şairidir və o, bunu qətiy-

yən gizləmir. 2004-cü ildə Azərbaycan Yazıçılar Birliyinin XI qurultayına dəvət olunan yazıçı ilə AYB-nin Natəvan zalında keçirilən mətbuat konfransında “Nizami Gəncəvinin yaradıcılığının sizə təsiri olubmu?” sualıma “Bir çox şair və yazıçıların nəinki mənə təsiri olub, mən hətta onlardan bütöv-bütöv səhifələri plagiat eləmişəm” deyə əsl postmodernistə yaraşacaq, bir az da zarafat səciyyəli cavab vermişdi.

Lakin Nizami ilə Orxan Pamuk arasında məsələyə münasibətdə diametral əkslik var. Nizamidə eşq bütün varlığı öz cazibəsində saxlayan kosmik gücdür. Orta çağ dahisinin ilahiləşdirib göylərə qaldırdığı eşqi Pamuk yerə endirir, adiləşdirir, sadəcə (və hətta aşağılayıcı) cismani instinkt kimi qiymətləndirir. Əsərin adı da onun bu başlıca müəllif qayəsinə xidmət eləyir. Qırmızı rəng yeddi əsas rəng vertikalında ən aşağıda durur və seksi simvolizə eləyir. Yazıçının qənaətincə, Nizami deyil, Freyd haqlıdır, yəni qırımızı gildən yaradılmış insanın təkcə adı yox (Adəm, adam, Atman, Odmən – od adam, qırmızı adam, qırmızı irq) özünün də mahiyyətində cinsəl ehtiras dayanır. Və buna ilahi rənglər verib göylərə qaldırmağın vaxtı çoxdan keçib. Nizami eşqi Muladxara çakradan Sahasrara çakraya qaldırır, Orxan Pamuk isə eşqi Sahasraradan yenidən Muladxaraya endirir. Onun “Mənim adım qırmızı”nı yazmaqdan və Nizami ilə antidialoqdan əsas qayəsi budur – ilahi eşq deyilən bir şey yoxdur, nədən ki, ilahinin özü yoxdur!

Lakin Orxan Pamukun sadəcə bir romanı deyil, bütün yaradıcılığı prizmasından baxanda, onun Nizami ilə əlaqəsi artıq “Xostov və Şirin” deyil, “Yeddi gözəl” müstəvisindədir. Bu o deməkdir ki, dahi fərdin əsərdən-əsərə qalxdığı zirvəyə bədii fikir əsrdn-əsrə qalxırdı fikri yenə də qüvvədədir – Orxan Pamukun timsalında bədii fikir Nizami “Xəmsə”sinin “Yeddi gözəl” (anti)məqamına çatır. Təsadüfi deyil ki, türk yazıçısı özünün bir çox romanlarını Nizaminin “Yeddi gözəl”indəki bu və ya digər rənglə işarələyib, “Mənim adım qırmızı” da onlardan biridir:

***ağ rəng – “Bəyaz qala”;***
***qara rəng – “Qara kitab”;***
***qırmızı rəng – “Mənim adım qırmızı”***
***yenə ağ rəng – “Qar”***
***yenə qırmızı rəng – “Qırmızı saçlı qadın”***

Orxan Pamukun bütün yaradıcılığı sanki prozaik bir “Yeddi gözəl”dir. Amma rəngin simvolikası onun əsərlərinin sadəcə başlıqlarına çıxmaqla qalmır. Yazıçı nəinki romanları, eləcə də qəhrəmanların da adlarını (Qara – “Məmin adım qırmızı”, Lacivərd – “Qar” və s.) və hətta onların gözlərini də bu və ya digər simvolik anlam daşıyan rənglərlə işarələyir. “Qar” romanının personajlarından yaşıl gözlü Nəcib islam təməlçiliyi, göygözlü Fazil isə türkçülüyün rəmzi işarələri kimi anlaşılır. Gözlərindən güllə yarası alan hər iki personaj ölürlər və bununla da, yazıçı Türkiyənin, eləcə də, bütün türk dünyasının özülündə duran iki ideoloji dayağı öz aləmində uçurur. Türkiyə ədəbi-tənqidinin haqlı olaraq qeyd elədiyi kimi, Orxan Pamukun romanları batının çəpiyinə hesablanmışdı və 2006-cı ildə Nobel ödülünə layiq görülməsi göstərdi ki, o öz ehtimalında yanılmayıb.

Ünlü türk yazıçısının rənglərlə bağlı fikirləri bədii əsərlərlə qurtarmır. O, “Digər rənglər” adı verdiyi esselər toplusunda bütün bu rəngkarlıq simvolikasına nəzəri ümumiləşdirmə verir. Məsələni yekunlaşdırsaq,

***Nizami eşqi başa çıxarır, Orxan Pamuk cinsiyyətə endirir!***

***Nizamidə eşq həm də kosmik, Orxan Pamukda eləcə fizioloji aktdır!***

***Nizami Sahasrara çakra, Orxan Pamuk Muladxara çakrada düşünür!***

***Nizami eşqi bənövşəyi, Orxan Pamuk qırmızı rənglə işarələyir!***

***Nizaminin dastanları min ildir yaşayır və bundan sonra da yaşayacaq, Orxan Pamukun ölümüylə onun romanları da öləcək!***

***Nizaminin dastanları Söz, Orxan Pamukun romanları sözdür!***

Sonucda Nizami oğlu Məhəmmədə nəsihətində haqsız deyildi. Şeir öz ucalığından getdikcə və getdikcə daha çox enirdi:

***Şeirdən ucalıq umma dünyada,***
***Çünki Nizamiylə qurtardı o da.***
(tərcümə Səməd Vurğunundur)

Bütün bədii janrlar arasında Sözə nisbətən yaxını şeirdir və şeirdən uzaqlaşmaq Sözdən uzaqlaşmaqdır. Bədii düşüncənin son min ildə şeirdən nəsrə gəlməsi həm də Sözdən sözə gəlişidir. Şeir daha çox Sözə, nəsr daha çox sözə uyğundur. Min il ərzində bədii düşüncə şeirdən nəsrə doğru bir yandan tərəqqi etmiş, digər yandan isə tənəzzül etmişdi. Odur ki, şairin öz oğluna nəsihətlə dediyi ünlü sözlər sadəcə şeirin deyil, həm də Sözün enişini proqnozlaşdırırdı. Bu, “şeir qurtardı” deməklə yanaşı həm də “Söz qurtardı” demək idi.

Görəsən, bu sözlər bir dahinin maksimalizmi idi, yoxsa, bir şeyxin öncəgörənliyi? Doğrudanmı, şeir Şeyx Nizamiylə qurtaracaqdı? İyirminci yüzilin modernist şairlərindən Adil Mirseyid bu suala ilk baxışdan “hə” deyə cavab verir:

***Bir dəli şeytan deyir,***
***Sən də at şeirin daşını.***
***Çıx get qara Afrikaya,***
***Rembo kimi***
***qat başını.***

"Sən də at şeirin daşını!" Belə çıxır ki, çoxları şeirin daşını atıb (məsələn, elə biri on doqquzuncu yüzil ünlü fransız modernisti, on beş yaşından on doqquz yaşınacan cəmi bir neçə il şeir yazmaqla öz adını dünya poeziyası tarixinə yazan, sonra bir daha əlinə qələm almayan, şeirin daşını atıb Afrikaya gedən, ordakı uğursuz biznes cəhdlərindn sonra vətənə qayıdan, cəmi otuz altı il yaşayan və ağır xəstəlikdən dünyasını dəyişən Artur Rembo) Adil də indi guya onlara qoşulmaq istəyir. Lakin bu, sadəcə, bir sözdür. Afrikaya, özü də özəl olaraq vurğulandığı kimi "qara Afrikaya" getmək, əslində, nəinki şerin daşını atmaq deyil, əksinə, şeirə yad çağdaş urbanistik dünyadan hamının şair, hər şeyin şeir olduğu mifik başlanğıca dönmək, Məcnun kimi şəhrdən səhraya düşmək deməkdir. "Qara Afrika" mahiyyətcə şeirin qara daşı, ora getmək isə, əslində, şeirin qutsal məkanını ziyarət eləməkdir. Belə bir gediş gizli qatda sözdən Sözə qayıtmaq istəyidir. Bu, "şeirin Nizamiylə qurtarmasına" dair fikrin həm təsdiqi, həm də inkarıdır: bəli, bizim yaşadığımız dünyada şeir artıq bitib; amma hardasa "qara Afrikada" o hələ yaşayır və şair qalmaq istəyirsənsə, ora qayıtmalısan. Adil Mirseyidin sadə, iddiasız misralarının altında bu əlçatmaz iddia gizlənir. Ona görə əlçatmaz ki, bu iddianı məkan baxımından gerçəkləşdirə bilərsən, zaman baxımından isə çətin! Afrikaya gedə bilərsən, amma şeirin əski çağlarını geri qaytara bilməzsən! Adil Mirseyidin tale təyinatı qaralar yox, ağların içində şair olmaqdır.

***

Bir sual isə öz cavabını gözləyir - əgər şeir Nizamiylə qurtaracaqdısa, bəs, ondan sonra yüzillər ərzində meydana çıxan bu şairləri hara qoyaq?

**İzzəddin Həsənoğlu**, Marağalı Əvhədi, Əssar Təbrizi, Mir Mahmud Şəbüstəri, **Nəsimi,** Arif Ərdəbili, Qazi Bürhanəddin, Cahanşah Həqiqi, Süruri, Həbibi, **Xətayi, Qurbani, Füzuli,** Qövsi Təbrizi, Saib Təbrizi, **Aşıq Abbas Tufarqanlı,** Sarı Aşıq, **Xəstə Qasım,** Məsihi, Əmani, Molla Vəli Vidadi, **Molla Pənah Vaqif,** Abbasqulu Ağa Bakıxanov, **Vazeh, Qasım bəy Zakir, Xurşidbanu Natəvan**, Mir Möhsün Nəvvab, Mirzə Rəhim Fəna, Abdulla bəy Asi, Aşıq Pəri, Ağ Aşıq, Aşıq Alı, **Aşıq Ələsgər, Seyid Əzim Şirvani,** Qasir, Seyid Əbülqasim Nəbati, Mir Mehdi Sükuhi, Dəxil, Qumri, Səməd Mənsur, **Mirzə Ələkbər Sabir**, Mirzəli Möcüz, Əliqulu Qəmküsar, Əli Nəzmi, Əli Nazim, Məhəmməd Hadi, Abbas Səhhət, **Hüseyn Cavid,** Cəfər Cabbarlı, Əhməd Cavad, Almaz İldırım, Abdulla Şaiq, **Əlağa Vahid, Səməd Vurğun,** Osman Sarıvəlli, **Rəsul Rza, Mikayıl Müşfiq,** Abdulla Faruq, Zeynal Xəlil, Məzahir Daşqın, İsgəndər Coşqun, Məmməd Rahim, Nigar Rəfibəyli, Zeynal Cabbarzadə, Tələt Əyyubov, İslam Səfərli, Dədə Şəmşir, Mikayıl Azaflı, **Məhəmmədhüseyn Şəhriyar,** Səhənd, Səməd Behrəngi, Cabir Novruz, Əli Kərim, Əməd Cəmil, Vaqif İbrahim, Mədinə Gülgün, Hökumə Billuri, Piruz Dilənçi, Sərdar Əsəd, Hüseyn Arif, Adil Babayev, Hüseyn Kürdoğlu, Ağamalı Sadiq, Rüfət Əhmədzadə, Rüfət Zəbioğlu, Şəkər Aslan, İltifat Saleh, Baba Pünhan, Zivər Ağayeva, Bəhmən Vətənoğlu, Şücaət, Teymur Elçin, Eldar Baxış, Hafiz Baxış, Ülvi Bünyadzadə, Mirvarid Dilbzai, Süleyman Rüstəm, **Bəxtiyar Vahabzadə**, **Qabil, Nəbi Xəzri, Məmməd Araz,** Vidadi Babanlı, Dəmir Gədəbəyli, Xəlil Rza, Balaş Azəroğlu, Söhrab Tahir, Nurəngiz Gün, **Vaqif Səmədoğlu**, Ələkbər Salahzadə, Zeynal Vəfa, Fikrət Qoca, Fikrət Sadıq, İsa İsmayılzadə, **Tofiq Bayram, Məmməd İsmayıl,** Məmməd Aslan, Məstan Günər, İlyas Tapdıq, Abbas Abdulla, Oqtay Rza, Abbasağa Azərtürk, İbrahim Göyçaylı, Məmməd Kazım, Kəmalə Ağayeva, Nahid Hacızadə, **Nüsrət Kəsəmənli,** Davud Nəsib, Ağa Laçınlı, Tofiq Mahmud, **Zəlimxan Yaqub,** Səyavuş Sərxanlı, Musa Ələkbərli, Camal Yusifzadə, Ramiz Duyğun, Dərviş Cavanşir, Sabir Sarvan, Böyükxan Pərviz, Tacəddin Şahdağlı, Akif Səməd, Alim Məhərrəmli, Ədalət Əsgəroğlu, Adil Mirseyid, Tofiq Abdin, Şahin Fazil, Əlisəmid Kür, Fəxri Müslüm, Sabir Adil, Nisəbəyim, Sabir Yusifoğlu, **+**, Şaiq Vəli, Qoca Xalid, Arif Buzovnalı...

1999-cu ildən Azərbaycan Yazıçılar Birliyində işləyirəm. Odur ki, bu siyahıda adlarını kursivlə verdiklərimlə cavan yaşlarımdan bu və ya digər dərəcədə ünisiyyətdə olmaq - bir jurnalda işləmək, bir idarəyə gedib-gəlmək, bir masa arxasında əyləşmək, bir tikə çörək, bir kəlmə söz kəsmək, ən azından bir dəfə olsa da, təsadüfən olsa da, küçədə rastlaşmaq imkanım olub. İndi:

***Onlar əbədiyyət dünyasında, mən fani dünyadayam!***
***Onlar haqq dünyasında, mən yalan dünyadayam!***
***Onlar Söz dünyasında, mən söz dünyasındayam!***

Şəhriyarın bu misraları şairin öz qaltanlı, xırıltılı, bariton səsiylə, min səsin içindən seçilən şirin güney ləhcəsiylə, təkrarsız tembriylə yaddaşımdan boy verir:

***Heydərbaba, dünya yalan dünyadır,***
***Süleymandan, Nuhdan qalan dünyadır.***
***Oğul doğan, dərdə salan dünyadır,***
***Hər kimsəyə hər nə verib alıbdır,***
***Əflatundan bir quru ad qalıbdır.***

Bir bənd də yenə Güneydən olan Xəstə Qasım Tikmədaşlıdan deyək, onu da yad, ruhunu şad eləyək:

***Xəstə Qasım qalıb naçar,***
***Bu sirri bəs kimlər açar.***
***Gələn qonar, qonan köçər,***
***Hey salarsan talan dünya!***

Ustadlar ustadnaməni üç eləyib, biz də üçün-

cünü Məmməd Rahimdən deyək. Bu neçə ildə mən onun adının bir yerdə yaxşıya-yamana çəkildiyini eşitməmişəm. Heç elə bil, yerli-dibli belə şair yoxuymuş, ya da adamın adının üstünə yasaq qoyulub! Otuz yeddidə neyləyib, nə iş görüb, bu başqa söhbət, özü bilsin, öz Allahı bilsin! Amma şeiri şeirdir, sözü söz, doğrudan da, gözəl, müşfiqanə dərəcədə oynaqdır. Burda bircə sözün, hətta bircə hərfin belə yerini dəyişmək olmaz:

***Qulac-qulac hörüklərin ilandır,***
***İncimərəm, sal boynuma dolandır.***
***Biz gedərik, qoca dünya qalandır,***
***Rahim qurban nazlı yara, sevgilim!***

Bəli, siz getdiniz, qoca dünya isə qaldı! Siz bütün pisliklərinizi bu dünyada qoyub, əbədiyyət evinə ancaq və ancaq yaxşılığı apardınız! Sizə qalan yalnız yaxşı əməlləriniz oldu! İndi bunu orda - əbədiyyət evində hər biriniz yaxşı bilirsiniz. Nə yazıq ki, burdakılar bu həqiqəti heç cür anlamaq istəmir! Nə yazıq ki, sizin bir-birinizin istedad və şöhrətinə qısqanclıqdan, təkəbbür və mənəm-mənəmlikdən, vəzifə kürsüsü və dünya malına hərislikdən, bir sözlə aşağı problu duyğularınıza yenilməkdən irəli gələn yanlışlarınızı indi də onlar təkrar edir və sabah başqaları, sonra bir başqaları... gələcək və beləcə insani naqisliklərdən doğan yanlışlar nəsildən-nəslə ötürülə-ötürülə qiyamətəcən gedib çıxacaq! Hərdən bu dünyadakıların yuxusuna girin, ürəyinə gəlin, yadına düşün, burdakılara öz acı təcrübənizdən doğan ibrət dərsləri verin!

Nə isə... deyəsən, sentimentalizmə yuvarlanırıq, qoca Xarondan xahiş edək ki, bizi öz qayığında çayın o üzündən bəri üzünə keçirsin:

...**Nəriman Həsənzadə,** Anar, Firuzə Məmmədli, Çingiz Əlioğlu, **Sabir Rüstəmxanlı, Ramiz Rövşən, Ramiz Qusarçaylı,** Vahid Əziz, Əşrəf Veysəlli, Ofeliya Babayeva, Eyvaz Borçalı, Ayaz Vəfalı, Hidayət Orucov, **Kamal Abdulla,** Kəmalə Abiyeva, Zərrin Şövkət Horovlu, Ələddin İncəli, **Rüstəm Behrudi, Vaqif Bayatlı Odər,** Vaqif Bəhmənli, Vaqif Aslan, **Məmməd İlqar,** Seyran Səxavət, Rəfiqə Şəms, Səadət Buta, Hüseyn Sözlü, Gülarə Munis, Yusif Nəğməkar, Ağacəfər Həsənli, Tofiq Nurəli, Zahid Xəlil, Firuz Mustafa, Tahir Talıblı, Zakir Fəxri, **Barat Vüsal**, Əjdər Ol, Əlirza Xələfli, Adil Şirin, Adil Cəmil, İbrahim Yusifoğlu, **İbrahim İlyaslı, İlham Qəhrəman, Musa Urud,** Vəli Qaraçaylı, Vəli Xramçaylı, Rafael İncəyurd, Rafael Tağızadə, Rafael Həbiboğlu, Zirəddin Qafarlı, Mahirə Abdulla, Mahirə Nağıqızı, Baba Vəziroğlu, Valeh Mirzə, Xəzangül Hüseynova, Xosrov Natil, Nazir Rüstəmli, Zahid Sarıtorpaq, Saqif Qaratorpaq, Akif Əhmədgil, Akif Azalp, Qardaşxan Əzizxanlı, Abdulla Qurbani, Güləmail Murad, **Murad Köhnəqala**, Murad Qoçoğlu, **Vasif Süleyman**, Vüqar Əhməd, Sehran Allaherdi, **Rasim Qaraca, Həmid Herisçi, Elxan Zal Qaraxanlı,** Azad Yaşar, Rəşad Məcid, Rəşid Faxralı, Xanım İsmayılqızı, Saday Şəkərli, Zərəngiz Qayalı, Zəminə Xınalı, Məlahət Yusifqızı, Səxavət Talıbli, Səxavət Sahil, İmir Məmmədli, Zeynəb Bəhmənli, **Əlizadə Nuri, Salam,** Etimad Başkeçid, **Xanəmir,** Əlirza Həsrət, Rafiq Yusifoğlu, Rafiq Hümmət, Fəxrəddin Əsəd, Fazil Əsəd, Arzu Əsəd, Nəzakət Məmmədova, Sərvaz Hüseynoğlu, Dayandur Sevgin, Əyyub Qiyas, Avdı Qoşqar, Allahverdi Təhləli, Raqub Budaqlı, Yasin Xəlil, Şahverən Cavad, Xaqani Qayıblı, **Xaqani Əmini,** Xaqani Abbasəli, **Tofiq Həsənli**, Nazilə Gültac, Namiq Dəlidağlı, Aydın Murovdağlı, Esmira Məhiqızı, **Tərlan Əbilov,** Baloğlan Cəlil, Xatirə Rəhimbəyli, Xatirə Rəhimli, Xatirə Fərəcli, Xatirə Xatun, Mahmud Vəli, Nəcibə İlkin, Rübail, Xalidə Nuray, Südabə Sərvi, Qismət Məhərrəmli, Giya Paçxataşvili, Gülnarə Cəmaləddin, Afaq Şıxlı, Nuridə Atəşi, Şəfəq Sahibli, Narıngül Nadir, Cığatel İsaqızı, Bilal Alarlı, Qəşəm Nəcəfzadə, Qəzənfər Məsimoğlu, Mübariz Məsimoğlu, Faiq Balabəyli, Faiq Hüseynbəyli, Mina Rəşid, Adilə Nəzər, **Qulu Ağsəs**, Həyat Şəmi, Rəsmiyyə Sabir, Dəyanət Osmanlı, Vasif Qurbanzadə, Əzizə Ağahüseynqızı, Səhər, Elçin Mirzəbəyli, Məhəmməd Astanbəyli, Arzu Nehrəmli, Arzu Hüseyn, Əkbər Qoşalı, Balayar Sadiq, **Səlim Babullaoğlu, İlqar Fəhmi,** İlqar Türkoğlu, İradə Aytel, Ələmdar Cabbarlı, Aybəniz Əlyar, **Əvəz Qurbanlı**, Kənan Hacı, Elşən Əzim, Rövşən Qarabudaq, Lilpar Cəmşidqızı, Elza Seyidcahan, Təranə Turan Rəhimli, Gəray Göyyurd, Bəhlul Ataxallı, Rəna Qurbanlı, Aləmzər Əlizadə, Aləmzər Sadiqqızı, Mətanət Ulu Şirvanlı, Nicat Kazımov, Nicat Ərtürk, Tofiq Həsrət, **Kamal Hüseynzadə,** Xəyal Rza, Səbuhi Zaman, Leyla Əliyeva, Nigar Həsənzadə, Xuraman Hüseyn, Arzu Hüseyn, Fərid Hüseyn, Şərif Ağayar, Sevinc Elsevər, Sevinc Yunisli, Qan Turalı, Sara Selcan, Rəbiqə Nazimqızı, Cəlil Cavanşir, **Aqşin Yenisey, Aqşin Evrən**, Elşad Ərşadoğlu, Elşad Barat, Qismət, Qılman İman, Anar Amin, **Şahinə Könül,** Elnur Uğur Abdiyev, Qoşqar Qaraçaylı, Günay Ümid, Ümid Nəccari, İltimas Səmimi, Aysel Xanlarqızı, Aysel Əlizadə, Hədiyyə Şəfaqət, **Ruslan Dost Əli,** Vasif Zöhraboğlu, Vəfa Mürsəlqızı, Emin Piri, Könül Arif, Ramil Mərzili, Ramil Əhməd, İntiqam Yaşar, Kəramət Böyükçöl, Pərviz Axundov, Aliyə Əzizgül, Tahirə Bərraq, Şəriyar Del Gerani, **Allahşükür Ağa**, Fəridə Məmmədova, Ulucay Akif, Şahmurad Şahmarbəyli, Eyvaz Əyyub, Banu Məhərrəm, Əli Çağla... və adını çəkmədiyim, hətta imzasını bilmədiyim minlərlə şair və şeir yazanlar!!! Bizə boş yerə "şair xalq" deməyiblər ki! Müşfiq bu barədə belə deyirdi:

***Yüksəl, yüksəl mənim şöhrətli ölkəm,***
***Şeirdən, şairdən dövlətli ölkəm!***

Sabir demişkən, "hələ mən gördüyümün dörddə birin yazmayıram!" Bu gün yerindən durub, gözünü ovuşduran şair olmaq istəyir, atını minən çapır Sözün uçuq komasının üstünə! Hamı şair, yazıçı, dramaturq, ssenarist, tənqidçi - hamı hər şey olmaq istəyir! Amma şablon da olsa, deyəcəm - sonradan şair olmursan, şair doğulursan! Nizaminin sözü olmasın,

***Bu torpağın qəlibi yansın deyə oda at,***
***Başqa bir sənət tapıb, işlə, muradına çat!***

Postmodernizm istedad anlayışını yerli-dibli yox eləyib! Əlindən heç bir başqa iş gəlməyənlər ədəbiyyat zəmisinə dolu kimi tökülür! Qırx milyona yaxın əhalisi olan Özbəkistanda Yazarlar Birliyi üzvlərinin sayı təxminən 300 nəfərdir. On milyon əhalisi olan Azərbaycanda bu rəqəm 3000-ə çatır! İndi özünüz hesabınızı götürün!

Nə olub, axı, nə xəbərdir? Yel əsib, qoz tökülüb, nə görübsünüz bu ədəbiyyatda? Yəqin saysız-hesabsız kitab təqdimatlarındakı boğazdan yuxarı təriflər, arxasında heç bir maddi vəsait dayanmayan gülməli diplomlar, feyzbuk, instaqram, tik-tok və digər sosial şəbəkələrdəki bir az gerçək, bir az yalan bəyənmələr, göbələk kimi artan özəl internet kanallarındakı şişirdilmiş baxış sayları, qonşu ölkələrdə eyni kateqoriyadan olanların dəvəti ilə qatıldığınız formal səciyyəli buluşmalar sizi şair olduğunuza inandırır! Süni intellektin quraşdırdığı şeiri özünüzünkü kimi qələmə verməklə isə bütün bu psevdoşeir həngaməsi pik nöqtəsinə çatır!! Şekspiranə desək, "dəhşət, ölümdən də qara bir dəhşət!!!" Allah, sən özün saxla! Sən özün milləti bu psevdoşeir bəlasından qurtar!

Təkcə şeirə yox, musiqiyə, incəsənətə, ümumən, spesifik istedad tələb eləyən sahələrə qarşı bu kütləvi axın göstərir ki, proses ağlın nəzarətindən çıxaraq, hansısa şeytani bir stixiyaya tabe olmaqdadır! Özünə şair deyənlər də, onların dürlü şəbəkələrdəki cızmaqaralarına "layk" qoyanlar da sanki bu kortəbii stixiyanın saplarıyla idarə olunan cansız kuklalardır – Söz isə can tələb edir! Sinqulyarlıq adlanan bu durum nə qədər xoşagəlməz, hətta vahiməli bir təəssürat oyadır! Cavid demişkən,

***Yarəb, bu nə dəhşət, nə fəlakət?!***
***...İblisəmi uymuş bəşəriyyət?!***

Fransız metafiziki Rene Genon "Kəmiyyət səltənəti və zamanın əlamətləri" kitabında yazır ki, biz keyfiyyət yox, kəmiyyət dövründə yaşayırıq. Bir şeyin kəmiyyəti nə qədər artarsa, həmin şey bir o qədər öz təyinatının əksinə çevrilməyə başlayır. Məsələn, maşın bizi lazım olan ünvana sürətlə aparmaq üçündür. Onun təyinatı budur. Amma elə ki, sayca artır, maşın artıq tıxac yaradır, bizi ləngidir, düşüb piyada getməli oluruq. Şairlərin sayca çoxluğu da ədəbi düşüncənin yolunda tıxac yaradır! Bu, o deməkdir ki, biz Söz yox, söz dövrünün adamlarıyıq! Amma bu şairlərin hansı zamanın sınağından keçəcək, hansı keçməyəcək, bunu yalnız Allah bilir. Hələlik isə durum Sabir deyən kimidir:

***Qarışıqdır hələlik millətin istedadı,***
***Ələnirsə, unu bir yan, tozu bir yanlıq olur.***
***Çalxalandıqca, bulandıqca zaman nehrə kimi***
***Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur.***

Nizamidən öncə Qətran Təbrizi, Xaqani, Məhsəti, Mücirəddin Beyləqani kimi parlaq istedad sahibləri olub. Nizamidən sonra Füzuli kimi dahi, Həsənoğlu, Nəsimi, Xətayi, Vidadi, Vaqif, Seyid Əzim Şirvani, Sabir, Hadi, Cavid kimi dühalar, Vurğun, Rəsul Rza, Müşfiq, Şəhriyar, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Əli Kərim, Vaqif Səmədoğlu, Nüsrət Kəsəmənli, Zəlimxan Yaqub kimi istedadlar meydana çıxdı. Amma gəncəli müdrikdən nə öncəki, nə də sonrakılar Sözün obyektiv, qaçılmaz, labüd, zəruri enişinin qarşısını ala bilmədilər və ala bilməzdilər!

Bu gün də fərqli dərəcələrdə istedadlı şairlər var. Amma onlar da dünya və sözün orbitində fırlanır!.. Şeir yalnız Yerin orbitini qırıb açıq fəzaya çıxsa, yalnız sözün məhvərindən qopsa və yalnız onda... Sözə yüksələ bilər! Yoxsa, tələbəlik illərimdəki bir şeirimdə yazdığım kimi o, ölü sözün qapalı orbitində fırlanmalı olacaq:

***Bu şairlərin də nə dediyinə,***
***Fikir verən azdır söz orbitində!***
***Ha yazıb-pozurlar, düzəlmir yenə,***
***Bu dünya fırlanır öz orbitində!***
***Bəmi həmin bəmdir, zili həmin zil,***
***Onsuz da bu dünya sən deyən deyil!***

Hətta bu başgicəlləndirən sansaradan ötən yüzilin ortalarından başlayan çıxış da sorunun çözümü demək olmadı. Yerin cazibəsindən qopub açıq kosmosa çıxsaq da və bu çıxış həm də məhdud ağlın, kasad məntiqin - sözün məhvərindən hamılıqla qurtuluşun başlanğıcı olsa da, hələ prosesin sonu deyil.

Biz isə öz yazımızda hələ ki, on altıncı yüzildə qalmşdıq - Füzuli erası başlayırdı!



QAFAR CƏFƏRLİ

Azərbaycan Yazıçılar Birliyi Lənkəran Bölməsinin sədri, "Şəfəq" jurnalının baş redaktoru, yazıçı, dramaturq

# "ŞƏFƏQ" - CƏNUBUN ƏDƏBİ MAYAKI

Türkiyə Cumhüriyyətinin qurucusu Mustafa Kamal Atatürkün belə bir fikri var: "Mətbuat millətin müştərək səsidir". Doğrudan da milli şüurunun formalaşmasında, dini, etnik, ideoloji dəyərlərin, insan hüquq və azadlıqların təbliğində, qorunmasında illərin sınağından çıxmış, xalqımızı simvolizə edən adət və ənənələrin tərənnümündə, cəmiyyətdəki neqativ halların aşkar olunmasında və təmizlənərək saflaşmasında mətbuatın rolu danılmazdır. Bütün bu meyarlara sədaqətlə xidmət edən ədəbi dərgilərin mövcudluğu da bu mənada xüsusi əhəmiyyət daşıyır.

2026-cı ilin may ayında Azərbaycan Yazıçılar Birliyi Lənkəran Regional Bölməsinin ədəbi-bədii, elmi-publisistik orqanı olan "Şəfəq" jurnalının 35 yaşı tamam olur.

Müəyyən fasilələrlə "Şəfəq" jurnalı artıq 35 ildir ki, cənub ədəbi mühitinin flaqmanı olaraq mətbuat kimi öhdəsinə düşən, ümumən isə ədəbiyyatımızın inkişafı naminə çox əhəmiyyətli işlər görməyə çalışır. Bu bayram günlərində "Şəfəq"in keçdiyi yola nəzər salmaq fikrimcə, maraqlı olardı.

Azərbaycan Yazıçılar İttifaqının ilk təşkil olunan filiallarından hesab edilən Lənkəran Zona Şöbəsı 1978-ci ilin oktyabr ayında tanınmış yazıçı, şair və dramaturq Məmmədhüseyn Əliyevin məsul katibliyi ilə fəaliyyətə başlayıb. O dövrdə böyük Sovetlər Birliyi, bu Birliyin tərkibində olan sosialist Azərbaycanı və təbii ki, ölkənin ədəbi qüvvələrini istiqamətləndirən ideya mövcud idi. Qarabağ ətrafında baş verən hadisələr, Qanlı Yanvar faciəsi bu Birliyin nə dərəcədə çürük, gərəksiz və etibarsız olduğunu açıq-aşkar ortaya qoydu. İlk vaxtlar hər sahədə olduğu kimi İttifaqın (müstəqillik qazanandan sonra Birliyin) özü və tərkibində olan zona şöbələri də ciddi maddi çətinliklərlə üzləşməli olurdular. Belə bir dövrdə sıfırdan jurnal yaratmaq, nəşr etmək çox ağır və məsuliyyətli addım idi.

1990-ci ilin axırlarında M.Əliyev Şöbənin ədəbi-bədii orqanı olaraq "Şəfəq" adlı jurnal yaratmaq təşəbbüsü ilə çıxış etdi. Bu məqsədlə jurnala lizensiya alındı və jurnalın nəşri üçün bölgə yazarlarından materiallar toplanılmağa başlanıldı. 1991-ci ilin fevral ayında jurnalın ilk nömrəsi üçün materiallar Lənkəran şəhərindəki mətbəəyə təqdim olundu və may ayında artıq Şöbənin ədəbi-bədii orqanı olaraq "Şəfəq" jurnalının ilk sayı işıq üzü gördü. Jurnalın redaktoru Məmmədhüseyn Əliyev, redaktor müavini Hacıməmməd Quliyev, məsul katib İltifat Saleh, rəssamı isə Məmmədsadıx Axundov oldular. Jurnal "Zonamızın ədəbi istedadları, "Şəfəq"in ətrafında birləşin!" epiqrafı ilə










çap olundu. Jurnalda Xalq yazıçıları Mirzə İbrahimovun və Anarın, Şöbənin əhatə etdiyi Neftçala, Biləsuvar, Cəlilabad, Masallı, Lerik, Yardımlı, Astara və Lənkəran rayon Partiya Komitələrinin birinci katiblərinin (indiki İcra başçıları) təbrikləri və həmin rayonlarda yaşayan yazarların seçmə əsərləri daxil edilmişdi. Jurnal 14x19 mm ölçüdə 80 səhifə həcmində (və uzun illər bu formatda) işıq üzü gördü. Onu da qeyd etmək lazımdır ki, həmin vaxtı və ondan sonrakı dövrdə jurnal əməkdaşların və ətrafında cəmləşən yaradıcı şəxslərin şəxsi vəsaiti hesabına çap olundu.

Toplu ilk sayından Birliyin əhatə etdiyi rayonlarda yaşayan müəlliflərin ədəbi-bədii əsərlərini çap etməklə fəaliyyətə başladı və bu ənənə davam etməkdədir.

"Şəfəq"in nəşri AYB-nin digər Şöbələrinə nisbətdə bir ilk olmaqla nəinki bölgədə, hətta respublikada əhəmiyyətli ədəbi hadisə idi. "Şəfəq" ilk sayından başlayaraq bölgə yazarlarına öz şəfəqlərini saçmaqla onların peşəkar ədəbiyyata ayaq açmasında, tanınmasında və inkişafında mühüm rol oynamağa başladı. Bu, ümumən ədəbiyyatımızın zənginləşməsi işinə müstəsna xidmət göstərmək idi.

Şöbənin məsul katibi və jurnalın ilk baş redaktoru Məmmədhüseyn Əliyev vəfat etdikdən sonra 16 iyul 1994-cü il tarixdən bu vəzifəyə tanınmış şair-publisist Şəkər Aslan təyin edildi. Təəsüf ki, cəmi bir il bu vəzifədə çalışan şairin səhhətində olan problemlər ucbatından toplunu nəşr etmək mümkün olmadı. Şəkər Aslanın vəfatından sonra 8 avqust 1995-ci il tarixdən müvəqqəti olaraq məsul katib təyin edilən Şöbənin ədəbi məsləhətçisi Sevil Mürsəliyeva 2 dekabr 1995-ci il tarixə kimi bu vəzifəni icra etdi. Bu dövrdə də "Şəfəq" toplusu nəşr olunmadı.

2 dekabr 1995-ci il tarixdən tanınmış şair İltifat Saleh Şöbənin məsul katibi təyin olundu. Daxili əmrlə "Şəfəq"in nəşri baş redaktor təyin olunan şair-publisist Balayar Sadiqə həvalə edildi. Müəyyən səbəblərdən təxminən bir il üç ay ərzində jurnal yenə də işıq üzü görmədi. İltifat Salehin 01 iyun 1997-ci il tarixli əmri ilə yazıçı-publisist Hacıməmməd Quliyev "Şəfəq" jurnalının baş redaktoru təyin olundu. Jurnalın 1997-ci ilin 1-2, 3-4 və 1998-ci ilin 1-2 sayları onun redaktorluğu ilə nəşr edildi. 20 sentyabr 1998-ci il tarixdən başlayaraq "Şəfəq" jurnalı Bölmə sədri İltifat Salehin baş redaktorluğu ilə çap olunmağa başlanıldı. Jurnal artıq "Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz!" epiqrafı ilə 17x24 mm formatında Bakı şəhərində çap olundu. İ.Salehin baş redaktorluğu ilə jurnal son dəfə 2013-cü ildə 1-2 sayı ilə oxucuların görüşünə gəldi.

Jurnalın səkkiz ilə yaxın bir müddətdə nəşr olunmamasının müəyyən obyektiv və subyektiv səbəbləri vardır. Onları sadalamağın heç bir əhəmiyyəti yoxdur.

3 sentyabr 2020-ci il tarixdə AYB sədri, xalq yazıçısı Anar Rzayevin əmri ilə yazıçı-publisist Qafar Cəfərli AYB Lənkəran Regional Bölməsinə sədr təyin olundu. Qarşıda duran ilk vəzifələrdən biri jurnalın nəşrini

bərpa etmək idi. Təbii ki, iş şəraiti olmayan yararsız otaqlarda bunu etmək mümkün deyildi. Buna görə də Qafar Cəfərli ilk olaraq otaqların təmirindən başladı. 27 sentyabr tarixdə Qarabağın azadlığı uğrunda Vətən müharibəsinin başlanması təmir işlərini də yarımçıq qoydu. Hər kəs kimi Bölmənin əməkdaşları və ətrafında olan bütün əməkdaşlar da Vətən müharibəsinin yaratdığı möhtəşəm ab-havaya qoşuldular. Xalqımızın ədalətli müharibəsi 10 noyabr 2020-ci il tarixli Böyük Zəfərlə başa çatdı. Noyabr ayının ortalarından dekabr ayının ortalarına kimi təmir işlərini yekunlaşdırıb jurnal üçün bölgə qələm əhlindən materaillərın toplanması başlandı. Həmin günlərdə bütün dünyanı bürüyən CORONAVİRUS pandemiyasının mövcudluğunu nəzərə alsaq bu işin nə qədər çətin olduğunu təsəvvür etmək mümkündür. Nəhayət, 2021-ci ilin yanvar ayında səkkiz illik fasilədən sonra "Şəfəq"in 1-2 sayı işıq üzü gördü. Jurnal artıq daha böyük - 19,5x27,5 mm ölçüdə, rəngli formatda nəşr olunmağa başlanıldı.

Nəşrə başladığı 1991-ci ildən bu günə kimi jurnalın 69 sayı, yenidən nəşrindən keçən 5 il 4 ay ərzində isə 11 sayı işıq üzü görüb. İndi jurnalın hər sayı 150-190 səhifə arası oxucuların görüşünə gəlir. Jurnalın keyfiyyəti və nəşr sayı xeyli yüksəlmiş, əhatə dairəsi daha da genişlənmişdir. Jurnalın hər sayında "Nəsr", "Poeziya", "Ədəbi tənqid", "Ədəbiyyatşünaslıq", "Publisistika", "Özümlə müsahibə", "Tərcümə", "Yubileylər", ""Şəfəq"də ilk dəfə", "Yurdumuzun tarixi", "Yeni kitablar" və digər rubrikalarda olan seçmə yazılar işıq üzü görür. 2026-cı ilin 1-2 ci sayından başlayaraq çoxsaylı müraciətləri nəzərə alıb jurnalda ""Şəfəq"in qonaqları" adlı yeni rubrika yaradıldı ki, çap olunmaq istəyində olan digər şəhər və rayonlarda yaşayan müəlliflərin də seçmə əsərləri burada yer almağa başladı. Bu rubrika ilə əsərlərin çapı mütəmadi olaraq davam etdirilməsi nəzərdə tutulmuşdur.

Jurnal əsasən bölgə yazarlarını ədəbi ictimaiyyətə təqdim etmək missiyasını daşıyır və davam etdirir. Bu müddətdə tanınmış şair və yazıçılarla yanaşı çoxsaylı gənc yazarların da jurnalda təmsil olunması təmin edilmişdir. Jurnalın müxtəlif saylarında yer alan gənc yazarlardan Aysel Xanlarqızı, Ülkər Nicatlı, Ziya Dilsuz, İqbal Nəhmət, Xalid Mahmud, Elvin İntiqamoğlu, Müşfiq Cəbi, Xaqani Muğamatoğlu, Əyyub Türkay, Fikrət Baxış, İltimas Səmimi, Faiq Hüseynbəyli, Ruhiyyə Abbaszadə, Arzu Əyyarqızı və başqalarının imzaları ölkə ədəbi mühitində qəbul olunmuş, əsərləri ölkənin aparıcı ədəbi nəşrlərində yer almışdır.

Əlbəttə, jurnalda çap olunan bəzi yazılarda sənətkarlıq baxımından müəyyən nöqsanların da olması mümkündür. Bu təbiidir və bağışlanandır. Axı, məqsədimiz həm də yazarlarımıza çap olunmaq şansı yaratmaq, püxtələşmələrinə yardım etmək, daha samballı əsərlər yazmağa həvəsləndirmək, inkişafına nail olmaqdır.

Bölgədə jurnal buraxmağın məsuliyyətini və ağırlığını söz adamları, xüsusən mətbuatda çalışan insanlar yaxşı bilirlər. Heç bir maddi təminat olmadan jurnal üçün materialların yığılması, hazırlanması və çap edilməsi səbr, dözüm və fədakarlıq tələb edir. Xüsusən indiki zamanda, insanların daha çox sosial şəbəkələrə meyl etdiyi dövrdə müəllifləri jurnal ətrafında birləşdirmək çox çətindir. Bütün bunlara baxmayaraq biz bu çətinliklərə sinə gərməkdə davam edirik.

Bəli, bu gün bütün "Şəfəq"çilər, müəllif və oxucular ölkənin ədəbi cameəsində sevilən, ədəbi nəşrlər içərisində özünəməxsus yeri olan belə bir jurnalın varlığına sevinməkdə və fəxr etməkdə haqlıdırlar. Bu həm də ölkəmizə, dövlətimizə və ədəbiyyatımıza xidmətin bariz nümunəsi kimi qürurvericidir.

Bu yubiley günlərində bütün "Şəfəq"çiləri; müəllifləri, oxucuları təbrik edir, onlara ədəbi fəaliyyətlərində və şəxsi həyatlarında uğurlar arzulayıram.

**REDAKSİYADAN:** 22 may 2026-cı il tarixdə AYB-nin Natəvan klubunda "ŞƏFƏQ" jurnalının 35 illik yubiley tədbiri keçirildi. Tədbirdə AYB-nin rəhbərliyi, cənub bögəsinin yazarları, ziyalılar və Bakı şəhərində yaşayan söz adamları, o cümlədən "Xəzan" jurnalının baş redaktoru yazıçı Əli bəy Azəri iştirak etdi. AYB sədrinin müavini, Respublika Mətbuat Şurasının sədri Rəşad Məcid tədbirdə çıxış edərək jurnalın cənub ədəbi mühitinin formalaşmasında və inkişafında, ümumən Azərbaycan ədəbi-bədii mühitin zənginləşməsindəki rolunu yüksək qiymətləndirdi və Şuranın "DİPLOM"unu baş redaktor Qafar Cəfərliyə təqdim etdi. AYB katibləri Səlim Babullaoğlu, İlqar Fəhmi, Elçin Hüseynbəyli, ədəbi tənqidçi Vaqif Yusifli, şairlərdən Ağacəfər Həsənli, Fəxrəddin Teyyub, yazıçı Nurəddin Ədiloğlu və digər çoxsaylı çıxış edənlər jurnalla bağlı arzu və istəklərini, təbriklərini çatdırdılar.















# ZEYNƏB CƏMALƏDDİN

## DƏRYADAN DAMLALAR
(Xəyalımla deyişmə - divani)

-Haqq-salamı unutmayıb, salam desəm, yeridir,
Konül mülküm cəng yeridir, sınaq-savaş yeridir.
Mərifətdən kəm olana qoşulmağın xeyri yox,
Kor buraxmaz tutduğunu, öz sözünü yeridir.

-İncə məqam, nazık mətləb çatdıran sim sarıdır,
Həsrət qəlbə vursa yara, yar yarına sarıdır1.
Qərinələr gəlib keçır, bu dərdin çarəsi yox,
Vətənindən ayrı düşən göz - Vətənə sarıdır.

-Dörd tərəfdə möcüzələr, görən görür, dan görüm,
Dünya fanı, amma şırın, gəl ona aldan görüm.
Bir qaşıq min dərdə dəva, danış o baldan görüm,
O kimdir ki, Əl-Əlimdır, Əl-Həyydir, Əl Zaridir2?

-Şübhəsizdir, xırda dənin vardır böyük hikməti,
Min-min arı bir sistemdə çəkir türlü zəhməti.
Yerə bu ecaz varlıqda endiribdi rəhməti,
O Allahdır, oyanıqdır, olümsüzdür, diridir.

-O kimdi ki, yarananda Rəbbi idi həmdəmı?
Kim onu haqdan azdırdı, çoxaldı dərdi-qəmi?
Bilməz gedir doğru yola, yoxsa yanlış səmtəmi?
Amma yenə səcdə edən, tövbə edən biridir.

-Məqamını uca etdi yaradanda Adəmi,
Həvva üçün buğda dərib, dərk etdi kədər-qəmi.
Bir əli xeyrul-əməldə, biri körüklər dəmi,
Günahını utanmadan cin-şeytana sırıdır3.

-Habillə Qabildən qalıb çəkişmələr, qovğalar,
Ortalığa hər fəsadı həsəd, tamah qor salar.
Əsədullahul-Qalibin4 adı düşmən qarsalar,
Sevən ürəklərdə yaşar yüz illərdən bəridir.

-Cəng meydanın çulğalayan coşqun bir dağ seliydi,
Kafirin başı üstündə əsən səmum yeliydi.
Əbu Talıbdir atası, özü Həzrət Əliydi,
Atı Düldül, Zülfüqarlı, o, Allahın şırıdir.

-Bu dəyərlərlə gəlmışik, adlayıb, yüz illəri,
Dünya durmadan dolanır, dəyişdirir hədləri,
Uzanmışdı torpagıma, kəsdik namərd əlləri,
İlham ilə yumruq olan ərlərin hünəridir.

-Sual versən, dövrümüzdə ərlər, ərənlər hanı,
Nə sanırsan, bu zamanda yoxmu igidlik kanı.
Qanla suvardı torpağı, rədd elədi düşmanı
Həm şəhiddir, həm qazidir, həm Koroğlu nəridir.

-O kimdi ki, Tanrısına sanki, düşübdür ası
O kimdi ki, gələcəyə böyükdür iddiası,
Ver cavabı, sualımın hələ vardır dahası,
Dünənki ağ qu quşunun bu gün rəngi qaradır.

-Uçan, qaçan hər nə varsa, dəyişdirir baxtını,
Bioloji mühəndislık boş keçirtmir vaxtını.
Gündən günə bu aləmdə ucaldaraq taxtını,
Gizli-aşkar yeni növlər, yeni fərdlər yaradır.

-O kimdi ki, vaqif olub, yey tanır səndən səni,
Gizli deyil istəklərin, anlayır gendən səni.
Gah həkimdi, gah müəllim, alır əlindən səni,
Gah mürəbbi, gah lələdi, hər nə cindi, pəridi.

-O izləyir hər varlığı, hər gülü, hər yarpağı,
Həm gecəni, həm gündüzü, həm səhər, axşam çağı.
Ürəyində gizlədiyin oxunmayan varağı,
"Big Data"dır, hər tərəfdə gözləri var, "iri"dir.

-Mən Zeynəbəm, qanadlanan ruhuma pərvaz gəlir,
Hər sözü qoydum mizana, çəkmişəm, taraz gəlir,
Dəryadakı bu damlalar indi mənə az gəlir,
Kəlmə olub, şəkillənən gözlərimin fəridir.

-Bəzən həzin bir nəğməyəm, bəzən dilsiz bir daşam,
Dönəcəyəm bu torpağa, torpaqdan yoğrulmuşam.
Ömrün xəzan fəslindəyəm, gah payızam, gah qışam,
Zeynəb, çoxdan enişdəsən, demə ömür yarıdır.

**16.08.2023**

1 - yarasını yarına sarıdır. (sarıtdırır)
2 - Əl-Əlim - hər şeyi bilən, çox elmli , Əl-Həyy - diri, Əz-Zari - yaradan (yaxud bəndələrinin aqibətini müəyyən edən)
3 – Günahını şeytana sırıyır, şeytanı günahlanırır
4 - Əsədullahul-Qalib – Həzrəti Əlinin ləqəbi

## AĞILLI GÖZƏL
(rəvayət)
***Anamın uca xatirəsinə ithaf edirəm***

Bağçalar arası cığır boyunca,
Bir gözəl gedirdi, boyu sərv, uca.

Çatılmış qaşları qoşa qanaddı,
Upuzun kipriyi gözə inaddı.

Düzülüb çəpərtək ala göz üstə,
Gözləri görəni edərdi xəstə.

Yanağı qar üstə qızılgül alı,
Mərcan dodaqları sanki dağ balı.

Sərvə bənzəyirdi incə qaməti,
Tanrı xoş çağında verib neməti.

Çiyninə sürüşən bəyaz örpəyi,
Ovuca yerləşən Basqal ipəyi.

Hər iki tərəfi yolun bağ-bağat,
Yaşıllıq qəlbinə verir xoş ovqat.

Həyatın səsiydi quşların səsi,
Üzünü oxşayır bahar nəfəsi.

Gözəl qız gedirdi qəlbi fərəhli,
Görənsə sanardı deyil Yer əhli.

Cığıra qaraltı uzandı birdən,
Yol üstə bir insan çıxdı qəfildən.

Gözləri qamaşan cavan bir kişi,
Ürək ovlamaqdı onun vərdişi.

Bir yeni macəra dadı alınca,
Düşdü o bu gözəl qızın dalınca.

Sevgidən danışdı, qəzəl söylədi,
«Heç aşıq olmadım əzəl» söylədi.

Qız susub gedirdi, cavab vermədən,
Qırsaqqız adamsa dinir durmadan.

Gözəli təriflə ram etmək çətin,
Soruşdu: «Bu işdə nədir məqsədin?»

Gənc kişi söylədi:»aşiqəm sənə,
Görəntək vuruldum gözəl çöhrənə».

Qız dedi: «Gəl məni dinlə sən bir az,
Mənim bacım kimi gözəl tapılmaz.

İşi yox inadla, ya qeylü-qalla,
Bir qədər arxada gəlir bu yolla».
Kişi çox sevincək geriyə qaçdı,
Güldü qız: «yalan da yaxşı əlacdı.

Başından etməyə nəfsi acları,
Üzündə olmayan ar-utancları».

Gənc adam gördü ki, yolda kimsə yox,
Özündən çıxaraq qəzəbləndi çox.

Qaçaraq yetişdi o, gözəl qıza,
Gözləri bənzəyən bir cüt ulduza:

«De, hansı cürətlə söylədin yalan,
Qəlbimi ovlayıb əlimdən alan?»

Gözəl qız sözünü dedi gülərək,
Söylədi, ey insan, gəl məndən əl çək.

Yolundan etmədim nahaq kimsəni,
Ey qafil, yoxlamaq istədim səni.

Sən məni sevsəydin ürəkdən, əgər
Eşqini şübhəyə edərdin sipər.

Görməzdi başqa bir sərvinaz gözün,
Qəlbimlə oynamaq istədin özün.

Eşqin, sədaqətin adı çox uca,
İndisə boş yerə gəlmə dalımca.

Kişinin qızardı gözünün ağı,
Dinmədən başını saldı aşağı.

Utandı, peşiman öz əməlindən,
«Bağışla» sözləri çıxdı dilindən.

Səhvini anlamaq, o da bir işdi,
Gözəldən ayrılıb yolun dəyişdi.

**04.05.2026**

## XƏYALLAR

Yenə ayaqlarım götürdü məni,
Üstü bənövşəli köhnə dəftərə.
Özümü aldadıb guya örtmüşəm
Keçmişə qapını mən nahaq yerə.

Bir duman içində açılır qapı,
Vərəqlər astaca xışıldadıqca.
Qapının dalından baxır qıyqacı,
Xəyallar çağırır məni açıqca.

Bu gizli aləmi ziyarət edib,
Bəlkə də unutmaq istəmirəm mən?
Çəhrayı buludlar - çəhrayı yelkən,
Çəhrayı yağışda islanan mənəm...

Dəftər arasında saralmış vərəq,
Qat kəsib dəftərin orta yerində.
Bir həzin sədaya dönür kəlmələr,
Bir ağrı sızlayır incə, dərində.

«Mən səni görəntək inandım, gülüm,
Ömrümə yazıldın, ömrüm, inan ki»
Quruyub bozarmış bir zərif çiçək,
Sözlərin altında möhürdü sanki.

Zaman bulaq təki arınıb axır,
Sovrulur, verdiyin bir də alırmış.
Ürəkdə qoyulmuş məsafələrdə
Ayrılıq keçilməz çəpər olurmuş.

... Qopub xəyalların cazibəsindən
Örtürəm dəftəri əllərimdə nəm.
Titrəyib astaca görünməz olur,
Bənövşə qoxulu, nağıllı aləm.

**19.03.2026**

## ADAMLAR

Biri beşə qatlayır,
Fitnə-fücur adamlar.
Həyatına adlayır,
Elə bu cür adamlar.

Yüz hiyləylə, kələklə,
Əsdirdiyi küləklə,
Oğurlanan lələklə,
Göylə uçur, adamlar.

Düzlük şərt deyil, demək,
Bəzən boş gedir əmək.
Ucuz olub nan-nəmək,
Yeyib-ıçır adamlar.

Geydiyi köynək sıxır,
Gah asiman, gah çuxur.
Ucalmağa vurnuxur,
Yerə köçür adamlar.

**09.05.2026**

## LƏTİFƏ XANIM

***Yasamal MKS-nin direktoru, tarix üzrə fəlsəfə doktoru, gözəl ziyalı və xeyirxah insan Lətifə xanım Məmmədovaya ithaf olunur***

Sözünün ağası, sözünün əri,
Bir məhək daşıdır Lətifə xanım.
Xeyirxah mələkdir, xeyirxah pəri,
Üzüyün qaşıdır Lətifə xanım.

Ruhundan süzülür nurun ziyası,
Dünyaya gələndən yolu bəllidir,
Qəlbində böyüyür xeyrin mayası,
Məramı ucadır, xoş əməllidir.

Qırılmaz əzmi var, daş iradəsi,
Tanrıya, insana əhdə vəfadar.
Ürəkdən ürəyə körpüdür səsi,
O qədər qayğı var, sevgi, güvən var.

Zaman - İlahinin əzəl fürsəti,
Bilir o qədrini hər ötən anın.
Kimsənin könlünü incitməz qəti,
Gözəl ziyalıdı Lətifə xanım.

Yaşayır ömrünü sadiq əhdinə,
Anadı, nənədi, yardı fədakar.
Ayların zəhməti sıgsa bir günə,
Bir insan ömrünə gör nələr sığar.

Qara gözlərində günəş ziyası,
Könüllər içində könlüdür,- xası.
Ən böyük arzusu Tanrı rizası,
Ən böyük qazancı - elin duası.

**29.08.2025**

## XANIM İSMAYIL

***Dəyərli ustad şair-bəstəkar Xanım İşmayılqızına ithaf***

Ruhu arındırıb gözəlləşdirən,
Nəğməli axındı Xanım İsmayıl.
Mehriban əl kimi dərdi dindirən,
Ürəyə yaxındı Xanım İsmayıl.

Notlara qarışıb dönür nəğməyə,
Könlü çox bənzəyir həzin bir neyə.
Eşqini Tanrıya veribdir deyə,
Şeirə sığındı Xanım İsmayıl.

Xəfif yel oynadan ruhu bir pəri,
Olsa da yaranmış bəşərdən biri.
Qismətdə, qədərdə ayrıdır yeri,
Söz oldu, oxundu Xanım İsmayıl.

Nəğməsi, sözləri münəvvər[1] miras,
Elinə ərmağan edər, yorulmaz.
Kədərli çağımda dinlədim bir az,
Ruhuma toxundu Xanım İsmayıl.
Ürəyə yaxındı Xanım İsmayıl.

**28.03.2026**

## TƏKQAFİYƏLİ SONET

Vurar can evindən xəyanət, yalan,
İnsanın ruhunu eyləyər talan.
Xain öz içində gizləyər ilan,
Görərsən, fəsadmış üzü dost olan.

Maneə sayılmaz yolda hər dalan,
Daşda da gül açar, əzmlər, inan.
İnsanı yanıldar bəlkə zər-palan,
Ağılla ucalan olmaz alçalan.

Nə yersiz lovğalan, nə də xırdalan,
Su tökmə, - kor quyu deyildir dolan.
Zamanı əridib olma sarsılan.

Bilinməz realdır, ya nağıl-filan,
Ömürlər əmanət, gözəllik solan,
Fəqət iz saxlayıb əməldir qalan.

**21.04.2026**

## YAZARAQ DANIŞIRAM

Yalançı ümidlərin taxtını devirmişəm,
Səssizliyin mənə xas aləminə girmişəm,
Qırıldıqca üzümü özümə çevirmişəm,
Susaraq danışıram.

Xəzrilərə çevrilib daha bahar nəsimi,
Hər üzünü görmüşəm mənə «əziz» kəsimin.
Qayalara toxunub duyulmayan səsimi,
Qısaraq danışıram.

Eh... Məni sevməyənlər, yığışın bir araya,
Kam almaqdı qəsdiniz, di düzülün sıraya,
Əlimi qəlbimdəki o görünməz yaraya
Basaraq danışıram.

İstəmirəm bıçaqtək iti kəsən söz dəyə,
Bağlamışam qəlbimi, görünməsin özgəyə.
Sükutu gözlərimdən pərdəlik olsun deyə
Asaraq danışıram.

Dəyişilir tərkibim[1], qəm çoxalır gilimdə,
Əriyirəm, bişirəm hələ yanan külümdə.
Ürəkdə çağlayan söz düyün düşür dilimdə,
Yazaraq danışıram.

**24.04.2026**

[1] İnsan torpaqdan, gildən yaranıb. Orqanizmdə (tərkibdə) maddə və minerallarin balansının dəyişməsindən əhval dəyişir.

## GÖZ İLƏ QAŞ ARASINDA

Yaşayır, çalışır vuruşur insan,
Çırpınır yaz ilə qış arasında.
Arzuya yetişmək deyildir asan,
Ələnir ürəklə baş arasında.

Yolları yoxuşdu, daşlı-kəsəkli,
Gedirsən, gözündə bir zirvə şəkli.
Gah toran görünür, gah da bəzəkli,
Qalmısan kəsəklə daş arasında.

Yolunda nə ləldi, parlayır yaman,
Almasan peşiman, alsan peşiman.
Getməyə ürəyin verməsə aman,
Dönərsən heyiflə kaş arasında.

Zeynəba, sanırsan, dağlar aşırsan.
Ay canım, özünlə bil yarışırsan.
Əcəldən qaçaraq yaxınlaşırsan,
Əcəl də göz ilə qaş arasında.

**11.02.2026**

## NİYƏ GETDİN?

*Minarə İsgəndərə ithaf*

Qəlbinin işığı gözündə idi,
Qəfildən bürüdü çən, niyə getdin?
Hələ də cavandı ruhunun yaşı,
Ələndi saçına dən, niyə getdin?

Güzarın düşübdü özgə bir bağa,
Cənnəti-İrəmə köçüb qalmağa,
Söz ilə dürr düzüb sədəf salmağa,
Deyirdin gələcəm mən, niyə getdin?

Qəlbini nə yordu, düzün bilirsən,
Nəğmətək şirindi sözün, bilirsən,
El səni sevirdi, özün bilirsən
Həsrətə qoşulub sən niyə getdin?

Ölümmü yalandır, həyatmı yoxsa,
Bu yanda uyudan oyatdı yoxsa,
Bu ölçü özgə bir boyutdu yoxsa,
Düşmüsən bu qədər gen, niyə getdin?

Ay mənim yuxuma gələn Minarə,
Ümidə sarılıb gülən Minarə,
Zeynəbi həmdəmi bilən Minarə,
Ay üzü gülənim, şən, niyə getdin?
Sözləri yadigar, sən niyə getdin?

**12.04.2026**

## NUH BABAMIZ, HARDASAN?

*Satırık şeir*

Yağış yağır, göy damarın qırıbdı,
Sel-su gəlir, Nuh babamız, hardasan?
Ev topuğa, yol dizəcən, su altda,
Maşın batır, kor yabımız, hardasan?
Sel-su gəlir, Nuh babamız hardasan?

Tappa-tupla damır kasıb daxması,
Boğazında düyünlənir loxması.
Qab-qaşıqla durur suyun axması,
Vedrə-filan, tas-qabımız, hardasan?
Sel-su gəlir, Nuh babamız, hardasan?

Min il qabaq daş mağara dam-daşım,
İbtidai insan olub yoldaşım.
Arxivimdə qurdalanır yaddaşım,
Asma ocaq, yer sobamız, hardasan,
Sel-su gəlir, Nuh babamız, hardasan?

Boş zamanı gəl çevirək fürsətə,
Cəhrə nənə çox da gedib rəhmətə.
"Vatsap" ilə açılmamış qiybətə,
Öz tayımız, öz babımız, hardasan,
Sel-su gəlir, Nuh babamız, hardasan?

**28.03.2026**

## BAŞ ADIM

Bu həyatın dərslərinin xeyri yox,
Çünki ürək sındırmağa naşıdım[1]
Məni saran sevgilərin çatı çox,
Mənmi görən yara açıb qaşıdım?

Gah kəpənək qanadıyam, gah kənək[2],
Arzularım yağış döyən biçənək.
Ümidlərim budaqlanan bir tənək,
İkisinin arasında yaşadım.

Görmədilər aydan arı qəsdimi,
Günü-gündən qopuz ürək susdumu?
Dodaqları hilal olan dostumun
Gözlərində ikilikdən üşüdüm.

Öz dilimi yaraladı sözüm də,
Yolum yoxuş, gücə düşdü dizim də.
Dumanları zirvə kimi gözümdə,
Buludumu ürəyimdə daşıdım.

Güvənimdən düşdüyüm yer qəm dərə,
Parçalandı ürək bəlkə min yerə.
«Zeynəb» yazıb qol da çəkdim dəftərə -
«Küllərindən doğulan»dı baş adım.

**02.04.2026**

[1] naşı idim (şivə)
[2] kənək - bərk qabıqlı qoz
[3] hilal - təzə çıxan ay, oraq formasında



VAQİF
ƏSƏDOĞLU

# SƏRVƏT VƏ MƏHƏBBƏT

**(fantastik hekayə)**

Okeanın qumlu sahilində oturub qəmli-qəmli üfüqə baxan gənc oğlan nədən bu qədər məyusdur. Onun dərdi böyükdür – sevdiyi qızdan ayrı düşmüşdür. Taleyi ona hər cür fürsət vermişdi, ancaq Rikardo bundan yararlana bilmədi. O, yeddinci sinifdə oxuyanda Alisa onların sinfinə gəlmişdi. Sinif rəhbəri Alisanı Rikardonun yanında otuzdurmuşdu. Rikardo bundan məmnun olsa da üzə vurmamışdı, hətta bir qədər laqeydlik göstərmişdi, ancaq altdan-altdan qızı süzürdü, ta məzun olana qədər qızı süzdü-süzdü, sonra da ayrıldılar. Bu qədər. Bu da Rikardonun məhəbbəti.

Dənizin sahilində olanda Alisa hərdən onun gözünə görünürdü. Alisa dənizin üstündə yeriyə bilirdi. Bəli, düz tapdınız, Rikardo bir qədər havalanmışdı. Yaradanın bu oğlana rəhmi gəlsin!

Bu dəfə də onu görmək ümidi ilə okeana baxırdı. Onun başının üstündə bir ağ göyərçin uçmağa başladı, sonra sahildəki kötüyün üstünə qondu. Maraqlıdır, bu ağappaq göyərçin gözlərini niyə Rikardodan çəkmirdi. Onu müayinə edən həkim yəqin düz deyirmiş, Rikardonu hallustinasiyalar təqib edirdi. Rikardo gözlərini yumub özünü yuxuluğa vurdu ki, quş cəhənnəm olub getsin. Gözlərini açanda gördü ki, quş kötükdən düşüb ona bir az da yaxınlaşıb. Rikardo quşun üstünə qum atdı. Quş pırıldayıb uçanda dedi:

-Çox axmaq adamsan, mən sənə kömək etmək istəyirdim, ancaq sən mənə qum atırsan.

Rikardo diksindi: deyəsən, onun hallustinasiyası daha da şiddətlənmişdi.

Rikardo qorxulu-qorxulu evə getdi, ancaq fikri-zikri sahildə idi.

Bir neçə dəfə sahilə gəldi, Alisanı çox arzulayırdı, bir dəfə onu suyun üstündə yeriyən gördü və bundan başqa günlərin birində yenə ağappaq göyərçini gördü.

Rikardo bilmədi sevinsin, ya kədərlənsin. Quşla söhbət alınacaqmı?

-Göyərçin, sən mənə kömək edə bilərsənmi? Mənim dərdim böyükdür.

Quş dillənmədi, deməli Rikardonunku hallustinasiya imiş. Rikardo məyus-məyus mızıldandı:

-Deməli, mən sağalmaz xəstəliyə tutulmuşam.

Quş hirslə dedi:

-Oğlan, mızıldanma, danış, görüm dərdin nədir?

Rikardo diksindi, xaç çəkdi və tərəddüd edə-edə danışdı:

-Mən sinif yoldaşımı, yəni Alisanı sevirdim, yenə də ...sevirəm. O başqa bir ölkədə universitetə qəbul olub... biz ayrılmışıq. Bilmirəm nə edim.

-Elə bu?

-Sən bilən bu azdir?

-Mənnən söz güləşdirmə! Onu çoxmu görmək istəyirsən?

-Bəli!

-Bu dolğun cavab olmadı, çox, yoxsa lap çox?

-Lap çox, hətta dəhşətli dərəcədə!

-Onda sözümü dinlə. Mən uçub gedəndən sonra sahilə bir qayıq gələcək. Ona minərsən. Yolun çətinliklərindən qorxmasan, qayıq səni

Alisanın oxuduğu ölkəyə aparacaq.

-Dayan bircə dəqiqə, sənə inanmaq olarmı?

-Niyə olmur, mənə də Sehrbaz deyərlər!

-Göyərçin də sehrbaz ola bilərmi?

-Kim sənə dedi ki, mən göyərçinəm?!

Quş ucub gedəndən bir az sonra sahilə həqiqətən adamsız bir yelkənli qayıq üzdü. Rikardo qorxa-qorxa qayığa yaxınlaşdı, ehtiyatla əl vurdu, gözlərini yumdu, dizləri əsə-əsə qayığa oturdu.

-Nə olar-olar, mən qorxmayacam.

Qayıq sahildən xeyli uzaqlaşmışdı, Rikardo nə qədər səhv etdiyini indi başa düşdü, başına döyməyə başladı.

-Səni lənətə gələsən, göyərçin! Sən hallustinasiya imişsən, məni aldatdın.

Oğlan sözünü bitirən kimi qəfil fırtına başladı. Oğlanın qorxudan ürəyi getdi. Ayılanda özünü naməlum sahildə gördü. Sürünə-sürünə meşəyə tərəf üz tutdu, özünə bir daldanacaq tapdı. Bir neçə gün qorxudan komadan çıxa bilmədi, nəhayət, açından buranı tərk etdi, yemək axtarmağa getdi. Bir qədər tropik meyvələrlə qidalanıb özünə gəldi. Bir təpənin üstünə çıxıb ətrafı seyr etdi: bura bir ada imiş. İnsan səsi gəlmirdi. Hərdən vəhşi heyvanların səsi eşidilirdi. Rikardo qərara gəldi ki, yalançı heyvanların səsini eşidib yarımcan olmaqdansa, adanı yavaş-yavaş gəzsin, çarə axtarsın. Bir yerə çatanda insan səsləri eşitdi, buna çox sevindi, həmin tərəfə üz tutdu. Meşənin basırıq sahəsindən bir tala görünürdü. Burada kişilər oturub şərab içir, keflənirdilər və Rikardonun danışdığı dildə danışırdılar. Altı nəfərdən biri nisbətən ağsaqqal idi. Rikardo nisbətən təmkinli görünən bu ağsaqqala güvənərək məclisə yaxınlaşıb salam verdi. Sərxoş kişilər, çağrılmamış qonağın gəlişinə qətiyyən sevinmədilər, onu görəndə xaç çəkdilər.

Ağsaqqal hirslə soruşdu:

-Kim səni göndərib bura?

-Özüm gəlmişəm.

-De görüm, adaya nə vaxt və nə məqsədlə gəlmisən?

-Srağagün gəlmişəm, özüm gəlmişəm. Burada ada olduğunu bilmirdim, sadəcə qəzaya düşmüşəm. Dəniz səyahətinə çıxmışdım. Fırtına qopanda qayığın idarəetməsini itirdim.

-Motorlu qayıq idi?

-Yox, motorsuz.

-Nə, motorsuuz?! Sən kimə gəlirsən, ay axmaq, elə bilirsən mən sənə inandım? Motorsuz qayıqla da açıq okeana çıxarlarmı? Deməli, danışdıqların başdan ayağa yalandır.

Digər quldurlar gözlərindən yaş gələnə qədər güldülər.

Rikardonu tutub döydülər.

Ağsaqqal dedi:

-Sən bizim millətdənsən, ona görə də səni hələ ki, öldürmürük, sənə bir gün vaxt verirəm: səni kim göndərib və nə üçün göndərib, bunları deməlisən, yoxsa, öldürüləcəksən... Bunu atın zirzəmiyə! Hər şeyi boynuna alsa, bizim yanımızda sülənər, özünü pis aparsa, boynuna almasa o məsələ... bunu heç tövsiyyə eləmirəm.

Rikardonu tutub bir zirzəmiyə saldılar.

Ağsaqqal üzünü komandasına tutub soruşdu:

-Srağagün növbətçi kim idı?

Bir nəfər irəli çıxıb boynunu bükdü:

-Mən idim, - dedi.

Ağsaqqal qəzəbləndi:

-Zəhirmar mən idim! Dəfələrlə deməmişəm ki, birinci postda ayıq-sayıq dayanın? Təpədən binoklla adanın bütün sahilini nəzarətdə saxlayın!.. Səni də, deyəsən, qatmalı olacam bu yaramaza. Əgər şef bu hadisəni bilsə, vay bizim halımıza. - Bir qədər sakitləşib dedi. - Gedin sahili gəzin, görün, həqiqətən bu təlxəyi gətirən qayıq varmı?

Kişilər dəstələrə ayrılıb sahili yoxlamağa getdilər və iki saatdan sonra xəbər gətirdilər ki, həqiqətən də bir qayığın sahildə qırıqları qalıb.

Ağsaqqal bundan məmnun olub bir qədər sakitləşdi və dedi:

-Hər halda arxayınlaşa bilmərik. Sabah sübh tezdən durarıq, günortaya kimi malları yükləyib materikə yollanarıq. Bu dəfə özümüz aparaq. Kuryerlərə inanmaq olmaz, onları hərdənbir yoxlamaq lazımdır. Mən və daha iki nəfər şəhərə gedəcəyik. Üç nəfər isə burada qalacaq. Sabaha qədər içki qadağandır.

Ertəsi gün günorta çağı quldurların canına vəlvələ düşdü: uçan aparat quldurlara havadan qumbara atırdı. Quldurlar da silahlanıb havaya güllə yağdırdılar.

Ancaq uçan aparat qeyri-adi idi: insana oxşayırdı və güllələrdən məharətlə yayına bilirdi. Bundan başqa özünə yönələn güllələri bumeranq kimi məharətlə əks istiqamətə yönəldirdi. Beləliklə, quldurların atdığı güllələr qayıdıb özlərini məhv edirdi, ətrafda insan məxluqu qalmadı. Sakitlik çökəndə Rikardo birtəhər qapını sındırıb əsirlikdən xilas oldu. Bir-bir ölülərin vəziyyəti ilə maraqlandı, birindən başqa hamısı ölmüşdü. Rikardo yarımcan vəziyyətdə olana su verdi, yarasını bağladı. Bunun adı Con idi, hansı ki, Rikardoya qarşı aqressiv olmamışdı. Rikardo

bunun sağ qalmasına çox sevindi.

-Con, mən səni sağaltmağa çalışacam, ancaq sən də mənə kömək etməlisən ki, biz birlikdə bu xarabadan xilas olaq. Sənin yaran dərin deyil, qorxma, sağalacaqsan.

-Yaxşı, qorxmuram, ancaq, de görüm, sən Kakadu adasına necə gəlib çıxmısan?

Rikardo tərs-tərs kişiyə baxdı və dedi:

-İndi də sən başladın? Tövsiyyə edirəm, sağalmaq barədə düşünəsən. Mənim macəram qalsın sonraya.

-Yaxşı razıyam, - Con ağaclara tərəf boylandı, - Sən get o aşacın cənub tərəfindəki otlardan yığ gətir.

Con Rikardonun gətirdiyi otlardan bəzilərini seçib Rikardoya qaytarıb dedi:

-Bunları əz, sarğını aç, qoy yaramın üstünə, sonra yenə bağla.

Rikardo belə də etdi.

Con bir az özünə gəlib dedi:

-Rikardo, bu nə möcüzə idi? Gördün, uçan aparat insana necə oxşayırdı? Əyninə də qəribə kombinezon geyinmişdi.

-Düz deyirsən, möcüzə idi, ancaq o aparat deyildi, məhz insan idi.

-Sən nə danışırsan, insan da uça bilərmi?

-İnsan dənizin üstündə gəzə bilərsə, deməli, uça da bilər!

-Yox, qardaş, mən inanmadım. İnsan nə uça, nə dənizin üstündə gəzə bilməz.

İnsanın uçmağını mən öz gözlərimlə sirkdə də görmüşəm, bir gözəl qızın dənizin üstündə gəzməyini isə həmçinin öz gözlərimlə dənizin sahilində oturanda görmüşəm.

Con tezliklə sağaldı. O, Rikardonu adada gəzdirdi, narkotik bitkilərin və üzümlüklərin yerini göstərdi. Onlar yatağa qayıtdılar, xeyli şərab içdilər və narkotikləri, şərabı qablara yığıb quldurların kateri ilə materikə daşımağı planlaşdırdılar. Ertəsi gün malları katerə yükləyib materikə yollandılar. Hava çox əlverişli idi. Onlar materikə çatanda hava qaralmışdı. Bir yük maşını tutub malları Conun tanıdığı məntəqələrə payladılar, xeyli pul əldə etdilər. Rikardonun əlinə heç vaxt bu qədər pul dəyməmişdi. Adada bundan on dəfə artıq mal qalmışdı. Rikardo qazana biləcəyi məbləği hesablayanda gözünə işıq gəldi. Rikardo özünü adanın sahibi yerində hiss etdi, Con da onun köməkçisi olsun, bundan artıq olmaz, axı Con ona həyatına görə borclu idi.

Çətinliklərə dözməyə dəyərmiş: Rikardo adadan qayıtdıqdan sonra imkanlı, buna görə də özündən razı, hətta lovğa bir adam olmuşdu, qazana biləcəyi pulları hesablayanda isə ayaqları yerdən üzülür, lap buludlarda uçurdu. Valideynləri və dostları da onun dəyişməsinə məəttəl qalmışdılar. Rikardo sanki xoşbəxt idi, ancaq həyatında bir şey çatışmırdı, bəli, bu Alisa idi! Rikardo yenə dəniz sahilinə gəlir, sahildə oturub Alisanı arzulayırdı. Ancaq Alisa onun gözünə görünmürdü. Rikardo bundan çox üzülürdü. Ancaq məsələnin yaxşı tərəfi də var idi: Rikardo həyatda özgüvənlik qazanmışdı deyə, o ruhən sağalmışdı və hallustinasiyalar onu təqib etmirdi.

Rikardo keçmiş sinif yoldaşlarından eşitdi ki, Alisa yay tətilinə gəlib, çox sevindi, Alisagilə getdi, qapının zəngini çaldı və qapıya məhz Alisa çıxdı, qız qapının ağzında tam yenilənmiş bir Rikardo gördükdə bundan çox təəccübləndi. Rikardonun əyin-başı, səliqəsi, nəzakəti inanılmaz idi, ancaq lovğalığı bir az artıq idi. Rikardo Alisanı gəzintiyə dəvət etdi. Onlar Aqoniyanın dənizkənarı bulvarına getdilər, rəqs meydançasında oynadılar, yorulanda skamyada oturub şirin-şirin söhbət etdilər, dondurma yedilər, restorana getdilər, oradan çıxıb sirkə getdilər. Sirk proqramının finişində bir oğlanın dairəvi uşuşu onları heyran etdi.

Sirkdən çıxanda Alisa dedi:

-Kaş, mən də uça biləydim!

Rikardo dedi:

-Mən oğlanın uçuşuna baxanda başım hərləndi, ürəyim bulandı. Özü də oğlan yalandan uçurdu, bu nömrə gözəgörünməz nazik simlərlə idarə olunur.

-Hər nə isə Pereyra bunu möhtəşəm yerinə yetirir. Mən onun uçuşuna aşiq oldum.

-Ey! Alisa! Özünü yığışdır! Birdən oğlanın özünə aşiq olarsan!

Zarafata ürəkdən gülüşdülər.

Bu dəfə Rikardo Alisanın çox xoşuna gəlmişdi və onunla görüşməyindən, keçirdiya zamandan razı qalmışdı.

Onlar ayrılanda Rikardo Alisaya adaya səyahət etməyi təklif etdi, Alisa məmnuniyyətlə təklifi qəbul etdi.

Ertəsi gün Rikardo, Alisa və Con katerə minib adaya yollandılar. Meşə yolu ilə gedəndə insan səsləri eşitdilər. Bax, bu heç yaxşı şey vəd etmirdi. Bir münasib yerdə Alisanı gizlətdilər, özləri isə qorxa-qorxa irəlilədilər, mallara yaxın olan bir yerdə gizləndilər. Adamlar da elə malları daşımaq haqqında danışırdılar. Bu məsələ barədə razılığa gəlinəndən sonra adamlardan biri dedi:

-Bu adada altı nəfər qalırdı, ancaq biz beş meyit gördük, deməli biri qaça bilib, o haradasa bu meşəlikdədir, onu da öldürüb, başqaları kimi yandırmaq lazımdır.

Söhbətin bu yerində quldurlardan biri yerindən qalxıb ətrafa boylandı. Rikardo ilə Conu görəndə həyəcanla qışqırdı:

-Tutun onları, bizi güdən var! Bir deyil, iki nəfərdir!

Qaçmaq mümkün olmadı Rikardo və Con tutuldular.

-Bax, bu Conu biz tanıyırıq, Con sən də bizi tanıdınmı? Yadındamı, qiymətdə güzəştə getmirdiz. Sizin ağsaqqalı kim gəbərdib? Bu işdə sənin də əlin varmı? Sən nə qoçaq oğlansan! - bu sözləri deyən quldur Conun üzündən öpdü, sonra da bir yağlı şillə çəkdi, - bəs bu yaramaz şəhərli oğlan hardan çıxdı! Yəqin sevgilisi ilə görüşə gəlib!

Quldurlar gözləri yaşarana qədər güldülər.

-Ancaq özü öz ayağı ilə ölümə gəlib!

Sorğu-suallara alınan cavablar quldurları qane etmədi, Rikardonu və Conu zirzəmiyə saldılar ki, sabah qul kimi işlətsinlər.

Ertəsi gün mallar katerə yüklənəndə onları o ki var işlətdilər, ancaq Rikardo və Con ölümə tələsmirdilər, elə bil xilas olmaq üçün hansısa bir möcüzəyə inanırdılar.

Günortadan sonra səmada uçan obyekt peyda oldu. Quldurlar silaha əl atdılar, ancaq, əlbəttə ki, Pereyra buna hazır idi: gülləleri bumeranq kimi atəş nöqtəsinə qaytarırdı. Beləliklə, quldurların hamısı gəbərdi. Pereyra nəticəyə əmin olmaq üçün aşağıya endi, ətrafa boylandı. Rikardo onu tanıdı:

-Pereyra, biz adaya gəzməyə gəlmişdik, bu yaramazlar bizi əsir götürdülər. Ancaq bir əsir də var, onu təcili tapmaq lazımdır.

Onlar Alisanın gizləndiyi yerə getdilər. Alisa yarımcan vəziyyətdə idi, qorxudan tir-tir əsirdi. Rikardo ona yaxınlaşıb nəvaziş göstərəndə, əvəzində bir sağlam sillə yedi. Hadisəni Pereyraya danışdılar. Pereyra eşitdiklərindən çox məyus oldu, Alisanı özü ilə götürüb öz katerinə apardı. Rikardoya bəlkə də elə bu lazım idi. Onlar bir gün adada ləngidilər ki, yolda Pereyra ilə rastlaşmasınlar.

Pereyra Alisanı öz kateri ilə Aqoniyaya apardı. Yolda qıza hər cür qayğı göstərdi ki, özünə gəlsin. Alisa özünə gələndə Pereyranı tanıdı və bundan çox sevindi.

-Pereyra, sən həqiqətənmi simlərlə uçursan?

-Yox-yox, bu hardan ağlına gəldi? Bir bax, dənizin üstündə sim ola bilərmi?

Pereyra katerdən hoppanıb uçmağa bağladı.

-Pereyra, mənə də öyrət, mən də uçmaq istəyirəm.

-Tələsməə, öyrədərəəm! Sükanı möhkəm saxla, sən mənə uçmaq üçün daha da ilham verdin, Alisaa!

Onlar Alisanın evinin qarşısında dost kimi qucaqlaşıb ayrılanda Pereyra Alisaya dedi:

-Alisa, ada mənimdir, dövlətdən pulla almışam, ancaq hələ sənədləri təsdiqlənməyib, istəyirsən sənə orada villa tikim. İndi isə mən getməliyəm, mənim şəxsi sirkim var. Gedib yeni sezonu açmalıyam.

Yay tətilinin sonunda Alisa Rikardoya təəsüf ifadə edən bir mesaj göndərdi, üçüncü kursda oxumaq üçün təhsil aldığı ölkəyə yollandı. Pereyraya isə belə bir mesaj göndərdi: ”Əziz dostum Pereyra, mənə villa lazım deyil, sadə bir kənd evi tikdirməyin kifayətdir. Yayda adada istirahət etmək üçün. Bir də özünü quldurlardan qoru, sən mənə dost kimi çox lazımsan. Səni sevən Alisa!“

Pereyra cavabında yazdı: “Əzizim Alisa! Sən mənim üçün dostdan da artıqsan. Səni sevən Pərviz, yəni Peryra da Silva”. Bu mesaj Alisa üçün sanki tapmaca idi, ona görə də anlamadığı məqamları Pereyradan soruşmaq istədi, ancaq düşündü ki, onunla əyani görüşəndə soruşsa daha münasib olar.

***

Rikardo mesajın məzmunundan çox məyus olmuşdu, bir müddət tənhalığa qapıldı. Ancaq bu hal uzun sürmədi, Rikardo topladığı varidatla həyatda təsəlli tapdı. Əsas məsələ hallustinasiyadan tam xilas olmuşdu.

***

Pereyra Monte-Sento dağının ətəyində bir istirahət və əyləncə mərkəzi açdırdı, restoran tikdirdi, dağın başına səyahət etmək üçün kanat inşa etdirdi, bunları istifadəyə verib daha da zənginləşdi, ancaq nə isə çatmırdı. Alisa tətilə gələndə onu sevindirmək üçün bunlar az idi. Pereyra qərara gəldi ki, bir neçə deltaplan da alsın ki, Alisa da onunla birlikdə uça bilsin, insanlara da uçmaq həvəsini aşılasın. İşlər başa çatan kimi Pereyra Alisaya xəbər göndərdi. Alisa dayana bilərdimi, bir həftəlik özünü xəstəliyə vurub dərslərdən icazə aldı, təyyarə ilə təcili vətəninə uçdu. Sonda isə Pereyra ilə qoşalaşıb dağdan üzü aşaşı uçdu. Ətraf qəsəbələrin sakinləri heyrət və həyəcanla onlara tamaşa edirdilər. Alisa ucadan dedi:

-Pereyra, çox sağ ol! Sən möhtəşəm oğlansaan!

Pereyra cavab verdi:

-Alisa, mən səni sevirəəm!

-Nə dedin, eşitmədiim!

-Deyirəm ki, mən səni sevirəəm!

-Bir daha de, külək əsir, yaxşı eşitmədiim!

-Alisa, mən sənə aşiq olmuşam, mən səni çox sevirəəm!

Mənzərəni tamaşa edən sakinlər ürəkdən əl çaldılar, başlarının üstündə uçan insanları alqışladılar.

Bir həftənin tamamında Alisa təhsilini davam etdirmək üçün qayıtdıqdan sonra Pereyranın əli işdən soyumuşdu, nəhayət, özünə gəldi və işlərini davam etdirdi.

Pereyra Kakadu adasına mühafizə xidməti təyin etdi ki, cinayətkarlar buraya ayaq basa bilməsinlər, ancaq bir dəfə oranı yoxlamağa gedəndə mühafizəçilərin orada olmadığını gördü. Onların öldürüldüyünü zənn edərək, hər yeri axtardı, ancaq meyitləri tapmadı. Ola bilər ki, onları qaçırtmışdılar.

Pereyra bilmədi nə etsin, nəhayət, polisə şikayət etdi. Polis onu müşahidə kameraları qoymamaqda günahlandırdı. Bundan sonra Pereyra adaya hava telefonu çəkdirdi, gizli kameralar qoydurdu. Polis işi prokurorluğa yönəltdi və bu barədə Pereyraya məlumat verdi.

Bir dəfə Rikardo ilə Con kanatla dağa çıxdılar, restoranda oturub xeyli şərab içdilər, sərxoş oldular, nəhayət, deltaplana bağlanmaq istəyəndə Pereyra buna imkan vermədi. Sərxoşlar buna hiddətlənəndə Pereyra şəhadət barmağını elana tuşladı: "Sərxoş vəziyyətdə deltaplanla uçmaq qadağandır!" Sərxoşlar kanata minib şəhərə qayıtmağa hazırlaşanda Con Pereyranı kənara çəkib dedi:

-Pereyra, sənə bir sirr demək istəyirəm, ancaq söz ver ki, heç kimə deməyəcəksən.

-Söz verirəm!

-Pereyra, adadan əlini üz, ora başqasınındı.

-Kimindi?

-Onu deyə bilmərəm.

-Oxu atıb yayını gizlətmə, de görüm kimindi. Namusuma and olsun ki, sənin adını heç kimə vermərəm.

-Onda qulağını bəri elə, baş nazirin müşavirlərindən birinindi. Vəssalam, mən getdim.

Kakadu adasının Pereyraya məxsus olması haqqında sənəd hələ də təsdiq olunmamışdı və belə getsə təsdiq olunmayacaqdı. İşin ləngimə səbəbi Pereyraya aydın oldu. Pereyra beynəlxalq xəritələrdə adanın varlığını araşdırdı və müsbət cavab aldı, yerli xəritələrdə isə adanın qeydiyyatı yox idi. Müəmmalı məsələ idi.

Pereyra Ətraf Mühit Nazirliyinə gedib bunun səbəbini araşdırmağa çalışdı və məntiqəuyğun cavab almadı: guya bura mübahisəli ərazi olub, indi Kentaqoniyaya məxsusdur və yaxın zamanlarda qeydiyata düşəcək.

Bir gün Pereyranı adam öldürməkdə təqsirli bilərək həbs etdilər. Kakadu adasında narkotik bitkilər yetişdirən, insan oğurluğu və qətli kimi cinayətlərlə məşğul olan adamların öldürülməsindən hüquq-mühafizə orqanları Pereyranı cəzalandırmaq üçün istifadə etdilər. Məhkəmədə Pereyraya ömürlük həbs kəsdilər. Kral Benedikdən sonra gələn kral ölüm hökmünü ömürlük həbslə əvəz etmişdi, ancaq bu Pereyra üçün yaxşı heç nə vəd etmirdi, bir dəstə öyrədilmiş məhbuslar xırda bəhanələrlə onu tez-tez döyürdülər. Bir dəfə isə Pereyra zəhərləndi, belə görünürdü ki, onu öldürmək istəyirlər. Pereyra bu haqsızlıqlara qarşı yeməkdən imtina etdi, nəticədə arıqlayıb tanınmaz hala düşdü. Onu tək adamlıq kameraya saldılar ki, guya öz əcəli ilə ölüb. Pereyra kamerada tək qalanda bir dəstə beynəlxalq müşahidəçı dustaqxanaya baxış keçirirdi, onlar "uçan adam" kimi tanınan məhbusu bu vəziyyətdə görəndə onun şəklini çəkdilər. İnformasiya kanalları ilə onun vəziyyəti və ona qarşı haqsızlıqlar haqda məlumat yaydılar. Həmin gecə paytaxt sakinləri mərkəzi meydana toplaşıb mitinq təşkil etdilər. Hökumətdən Pereyranın düzgün mühakimə olunmasını və azadlığını tələb etdilər.

Bu informasiya Avropaya da sızdı. Alisanın rəfiqələri "uçan oğlan"ın bəd xəbərini ona çatdırdılar. Alisa ağladı, rəfiqələri də ona qoşulub ağladılar, ancaq Alisa özündə güc tapıb tədbirlər planı hazırladı: ölkənin ən güclü, tanınmış vəkilinə müraciət etdi, Kakadu adasının və yaxın ərazilərin xəritələrini çıxartdırdı, Pereyranın atasının vaxtı ilə Kakadu adasında quldurların əlində qul olması və s. haqqında informasiya toplayıb vəkillə birlikdə təyyarə ilə Kentaqoniyaya uçdu. Burada vəkil məhkəmənin yenidən keçirilməsi üçün müraciət etdi, lakin onun müraciətini eşitmədilər. Belə olan halda Alisa şəhərin baş meydanına gəlib səsgücləndirici ilə əhalini mitinqə topladı və odlu-alovlu çıxış etdi:

-Ey mənim dəyərli həmvətənlərim! Sizin dünyaca məşhur həmvətəniniz "ucan oğlan" Pereyra da Silvanın həyatı təhlükə altındadır. Onu şərləyib həbsxanaya atıblar. Onu orada

zəhərləyib öldürmək istəyirlər. Baxın, onu nə günə salıblar. - Alisa böyüdülmüş şəkli izdihama göstərdi, Pereyranın halından insanların üzündə dəhşət ifadəsi yarandı. - Pereyranın indiyədək kimə isə pisliyi dəyibsə, xahiş edirəm, etiraf edin, çəkinməyin.

Camaatdan səslər gəldi:

-Heç bir pisliyini görməmişik!

-Pereyra bizim fəxrimizdir, onu öldürmək istəyənlər şərəfsizdir!

Alisa səsləndi:

-Bəs onun mərhəməti, xeyriyyəçiliyi haqda nə isə eşitmisinizmi?

-Əlbəttə eşitmişik, bizim məhəlləyə yol çəkdirib!

-Uşaq evinə hər bayram yardım göndərir!

-Bizim məktəbi təmir elətdirib!

Alisa səsləndi:

-İndi sizdən soruşuram, bu cür xeyirxah adam cinayətkar ola bilərmi? Cinayətkarları öldürəni cinayətkar saymaq olarmı? Bəli, Pereyra bir neçə canini öldürüb! Ancaq bunlar cəmiyyətin tərbiyəsini, sağlamlığını, hüzurunu pozan qüvvələr olub. Dövlət bunlara qarşı mübarizə aparmayıbsa, əksinə canilərdən öz məqsədləri üçün istifadə edibsə, bunların hesabına varlanıbsa, kimi məhkum etmək lazımdır, dövlət məmurlarını, yoxsa Pereyranı?

-Düz deyirsən, Alisa, əlbəttə, dövlət məmurlarını.

-Bəs, elə isə eşidin, bilin: Kakadu adasında və bu kimi bir sıra uzaq adalarımızda gizli iqtisadiyyat quran, bilirsiniz, kim olub? Əlimdə faktlar var, yanımdakı cənab vəkillə birlikdə toplamışıq: dövlətin baş naziri Leonardo di Stefano!

Bu adı eşidəndə izdihamda bir çaşqınlıq və tərəddüd yarandı. Alisa davam etdi:

-Qorxmayın, çəkinməyin! Baxın, mən Avropada təhsilimi yarımçıq qoyub onunla döyüşməyə gəlmişəm. Əgər biz həmrəy olmasaq, geri çəkilsək o bizi bir-bir dənləyəcək, ancaq həmrəy olsaq, ədalət qalib gələcək, onun yerinə bir vicdanlı insan gələcək.

İzdihamdan səslər gəldi:

-Rədd olsun baş nazir Leonardo di Stefano!

-Leonardo di Stefano rədd ol!

-İs-te-fa, is-te-fa!

Con da insanların arasında idi, izdiham onu cürətləndirmişdi deyə ucadan qışqırırdı:

-Baş nazir cinayətkardır, onun cinayətlərini öz gözlərimlə görmüşəm! Leonardo rədd ol!

Mitinqə toplaşanlar gecənin bir vaxtına kimi hökumət əlehinə, xüsusən Leonardo di Stefano əlehinə ifadələr səsləndirdilər. Xarici ölkələrin jurnalistləri, turistlər də mitinqə toplaşmışdılar. Kral hadisədən ağah olanda çox məyus oldu və təkid etdi ki, baş nazir və “uçan adam” bir müddət ev dustağı olaraq nəzarətdə saxlanılsınlar və qısa zamanda məhkəmə olsun. Məhkəməyə qədər Alisa vəkillə birlikdə lazım olan materialları, o cümlədən baş nazirin Kakadu adasına gizli gəlişlərini, orada icra olunan maliyyə əməliyyatlarını sübut edən videomaterialları hazırladı.

Məhkəmədə Leonardo di Stefanonun bütün cinayətləri, o cümlədən, Kakadu adasından Pereyranın mühafizəçilərinin qaçırılması da sübut olundu. Nəticədə Pereyra bəraət qazandı, baş naziri vəzifədən xaric etdilər, ona ömürlük həbs kəsdilər. Kralın cinayətdə iştirakı olmasa da o könüllü istefa verdi. Bundan sonra baş meydana toplaşan mitinqçilər qışqırırdılar:

-Yaşasın respublika, rədd olsun mütləqiyyət!

Bir aydan sonra ölkənin dövlət quruluşu respublika elan edildi.

Alisa Avropaya təhsil aldığı universitetə qayıtdı, rektorun qəbuluna gəlib dərslərdən çox yayındığı üçün utana-utana dedi:

-Cənab rektor, xahiş edirəm mənə dərsləri çox buraxdığım üçün bir illik fasilə verəsiniz.

Rektor qaşqabaqlı halda dilləndi:

-Heç vaxt, mən sizə fasilə verə bilmərəm.

-Niyə, axı mən obyektiv səbəblərə görə dərsləri buraxmalı olmuşam.

-Bilmirəm və bilmək də istəmirəm, vəziyyət başqa bir istiqamətə yönəlib. Gedin, səbəbini birinci mərtəbənin sol qanadında divara vurulan elanlar lövhəsində görün.

Alisa çox məyus oldu, kaş, ona töhmət verəydilər, amma universitetdən xaric etməyəydilər. Alisa sinəsinə xaç çəkə-çəkə elanlar lövhəsini axtaranda tapmadı, əvəzində şərəf lövhəsi gördü: “Universitetimizin məşhur xarici məzunları”, bunlardan biri də bizim mavigözlü Alisa idi. Alisa sevinə-sevinə rektorun yanına qaçdı, onun əllərindən öpdü və dedi:

-Cənab rektor, axı mən məzun deyiləm.

Rektor ciddiyyətini pozmadan dedi:

-Nə olsun, deyilsən, demək məzun da olacaqsan. Sən hüquq üzrə tələbə ola-ola cinayətkar baş naziri həbs etdirərək “uçan adam”ı xilas etmisənsə, demək, bizim fəxrimizsən! Sən insanlığın fəxrisən, Alisa! Mən sənnən fəxr edirəm! Get dərslərinə davam et!



ARZU HEYDƏROVA

# BİR ÖMRÜN HEKAYƏSİ

## *Şair Ədalət Bədirxanlının həyatı, yaradıcılığı və poemaları haqqında düşüncələrim*

*oçerk-müsahibə*

***Yaxşılar yaxşılıq toxumu əkir,***
***Acı arzulardan şirin yol çəkir,***
***Nəfsini ram edib evi dar tikir***
***Yaxşı kişilərin mərd oğulları.***

Elə o yaxşılardan biri haqqındadır bu yazım – Ədalət Bədirxanlı haqqında.

Ədalət Əyyub oğlu Bədirxanlı 30 may 1953-cü ildə Laçında dünyaya göz açıb. Laçın səmalarında qanad çalıb dövrə vuran qartalların, turac və bildirçinlərin, xınalı kəkliklərin vətənində, turşsu, istisu kimi mineral bulaqları, qızıl, civə, kükürd, qrafit, kəhrəba, mərmər, ipək daşı və çoxlu sayda digər zəngin faydalı qazıntıları ilə məşhur olan bir rayonda; ərazisində Alban mədəniyyətinin yadigarı olan qədim məbədin yerləşdiyi Çıraqlı kəndində, əməksevər bir ailədə doğulub.

Onu gördüyüm gündən görünüşünün və xarakterinin də Laçın kimi cənnət məkanın saf sularına, sərt və möhkəm qayalarına, diş göynədən bulaqlarına, cənnət bağlarına, dumanlı dağlarına bənzərliyini hiss etmişdim. İnsanlığının da adı qədər yüksəkdə olduğunu isə zamanla öyrəndim və anladım ki, o, həyata, insanlara olan baxışlarına görə çoxlarından fərqli biridir. Fərqli olduğunu əməllərində göstərməyi bacaran, amma fərqli olmasını heç zaman dilə gətirməyən, özünü başqaları ilə eyni sırada tutmağa çalışan, insanlığın zirvəsində dayanmağa layiq biridir Ədalət Bədirxanlı.

Anası - əslən Qaraqoyunlular tayfasından olan 1900-cü il təvəllüdlü Zərnişan xanım Məhəmməd qızı ömrünü övladlarına həsr etmiş sadə və ailəcanlı bir qadın idi. Atası Əyyub Bədirxan oğlu Şuşada, tanınmış yazıçı-dramaturq Süleyman Rəhimovun direktor olduğu pedaqoji məktəbdə təhsil almış, məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılmışdı. 1941-ci ildə, Böyük Vətən müharibəsinin başlandığı ərəfədə hərbi xidmətini davam etdirməkdə olan Əyyub Bədirxan oğlu digər əsgər yoldaşları ilə birlikdə birbaşa ön cəbhəyə yola salınmışdı. Müharibənin qızğın vaxtlarında döyüş zamanı ağır yaralanan, bu səbəbdən ayağının birini itirən Əyyub Bədirxan oğlu 1943-cü ildə ordu sıralarından tərxis olunmuşdu. Bir çox yüksək bacarıqlara, geniş dünyagörüşə malik olan gənc Əyyub müharibədən qayıdandan sonra davamlı olaraq kolxoz işlərində, müxtəlif vəzifələrdə çalışmış, ömrünün sonunadək vətəninə və xalqına layiqincə xidmət etmişdi. Çox təəssüf ki, kiçik Ədalətin atalı ömrü qısa olub.

Ədalət məktəbə getdiyi gün də digərlərindən fərqlənib. Müsahibə zamanı o, müəllimi ilə yolda qarşılaşmasından, ona sabahdan məktəbə gələcəyini deməsindən, məktəbə geyinmək üçün ona yeni alınmış qaloşu sinif otağına daxil olarkən qapıda çıxarmasından elə ciddi-ciddi danışdı ki, əlavə suala ehtiyac qalmadı. Çunki belə məqamlarda «Uşaq evin güzgüsüdür» deyiminin doğruluğuna heç bir şübhə qalmır.

O, kiçik yaşlarında ailə üzvləri ilə birlikdə maddi vəziyyətlə əlaqədar Bərdə rayonunun Mirzəxan kəndinə köçüb orada məskunlaşmışdı. İlin soyuq aylarını Mirzəxanda, isti aylarını isə Laçının Çıraqlı kəndində keçirirdilər. Kiçik Ədalət 1968-ci ildə həmin rayonun Mirzəxan kənd səkkizillik məktəbini əla qiymətlərlə bitirdikdən sonra müsabiqə yolu ilə Bakı şəhərindəki 5 nömrəli fizika-riyaziyyat, kimya-biologiya təmayüllü internat məktəbinin fizika-riyaziyyat bölməsinə daxil olur. 1970-ci ildə həmin məktəbin onuncu sinfini bitirir və sənədlərini Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə təqdim edir. İmta-

hanlardan yüksək bal toplayan gənc Ədalət Sənaye və Mülki Tikinti bölməsində ilk ali təhsilə başlayır. Amma həyatın yolları onun üçün nahamar idi. Bir gənc həyatı üçün xoşbəxtliyin bir qolu sayılan bütün bilik və bacarığını dərslərə yönləndirmək şansı ona nəsib olmur. Maddi vəziyyətinin çətinliyi üzündən o, işləmək qərarına gəlir, bu səbəbdən də axşam şöbəsinə keçmək üçün dekanlığa müraciət edir. Lakin institut rəhbərliyi buna icazə vermədiyi üçün sənədlərini gündüz şöbəsindən geri alaraq axşam şöbəsinə təqdim edir, yenidən imtahan verib axşam şöbəsinə qəbul olur və tələbə adını qazanır. Beləliklə, gündüzlər işləmək, axşamlar oxumaq məcburiyyətində qalır. Bu zaman artıq o, iş yerini də müəyyənləşdirmiş, tikintidə işləmək qərarını vermişdi.

İlk əmək fəaliyyətinə birinci dərəcəli fəhlə kimi başlayan gənc Ədalətin çətin həyatı başlanmışdısa da, bu çətinliklərin öhdəsindən gələcəyinə əmin idi.

**Özü bu barədə xatirələrini belə nəql edir:**

-İlk işim keçmiş Ali Sovetin binasının tikintisi zamanı binanın özülünə beton tökməklə başladı. Binanın bünövrəsi həmin gün qoyuldu. İlk günlər çox çətinlik çəkdim, işin ağırlığından əllərim qabarlanıb suluqlamışdı. Amma güzəranımdan razıydım. Qalmaq üçün mənə institutun yataqxanasında yer ayırmışdılar. Fəhlə kimi fəaliyyət göstərdiyim briqadada aldığım əmək haqqı qənaətbəxş idi. Aldığım maaşdan evə, anama da göndərirdim.

Məktəbdə oxuduğu illərdə, hətta uşaqlıq çağlarında da, tələbə olduğu vaxtlarda, yaxud maddiyyatla bağlı problemlərini həll etmək üçün fəhləlik etdiyi zamanlarda da bir fikir onu heç zaman tərk etmirdi; haqqı, həqiqəti, doğru yolu, ürəyində yaşatdığı azadlıqla bağlı istəkləri xalqının sadə vətəndaşlarına anlatmaq və ədalətli bir cəmiyyətin qurucusu olmaq istəyi. Həyatında olan bütün məsələlərdə qərarları da çox zaman özü qəbul edirdi. Hərbi xidmətə getmək, gümrahlaşmaq, sərtləşmək, həyatı daha gözəl anlamaq keçirdi könlündən. Bu düşüncələr qəlbində ikən yazımın qəhrəmanı ürəyindəki azadlıq arzularının tüğyan etdiyi bir vaxtda hərbi xidmətə yola düşür. İnternat həyatını yaşamış biri olduğuna görə əsgərlik həyatı onun üçün çox rahat keçir. Hərbi nizam-intizamı gözləyən, hərbin dəmir qaydalarına əsaslı şəkildə əməl edən gənc Ədalət komandanlıq tərəfindən əlaçı əsgər kimi qiymətləndirilir, hətta bu sahədə biliyini artırmaq üçün sənədləri Leninqrad Hərbi Məktəbinə göndərilir, lakin o, anasının tək olduğunu əsas gətirib bundan imtina edir və xidmət müddəti başa çatdıqdan sonra vətənə qayıdır, həm ali təhsilinə, həm də işinə davam edir.

Mütaliə etməyi sevməyən, şifahi xalq ədəbiyyatı nümunələrini isə hələ kiçik yaşlarından başlayaraq çox sevən Ədalət Bədirxanlı elə sevdiyi yaradıcılıq nümunələrini də radiodan dinləyə-dinləyə və ağsaqqalların toplaşdığı şeir məclislərində eşitdiklərini əzbərləyə-əzbərləyə yaddaşına yazıb. Belə məqamlarda yaddaşının güclü olması ona yardımçı olub. İlk şeirini də doqquzuncu sinifdə oxuyanda heç bir vərəqə yazmadan, elə süfrə başındaca bədahətən söyləyib. Hələ yeddi yaşında olarkən Cənubi Azərbaycan aşığı Hüseyn Cavanın:



Arxamca ağlama, ağlama, qızım,
Mən gedirəm səadət arxasınca! - deməsini isə hələ də unuda bilməyib. Qəlbindəki azadlıq və müstəqillik, ədalət axtarışı arzuları da, məhz o fikirlərdən qaynaqlanıb, düşüncələri daimi olaraq bu fikirlərə köklənib və ömrü boyu bu cür də davam edib. Əlinə ilk dəfə qələm alıb şeir yazdığı gün də yaddaşına yazılıb.

**O günləri belə xatırlayır:**

-1974-cü ilin 12 aprelində «Azadlığa gedən yol» poemasını yazmağa başladım. Şəki rayonunun Zəyzid kəndində bir tarlada artezian quyusu qazırdıq, mən növbətçi qalmışdım, ilk dəfə əlimə qələm alıb düşündüklərimi yazmağa başladım və o gündən başlanan şairliyim bu günə kimi davam etdi. Əlyazmalarımı hamıdan, hətta evdəkilərdən belə gizli saxlayırdım. Şairlər isə mənim üçün çox əlçatmaz görünürdülər, təbii ki, bu da dövrün sənət adamlarının, ictimai simaların, partiya və dövlət xadimlərinin yaradıcı insanlara olan yüksək hörmət və ehtiramının, sevgisinin göstəricisi idi.

«Görəsən şairlər necə olur?» sualı fikrindən çıxmayan qəhrəmanımızın əlyazmalarını ilk dəfə oxuyan adam da hörmətli mərhum şairimiz Dəmir Gədəbəyli olmuşdu. Bu, xalqımızın bu gün də unutmadığı «meydan hadisələri» zamanı baş vermişdi. Ədalət müəllim həmin əlyazmalar olan dəftəri mərhum şairin etdiyi düzəlişlərlə birgə bu günədək qoruyub saxlayıb. «Meydan hadisələri» zamanı o, unudulmaz şairimiz Xəlil Rza Ulutürklə də yaxından tanış olmuş və ona olan böyük sevgi və ehtiramının nəticəsi olaraq böyük şairə həsr etdiyi poema onun yaradıcılıq nümunələri arasında əsas yerlərdən birini tutur.

**Müsahibimə ilk sualım belə oldu:**

**-Ədalət müəllim, uşaqlıq xatirələrinizdən ən çox yadınızda qalanı hansıdır?**

Cavabı ləngitmədi:

-Mən və qardaşım müharibədən sonra dünyaya gəlmişik. Atam xatirimdə əsl cəngavər kimi, sözünün üstündə duran, nəyin bahasına olursa-olsun dediyini etməyə çalışan biri kimi qalıb. Onunla bağlı xatirələ-

rim az, anamla bağlı xatirələrim daha çoxdur. O zamanlar rayon və kəndlərdə tez-tez saz-söz məclisləri keçirilirdi. Belə məclislər axşamdan başlanar və gecədən keçənədək davam edərdi. Yeddi yaşım vardı. Güney Azərbaycan aşığı Hüseyn Cavan kəndimizə qonaq gəlmişdi. 200-300 nəfərlik kənd adamları ilə birlikdə biz də bir dam altına yığışıb onu dinləyirdik. Aşığın yanıqlı səslə söylədiyi dastan Güney Azərbaycanı ilə bağlı hadisələrdən bəhs edirdi, dinləyənləri çox təsirləndirmişdi, hətta əksəriyyətini ağlatmışdı da. Mən o səsə və sözlərə o qədər aludə olmuşdum ki, başımı anamın dizi üstə qoyub səhərəcən yatmadan dinləmişdim. Bəlkə «Azadlığa gedən yol» adlı poemamı yazmaq istəyim də elə o vaxtdan, o hadisələrə olan münasibətimdən qaynaqlanmışdı.

Uşaqlıqda boş vaxtlarımı bulaq başında keçirmək, kiçik daşlardan, qum və palçıqdan evciklər tikmək sevimli məşğuliyyətim idi. Elə o vaxtdan kənd uşaqları «sən böyüyəndə mühəndis olacaqsan» deyib öncədən gələcəkdə hansı sənətin sahibi olacağım haqda proqnoz vermişdilər. Musiqini, ədəbiyyatı çox sevirdim. Musiqiyə meylim atamdan keçmişdi. O, balaban ifa etməyi çox gözəl bacarırdı. Musiqi aləti almaq imkanımız yox idi. Bəlkə də bu istəyim yerinə yetəcəkdi. Amma mən atamı çox tez itirdim, onda cəmi on bir yaşım vardı. Uşaq olsam da, böyüklərin məclisində oturmağı, ağsaqqalların söylədikləri nağıllara, oxuduqları kitablardan danışdıqları hadisələrə, xalq yaradıcılığı nümunələrinə, «Kəlilə və Dimnə» kitabından olan hekayələrə, Aşıq Ələsgər haqqında olan söhbətlərə maraqla qulaq asırdım.

Haşiyə: «Kəlilə və Dimnə» bizim eradan əvvəl yaşadığı güman edilən məşhur hind filosofu Bəydəba tərəfindən qələmə alınmış, təmsil tərzində yazılmış hekayələrdən ibarət kitabdır. (Müəllif).

**Müsahibimə ikinci sualım:**

**-Yeniyetməlik və gənclik illərində, ümumiyyətlə, özünüzü tanıyandan, dərk edəndən bəri gerçəkləşməyən hansı diləkləriniz vardı?**

Yenə xatirələri təzələnir Ədalət müəllimin:

-Arzularım çox idi. Mən musiqişünas da ola bilərdim, ədəbiyyatşünas da; folklorşünas da ola bilərdim, söz sahibi də... Bunların hər biri haqda düşünmüşdümsə də, sonda reallıqla barışmaq məcburiyyətində qalmışdım. Zaman keçdikcə anladım ki, bütün bunların yerinə yetməsi üçün mütləq aidiyyatı qurumlarda tanışın, qohumun olmalıdır, əks halda heç bir sahədə irəli getmək mümkün deyil. Bir şeiri hər hansı bir qəzetdə çap etdirməyin çətinliyini aylarla, illərlə nəşriyyat qapılarında qalanda anladım.

İlk olaraq mən Ədalət Bədirxanlını şair kimi, əsasən poemalar müəllifi kimi, ən əvvəl oxuduğum «Azadlığa gedən yol» poemasının müəllifi kimi tanıdım. Zamanla digər poemaları və şeirləri ilə tanış oldum. Tanış olduqca bir şair qəlbindən qopan və misralara çevrilən sözləri, düşüncələri onu bütün varlığı ilə tanıtdı, sözünün ölçüsünün nəhayətsiz olduğunu anlatdı, bir şair ürəyində insana, sənətə və sənətkara olan hədsiz sevginin olduğuna inandırdı, təsirləndirdi, sevindirib kədərləndirdi, hətta bəzən ağlatdı da.

***Hələ ki məlum deyil***
***Tarixdə kim qalacaq.***
***Ən qiymətli əsəri***
***Zaman özü yazacaq!***

Bu mükəmməl bəndlə başlanan «Azadlığa gedən yol» poemasını oxuduqca, oxucu əsərin müəllifini müxtəlif obrazlarda görür. Bir insanın uşaqlıq çağlarından bəri qəlbində daşıdığı saf arzularını sehrli rəssam fırçasıyla, sözdən çəkilmiş tablo kimi necə böyük ürəklə misralara köçürməsinin şahidi oluruq. O tablolarda həyatın ədalətsizliklərinə, haqsızlıqlarına, qeyri-bərabər şəkildə paylanan insan haqlarına etiraz edən gənci, dünyaya səslənərək müharibələrin dayandırılmasını, əsgər ölümlərinin qarşısını almağı tələb edən ananı, hər bir insanın azad və firəvan yaşamaq haqqının olduğunu əsaslandırılmış şəkildə iddia edən bir azadlıq fədaisini görürük.

***Hər bir doğulan insan***
***Azad yaşamalıdır.***
***Bu, onun Allah verən***
***Toxunulmaz haqqıdır.***

Müəllif bu əsərində Şah İsmayıl Xətai dövründən tutmuş bu günümüzə qədər olan tariximizi bəzən geniş izahlarla, bəzən bir neçə misra ilə oxucuya sətirbəsətir anlada bilir. Əsrlərdən bəri torpaqlarımıza yağlı tikə kimi baxan, onu parçalayan, pay verən, bəxşişə çevirən yadelliləri yaxşı tanımaqda oxucuya yardımçı olur. «Qaragöl»dən, Göyçədən, Topxanadan, Borçalı elindən, Dəmirqapı Dərbənddən, adları yeni nəslin nümayəndələri tərəfindən unudulmaqda olan əsir yurdlarımızdan danışır... Misraları oxuduqca mənə elə gəlir ki, şair müxtəlif dövrlərdə sahiblərindən soruşmadan satılmış, peşkəş edilmiş torpaqlarımızı Azərbaycan gəncinin əlindən tutaraq kənd-kənd, küçə-küçə, el-el, oba-oba gəzdirib ona tariximizi xatırladır, poema boyu adlarını çəkdiyi tarixi şəxsiyyətlərimizi unutdurmamaq üçün əlindən gələni edir. Sonluqda isə biz onu nəvəsinə 20 Yanvar hadisələrini geniş formada, tam təfsilatı ilə izah edən, müqəddəs şəhid qanının rəmzi hesab etdiyimiz qərənfil gülünün tarixinə qədər anladan, şəhidləri unutmamaq dərsi verən azərbaycanlı baba obrazında görürük.

Mən əsərin təsirindən hisslərə qapılaraq bu əsər haqqında fikirlərimi yazdım, təbii ki, bu möhtəşəm əsərin ön söz müəllifi bu mövzuda daha geniş yazacaq. Amma bir həqiqəti qeyd etməyə bilmərəm ki, zəngin bir ədəbiyyat nümunəsi olan bu poema haqqında bir romanlıq gözəl fikirlər yazmaq mümkündür. Qeyd edim ki, əsər ayrıca kitab şəkkində nəşr olunmuşdur.

«Azadlığa gedən yol» poeması cəmiyyətimizin düşünən başlarının bütün fikir və düşüncələrini bir əsərə sığdırmağı bacaran şairin böyük uğurudur.

Qarşımda müəllifin səkkiz poemadan ibarət kitabının elektron variantı var. Hər poemanı dəfələrlə oxumuşam. Kitabın əvvəli adı tarixdə əbədi qalan Azərbaycan xalqının böyük oğlu, əvəzsiz insan, dahi şəxsiyyət Heydər Əliyevə həsr olunmuş «Gül bayramı» poeması ilə başlayır. Əvvəllər hər ilin may ayında, ulu öndərimizin doğum günündə xalqın onun xa-

tirəsinə hörmət və sevgi əlaməti olaraq gül bayramı keçirilirdi.

*İlin gül çələngi Heydər babanın,*
*Mövludu birləşir mayın onunda.*
*Gəldi də, qurdu da Azərbaycanı,*
*Ən ali memardır dünya çapında.*

Poemanın ilk misrasından sonuna qədər şair Heydər babanın güclü bir siyasətçi, mükəmməl şəxsiyyət, bacarıqlı, kamil bir qurucu olduğunu təsdiq edən tutarlı faktlarla tanış edir. Onun xarici görkəmi ilə daxili aləminin uyğunluğundan, yerişindən, duruşundan, hətta baxışından belə mübariz və qətiyyətli insan təsiri bağışlamasından, nitqinin saflığından, yüksək əzmkarlığından yazır, xalqı üçün, vətəni üçün göstərdiyi misilsiz xidmətləri bir-bir sadalayır, ətrafdan rahat görünsə də, bütün bunların heç də asan başa gəlmədiyini anladır. Poemanın «Heykəlləşən ömür» adlanan beşinci hissəsində:

*Ey müdrik, ey ulu, böyük hökmdar,*
*Mərmər daş heykələ dönüb arzular.*
*Ulu öndər adlı tək-tək insanlar*
*Ölmür, heykəlləşir, belədir ki, var.* – yazan şair xalqının milyonlarla övladlarının qəlbində məhəbbətdən taxt qurmuş Heydər babamıza olan sevginin heç vaxt ölməyəcəyinə inamını ifadə edir, eyni zamanda üzünü xalqına tutaraq onlara həqiqəti söyləyir:

*Ey xalqım! Yada sal keçən anları,*
*Azadlıq istəyən qul insanları.*
*Xalqın sərkərdəsi yoxdursa əgər,*
*Talanar hər zaman dövtəti, varı.*

Səkkiz hissədən ibarət olan poemanın «Hesabat» adlı sonuncu hissəsində şair Azərbaycanın əbədiyyət Günəşi adlandırdığı öndərimizin Azərbaycanın qurucusu olduğunu vurğulayır və onun məzarını ziyarət edərək çox təsirli misralarla ona olan tükənməz eşqini aşağıdakı misralarla izhar edir:

*Borc bilib gəlmişəm sənə eşqimi,*
*Azad dövlətimə möhtac eşqimi...*
*Heykəlin önünə qoyub gedirəm*
*Bir gül dəstəsinə dönən eşqimi.*

Nə qədər gözəl bir sonluq. Gül bayramı günündə sevgisinə bürünmüş, sevgi ifadə edən gül dəstəsini böyük ehtiramla daş heykəlin önünə qoyan və oradan gözəl diləklərlə ayrılan zəngin qəlb sahibi - müəllif...

Yazımın qəhrəmanının yeddi hissədən ibarət olan «Həcc ziyarəti» poeması onun İlahi eşqinin böyüklüyündən xəbər verir. Yaradana olan nəhayətsiz məhəbbətinə görə, Həcc ziyarətinə getmək arzusuna düşdüyünə görə Rəbbinə sonsuz şükürlər edən şair, vicdanların təmiz olması, doğruluğun bərqərar, gözəl diləklərin çin olması üçün də dualar edir.

*Ədalətəm, haqq gəzirəm,*
*Gümanımla hey süzürəm,*
*Niyyətim var, bir fəqirəm,*
*Həcc səfərin gözləyirəm.*

Bu gözəl ziyarətin dəyərli şairimizə nəsib olması diləyilə poemanı yekunlaşdırdım desəm, doğru olar.

Yuxarıda qeyd etdiyim kimi, Ədalət Bədirxanlının Xəlil Rza Ulutürkə olan böyük sevgisi «meydan hadisələrindən» çox öncələr başlanmışdı və o hadisələr zamanı onlar yaxından tanış olmuşdular. Şairin həmin sevginin nəticəsindən yaranmış üç hissəli «Xəlil Rza Ulutürk» adlı möhtəşəm bir poeması vardır. Poemanın sujet xətti boyunca biz əsərin qəhrəmanını, haqq və azadlıq carçısı olan vətənpərvər şairi hey çarpışan, daim mübarizə aparan görürük və:

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,

Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram! – deyən Xəlil Rza Ulutürkün bu möhtəşəm misralara uyğun əməllərinin şahidi oluruq. Sonda müəllif ədalətin carçısı olan şair Xəlilə sevgisini aşağıdakı misralarla ifadə edir:

*Olmasam mən Xəlilsevər,*
*Ay yox olar, ulduz sönər.*
*Ədalətəm, kaş sevəydim*
*Bu vətəni Xəlil qədər.*

Yazımın qəhrəmanının poemalarını oxuduqca düşünürəm ki, Ədalət Bədirxanlı vətəninin, xalqının qəm yükünü qəlbində daşıyan şairdir. Xalqının ölüsünü də, dirisini də düşünən şairdir. Haqsızlıqlardan, ədalətsizliklərdən ürəyi yanan, haqqı müdafiə etmək yolunda azadlıq carçısı olmağı bacaran şairdir. O, mədhiyyə şairi deyil. Onun yaradıcılığı ilə tanış olduqca oxucu bunun şahidi olur. Bütün varlığıyla xalqının unudulmağa layiq olmayan böyük sənətkarlarını təbliq edən şair, qələminin qüdrətinə sığınaraq var-gücüylə buna çalışır. Onun iki hissəli «Xocalı» poemasında ötən əsrin ən böyük faciəsi kimi tarixə düşən Xocalı faciəsindən bəhs edilir. Daş körpənin dilindən yazılmış bu əsəri oxuduqca, əsrin ən böyük faciəsini yaşamış bir xalqın nümayəndəsi olaraq Xocalı qurbanlarından çox utanıram - əsrin ən böyük faciəsini yaşamış xalqın övladı olduğum üçün utanıram. Həmişə içimdə Xocalı faciəsinin unudulması qorxusu olub. Əsəri oxuduqca müəllifin də buna görə narahat olduğunu açıq-aydın anlamaq olur. O, elə başlanğıcda oxucuya Xocalının unudulması ilə bağlı sualla müraciət edir, faciə qurbanlarının da, bu dəhşətləri xalqımıza yaşadan mənfur düşmənə nifrət hissimizin də unudulacağından narahat olduğunu bildirir. Həmişəki kimi bu əsəri də qəlbindəki gözəl diləkləri misralara köçürməklə bitirir:

*Ey çırpınan canlı daş,*
*Kaş, bitəydi bu savaş.*
*Öz yurduna dönəydi*
*İnsanlar yavaş-yavaş.*

Nə gözəl ki, bu poemanın yazılmasından uzun illər sonra böyük ürəkli şairimizin arzuladığı o gün gəldi, Xocalı, ümumilikdə Dağlıq Qarabağ ərazisinə daxil olan bütün şəhərlər, rayonlar və kəndlər, manqurt erməni işğalçıları tərəfindən işğal olunmuş ərazilərimiz dövlətimizin və xalqımızın yenilməz gücü sayəsində düşmən tapdağından azad olundu.

Kitabda poemalar yer aldığına görə hər bir poema haqqında fikirlərimi qısaca da olsa, bildirmək fikrindəyəm.

Azərbaycanın Xalq artisti Habil Əliyev şəxsiyyətinə hörmətlə qələmə aldığı üç hissədən ibarət «Kamança» poemasında şair bənzərsiz ifası ilə dinləyənləri heyrətdə qoyan kamança ustası haqqında fikirlərini, onun barmaqlarının qüdrətilə yaranan kaman səsinə heyranlığını, bu səsi dinlədikcə ruhu-

muzun göylərə uçduğunu sadə və səmimi dildə bəyan edir:

*Ustad, səni bu dünyada,*
*Azərbaycan torpağında*
*Habil kimi tanıyanlar,*
*Kaman ilə salır yada.*

Onun dahi sənətkarımız, Xalq rəssamı Səttar Bəhlulzadə şəxsiyyətinə ithafən yazdığı «Lalələr» poeması da çox təsirli bir poemadır. Həyatda heç də sıradan biri olmayan rəssam Səttar həm də fərqli taleyinə, eyni zamanda fırçasının bənzərsizliyinə görə yaddaşlarda qalıb və şair iki hissəli bu poemada onun həyatını yetərincə təsvir etməyi bacarır. Rəssamın dünyasını dəyişməsindən çox təsirlənən şair:

*Qaranlıq məzarı tez seçdi Səttar,*
*Sarsıldı, buzlaşdı, dondu fırçalar,*
*Züleyxa gözündə Yusifə bənzər*
*Hələ çəkilməmiş neçə tablo var!* – deyərək, böyük sənətkarın çəkə bilmədiyi rəsmlərin də nisgilini yaşayır. Şair poemada öz bəşəri arzularını da dilə gətirir:

*Bitsə hər könüldə məncə lalələr,*
*Pas atar silahlar, donar güllələr.*
*Susarsa silahlar... bəli, körpələr*
*Hər gün albomuna lalələr çəkər.*

*Kitabın redaktoru olaraq şairin* «Şahnamə» poemasını dəfələrlə oxudum. 935-1020-ci illərdə Sultan Mahmud Qəznəvinin zamanında yaşamış Firdovsi Əbülqasım Həsən İbn Əli Tusinin xatirəsinə yazılmış bu poema hər dəfə oxuduğumda məni ağlatdı, illər öncə dünyadan narahat köçən Firdovsi kimi bir şairin acı həyat hekayəsinə üzüldüm. Dünya insanlarının ədalətsiz qanunlarına, zəhmət çəkib zəhmətinin haqqını ala bilməyənlərin taleyinə, cəfa çəkib səfasını görməyən zəngin qəlb sahiblərinin acı taleyinə üzüldüm, həyatdakı haqsızlıqların əsrlərdən bəri var olduğuna və bu günümüzə qədər gəlib çatmasına, bütün bunlara rəğmən yer üzündən haqsızlıqların silinməməsinə, ədalətin bərqərar olmamasına təəssüfləndim.

Çox təəssüf ki, altı hissəli bu poemanın sonu göz yaşlarıyla bitir. Sözün qüdrətli sənətkarlarından biri olan Firdovsinin əməyinin dəyərləndirilməməsi oxucuda baiskarlara nifrət hissi oyadır və onu çox təsirləndirir.

*Zaman düşüb izimizə,*
*Fürsət düşüb cəmimizə,*
*Son gedişə, köçünüzə*
*Bol yük yığın özünüzə.* – deməklə, şair insanları haqqa, ədalətə, dürüstlüyə səsləyir ki, əsəri tam oxusanız, bu misraların nəyə görə yazıldığını daha gözəl anlayacaqsınız.

Kitabda sonuncu yer alan «Tamah və səbr» poemasıdır ki, görkəmli alim, böyük mütəfəkkir, şairin öz idealı hesab etdiyi, Azərbaycan dövlətinin müstəqilliyi ideyasının daşıyıcısı, «Ömür, məhz yadda qalan günlərin sayı ilə ölçülür» sözlərinin müəllifi Xudu Məmmədov şəxsiyyətinə həsr edilmiş və onun söylədiklərinə əsasən yazılmış bir poemadır. Altı hissədən ibarət olan bu poemanın əsas ideyası insanların tamah kimi insanı alçaldan bir mənfilikdən, tamah məqsədilə bir-birinə qarşı etdikləri pisliklərdən uzaq olmalarını tövsiyə etməkdir.

*Düşünüb-daşındı, söylədi padşah:*
*«Sənin günahından qoy keçsin Allah.*
*Qüdrət sahibidir böyük Yaradan,*
*Çalış nəfsə uyma bir də heç zaman!».*

Şairin də istəyi budur: Kimsə nəfsinin qulu olmasın!

Bizim hər birimizin xalqımızın tarixində xüsusi yeri olan görkəmli şəxsiyyətlərimiz qarşısında bir vəfa borcumuz var. Ədalət Bədirxanlının yazdığı poemaların hər biri poema qəhrəmanlarına vəfa borcunu düşünərək yazıb-yaratmış olduğu qiymətli bir abidədir!

Müsahibə zamanı yazımın qəhrəmanına ünvanladığım sualların cavabından yəqin etdim ki, o, həqiqətən də bütün ömrünü haqqın və ədalətin bərpasına həsr edib. Nə özünün, nə də ətrafındakıların hüquqlarının tapdanmasına yol verməyib. Daim yaxşılıqlar etməyi düşünüb. Yaxşıların arxasında, pislərin qarşısında olub. Qarabağ münaqişələri zamanı özünün şəxsi biznesindən şəhid ailələrinə pay ayırıb, yardım edib, bir neçə şəhid ailəsini öhdəsinə götürərək bir il səkkiz ay davam edən müddət ərzində o, on səkkiz ailəni həm aylıq ərzaqla, həm də hər ailəyə ayda 150 manat pul ödəməklə maddi və mənəvi dəstək olub, işsiz qalanların işlə təmin olunmasına köməklik göstərib, bir sözlə, yaxın olan-olmayan, tanıdığı və tanımadığı, köməyə ehtiyacı olan hər bir insana ata, qardaş qayğısı göstərib. Onun ürəyinin zənginliyini, insanlığının zirvədə olmasını təsdiq edən faktlar bir yazıya sığışmayacaq qədər çoxdur və o, bütün bunları etmək üçün Allahın ona bəxş etdiyi yüksək insani keyfiyyətlərə həmişə şükür edib, istisna bacarığına arxalanaraq həmişə öndə olmağa çalışıb. Elə bu səbəbdən də uzun illər çalışdığı kollektivdə həmişə sözü keçib, bir şəxsiyyət, bir fərd olaraq dəyərləndirilib, nüfuz sahibi olub.

Belə biridir yazımın qəhrəmanı - rəhmli və əzmli... Gah qaya kimi sərt, gah da mum kimi yumşaq ürəyə malik olan dünyanın yaxşılarından biri, yazdığı əsərlər qədər böyük insan, adının mənasını əməllərinə yansıtmağı bacaran şair-vətəndaş, dürüst və vicdanlı... Ədalət Bədirxanlı.

Uğur qapıları üzünüzə həmişə açıq olsun, Ədalət müəllim.

***Redaksiyadan:***

***30 may şair Ədalət Bədirxanlının dünyaya gəldiyi gündür. Onu bu əlamətdar gün münasibətilə səmimi qəlbdən təbrik edir, möhkəm can sağlığı, uzun və faydalı ömür, yaradıcılığında bol-bol uğurlar arzulayırıq.***

# ƏDALƏT BƏDİRXANLI



## BƏSİRƏT GÖZÜ
(minacat)

Bəsirətdə olan gözün öz möhtəşəm adı var,
İlk açılmış qönçə kimi qoxusu var, dadı var,
Şirinlikdə baldan şirin yuxudur, ovqatı var,
Ucalıqda dağ nədir ki, göyün yeddi qatı var;
Tam vüsala yetişməyin yalnız bircə yolu var -
O, Allahdır, səbri böyük, doxsan doqquz adı var,
Qadir odur, yalnız onun mərhəməti, rəhmi var.

Bu dünyanın bilinməyən, görünməyən sirri çox,
Harınlayıb cəmiyyətdə haram yeyən kirli çox,
Dünyasını dəyişməyən, tutub qalan varmı tox?
Şeytanla bir süfrədədir, bismillahı, həmdi yox,
Nə var, bəlli Yaradana, Sübhanımın səbri çox,
O, Allahdır, səbri böyük, doxsan doqquz adı var,
Qadir odur, yalnız onun mərhəməti, rəhmi var.

Adi gözə görünməyən tam önəmli qüvvə var,
Canlı olan nələr varsa, yaradan var, quran var,
Qarşısında baş əyirəm, ondan qeyri kimim var?
Səcdə edib yalvarıram, günahlarım bəlkə var.
Bağışlayan Xaliq odur, yalnız onun haqqı var,
O, Allahdır, səbri böyük, doxsan doqquz adı var,
Qadir odur, yalnız onun mərhəməti, rəhmi var.

Ədalətəm, sırf zəkamı Rəbbim verib tərtəmiz,
Tale yazıb, ömür üçün təqvim açıb müjdəsiz,
Bilirəm ki, Allahım var, mən deyiləm kimsəsiz,
Xeyirlə şər, haqla batil, gecə-gündüz kölgəsiz.
Subhanımı baş bilirəm, tək hakimdir qərəzsiz,
O, Allahdır, səbri böyük, doxsan doqquz adı var,
Qadir odur, yalnız onun mərhəməti, rəhmi var.

**16.05.2009**

## YAZIRIQ

Vəkil olduq hər birimiz əzəldən,
Yağılar sərsəmdir - deyə, yazırıq.
Hamı qəm içində, biz də o ildən,
Dərd yığışır, cəmdir - deyə, yazırıq.

Araz qanla böldü son anda bizi,
Farslar, ruslar vurdu kəndirimizi.
Sovet həbs eylədi hər kəsimizi,
Xalqın gözü nəmdir - deyə, yazırıq.

Xocalı, Qarabağ töhmətdir bizə,
Vətən əsir qalıb, köz basır gözə,
Şər dünya əl qoyub sərvətimizə,
Haray səsi bəmdir - deyə, yazırıq.

Haqsızlığa hamı susur, qazi çox,
Güclülərdir hökmü verən, izi yox.
Dünya bilir günahsızıq, gözü tox,
İvan sərxoş dəmdir - deyə, yazırıq.

Namərd yaxşı bilir, biz əyilmədik,
Yalnız Sübhanıma səcdə eylədik.
Talana yox dedik, haqqı söylədik,
ATƏT susur, kəmdir - deyə, yazırıq.

Ədalətəm, hər gün başım qarışır,
Nə yaxşı ki, qələm mənlə danışır.
Zaman ötür, haqla batil yarışır,
Ötən günlər qəmdir - deyə, yazırıq.

## XOCALI
*(poema)*

Məlum hadisələrdən sonra həlak olanların daşınması zamanı hərbi ekspert və hüquq şöbəsinin rəisi Əsəd Fərəcovun donmuş bir ananın qolları arasından ayırıb vertolyota gətirdiyi donmuş uşağın dilindən yazmışam.

Bu əsər sonradan, məsciddə yuyulma zamanı ayılan 3 yaşlı körpənin fəryadı və harayıdır (illər sonra tapılan Kübra Mahmudova və xilaskarı - zabit Əsəd Fərəcov)

### Proloq

Ya Qarabağ, ya ölüm,
Başqa yolu yox artıq.
Unutmamışıq, Vətən,
Qan qurusa da, varıq.

Vətən dediyin bu yer
Yaddan çıxıbsa əgər,
İndi doğru cavab ver,
Qeyrət satılıb məgər?

Budur Vətən torpağı,
Budur Vətən bayrağı?
Hanı boz canavarlar,
Hazırkı mərd oğullar?

Haray, yenə də haray,
Cihad, savaşdır artıq!
Qanlı qış gecəsindən
Neçə gün keçir artıq.

### I hissə
### YAŞAMAQ İSTƏYİRƏM

Hayqırıq elan deyil,
Lal körpə harayıdır.
Bizi tək analar yox,
Dünya anlamalıdır!

“Vətən” adlı igidim,
Dəyanət istəyirəm!
Yağıya ölüm gərək,
Əsirtək istəmirəm!

Nifrətindən ayrılan
Bir savaş istəyirəm.
Kələklər yetər artıq,
Diri hay istəmirəm!

Qəlpə dəyən, ayılan,
Sağ səfil istəmirəm.
Boş hədəfə şığıyan
Bir güllə istəmirəm!

Deyin, dünya tanısın
Qoy vəhşi toxumları.
Sözdə millət sayılan
Əkiz -“xaç» alçaqları.

Hamı savaş gözləyir,
Xalq da bu fikirdədir.
Doğmaca torpağımı
Tam azad istəyirəm!

Kürsüdən çığırmağa,
Mif, yarış istəmirəm!
ATƏT halvaçı qurum,
Mən alqış istəmirəm.

Təzə lox axtarmağa,
Yoxdur daha taqətim.
Budur lal vəziyyətim,
Son savaş istəyirəm.

Sərrast atan toplarla
Vurulan səngərlərdə,
Dəmir yumruq əzdiyi
Tuluq baş istəyirəm!

Mənim igid əsgərim,
Nəyə gərək niyyətim?
Qisas alın, baş kəsin,
Qana qan istəyirəm!

Ey şanlı Milli Ordum,
Mərhəmətin yeri yox.
Hayları silmək gərək,
Canlı can istəmirəm!

Əsir kimi sağ gəzən
Canlı hay istəmirəm.
Yaşamaq istəyirəm,
Yaşamaq istəyirəm!

### II hissə
### BİR KÖRPƏNİN HARAYI

Mən bir uşaq doğuldum
Yaşamağa cahanda.
Tam haqqımla vətəndaş,
Xocalı torpağında.
Qəsd olundu yurduma
Gecənin son çağında.
Şaxtalı, don, amansız,
Soyuq-qarda, boranda
Dondum, heykələ döndüm
Bir ana qucağında.

Bilmədim sevgi nədir,
Bilmədim həyat nədir.
Bölmədim sevincimi,
Bildirmədim dərd nədir.
Bilmədim ölmək üçün
Günahlarım bəs nədir?
Şaxtalı, don, amansız,
Soyuq-qarda, boranda
Dondum, heykələ döndüm
Bir ana qucağında.

Mənim yaşda günahsız
Körpələr nə qədərdir,
Qoy duysun bəşəriyyət,
Bəlkə yüz minlərlədir.
Bu quduzluq, soyqırım,
Qan dünyaya ləkədir.
Şaxtalı, don, amansız,
Soyuq-qarda, boranda
Dondum, heykələ döndüm
Bir ana qucağında.

Qoca, qadın, ya körpə -
Heç kimə baxmadılar.
Qışqıran hər bir kəsin
Başından vururdular.
Məni möhkəm vurdular,

Yəqin ölmüş sandılar.
Şaxtalı, don, amansız,
Soyuq-qarda, boranda
Dondum, heykələ döndüm
Bir ana qucağında.

Qızdır məni, ey Günəş,
Mən bəşər övladıyam.
Anamın qucağında
Donmuş buz parçasıyam.
Bir daş olsam da belə,
Ruhum bilir hardayam.
Şaxtalı, don, amansız,
Soyuq-qarda, boranda
Dondum, heykələ döndüm
Bir ana qucağında.

## Epiloq

Hər il gəlib keçirik
Heykəlinin önündən,
Sənə baxa bilmirik,
Gizlənirik gözündən.
Dünyaya göstəririk,
Guya səni anırıq,
Əslində belə deyil,
Xəcalətli qalırıq.

Tezcə qisas alınsa,
Sevincimi bölərdim.
Hayların göz yaşını
Qanlı güllə silərdim.
Bilmirəm nə istəyir?
İblis özü "vur" deyir.
İnsanlıq sülhü sevir,
Aləm isə «dur» deyir.
Düşmən özü də bilir,
Gec-tezi getməlidir.
Doğrusun Allah bilir,
Əsil haqq kiminlədir.

Ey, çırpınan qanlı daş,
Kaş bitəydi bu savaş,
Tez yurduna dönəydi
İnsanlar yavaş-yavaş!

**Son**

**23/25.02.2016**

## EŞQİN MƏQAMI
(divani)

Qara gözlüm, bu nə işdir, düşdün indi yadıma,
İncə belli, mina gərdən, qaşı kaman, bu nə ox?
Bu nə alov, bu nə atəş saldın mənim canıma,
Şirin dilli, alma yanaq, bu nə oddur, közü yox?

Leyli, ya da Məcnun olsun, yaşadığı sevdanı,
Aşiq-məşuq tərk etdilər sevgi dolu dünyanı.
Canandan can əsirgəmə, ilk sevdiyin cananı
Elə sev ki, can ver ona, hər cananın canı yox.

Eşqin özü bir dünyadır, qaçmağın faydası yox,
Göz oxşayır, könul sevir, sevginin məqamı yox.
Könüllərdən quş uçarsa, göz məlhəmin alarsa,
Hər sevənin tək payı var, özgə payı yoxdu, yox.

İllər, aylar, həftə-günlər, saatlar da dayanmır,
Hər keçən an, saniyələr ömrümüzdən pay alır.
Duysan aşiq can diləyir, canan cansız yatmayır,
Bir çarə qıl, ey Ədalət, başqa yolun yoxdu, yox.

**16.12.2013**

### SUAL VƏ CAVAB

Düzülübdür bu yollarda çıraqlar,
Nurlu gecə, qibləsi var bu yolun.
Bu sadə yollarda daha nələr var,
Arşın-arşın ilməsi var bu yolun.

Şairsənsə, göstər haqqın yolunu,
Əzəl başdan bilək yolun sonunu.
Azad sayaq bu dünyanın qulunu,
Düz qaməti, siması var bu yolun.

Tam anında yəhərləyib mindiyin,
Səhər çağı şükr edərək sevdiyin,
Özün üçün hər an dayaq bildiyin
Subhanıma səcdəsi var bu yolun.

### CAVAB

Bilirsənmi haqqın yolu namazdır?
Niyyəti var, dəstəmazı hər yolun.
Namazdan da öncə olan azandır,
Öz mehrabı, Kəbəsi var bu yolun.

**01.03.2016**



NAZİLƏ
GÜLTAC

# BADAM ÇİÇƏKLƏMİŞDİ

hekayə

Zərrin çiçəkləyən badam ağacının önündə donub qalmışdı. Badam ağacı şahanə duruşu, bəyaz çiçəkləri ilə göz oxşayırdı. Onu Rəhman əkmişdi, sevgisinə dəyər vermədiyi, sevgisini çəkdiyi rəsmlərdə ona anlatmaq istəyən Rəhman. "Necə oldu ki, heç bunu duyub, hiss etmədim", - deyə özünü qınadı. Hələ o məktub – oxumadığı, heç əlində tuta bilmədiyi məktub. Bəlkə də onu açıb oxusaydı, çox şey dəyişə bilərdi. Kaş, kaş...

...Sinfə səssizlik çökmüşdü, şagirdlər inşa yazırdı. İnşanı hamıdan tez yazıb bitirən Rəhman onunla eyni sırada oturan Zərrinin alnına tökülmüş, ona yaraşıq verən qıvrım tellərinə, allanmış yanaqlarına sehrlənmiş kimi oğrun-oğrun baxırdı. Ona elə gəlirdi ki, bircə gün Zərrini görməsə, nəfəsi dayanar. Gülərkən yanaqlarının qəmzəsi, şirin təbəssümü, gülümsəyən dodaqları, hirslənəndə sağ qaşını qaldırması, səsindəki məlahət, dərs danışarkən gözlərini məchulluğa dikməsi, bir sözlə, qızın hər cizgisi, hərəkəti Rəhman üçün doğma idi. Zərrinin varlığı bütün nəcibliyi, zərifliyiylə onun ruhuna hopmuşdu elə bil.

Zəngə az qalmış inşasını bitirən Natiq başını qaldıranda Rəhmanın Zərrinə heyran-heyran baxdığını gördü, qanı qaraldı. Onun da qızdan xoşu gəlirdi. Zərrin ilə eyni məhəllədə yaşayırdı. Həmişə dərsə birlikdə gedib gəlirdilər.

Rəhmangilin evləri uzaqda olsa da, hər səhər məktəbə tez gəlir, pəncərənin önündə oturub gözlərini yola dikir, Zərrinin gəlişini gözləyirdi. Şairin "Mən də dərsdən qaçardım, sən dərsə gəlməyəndə" məşhur misrasını əzbər bilən Rəhman Zərrin məktəbə gəlməyəndə dərsdən qaçmasa da, həmin gün çox kədərlənir, bütün dərslər darıxdırıcı gəlirdi ona. Elə ki, onu görürdü, sevinir, ürəyi həyəcandan sinəsinə sığmır, hər şey gözəlləşirdi gözündə.

....Xeyli tərəddüddən sonra Rəhman bir gün qəti qərara gəlib Zərrinə məktub yazdı. Məktubda gecələr onların evlərinin önündən keçməsindən tutmuş, onunla bağlı xəyalında yaratdığı dünyasına qədər hər şeyi, ona qarşı olan hissin eşqmi, sevdamı olduğunu bilmədiyini, amma Zərrinin onunçün nə qədər əziz olduğunu yazdı. Çəkdiyi rəsmini də məktubun arasına qoydu. Onda baharın ilk çağıydı, mart ayı yenicə girmişdi, havada qış sazağı hiss olunurdu. Baş verənlər Zərrinin gözünün önündə kino lenti kimi canlandı. Yadındadır, bərk yağış yağırdı. Zərrinin sinifdən tez çıxdığını görən Rəhman arxasınca gedərək, onu səslədi:

-Zəri (hamı onu belə çağırırdı), sənə sözüm var.

Zərrin Rəhmanın ona tərəf gəldiyini görüb, məktəbin bağçasında dayandı. Rəhman heç kimin görmədiyinə arxayın olub, əlləri əsə-əsə dörd qatlanmış bir vərəqi qıza uzatdı.

Zərrin təəccüblə soruşdu:

-Bu nədir?

Rəhman həyəcanla dilləndi:

-Məktubdur, sənə yazmışam.

Zərrin bir əlindəki məktuba, bir də Rəhmanın pörtmüş üzünə baxıb, hər şeyi anladı. Deməli, Rəhmanın da ondan xoşu gəlirmiş. Onun Rəhmana böyük hörməti vardı, xatirini dünyalarca istəyirdi. Fikirləri haçalandı, həmin an Natiq gəlib gözünün önündə dayandı. Hiss etdi ki, ürəyi Natiq üçün vurur. Məktub sanki od olub əlini yandırdı, anidən onu gölməçəyə atdı. Hər hansı bir sözüylə Rəhmanın qəlbini qıracağından ehtiyat edən Zərrin bu hərəkətiylə fikrini ona bildirmək istəmişdi. Bütün bunları xatırlayan Zərrin Rəhmanın küskün baxışlarını öz üzərində hiss edirmiş kimi oldu.

Yadındadır, Rəhman bütün sinif yoldaşlarının rəsmini çəkib onlara hədiyyə etmişdi. Rəhman onun da rəsmini çəkmişdi, rəsmdən boylanan həm Zərrin idi, həm də yox. O, xəyalındakı, görmək istədiyi Zərrini çəkmişdi. Rəsmdəki saçlarını çiyninə tökmüş, bəbəklərində nur sayrışan Zərrin gülümsəyərək, həyatda həmişə saçlarını iki hörük edən Zərrinə baxırdı. Rəsmi çox bəyənmişdi, evə aparanda yolda Natiqin rəsmi onun əlindən alıb cırıb atmasını təəssüf və peşmançılıq hissi ilə xatırladı. Natiqin şirin dili, şən zarafatları onun gözünü bağlayıbmış, Natiq hər addımda onun yanında idi, son vaxtlar yaman dilli-dilavər olmuşdu, ona gizlində xoş sözlər söyləyirdi.

Rəhman, Natiq, Zərrin – hər üçü dərs əlaçısıydı. Qısqanc və xudpəsənd olan Natiq Rəhmanla nə qədər yaxınlıq etsə də, onun daha çox qabiliyyətli olmasına daxilən paxıllıq edirdi. O, ən çox qızlarla dostluq edir, onların yanında üstün cəhətlərini nümayiş etdirməkdən zövq alırdı. Rəhmanın Zərrinə olan xüsusi diqqətini hiss edən Natiq son vaxtlar dərsdən sonra hər dəfə bir bəhanə ilə Zərringilə gəlir, həyət qapısından Zərrini səsləyirdi:

-Zərri, (Natiq hamı kimi Zəri demirdi, fərqlənmək üçün Zərri deyirdi) evdəsənmi? Gəldim dərsi bir yerdə hazırlayaq, məsələlərdə də həll edə blmədiyim yerlər var.

-Gəl, gəl, evdəyəm, dərsimi oxuyuram, - deyə Zərrin gülə-gülə eyvana çıxıb, onu qarşılayırdı.

Bir axşam birlikdə fizikadan məsələ həll edərkən, Natiq əlini bilərəkdən Zərrinin əlinə toxundurdu, həyəcanlanan Zərrin tez əlini çəkərək, - bu günlük bu qədər, qalsın, gerisini sinifdə həll edərik, - deyib yerindən qalxdı.

Səhər sinifə girən kimi Zərrinin gözləri Rəhmanı axtardı. Zərrinin ona yaxınlaşdığını görən Rəhman baxışlarını dolandırıb, qarşı dağları seyr etməyə başladı. O, əslən Kəlbəcərdən idi, səkkizinci sinifdən oxuyurdu bu məktəbdə. Onun daxilində başı qarlı, dumanlı dağlara qarşısıalınmaz bir istək, həsrət vardı. Hamı ilə deyib gülən Zərrin Rəhmandan çəkinir, onun işıqlı və mərd baxışlarına tab gətirə bilmir, qəlbi sürətlə vururdu. Zərrinin Rəhmana qarşı dərin rəğbət bəslədiyini görən Natiq son vaxtlar qızda özünə qarşı maraq oyatmağa çalışır, onu bir addım da gözündən uzağa buraxmırdı. Onun bu hərəkətlərini Rəhman hiss edir, məktəbdə dedi-qodu düşəcəyindən, Zərrinin adının hallanacağından ehtiyat edərək, susurdu.

Hər zaman sinif yoldaşlarına, dərslərini yaxşı mənimsəyə bilməyən digər şagirdlərə göstərdiyi köməyə görə Rəhman məktəbdə hamının rəğbətini qazanmışdı.

Zərrin yavaş addımlarla ona yaxınlaşdı:

-Rəhman, fizikadan məsələni həll etmisənmi?

Rəhman onun üzünə gülümsədi:

-Hə, yazmışam. İstəsən başa salaram.

Zərrin tez dilləndi:

-Dünən Natiqlə məsələni axıracan həll edə bilmədik.

Bunu deyərkən yanaqları allandı. Bu Rəhmanın gözündən yayınmadı, içindən bir təlatüm keçdi. Natiq adının çəkildiyinii eşitcək, tez onlara yaxınlaşdı. Digər sinif yoldaşları da Rəhmandan məsələni yazı taxtasında izah etməsini xahiş etdilər. Dərsin başlamasına beş dəqiqə qalırdı. Rəhman yazı taxtasında məsələni izah edə-edə həll edib qurtarmışdı ki, zəng vuruldu. O, yazı taxtasını tez silib yerinə keçdi. Tərlan müəllim həmişə dərsi birinci əlaçılardan soruşurdu ki, zəif oxuyanlar ona qədər fürsət tapıb təkrar-

laya bilsinlər. Bu dəfə Natiqi çağırdı, O, dərsi danışıb evə verilən məsələni də həll etdiyini bildirdi. Müəllim dedi:

-Hə, afərin, izah edə-edə yaz.

Natiq məsələni axıracan yazdı.

Müəllim, onu tərifləyib, üzünü sinifə tutdu, - daha kimlər həll edib evdə? - deyə soruşdu. Elə bu an Natiqin gözləri Zərrinin sərt baxışlarıyla toqquşdu. Onun niyə acıqlı olmasını anladı, pərt oldu, özünü oğurluq edən adam kimi hiss etdi. Zərrinin ondan uzaqlaşacağından narahat olan Natiq tez dilləndi:

-Müəllim, Bu məsələni təkcə Rəhman axıra qədər həll edib, biz də ondan öyrəndik.

Sözü deyə-deyə Zərrinin üzünə baxdı, gördü ki, qızın çöhrəsi işıqlandı, baxışları mülayimləşdi. Rahat nəfəs aldı. Bir sıfır xeyrinə həll olmuşdu məsələ - Zərrinin və digər sinif yoldaşlarının gözündə böyümüşdü Natiq.

Rəhmanın çəkdiyi rəsmlərə heyranlıqla baxan Zərrin deyirdi ki, Rəhman, sənin gələcəyin parlaqdır, sən dahi rəssam olacaqsan. Rəhman isə qızı sevgi dolu baxışlarla süzür, nəsə demək istəyirdi. Bunu görən Natiq həmin an məzəli lətifələr danışaraq, uşaqları başına yığırdı. İstər-istəməz Zərrin də onlara qoşulur, deyib-gülürdü. Belə anlarda Rəhman kədərlə qızın arxasınca baxır, köks ötürürdü.

Məktəbi bitirmələrinə az qalmışdı. Dərslərini oxuduqdan sonra axşamlar özü də bilmədən ayaqları onu Zərringilin küçəsinə gətirirdi. Uzaqdan bir xeyli onların pəncərəsinə baxır, Rəhman Zərrinin görünən kölgəsini gözlərinə yığırdı. Qızın yaşadığı evin daşı, divarı, hətta onların qapısı önündəki ağacın qurumuş budaqları belə əziz idi ona. Zərrin də hər gecə bu gizli gələni otağının işığını söndürərək, pərdənin arxasından ürək döyüntüsü ilə seyr edir, sonra yatağına uzanır, güllü yorğanındakı güllər canlıymış kimi ətrini ciyərlərinə çəkirdi. Rəhman isə ürəyində ona şirin yuxu arzulayıb, asta addımlarla evlərinə yollanırdı.

Zərrin bu gələnin Natiq olduğunu zənn edirdi. Çünki o gecədən sonra Natiqin onlara gəlişini qadağan etmişdi. Natiqin bu qədər sevməsini, romantik olmasını düşündükcə, onda Natiqə qarşı qəribə duyğular yaranırdı. Zərrinin heç ağlına da gəlməzdi ki, bu Rəhman olar, çünki onu ciddi və ancaq elmlə maraqlanan bir sinif yoldaşı kimi tanıyırdı. Rəhmanın atası birinci Qarabağ savaşında yaralanmışdı. Uzun illər müalicə alsa da faydası olmamış, böyrək çatmamazlığından dünyasını dəyişmişdi. Üç il olardı vəfat etdiyi. Rəhman evin tək oğluydu. Atasının vaxtsız ölümü onu çox sarsıtmış, ciddiləşdirmişdi. Zərrin Natiqə gecələr onların evinin həndəvərində gəzişməsindən xəbərdar olduğunu söyləmək istəmiş, amma utanmışdı. Fikirləşmişdi ki, qoy özü desin, onsuz da əvvəl-axır deyəcəkdi, çünki son vaxtlar Natiq ona çox diqqət göstərirdi.

...Rəhmana qarşı etdiyi hərəkəti özünə bağışlaya bilməyən Zərrin badam ağacının yanından uzaqlaşa bilmirdi. Rəhmanın pərt olaraq, əyilib palçığa bulaşmiş məktubu götürərək, sürətlə uzaqlaşması sanki dünən olmuşdu. Həqiqətən də o an Rəhman ağlamaq istəmişdi, qəlbi yaralanmış, ilk sevgisi ayaqlar altına atılmış, qüruru sınmışdı.

Bir neçə gün gözə dəyməyən Rəhman əlində badam şitili iməciliyə gəlmişdi, bət-bənizi solmuş, sınıxmışdı. Badam ağacını gətirib həmin gölməçə olan yerə əkmiş, məktubu da qazıb onun dibinə basdırmışdı. Bunu görən Zərrin Rəhmanın nələr çəkdiyini hiss etməsə də, nədənsə, badam ağacının basdırıldığı yerdən bir xeyli gözlərini çəkə bilməmişdi.

Rəhman son zəng şənliyinə gəlmədi, hamı onda olan dəyişikliyə məəttəl qalmışdı. Axı, Rəhmanın yaxşı saz çalmağı da vardı. Bunun səbəbini ikisi bildi - Zərrin və Rəhman.

İmtahanı verib, məktəblə sağollaşdılar. Rəhman Tibb Universitetinə, Natiqlə Zərrin isə Bakı Dövlət Universitetinə daxil oldular. Bir dəfə Rəhman Zərrini görmək üçün onun oxuduğu universitetin yaxınlığından keçdi. Tələbələrin dərsdən çıxan vaxtıydı. Gözləri qızlar arasında Zərrini aradı. Onu uzaqdan görən Natiq Zərrinin qolundan tutdu. Onun bu hərəkəti Rəhmanın qanını qaraltdı, bir daha o tərəflərə getmədi.

İllər sürətlə bir-birini qovurdu, artıq dördüncü kursda oxuyurdular. Zərrinlə Natiqin nişanlandığını eşidən Rəhman sanki

dərin bir boşluğa düşdü, bir müddət özünə gələ bilmədi. Amma nə qədər çalışsa da, Zərrinə olan eşqini qəlbindən çıxara bilmədi.

***

İkinci Qarabağ müharibəsi başlamışdı. Xain düşmən yenidən baş qaldıraraq, daha çox ərazi tutmaq iddiası ilə hücuma keçmişdi. Rəhman müharibəyə getmək üçün ərizə yazdı, anası ilə sağollaşmaq üçün rayona yola düşdü. Ayaqları onu məktəbə sarı apardı. Badam ağacı böyümüşdü, sanki onu tanıyırmış kimi budaqlarını yellətdi. Rəhman kövrəldi, Zərrini xatırladı, qəlbinin başı göynədi. Bir xeyli ağacla dərdləşdi:

-Mən cəbhəyə gedirəm, bəlkə, bir də görüşmədik. Sən mənim sevgi ağacımsan. Əgər bir gün Zərrin buralara gəlsə, onu çox sevdiyimi söylə. De ki, ona olan sevgim əbədidir. Havamdır, suyumdur, torpağımdır, günəşimdir ona olan sevgim. Mütləq de, sağlıqla qal! Fəsillər dəyişsə də, hər zaman könlümdə çiçəkləyəsən!

Rəhman bunları deyib, dərindən köks ötürdü, ağır addımlarla məktəbdən uzaqlaşdı. Onun ərizəsini qəbul etmişdilər, döyüş bölgəsinə yollandı. Rəhman müharibənin odlu-alovlu yerlərində həm döyüşdü, həm də neçə-neçə yaralı əsgərlərə yardım etdi. Ağır döyüşlərin birində çiynindən və ayağından bərk yaralansa da, birtəhər sürünərək, döyüş meydanında ağır yaralanmış, çoxlu qan itirən onlarla yaralı əsgərin yarasını sarıyıb, ərazidən çıxara bildi. Çoxlu qan itirdiyndən taqəti tükənən Rəhman yarğanın yanında ayağının birini itirmiş əsgərin ağır vəziyyətini görüb, son gücünü toplayaraq, irəli atıldı. Elə bu zaman düşmən snayperinə tuş gəldi, cansız bədəni yaralı əsgərin yanına düşdü. Şəhidlik zirvəsinə ucalan Rəhmanın ölüm xəbəri onu tanıyanları, ən çox da Zərrini üzdü. Rəhmanın siması bir müddət gözü önündən çəkilmədi, istedadlı bir gəncin, ləyaqətli bir sinif yoldaşının yarımçıq arzuları üçün göz yaşı axıtdı. Fikirləşdi ki, Rəhman sağ qalsaydı, necə savadlı bir həkim olardı, neçə- neçə insanlara şəfa verə bilərdi. "Heyf səndən və sənin kimi şəhid olan gənclərimizdən, Rəhman", - deyərək, acı-acı ağlamışdı.

***

Zərrin Natiqlə ailə qurmuş, bir qızları dünyaya gəlmişdi. Zərrin analıq məzuniyyətinə çıxıb, qızına baxmalı oldu. Universiteti bitirəndən sonra Natiq elmi fəaliyyətini davam etdirmək üçün kafedrada qaldı. Günlər geçdikcə, başqalaşan Natiqin xarakterindəki yekəxanalıq, xudbinlik Zərrini ondan soyudurdu. Natiq ona qarşı çox laqeyd və kobud olmuşdu, gecələr evə gec gəlir, bəzən də başqa yerdə gecələyir, - "dostlarımla gəzməyə gedirəm", - deyib, onu başından edirdi. Zərrinin hər sözünə məna verir, onunla sərt danışırdı. Onun bu rəftarını görən Zərrin bir gün dilləndi:

-Niyə belə dəyişmisən? Hər gecə evimizin həndəvərindən keçən sən deyildinmi, hanı, bəs, o romantik sevgin?

Natiq gülərək dilləndi:

-Hər gecə küçənizdən keçən Rəhman idi, səni dəlicəsinə sevirdi. Mən də onun acığına səninlə evləndim.

Bunu eşidən Zərrin Natiqə nifrətlə baxdı, əllərini üzünə tutub, hönkürtüylə ağladı. Nə qədər yanıldığını, xəyali bir məhəbbətə aldandığını anlayaraq, Natiqdən ayrılmaq, yeni bir həyata başlamaq üçün düşündü. Lakin Zərrinin qızına yazığı gəldi, onu bağrına basıb, qədərinə boyun əydi.

Bir gecə Natiqin telefonuna mesaj gəldi, o, yatmışdı. Hansısa bir qadın ona xoş sözlər yazaraq, şirin yuxu arzulayıdı. Deməк, o, Zərrinə xəyanət edirdi. Onun bu hərəkəti Zərrinin səbri üçün son damla oldu. Onun hər rəftarını bağışlayan Zərrin xəyanəti bağışlaya bilmədi. Natiq səhər durub işə gedəndən sonra ona yazdığı məktubu yemək otağındakı masanın üstünə qoyub, qızını da götürərək, rayona – atasıgilə getdi.

Oxuduğu məktəbə qədəm qoyan Zərrini ilk qarşılayan Rəhmanın girişdə asılmış rəsmi və bağçada çiçəkləyən badam ağacı oldu. Onun mərdlik yağan gözlərindəki məhəbbətin dərinliyini, əbədiliyini, saflığını görən Zərrin çox kövrəldi.

Bəli, badam ağacı çiçəkləmişdi, o bəyaz çiçəklər bəlkə də Rəhmanın məktubundakı sevgi sözləri idi. Gözləri dolub-daşan Zərrin yaxınlaşıb, dodaqlarını ehmalca badam çiçəklərinə toxundurdu.



HAFİZ
ƏLİMƏRDANLI

# RÜBAİLƏR

## Sevinc var, həyatı tamam döndərir

Sevinc var, sevincdən xeyli fərqlənir,
Hər sevinc həyata eyləmir təsir.
Sevinc var, bir anda alışıb keçir,
Sevinc var, həyatı tamam döndərir.

**29.03.2026**

## Sevinc nəylə ölçülür

İnsanın sevinci nəylə ölçülür?!
Hərə bir söz deyir, yozması min cür.
Bəllidir sevincin yoxluqdur sonu,
Min illər söz-söhbət eləcə ötür.

**09.04.2026**

## Hər günün bir mənası var

Bir ömür yaşasan ləzzəti nədir?
Ləzzətə ümidlər eyləyir təsir,
Ümidlər məqsədə çatdırarmı heç?
Günləri mənasız ötürsən bir-bir.

**11.04.2026**

## Bir dünya yaranmış

Bir həyat nizamı yaranmış indi,
Düşünmək istəmir insanlar ciddi,
Dağıdır qurulmuş dünyanı qəsdən,
Ağılsız başların varmıdır həddi?

**12.04.2026**

## Yaratmaq çətindir, hər kəs bacarmaz

Yaratmaq fürsəti hər kəsə gərək,
Eyləsə, şübhəsiz, hikməti kömək.
Yaratmaq çətindir, hər kəs bacarmaz,
Əzəldən Tanrıdan almasa dəstək.

**16.04.2026**

## Ömür yalnız şam qədər yanar

Ömür ki, şam qədər alışıb yanar,
Şöləsi titrəyər əsdikcə rüzgar,
Ariflər çalışar iz qoyub getsin,
Cahilin başını var-dövlət qatar.

**17.04.2026**

## Ömrə dildardır

Uca dağ zirvəsi həmişə qardır,
Qəlbimin seçdiyi qəlbimə yardır,
Gün gələr zirvənin qarı əriyər,
Sevdiyim əbədi ömrə dildardır.

**21.04.2026**

## Hey tələsirik

Ah, necə tələsdik biz uşaq ikən,
Böyüyüb həyatda yer tutaq erkən,
Ağaran saçlarla xəyallarımız,
Uşaqlıq dövrünə qaytarır hərdən.

**22.04.2026**

## Günün dəyərini bilərsə insan

Günün dəyərini bilərsə insan,
Sədəfdə mirvari tapar həmin an,
Mirvari düzümü ondan xəbərsiz,
Həyatın dəyərin artırar pünhan.

**24.04.2026**

## Bərkdə aslan ol

Fərqi yox, həyatda kim olursan ol,
Əsası odur ki, daim insan ol,
İnsantək yaşamaq çətindir, çətin,
Asanda nə var ki, bərkdə aslan ol.

**27.04.2026**

## Elimin sərrafdır gözü

Bir sətir yazılır atalar sözü,
Hər sözün mənası dərindir düzü,
Hikməti illərdən süzülüb gəlir,
Şübhə yox, elimin sərrafdır gözü.

**28.04.2026**

## Həyatı sevməyə gəlmişik qonaq

Həyatı sevməyə gəlmişik qonaq,
Sevgisiz qəlbində yanarmı ocaq?!
Sevgidən gərəkli nə vardır axı?
Ürəyin söylər ki, sevgidir ancaq.

**29.04.2026**

## Sülh deyir min illər tarixdə  bəşər

Sülh deyir min illər tarixdə  bəşər,
Ox kaman dəyişib raketə qədər,
Süni bir intellekt yaranır indi,
Qorxuram sülhə o olası əngəl.

**05.05.2026**

## Bir ömür verilir, min bir tapmaca

Dinləsin həm cavan, həm də ki qoca,
Bir ömür verilir, min bir tapmaca,
Bacaran onlara cavablar tapıb,
Həyatda başını eyləyər uca.

**06.05.2026**

## Həlli tapılmır

Bir dövrə yetişdik tamam “gülməli”,
Çoxları olmuşdur “ağıllı dəli”,
Telefon virusu tutmuş aləmi,
Sağalmaq çətindir, tapılmır həlli.

**07.05.2026**

## Ürəyim rübai söyləmək istər

Ürəyim bu axşam veribsə qərar,
Yazılar rübai, oxusun dildar,
Rübai qəlbimin ayinasıdır,
Ötən günlər orda əksini tapar.

**08.05.2026**

## Ey könül, səndəki həyəcan nədir

Ey könül, səndəki həyəcan nədir?!
Həyatın gedişi istəyir səbir,
Xəyallar yelkəni sonsuz ümmanda,
Bilinmir, hansı bir sahilə gedir.

**12.06.2026**

## Tarix su aparan sanki xəmirdir

Tarix su aparan sanki xəmirdir,
Deyilən nə varsa, tam dolu sirdir,
Kim bilmir doqquzu doqquza vursaq,
Yadda səkkiz qalır, yazılan birdir.

**14.05.2026**

## Bir ömür çatmaz

Bu sirli dünyaya gəldik bir zaman,
İstədik hər sirri öyrənək tamam,
Amma ki, unutduq bir ömür verməz,
Sirləri ardıcıl açmağa imkan.

**16.05.2026**

## Sevinc gətirər

Həyatdan bir ləzzət almaq istəsən,
Qəlbində bir az da qəm olsun hərdən,
Qəm sevinc gətirər, yoxdursa nədən?
Bir ağac kötüyü canlıdır səndən.

**18.05.2026**

## Nəyə gərəkdir

Düz məram həyatda mənə bəzəkdir,
Saf eşqim şübhə yox daim köməkdir,
Yaşamaq gözəldir, əzəldən deyim,
Məramsız, sevgisiz nəyə gərəkdir?

**22.05.2026**

## Salam yetir

Yola saldın, Niyal dağı, neçə nəsil,
Gah çiçəkli, gah da bəyaz hər ötən il,
Əzəmətin min illər də dəyişməz heç,
Kimlər qalsa qalanlara salam yetir.

**19.03.2026**

## Vaxtında verilsə qiymət

Kişi var, deyirlər yaxşı adamdır,
Yaxşıdan həyatda yaxşı ad qalır,
Diqqət verilməzsə sağlıqda ona,
Hər qəlbdə təəssüf bir kölgə salır.

**20.03.2026**

## Qəlbim həyəcanla sülhə səslənir

Qəlbim həyəcanla sülhə səslənir,
İstər keçmiş ola, istər müasir,
Dünyanı bölməyə düşünən kimsə,
Şübhəsiz, dolanır iblislə əlbir.

**27.03.2026**




## GÜLDANƏ MEHDİYEVA

**Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Pedaqoji Tədqiqatlar Mərkəzinin Təşkilati şöbəsinin baş mütəxəssisi**


# MƏNƏVİYYAT ÇIRAĞI – MÜƏLLİM

**Müəllim zülmətlər içində bir nur,**
**Zəkası incilər xəzinəsidir.**
**Məsləki, amalı, vicdanı büllur**
**Dünyanın möhtəşəm xəritəsidir.**

***Səməd Vurğun, Azərbaycan Xalq şairi***


## Xülasə

Müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və müasir həyatın tələblərinə cavab verən pedaqoji istiqamətin formalaşdırılması Azərbaycanda təhsil sisteminin modernləşdirilməsi üçün zəruri şərtdir.



**Açar sözlər:** müəllim, məktəb, təhsil, tərbiyə, peşəkarlıq, ünsiyyət və s.


Müəllim – zülməti yaran nur, cəhaləti elmin qılıncıyla yox edən, elmi üstün olan, qəlbiylə insanlara yaxınlaşan, böyük nümunə, insanlara elm öyrətməklə həyatını şam kimi əridən, qəlblərdə əbədi həyat quran şəxsiyyətdir. İdeallığa doğru gedən, ancaq yerişini dəyişməyən, heç bir qarşılıq gözləmədən könül saraylarını inşa edən, ciddiyyəti qəlbinə hakim bilən, ancaq təkəbbürlənməyən, peşəsini sevən, sevməyi sevən, nifrətə nifrət edən bir ana, atadır. Zaman-zaman müəllim haqqında müdrik sözlər, gözəl kəlamlar deyənlər çox olmuşdur. Peyğəmbər bilik öyrətməyi hər cür ibadətdən üstün sayır, Həzrəti Əli isə mənə bir hərf öyrədənin qulu olmağa hazıram, deyirdi. Nizami Gəncəvi müəllimi günəşə bənzədirdi. Platon deyirdi: "Müəllimlik hər şeydən əvvəl bir tanrı sənətidir". Makedoniyalı İsgəndər öz müəllimi Aristotel haqqında demişdir: "Valideynlərim məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı".

Müqəddəs dinimizin müəllim barəsindəki nəzərlərinə diqqət edək: Allah-Təala buyurur: «O, həmin Allahdır ki, insanlar arasında dərs oxumamış peyğəmbəri təyin etmişdir, ayələrini onlara oxusun və onları islah etsin. Kitabı və hikməti öyrətsin». Həzrət Rəsuli-Əkrəm (s) buyurur: «Məndən sonra sizin ən çox bağışlayanı o kəsdir ki, elm öyrənsin və sonra elmini yaysın». İmam Səccad (ə) isə buyurur: «Əgər müəllim, müəllimlik vəzifəsini bilər və ona əməl edərsə, Allah elm nemətini onun üçün daha çox edər». Məktəbə, təhsilə, tərbiyəyə aid bütün çıxışlarında müəllim əməyini yüksək qiymətləndirən, onun işinə və şəxsiyyətinə xüsusi əhəmiyyət verən Ulu Öndər, xalqımızın Ümummilli Lideri Heydər Əliyev müəllim haqqında demişdir: "Müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini – uşaqların tərbiyəsini yalnız ona etibar edir. Şəxsən mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə çatdıran məktəbdir, məktəbdə təhsil verən müəllimdir".

Maarif və mədəniyyətimizin inkişafında misilsiz xidməti olan, ədəbiyyatşünas-alim Firudin bəy Köçərlinin pedaqoji fikir tariximizdə

qiymətli yeri vardır. Humanist insan, novator pedaqoq, böyük tədqiqatçı alim F.Köçərli pedaqogika elminin bütün istiqamətləri üzrə fikri olan şəxsiyyətlərdəndir. Müəllimlik fəaliyyətindən qürur duyan pedaqoq alim böyüyən nəslin həyata hazırlanmasında böyük xidmətləri olan bu peşə adamlarına böyük rəğbət bəsləmiş, onların əməyinə yüksək qiymət vermişdir. O, dərindən dərk edirdi ki, məktəbin tərbiyə işinin canını yaxşı xalq müəllimi təşkil edir. Çünki hamıdan ziyadə xalqın qeydinə qalan, onun gözünü açan və qəlbini elm nuru ilə dolduran müəllimdir. F. Köçərli müəllimi millətin çırağı, həyatın günəşi, yaşayışımızın rövnəqi hesab edirdi. Müəllim uşağı sevməyi, onu duymağı, qəlbinə daxil olmağı, bir insan kimi hörmət etməyi bacarmalıdır.

Müəllimin böyüyən nəslin formalaşmasında böyük rol oynadığını nəzərə alan F. Köçərli uzun müddət müəllim hazırlığı ilə məşğul olmuşdur. O, müəllim hazırlığına dair "İrşad" qəzetində (1906, 28 avqust) dərc etdirdiyi məqaləsində yazırdı: "...çətini, xəstəliyi bilmək, onun səbəblərini kəşf etməkdir. Xəstəlik müəyyən edildikdə onun müalicəsi, çarəsi asandır". O, bu çarəni elinə, vətəninə, xalqına sədaqətli, fədakar və qeyrətli, elmli və bilikli müəllim hazırlığında görürdü. Qaranlıqda qalanlarımızın halına yanmaq və onları mərifət "nuru ilə işıqlandırmaq biz müəllimlərə borcdur" fikri ilə yaxşı müəllim obrazını yaratmağa çalışan F. Köçərli bu nəcib keyfiyyəti təlim-tərbiyə sistemində müəllim hazırlığı işini seminariya tələbələrinə hər vaxt aşılamaqdan zövq alırdı. Müəllim o zaman əsl müəllim kimi uşaqların qəlbinə yol tapır ki, məhz bu keyfiyyət onun biliyi, elmi, öyrətmək həvəsi ilə birləşərək bir vəhdət təşkil etsin.

Müasir şəraitdə bir müəllimin, tərbiyəçinin fəaliyyəti üçün rəqabət mənbəyi xüsusi biliklər, məlumat bilikləri, öyrədilən təlim və tərbiyə texnologiyaları deyil, fərdi inkişafını təmin edən ümumi və peşə-pedaqoji mədəniyyətdir. Müəllimin peşə keyfiyyətləri anlayışı peşə hazırlığı və iş təcrübəsi prosesində əldə olunan bir çox vacib komponentləri əhatə edir. Onlar pedaqoji fəaliyyətin effektivliyinə və uğuruna təsir edir və peşəkar mükəmməlliyin əsasını formalaşdırır. Müəllim təkcə mahiyyəti çatdırılmalı olan bir peşə deyil, həm də bilik, bacarıq aşılayan şəxsiyyətdir. Lakin şəxsiyyət yaratmaq, insanı təsdiqləmək kimi yüksək missiya da müəllimin öhdəliyinə düşən məqamlardandır. Müəllimin pedaqoji peşəkarlığı pedaqoji fəaliyyətə hazırlıq və onun həyata keçirilməsi prosesində baş verən hadisədir. Müəllimin şəxsiyyəti iş prosesində davamlı olaraq inkişaf edən, dəyişən xüsusiyyətlərin və keyfiyyətlərin ardıcıl vəhdətindən ibarətdir:

• etika və dürüstlük – müəllim əxlaq modeli olmalı və yüksək davranış standartlarını saxlamalıdır;

• tolerantlıq və açıqlıq – müxtəlif fikirlərə, mədəniyyətlərə və ənənələrə qarşı dözümlü olmaq, dostluq və dəstəkləyici təhsil mühiti yaratmaq;

• emosional intellekt – özünün və şagirdlərinin emosiyalarını başa düşmək, onlara effektiv reaksiya vermək və müsbət sinif mühitini saxlamaq;

• avtoritet – nüfuzlu müəllim şagirdlər üçün əsas ilham və dəstək mənbəyinə çevrilir;

• öyrənməyə həvəs – öz peşəsini ürəkdən sevən və yeni biliklərdən həzz alan müəllim öz şagirdlərinə enerji və öyrənməyə marağı ötürə bilər;

• ünsiyyət bacarıqları – etibarlı münasibətlər yaratmaq üçün şagirdlərlə dialoqa açıq olmaq, onların fikir və ehtiyaclarını dinləmək;

• nikbinlik və müsbət düşüncə – şagirdləri, tələbələri ruhlandırmaq, onların imkanlarına və uğurlarına inam vermək üçün müsbət tərəfləri və perspektivləri görmək;

• özünü təkmilləşdirmə – ən son elmi nailiyyətlərdən və qabaqcıl pedaqoji metodlardan xəbərdar olmaq üçün davamlı öyrənməyə və peşəkar yüksəlişə can atmaq.

Peyğəmbərimiz həmçinin buyururdu: «Kim elm axtarmaq yolu ilə getsə, Allah onu cənnətə aparar. Həqiqətən mələklər qanadlarını elm əhlindən razılıq əlaməti olaraq yerə sərərlər. Doğrudan da, göy və yerdə olan hər bir şey elm axtarışında olan kəsin günahlarının bağışlanmasını istəyər, hətta dənizdə olan balıqlar belə. Alimin abiddən üstünlüyü on dördüncü gecədə ayın ulduzlardan üstünlüyü kimidir. Həqiqətən alimlər peyğəmbərlərin varisləridirlər. Çünki peyğəmbərlər dinar, dirhəm irs qoymurlar, onların irsi elmdir. Kim ondan bəhrələnərsə, çoxlu nəsib əldə etmiş olar». «İnsanların elmindən bəhrələndikləri alim yetmiş min abiddən daha üstündür". (İmam Baqir). İmam Əli (ə) buyurur: «Alim və müəllimin üç nişanəsi vardır: elmi və baxışı, mülayimliyi və səbri, sükut və vüqarı".

Müəllum bar verən ağac kimi həmişə başıaşağı, gülməsi təbəssüm, millətin, xalqın yükünü

çiynində daşıyandır. İdeallığa doğru gedən, ancaq yerişini dəyişməyən, heç bir qarşılıq gözləmədən könül saraylarını inşa edən, ciddiyyəti qəlbinə hakim edən, ancaq təkəbbürlənməyən, peşəsini sevən, sevməyi sevən, nifrətə nifrət edən bir ana, bir atadır. Nəsirəddin Tusi çox gözəl demişdir: "İnsanı kamilliyə çatdırmaq məqsədi güdən sənət dünya sənətlərinin ən şərəflisi olmalıdır".

Bəli, bu sənət elə müəllimlik sənəti, müəllimlik peşəsidir. Hər kəs özünün ibtidai məktəbdə, birinci sinifdə oxuduğu illəri xoş xatirə kimi anır və bu xatirələrdə ən əziz yeri, əlbəttə ki, ona sevgi və qayğı ilə qələm tutmağı, yazı yazmağı, kitab oxumağı öyrədən müəllimdir.

***Gəlin, alqış deyək, dostlar, ürəkdən,***
***Əsl müəllim tək yaşayanlara.***
***Şeirimlə gül dəstə bağlayıram mən***
***Bu adı şərəflə daşıyanlara.***

İslam Səfərli

Uşaq beyni ağ vərəqə bənzəyir. Oraya nə yazılsa əbədi qalar. Demək, sağlam fikirli, aydın düşüncəli, cəmiyyət üçün gərəkli övladlar böyütmək üçün o ağ vərəqə dəyərli amillər, xeyirxahlıq, vətənpərvərlik, saflıq-paklıq, səmimiyyət bildirən hissləri hopdurmalı, düşüncələrinə ağı qaradan seçməyi yazdırmalıyıq. Bu gün təmiz beyinlərə elə toxum səpməliyik ki, sabah özümüz utanmayaq. Bütün bunları öyrənmək üçün bir məkan-məktəb, öyrətmək üçün isə bir insan var - müəllim. Məktəb-müqəddəs bir məbəddir. Müəllim isə burada maarif, fəzilət, sevgi qapılarını insanların üzünə açandır. Hər birimizin layiqli vətəndaş kimi yetişməyimizdə müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur. Müəllim əməyinin nəticəsində savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Müəllim yeni cəmiyyət quruculuğunun və gənc nəslin mənəvi aləminin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Müəllim ikinci valideyn rolunu oynayır. Müəllimlərin insan həyatında rolu əvəzsizdir. Bizim dünyagörüşümüzü aydınladan şəxs müəllimdir. Biz insanları düzgün yola çəkən, dövlətə yararlı şəxs edən müəllimlərdir. Onların bizim həyatımızda olan rolunu heç vaxt unutmaq olmaz. Müəllim insan memarı, ümid qəhrəmanı, məhəbbət dolu bir qəlb, ismətilə bir örnəkdir. Elə bir örnək ki uşaqlıqdan qocalığa qədər hər birimizin təfəkküründə saf, təmiz, əxlaqlı mehriban bir qəhrəmana çevrilərək bütün həyatımız boyu əməllərimizdə yanımızda olan bir örnək.

Müəllim qəlb dostu, həqiqət carçısı bəşəriyyətin iftixarı, dünya və axirət günəşidir. O, dinləyicisinin mənəvi dünyasına baş vuraraq onun nəfsinin təmizliyini, əxlaqının gözəlliyini təmin edir. Beləliklə, müəllim əməyi sayəsində dil qəlbin tərcümanına, göz də qəlbin aynasına çevrilir. İnsan onun vasitəsi ilə kainatda bütövləşir, özünə yer tapır. Müəllimlər şagirdlərin dərin və hər tərəfli bilik almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Valideynlə bərabər, bəlkə də ondan daha çox, uşağın hər bir şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşən ağır yükdür. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir.

Görkəmli alim Nəsirəddin Tusi "Əxlaqi - Nasiri" əsərində müəllim peşəsinə yüksək qiymət verərək yazmışdır: "Varlıqları ən aşağı dərəcədən kainatın ən şərəfli mərtəbəsinə qaldıran sənətdən daha şərəflisi nə ola bilər?"

***Müəllimlik bu bir incə sənətdir,***
***Bu yolu hər gedən olmalı incə.***
***Saralmaz bir çəmən o göyərincə,***
***Həyata pək yaxın bir məhəbbətdir.***
***Almanlar etmişdir çox kərə təkrar***
***Mənimdir gələcək...müəllimim var..***
***Dinlə vətəndaşım! Belə bir şüar***
***Hər qəlbə tac verən bir fəzilətdir.***

S.Vurğun.

Bəli, doğrudan da müəllimsiz gələcək yoxdur. Ulu öndəimiz Heydər Əliyevin təbirincə desək: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Gələcək gənclərin, gənclər isə Müəllimlərin əsəridir!!!".

Müəllim hikkədən kənar, qürurdan uzaq, bar verən ağac kimi başıaşağı, gülməsi təbəssüm, millətin xalqın yükünü çiynində daşıyan fədaidir. O, xətaları görən ancaq, sahibinə söyləməyən, əməlləri ilə onlara örnək olmağa çalışan bir insandır. Onun örnəyi elə onun həyatıdır.

*Necə məlahətli, qəşəngdi səsi*
*Axan saf suların təranəsitək;*
*Necə də istiydi doğma nəfəsi,*
*Necə də böyükdü köksündə ürək.*

M. Dilbazi

İslam dinində müəllimliklə məşğul olanların - təhsilverənlərin qarşısında cox ciddi tələblər qoyulur. Belə ki, onlar hər şeydən əvvəl yüksək əxlaqi-mənəvi keyfiyyətlərə sahib olmalıdırlar. Allahın Rəsulu buyururdu: "Müəllim özünü əxlaqlı apararsa, Allah və onun mələkləri, hətta yuvalarında olan qarışqalar da ona dua edər."

Müəllim daim öz üzərində çalışmalı, oxuyub öyrənməli, özünün biliyini və peşə səviyyəsini durmadan artırmalıdır. Təsadüfi deyil ki, Məhəmməd peyğəmbər deyirdi: "Elm xəzinədir, onun açarı isə daim oxuyub, öyrənən insanın əlindədir."

Əsil müəllim bildikləri ilə kifayətlənməyərək hər gün elmin bağçasında yeni-yeni biliklər öyrənər. Anadan sonra yer üzünün fədaisi müəllimdir. İnsan məxluq, elm isə Allahın mülküdür. Müəllim isə elm mülkünün Allahın bəndəsinə ötürücüsüdür. Hz.Muhəmməd: "Alimlər mənim varislərimdir. Alimin ölümü yerdə aləmin ölümüdür"- deyən peyğəmbərimiz, elm sahiblərinin alim olmasında da müəllimin roluna müstəsna əhəmiyyət vermişdir.

Müəllim könül sirdaşı, qəlb dostu, həqiqət carçısı bəşəriyyətin iftixarı dünya və axirət günəşidir. O, dinləyicisinin mənəvi dünyasına baş vuraraq onun nəfsinin təmizliyini, əxlaqının gözəlliyini təmin edər. Beləliklə, müəllim əməyi sayəsində dil qəlbin tərcümanına, göz də qəlbin aynasına çevrilər. İnsan onun vasitəsi ilə kainatda bütövləşər, özünə yer tapar.

Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən ğözəl peşə olduğundan insanlar həmişə müəllimə hörmətlə yanaşmışlar. Müxtəlif dövrlərdə minlərlə müəllim əməyi milləti cəhalətdən qurtarmış, müharibələrin qarşısı alınmış, insanlar elm və texnikanın gücü ilə texnika əsrinə gəlib çatmışdır. Müəllimlər şagirdlərin dərin və hərtərəfli bilik almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Valideynlə bərabər, uşağın hər cür şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşür. Bu əməyin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir.

Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq. Müəllimlər cəmiyyətin memarlarıdır desək, yəqin ki, səhv etmərik. Bu danılmaz bir həqiqətdir ki, hər kəsin layiqli vətəndaş kimi formalaşmasında müəllimlərimizin əvəzsiz xidmətləri vardır. Gəlin bunu unutmayaq.

Dinimizdə "Allahın vermiş olduğu elm və hikmətlə hökm edən və onu xalqa öyrədən adam"lara - müəllimlərə böyük hörmət və ehtiram var. Onlar "qibtə ediləsi adamlar" hesab olunurlar. Allahın Elçisi buyururdu: "Hər kəsdən ki elm öyrənmisiniz onun yanında təvazökar olun. Onun qarşısında baş əyin!". Həzrət Əli isə deyirdi: "Şah da olsan, hakim də olsan, müəllimin gələndə ayaq üstə durmalısan!". Müəllimlərin özünü, sözünü, tövsiyələrini unutmaq mümkün deyil. Bizim illər sonra anlayacağımız öyüdləri, müəllimlərimiz bizə illər öncə söyləyir. Bu gözəl və şərəfli işin dəyərini bilən əcdadlarımız həmişə müəllimə hörmətlə yanaşmışlar. Bu günki valideynlər, uşaqlar, gənclik də bu mirası, müqəddəs adəti, hörməti unutmamalıdırlar. Sokrat demişkən: "Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz".

Bəli, doğrudan da həyatını millətinin, xalqının səadəti yolunda sərf edən, özünü bu yolda qurban verən insanlar əbədiyyət qazanırlar.

*Endirdi yerlərə atamız bizi*
*Müəllim göylərə qaldıran oldu.*
*Gəl, ey heykəltaraş! Bu mərmər, bu gil.*
*Düşün müəllimi, sonra alış, yan.*
*Onun heykəlini mərmərdən deyil,*
*Yarat özü kimi nurdan, işıqdan.*

B.Vahabzadə

**Ədəbiyyat:**


1. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Bakı: 2013
2. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: 2018
3. Mehrabov A. Səriştəli müəllim hazırlığının problemləri. Bakı: 2015



# SƏADƏT QƏRİB

**Səadət Qərib çağdaş Azərbaycan ədəbiyyatında özünəməxsus poetik üslubu ilə seçilən şairədir. Yaradıcılığında sevgi, vətən, insan taleyi, mənəvi dəyərlər, həyatın fəlsəfi məqamları və qadın duyğuları geniş yer tutur. Müəllifin qələmə aldığı çoxsaylı şeirlər müxtəlif mövzularda yazılmış, oxucular tərəfindən maraqla qarşılanmışdır. Onun bir sıra şeirlərinə mahnılar bəstələnmiş və səhnələrdə ifa olunmuşdur.**

**Səadət Qəribin yaradıcılığı duyğu zənginliyi, səmimiyyəti və dərin fəlsəfi düşüncələri ilə diqqət çəkir. Şairənin əsərlərində insanın daxili aləmi, zaman, sevgi, ayrılıq, sədaqət, ruh və varlıq kimi mövzular xüsusi yer tutur. O, həm klassik poetik ənənələrdən bəhrələnir, həm də müasir düşüncə tərzini öz yaradıcılığında əks etdirir. Həyat təcrübəsini və duyğularını poeziyaya çevirərək oxucularına mənəvi dəyərləri, insan sevgisini və həyat həqiqətlərini çatdırmağa çalışır. Səadət Qərib Şairə, söz adamı, qəlb dünyasının səssiz sədalarını misralara çevirən şairədir.**

**10 iyun onun dünyaya gəldiyi gündür. Bu münasibətlə Səadət Qəribi təbrik edir, ona can sağlığı, uzun və faydalı ömür, şəxsi həyatında səadət və xoşbəxtlik, yaradıcılığında bol-bol uğurlar arzulayırıq.**

**Hörmətlə:**
**“Xəzan” ədəbi-bədii jurnalın**
**redaksiya heyəti**

## SUS, ÜRƏYİM, DAHA SUS!

Sus, ürəyim, sus!!!
Daha danışma!
Daha alışma!
Sıranı səbrə ver, zamana ver!
Qoy, onlar danışsın!!
Bir-biriylə yarışsın!

Sus, ürəyim, sus!!!
O qədər bağırdın, çağırdın, coşdun...
Fəda etdin özünü....
Dərdlərin azaldımı?
Söylə,
bir daha coşmağa gücün qaldımı?

Sabahlara qədər çəkdin cəfalar...
Qanayan yaraların tapdımı şəfalar?...
Fəda etdin ömrünü,
zərrə qədər qədrini bilən oldumu?
Öldürdün özünü, de görüm,
səninçün də ölən oldumu?...

Kaş, gözüm çıxaydı səni belə görməyəydim...
Kaş, kar olaydım, səsini duya bilməyəydim..

Görürsənmi üzümə baxmağa üzün yox...
Halbuki, içində deyiləcək sözün çox...
Sevgiyə ac olsan da, yenə də gözün tox!!

Bax sən həmişə belə oldun...
İçində zəlzələlər...
Gözündə şəlalələr...
Yaşadın birtəhər...
Sus, ürəyim, daha sus!

## YÜK

Çiynində nə qədər yükün var, adam
Qəm yükü, dərd yükü, məhəbbət yükü.
Dünənin bir namərd cəllad körpüsü,
Bu günün daşıyır sədaqət yükü.

Əl-ələ gəzirsən xəyallarınla,
Hələ yaşayırsan olmaz arınla,
Öyürsən özünü «yalan» varınla,
Taxt qurub içində səfalət yükü.

Bir daş qoymamısan daşının üstə,
Hər gün bir yaş gəlir yaşının üstə,
Tutmusan vəfanı başının üstə,
Ayağın altinda məşəqqət yükü.

Bu nimdaş dünyadan sən təzə umma,
Dərdin badəsindən heç məzə umma,
Peşiman ürəkdən möcüzə umma,
Gözündə apardın səadət yükü.

Günaha bulaşıb çirklə gedirsən,
Kimin var orada ərklə gedirsən.
Bu son mənzilinə yüklə gedirsən,
Əlində bir zənbil qəbahət yükü.

## QAÇMAQ İSTƏYİRƏM ÇOX UZAQLARA

Bəzən ətrafimda hər şey qaralir,
O zaman bilmirəm gedim mən hara.
O anda qəlbindən bir istək keçir
Qaçmaq istəyirəm çox uzaqlara.

Elə bir yerə ki, orda ümidin,
Qoynunda bir bağı, bir gölü ola,
Gölün qıragında kiçik bir koma,
Qapısı, bacasi lap uçuq ola.

Qaçmaq istəyirəm o yerlərə ki,
Orda gəncliyimi qoyub gəlmişəm.
Bu ömür təngnəfəs yanımdan keçib,
Mən onun səsini hiss etməmişəm.

İçimdə hay-haray salan kəlmələr
Qəlbimin içində açıblar yara.
Ardımca "getmə, qal" deyənim də yox,
Qaçmaq istəyirəm çox uzaqlara…

## İNSAN ÖMÜR BOYU YIXILIB QALXAR

Bir gündə yaşarsan bəzən dörd fəsli,
Bir anda ömründə şimşəklər çaxar.
Bitməz ki həyatın fırtınaları,
İnsan neçə dəfə yıxılıb qalxar?

Susasa ürəyin zəmzəm suyuna,
Dumanlı bir hava çöksə ruhuna,
Hay verməzsə ümid, əğər hayına
İnsan neçə dəfə yıxılıb qalxar?

Fərq etməz ömrünün hansı yaşında,
Səbr kasan hərdən dolub daşanda,
Çarəsiz olmağa məruz qalanda,
İnsan neçə dəfə yıxılıb qalxar?

Çiynindəki yükün ağır olduqda,
Haqsızlıq içində duyduqlarında,
Məcbur susduğunda, susduqlarında,
İnsan neçə dəfə yıxılıb qalxar?

Dünya boyda dərdi daşıyır insan,
Yıxılsa da qalxıb yaşayır insan,
Bəzən də yenidən başlayır insan,
İnsan ömür boyu yıxılıb-qalxar.

## ŞEİRDƏN EVLƏR TİKİR…

Bir qadın var: – Gecələr
Baxın gör nələr tikir.
Kərpic-kərpic əruzda,
Şeirdən evlər tikir…

Bənd-bənd artır arzusu,
Həcəz bəhri duyğusu,
Hər gün qaçır yuxusu,
Şeirdən evlər tikir…

Divarları misradan,
Pəncərəsi hecadan,
Fikir axır bacadan,
Şeirdən evlər tikir..

Ruhu bayatı, ağı,
Solub bağçası, bağı,
Həsrət qoxur otağı
Şeirdən evlər tikir.

Yasəmən, süsən qadın
Hər şeyə dözən qadın,
Özündən küsən qadın,
Şeirdən evlər tikir.

## GƏNCLİYİM UZAQDAN BAXIB KÖVRƏLİR

Əllinin əlindən tutub gedirəm,
Gəncliyim uzaqdan baxıb kövrəlir.
Ömür kirpik-kirpik qəmli gözünü
Saçımın ağında sıxıb kövrəlir.

Götür könül-könül oxşa əllimi,
Qəlbimin səsində, ürək səsimdə.
Gəncliyin istisi gülür üzümə,
Bu hicran duyğulu ürkək səsimdə.

Arzular ümüdlə səsləyir məni
Sevginin dilində, eşqin dilində
Ara ətir-ətir baxışlarımı,
Sevdanın gülündə, sevgi gülündə.

Bir həzin nəğmədi kədər avazlı,
Üzümnən boylanan ömür yoxuşu.
Baxıb qırış – qırış gələn qismətə,
Alnımda kövrəlir ömür naxışı.

Ayların illərin qözündə qaldı,
O şıltaq çağımın, sığallı günü.
Əridi zamanın ac dodağında,
Sürməli taleyin o ballı günü.

## İSTƏDİM

Həsrətin bıçaqtək səbrim kəsəndə,
Zamanın dərisin soymaq istədim.
Mənə bic-bic baxan fələyin hərdən,
O bic gözlərini oymaq istədim.

Qəlbimin içində bərq vurub sancım,
Sürünüb ardımca kölgətək acım,
Bəzən də, bir başqa yananda canım,
Biryolluq dünyadan qaçmaq istədim.

Qaşların hey çatıb ağlama, könlüm,
Bu zalım dünyada mən nələr gördüm.
Bəzən üsyan etdim, bəzən də küsdüm,
Ürək danışanda, susmaq istədim.

Hər kəs yazısıyla dünyaya gəlib,
Bir gözüm ağlayıb, bir gözüm gülüb,
Dəliqanlı qəlbim onu çox sevib,
Sevgim sevinəndə uçmaq istədim.

Haçansa bitəcək bu iztirablar,
Yenidən ruhumda olacaq bahar.
Yaxşı ki həsrətin ümid yolu var.
Ayaq səslərini duymaq istədim.

## MƏN BİR HƏYAT HEKAYƏSİ

Mən bir həyat hekayəsi,
yazılmamış bir əsərəm,
oxunmamış bir ürəyəm,
Açılmadan solan çiçək..

Mən bir həyat hekayəsi…
bu həyatla nə dostlaşa,
nə düşmən ola bilirəm.
Nə sevgiylə,nə sevgisiz,
Nə sənsiz qala bilirəm…

Acılara alışmışam,sarsılmışam,
Od-alova sarılmışamçox yanmışam…
Mən bir həyat hekayəsi…
Neçə-neçə kədər yatır,
ürəyimin ilğım-ilğım
görünməyən tərəfində.
Həsrətimin parçalanmış
baş daşını gizlətmişəm
gözlərimin açılmayan
duman dolu səhərində.

Mən bir həyat hekayəsi…
gecə-gündüz çeynədiyim,
nə uda, nə də unuda bildiyim
vüsalının əsiriyəm.
Nə Leyliyəm, nə Əsliyəm,
Mən yeni sevgi nəsliyəm.

Mən bir həyat hekayəsi…
Öz içində dustaq olan
heç vaxt yaza bilmədiyim
eşqin bulanıq tamıyam.
Bu qaranlıq zil gecənin
İlıq baxışlarındakı
soyuq sevgi dastanıyam.

Mən bir həyat hekayəsi…
Odu sönməz həsrətimin
qəhərini uda-uda,
Taleyimin tellərinə
sığal çəkib oxşamışam,
İçimdəki duyğulara
ürəyimdə məzar qazıb
sevgi dolu şeirləri,
bircə-bircə basdırmışam.
Mən bir həyat hekayəsi…
Odu sönmüş tənha ocaq…
Bu gün məni duymayanlar,
bir gün məni oxuyacaq.
Oxuyacaq, anlayacaq…
Amma onda gec olacaq…
Amma onda gec olacaq…

Mən bir həyat hekayəsi…

## AĞLAYAN XATİRƏLƏR

Qəlbim göylər kimi aydın olsa da,
Gecələr gecətək qaralmağım var.
Hər bahar ruhumda güllər açsa da,
Payızda yarpaqtək saralmağım var.

Dağların qarıtək soyuyub sinəm,
Donmuşam bir daha çətin isinəm.
Elə bil bulud da, yağış da mənəm,
Çayların suyutək durulmağım var.

Həyatım küləyə, yelə bənzəyir,
Dağlardan kükrəyən selə bənzəyir,
Qönçəsi çatlamış gülə bənzəyir,
Taleyə, qədərə qırılmağım var.

Eşqim uca idi, hər şeydən uca,
Sevgimi qorudum ömür boyunca.
Sarıla bilmədim ona doyunca,
Təkcə xatirəyə sarılmağım var.

Bilmirəm həyatda yoxam, ya varam,
Baxdıqca geriyə sızlayır yaram.
Özümü heç bir vaxt bağışlamaram,
Ən çox da özümə daralmağım var.

## TANRIM, XOŞ XƏBƏR VER...

Gecələr dünyada tənha qalanda,
Çatır imdadıma sənli röyalar.
Qarşımda dayanıb bikef baxırsan,
Oyanıram yoxsan, ayaq izin var.

Sanki planetdən gəlir gur səsin,
Çaşıram, görəndə aynada əksin,
Canıma, qanıma hopub nəfəsin,
Səni yaşatmaqçün, axı sözüm var.

«Kaş» sözü dilimi yara eləyib,
Fələk həyatımı qəmlə bələyib,
Çarəsiz olmağım belimi əyib,
Yıxılıb qalxmaqdan qırıq dizim var.

Ümid də qırılır bəzən bir anlıq,
O anda gözümə çökür qaranlıq,
Heç yerdə tapmıram daha rahatlıq,
Yenə də pəs etməm, məndə dözüm var.

Tanrım, xoş xəbər ver, deyə oyandım,
Ümidli səhər ver, deyə oyandım.
Mənə bir yol göstər, deyə oyandım,
Hər günüm düyündür, bəlkə çözüm var.

## ŞAİR OLMASAM DA, ŞAİR TƏBLİYƏM

Sağ əlim qələmi buraxmır bir an,
Düzür misraları, yazır yanbayan,
İlhamım sevgidən, ürəkdir yazan,
Mən şair deyiləm, şair qəlbliyəm –
Şair olmasam da, şair təbliyəm.

Şeirlər qəlbimin həmdəmi oldu,
Səhər mehi kimi köksümə doldu,
Məni dərdlərimin əlindən aldı,
Hər kəlməm bir dünya, neçə sədliyəm –
Şair olmasam da, şair təbliyəm.

Hər kəsin dərdini dərdim sanaraq,
Bir dərddən yüz dəfə alovlanaraq,
Sevinci car edib, qəmi danaraq,
Çılğın sevdalıyam, zəngin dəbliyəm –
Şair olmasam da, şair təbliyəm.

Şeirdi ruhumun baharı, yazı,
Şeirdi könlümün dil açan sazı,
Şeirdi duyğumun coşqun avazı,
Bütün yazanlardan daha fərqliyəm –
Mən şair deyiləm, şair təbliyəm.



ZƏMİNƏ RƏSULOVA

# BALACA QOZANIN NAĞILI

**hekayə**

Yenə təbiətin şıltaqlığı tutmuşdu. Möhkəm külək əsir, balaca qozanın bərk-bərk yapışdığı budağı sağa-sola yelləyirdi. Qoza bir əli ilə papağından, o biri əli ilə isə yarpaqları tökülmüş budaqdan yapışmışdı. Aşağı baxdıqca gözləri qaralırdı. Ürəyi lap ağzına gəlirdi. Bilmirdi neyləsin. Qardaş, bacılarının hamısını anasının qoltuğunda yuva qurmuş dələlər çoxdan evlərinə daşımışdılar. Çoxu da bu zalım küləklərə tab gətirə bilməyib elə kəllə-mayallaq aşağıdakı dərəyə yuvarlanmışdı. Dələlər küləyə məhəl qoymadan ana palıdın gövdəsi ilə aşağı yuxarı dırmaşır, bir-birilərini tələsdirirdilər. Ana dələ ağzına o qədər fındıq doldurmuşdu ki, nə dediyi anlaşılmırdı:

-Tezzj-tezzj aşşağğı. Ssşsiçanlardan qabaq fffındıqları yyığın.

Dələ ailəsi tez-tələsik fındıq ağacına doğru qaçır, ana palıd da sakitcə onları izləyirdi. Balaca Qoza hərdən anasına lap hirslənirdi. Sanki o dələlərin anası idi. Onlara öz qoynunda yer verib, bütün yayı istidən qorumuşdu. İndi bu küləkli günlərdə də onları müdafiə edirdi. Ancaq nədənsə öz balalarına – qozalarına qarşı biganə idi. Onlara sanki “mən sizi yetişdirdim, işim bitdi, indi özünüz öz həyatınıza yön verməlisiniz” deyirdi.

Beləcə, Balaca Qozanın bütün bacı və qardaşları analarından ayrılmış, özlərini ana təbiətə təslim etmişdilər. Ətrafda özündən böyük bacı-qardaşları gözə dəyirdi. Boy-boy meşənin dərinliklərinə doğru düzülmüşdülər. Onların çoxu Ana Palıddan boyca balaca idilər. Daha böyük olanlar da vardı. Xalalar, bibilər, dayılar, əmilər və başqa qohumlar. Hərdən baş-başa verib nə isə pıçıldaşır, həsrətlə dağlara doğru boylanır, hərdən də qəribə bir səsdən qorxaraq titrəyirdilər. Balaca Qozanın yaxşı yadında idi. Hələ o yenicə gözünü açıb ətrafı dərk etməyə başlamışdı. Qəribə səs eşidildi: “Dığğğğğ-dığğğğ-dığğğ”.

Sonra bir şaqqıltı qopdu. Bütün qohumlar ah çəkdi. Çoxunun budaqları yıxılan palıd ağacının zərbəsindən qırılmış, yarpaqları və qozaları tökülmüşdü. Meşəyə adamlar gəlmişdi. Hamı vahimə içində idi. Qoca palıdlardan birinin bütün qol-budaqlarını kəsdilər, öz balalarından ayırdılar. Heç ağlaşan budaqlara, yarpaqlara, qozalara, yuvası dağılmış dələlərə məhəl qoymadan gövdəsini sürüyə-sürüyə aparıb getdilər. O vaxtdan bəri həmin səs eşidiləndə ailədən kim isə əskilir, qohumların sayı azalırdı.

Qəfildən eyni səs eşidildi, bu dəfə lap yaxından, Ana Palıdın ayağının dibindən gəlirdi. Külək bir tərəfdən, səs bir tərəfdən Balaca Qozanın canına vahimə saldı. Ana Palıd da titrəyir, ancaq sanki ətrafdakı balalarını və qohumlarını qorxutmamaq üçün səsini çıxara bilmirdi. Balaca Qozanın anasına yazığı gəldi. O heç vaxt öz anasını belə çarəsiz görməmişdi. Bir anlıq əlini buraxıb anasına sarılmaq istədi. Ona “qorxma, mən səninləyəm” demək istədi. Sonra qısqanclıq ona güc gəldi.

-Qoy anama qoynunda yer verdiyi dələlər kömək etsin, mən isə onun dediyi kimi gedirəm öz həyatımı yaşamağa.

Balaca Qoza Ana Palıddan ayrıldı, gözlərini yumub aşağıya doğru tullandı. Təpəsi üstə bir daşın üstünə düşdü. Yaxşı ki, başında papağı vardı, yoxsa başı yarılacaqdı. Bir müddət ağrıdan özünə gələ bilmədi. Eləcə uzandı. Bir də gözünü açanda gördü ki, qarşısında böyük bir Sincab dayanıb. Dişləri bayırda iştahla ona baxır. Balaca Qozanın ürəyi sürətlə döyünməyə başladı. Tez qaçmalı idi. Yoxsa arzularına çatmadan Sincaba yem olacaqdı. Sincabın ağzında iki böyük qoz, bir fındıq, bir də badam var idi.

-Vaxtında qaç canını qurtar, yoxsa sən də bizim günümüzə düşəcəksən deyirdilər.

Sincab qısa əllərini Balaca Qozaya doğru uzatdı, tutmağa çalışdı. Balaca Qoza onun əlindən çıxmağa, Sincab isə öz ovunu ağzına – digərlərinin yanına yerləşdirməyə çalışırdı. Balaca Qoza "kömək edin" – deyə yalvarırdı. Qoz və fındıq Sincabın ağzında öz yerini dəyişdi ki, Balaca Qoza ora yerləşməsin. Beləcə, o Sincabın əlindən sürüşüb dərəyə düşdü.

Balaca Qoza aşağıya doğru yuvarlandıqca Sincab daha da böyük iştah və sürətlə onun arxasınca gəlirdi. Nəhayət, Balaca Qoza daşa ilişib dayandı, nəfəsini dərməmiş Sincab da ona yetişdi. Bu dəfə Balaca Qozanın taqəti qalmadığından gözlərini yumub qismətinə tabe olmağı seçdi. Nəfəs belə almırdı. Birdən bütün bədəninə buz kimi, qəribə bir şey sarıldı. Balaca Qoza "yəqin ki, artıq Sincabın ağzındayam" deyə, qorxuyla gözlərini açdı. Sincabı gördü. Ancaq yavaş-yavaş ondan uzaqlaşırdı. Ətrafına baxdı. Sanki milyonlarla yağış damlası vardı. Doyunca içdi, özünə gəldi. Sonra soruşdu:

-Sən kimsən?

-Mən dağ çayıyam. Bax, o qarlı dağları görürsənmi? Ordan yola çıxmışam, beləcə gedirəm öz taleyimi axtarmağa.

Balaca Qoza çox sevindi. Bu Dağ çayı onun dostu ola bilərdi. Birlikdə həyatı tanıyardılar.

Beləliklə, onlar dostlaşdılar. Dərəni keçib düzənliyə doğru getdilər. Buralar fərqli idi. Get-gedə meşələr azalırdı. Havalar və su gündən-günə soyuyur, Balaca Qozanın əvvəlki həvəsi, sevinci sönür, Dağ çayı da daha əvvəlki kimi onunla danışıb gülmürdü. Gecələr suyun üzərini nazik buz təbəqəsi örtür, Balaca Qozanı dondururdu. Yenə də Balaca Qozanın içindən kimsə danışmağa başlamışdı.

-Axı sənin nəyinə lazımdır bu Dağ çayı? Sən onsuz da həyatla tutuşa bilərsən. Susuz da öz yerini tapa bilərsən…

Nəhayət, nisbətən isti bir yerə gəlib çatdılar. Dağ çayı tamam yorulub üzülmüş, xəstə kimi iynəyə sap olmuşdu. Balaca Qoza Dağ çayına:

-Gəl, biz yollarımızı burda ayıraq, sən istədiyin yerə get. Buza dön, qal. Mən burda dayanacam. Burda qabığımdan çıxıb, qol-qanad açacam. Bütün bu ətrafda məndən böyük, əzəmətli heç kim olmayacaq. Mənim balalarım da burda böyüyəcək. Onları nə Dələ, nə də Sincab yeyəcək. Heç burda dəli küləklər də yoxdur…

Dağ Çayı nə qədər dil tökdüsə də, onu yola gətirə bilmədi. Balaca Qoza "elə burada qalacam" deyə, iki ayağını bir başmağa dirədi. Dağ çayı çarəsiz dostunu burda qoyub yoluna davam etdi. Balaca Qoza diyirlənib quru otların arasında gizləndi. Qar yağdı. Üşüdü. Bir az da torpağa sıxıldı. Torpaqdan Ana Palıdın qoxusu gəlirdi. Üzünü ona söykəyib yuxuya getdi.

Aylar keçdi. Qar əriməyə başladı. Balaca Qoza yuxudan oyandı. Yatmaqdan şişmişdi. Daha köynəyinə sığmırdı. Əlini, qolunu açıb gərnəşmək, dünyaya mən də varam demək istədi. Köynəyi yırtıldı. Ayaqları torpağa dəydi. Başını günəşə doğru qaldırdı. Nəfəs aldı. Sevinirdi. Artıq papağını da atmışdı yerə, dünya vecinə deyildi. Böyüyürdü. Böyüyüb "mən bacardım" deyəcəkdi. Onu buralara gətirən Dağ çayı heç yadına da düşmürdü. Ətrafda nə isə qəribə heyvanlar var idi. İri buynuzları olan heyvanlardı. Torpaqdan yenicə baş qaldıran bütün otları yeyirdilər. Balaca Qoza "mənim yeyiləcək bir yanım yoxdur, bundan mənə nə, qoy yesinlər" dedi.

Ətrafında boyca ondan daha hündür olan otlar hamısı yeyildi. Günəş şüaları artıq onu yandırmağa başlamışdı. Bərk-bərk yapışdığı torpaq quruyurdu. Torpaq quruduqca Balaca Qozanın susuzluğu artır, Dağ çayı gözünün qabağına gəlirdi. Axı dostu ona demişdi ki, bura kök salınacaq yer deyil, gəl mənimlə gedək. Balaca Qoza dostuna qulaq asmadığına görə çox peşman idi. Yerindən də tərpənə bilmirdi. Ağlamağa başladı. Dərdini həşəratlara, otlara, quşlara danışdı.

Balaca Qozanın dərdi dildən-dilə dolaşıb Dağ çayına yetişdi. Dağ çayı artıq ondan çox uzaqda idi. Onun da əlindən bir iş gəlməzdi. Dostunun dərdinə dərman olmaq istədi. İstədi qalxsın Günəşdən xahiş etsin ki, Balaca Qozanı çox yandırmasın. Günəş "sən mənim əsrlərdir davam edən adətimi dəyişə bilməzsən" dedi. Dağ çayı hönkür-hönkür ağladı. Buxar olub Günəşin yanına qalxmış Dağ çayı yağış olub Balaca Qozanın üstünə yağdı. Aylar-illər beləcə keçdi. Dağ çayı Balaca Qozanı qorumaq üçün hər yay Günəşin yanına yalvarmağa getdi, Balaca Palıd da Dağ çayına qovuşa bilmək üçün köklərini torpağın dərin qatlarına doğru, budaqlarını Günəşə doğru uzatdı ki, dostundan bir xəbər tutsun. İllər sonra Balaca Qoza Böyük Ana Palıda çevrildi, kökləri artıq dostunu tapmışdı. Xoşbəxt idi. Onun da gövdəsində dələlər, budaqlarında quşlar yuva qurmuşdu. Ətrafında boy-boy bala palıdlar düzülmüşdü. İndi o da anası kimi idi, sadəcə öz övladlarını "düşünmürdü". Hətta bəzən onları sevdiyini də bildirmirdi ki, ərköyün olmasınlar. Axı o indi Ana Palıd idi. Budaqlarında onlarla quş yuvası, qoltuğunda dələlər, qabıqları arasında müxtəlif həşəratlar, qurdlar, kölgəsində otlar, göbələklər vardı. Bu ətrafdakı bütün bitki və canlılar onun sayəsində yaşayırdı. O necə sadəcə öz balalarını düşünə bilərdi. Axı təbiətdə hamı bir-birindən asılıdır. Təklik Allaha məxsusdur. Ətrafdakılar olmasa, heç kim, heç nə ola bilməz.

Balaca Qoza böyümüşdü, ana olmuşdu, anası kimi olmuşdu, anasından uzaqda. Yuva olmuşdu çoxlarına, ev olmuşdu qanından, canından olmayanlara. Ancaq özü öz doğmalarından aralı düşdüyü kimi, övladları da ondan bəzən ayrı düşürdü. İndi anlayırdı anasını, ayrılığın acısını, çarəsizliyi və hər şeyə rəğmən güclü olmağın verdiyi ağrını.



# MAYIL MƏMMƏDLİ

## XƏYALLAR BURULĞANINDA

İtmişəm xəyallar burulğanında,
Özüm öz çevrəmdə dolaşmışam mən.
Amansız dünyanın sərt dolayında
Yüz dəfə, min dəfə yol azmışam mən.

Başımdan zər-ziba, sərvət töksə də,
Yanaram, toxunsam qırığına da.
Saçıma nazıyla sığal çəksə də,
Alışa bilmədim qılığına da.

Burda insanlar da yaddır könlümə,
Burda nə gördümsə məndən uzaqdır.
Tək bircə bolluğu yatdı könlümə,
Dünyanın dərd-səri qucaq-qucaqdır.

Hamıya pay düşər kədər bolluca,
Eninə, boyuna ha xərclə, bitməz.
Sevgiyə, sevincə həsrət qalınca
Dərd-səri qapından qovsan da getməz.

Bu dünya ruhumçün bağlı bir qəfəs,
Burda qonaq qalmaq hünər sayılmaz.
Sirli yuxulardan çağırır bir səs,
Bax orda, o yerdə yatan ayılmaz.

Biçilib boyuma libas kədərdən,
Toya, bayrama da bircədir donum.
Yanıram içimdə acı qəhərdən,
Sən Allah, qoy gedim sakitcə ölüm.

## QAYIDIM

Tanrım, hasil eylə bu diləyimi,
Gedib doğma yurdu görüm, qayıdım.
Otuz illik həsrətinə son qoyub,
Bir oğul borcumu verim, qayıdım.

Həsrətdən ürəyim param-paramdı,
Vətən dərdi sağalmayan yaramdı.
Onsuz keçən ömrüm, günüm haramdı,
Elimlə dərdimi bölüm, qayıdım.

Gəl çox üzmə yurd nisgilli şairi,
Son rica sözüdür ərkli şeiri.
İgid oğullardan almayıb geri
Sonuncu şəhidin olum, qayıdım.

## RUHUMUN SƏSİ

Mən vətən aşiqi, soz xəstəsiyəm,
Könüllər nəğməsi, saz bəstəsiyəm,
Yurdumun yanıqlı şikəstəsiyəm,
Bəzən coşğuluyam, bəzənsə kövrək,
Dinləyin, susmamış siməmdə ürək.

Açılan sabaham, düşən axşamam,
Nakam taleyimlə yanan ağ şamam.
Kimsənin ömrünə heç vaxt oxşamam,
Aləmə səs salır gör neçə dilək,
Dinləyin, susmamış sinəmdə ürək.

Ruhumun səsidir o cəng, o savaş,
Təbim, ilhamımdır gurlar «Qaval daş».
Yurduma zərbədir çatılan hər qaş,
Düşməndən qisasın alım mən gərək,
Dinləyin, susmamış sinəmdə ürək.

Neçə qərinənin yolçusuyam mən,
Vaxtın, zəmanənin ölçüsüyəm mən,
Müqəddəs bir sülhün elçisiyəm mən,
Məramım mayaktək yol göstərəcək,
Dinləyin, susmamış siməmdə ürək.

## SƏNSƏN YANIMDA

Nə qədər kükrəyib, nə qədər coşsam,
Vəsfinə min dastan, min nəğmə qoşsam,
Ən uca zirvəni adlayıb aşsam
“Of”un sinəmdədir hər bir anımda,
Mən səni görmüşəm, varsan yanımda.

Yıxmayıb qasırğa, tufan könlümü,
Bu sınıq könlümü, viran könlümü.
Eşqinlə ovutdun yavan könlümü,
Bir dəli sevgiyə möhtac qalanda,
Mən səni görmüşəm, varsan yanımda.

İlahi eşqinə ölmək – səadət,
Tək budur istəyim səndən nəhayət.
Bir zərrə nurun da mənimçün həyat.
Bu adın, bu sevgin mənim olanda,
Mən səni görmüşəm, varsan yanımda.

Haraya baş alıb, haraya getsəm,
Yorulub yollarda, çöllərdə itsəm.
Sığınıb köksünə gül kimi bitsəm,
Adınla qoşadır adım, sanım da,
Mən səni görmüşəm, varsan yanımda.

## NİYƏ GƏLMİSƏN?

Uzaq yol gəlmisən, otur, dərdləşək,
Söylə, o illərim, niyə gəlmisən?
Nəyin var, nəyin yox, gətir bölüşək,
Söylə, o illərim, niyə gəlmisən?

Yorğunsan, nəfəs dər, bir məni dinlə,
Aldandım həyata şirin vədinlə.
Fələk xoş günümü biçdi əlinlə,
Söylə, o illərim, niyə gəlmisən?

Bəlkə, izlərimdə iz itirmisən,
Bəlkə, yollarımda gül bitirmisən?
Qaynar çağlarımdan od gətirmisən,
Söylə, o illərim, niyə gəlmisən?

Daha gözəl günlər ummaqdan keçib,
Dönüb o illərə baxmaqdan keçib.
Ov ötüb bərədən, çaxmaqdan keçib,
Söylə, o illərim, niyə gəlmisən?

Kamına yetməyən çox diləyim var,
Bir quru can ilə bir ürəyim var.
Sənə veriləcək özgə nəyim var,
Söylə, o illərim, niyə gəlmisən?

## A DAĞLAR

Gəlişim ən kövrək zamana düşə,
Şehində islana, dumana düşə.
Ürəyim bir şirin gümana düşə,
Tapa istəyini səndə, a dağlar.

Ayrılıq qorxusi dağıla gedə,
Dönə bir dastana, nağıla, gedə.
Həsrət gözlərindən sağıla gedə,
Hicran boynun bükə gendə, a dağlar.

Can məlhəmi havasına gəlirəm,
İlqarına, vəfasına gəlirəm.
Loğman bilib şəfasına gəlirəm,
Azdırma yolumu çəndə, a dağlar.

Qoyma gözlərindən məni uzağa,
Sinəm meydan olub dərdə, fərağa.
Kərəm kimi çox düşmüşəm sazağa,
Sanma məni aciz bəndə, a dağlar.

## QƏFİL GÖRÜŞ

Gözləmirdi, qəfil düşdü güzarım,
Məni görcək yaman çaşdı bu dağlar.
Əziz tutub bu vədəsiz qonağın
Gəlişinə süfrə açdı budaqlar.

Bu yerlərçün bayram oldu gəlişim,
Fərəhləndi dodağımda gülüşüm.
Mehribanlıq, həmrəylikdir vərdişim,
Yaxınlaşdı, doğmalaşdı uzaqlar.

Diz qatlayıb bardaş qurdum, sevindi,
Oğulsansa göz yaşına döz indi.
Ürəyimdə neçə qatar söz dindi,
Fitrətindən coşub daşdı bulaqlar.

Könlümbu yerlərdən ayrı dayanmaz,
Ayrılığın həsrətinə kim yanmaz?
Başım üstə dil-dil ötür telli saz,
Kövrəlmişəm, yenə yaşdı yanaqlar.

## KÜSÜRƏM, LƏLƏ

Möhnət qoşun çəkib alıb qalamı,
Öz qəsri-qalamda əsirəm, lələ.
Nə səni suçlaram nə də aləmi,
Özcə taleyimdən küsürəm, lələ.

Ölüb də dünyadan köçə bilmirəm,
Bu qanlı qəfəsdən uça bilmirəm.
Buxovu sındırıb qaça bilmirəm,
Özüm öz əlimdə yesirəm, lələ.

Naləmə acımaz, ünümə yanmaz,
Can desəm, doğması, balası sanmaz.
Heyif, nahaq getdi o çağlar, dönməz,
Günahkar qul kimi susuram, lələ.



ZARİNA TAĞIYEVA

Azərbaycan Texniki Universiteti

# ƏNVƏR NAZİM OĞLU MƏMMƏDOV — AZƏRBAYCANLI, BAKILI VƏ SADƏCƏ OLARAQ MÖHTƏŞƏM BİR İNSAN

**Xülasə**

Əfsanəvi sovet jurnalisti və diplomatı Ənvər Nazim oğlu Məmmədov Sovet vətəndaşlarına televiziya adlı möcüzəli dünyaya "pəncərə" açmış Parlaq diplomat bütün bir əsr ömür sürdü, dünya tarixinin ən mühüm hadisələrinin şahidi və birbaşa iştirakçısı oldu, amma heç vaxt bunu böyük qəhrəmanlıq saymadı. 2000-ci ildə məşhur jurnalistə həsr olunmuş "Sovet televiziyasının cənab X-i" adlı sənədli film çəkilmişdir. Məmmədovun sayəsində sovet ekranlarında "Heyvanlar aləmində", "Səhər poçtu", "Beynəlxalq panorama" və "Aydın və inanılmaz" kimi verilişlər peyda oldu. Elə onun dövründə "13 stul kababxanası" və "Gülüş ətrafında" kimi layihələr özünün "ulduz illərini" yaşadı.

**Açar sözlər:** Ənvər Məmmədov, televiziyada və radio sahəsi, Nürnberq prosesi, Jurnalistika, tarixi dəyər

2025-ci il avqustun 5-də əfsanəvi azərbaycanlı — Ənvər Nazim oğlu Məmmədovun anadan olmasından 102 il keçdi.

Bəzən adam heyrətə gəlir, biz öz tariximizlə necə səhlənkar davranırıq. Böyük işlər görmüş həmvətənlərimizin adlarını unuduruq. Əslində, onların bioqrafiyaları məktəblərdə öyrədilməlidir ki, uşaqlar kimə bənzəmək lazım olduğunu, cəmiyyətə necə faydalı olmağı bilsinlər.

Bu dəfə mən sizə taleyi heyrətamiz bir insan haqqında danışmaq istəyirəm — Nyurnberq məhkəməsində jest və surdo tərcüməçisi olmaqdan tutmuş, 23 il ərzində Sovet televiziyasına rəhbərlik edənə qədər böyük bir yol keçmiş şəxs haqqında.

Bu, "Baharın 17 anı" və "Qəribə təsadüf və ya həmişə təmizlikdə!" filmlərini tamaşaçı üçün qoruyub saxlayan adamdır.(8)

Söhbət Ənvər Nazim oğlu Məmmədovdan gedir — azərbaycanlıdan, bakılıdan və sadəcə olaraq möhtəşəm bir insandan.

Təəssüf ki, hətta "Vikipediya"da da onun haqqında çox az məlumat var — yalnız tarixlər və vəzifələr.

O illərdə, sovet mərkəzi televiziyası formalaşma və sürətli inkişaf dövrünü yaşayarkən, televiziyanın xalqın həyat tərzinin, mədəniyyətinin bir hissəsinə çevrildiyi dövrdə bu insan çox işlər görüb.

Ənvər Nazim oğlu Məmmədovun adı televiziyada və radio sahəsində çalışanların hamısı üçün sovet televiziyasının parlaq nailiyyətləri ilə əlaqələndirilir. Azərbaycan-sovet diplomatı və jurnalisti, SSRİ Dövlət televiziya və radio yayımları komitəsi sədrinin birinci müavini (1962–1985).(6)

XX əsrin əvvəllərində Ənvər Məmmədovun valideynləri Rusiya imperiyasının imkanlı tə-

bəqəsinə mənsub idilər:

Atası — Nazim Rauf oğlu Məmmədov — çar dövrünün böyük Bakı məmurunun ailəsindən idi. Yaxşı təhsil almışdır. Məktəbdə müəllim, sonra hakim işləmişdir. Müharibədən sonra həbs olunmuş, 1949-cu ildə həbsxanada həlak olmuşdur. (Sonradan bəraət almışdır.)

Anası — Olqa Alekseyevna Məmmədova (İvanova) zadəgan ailəsindən idi. Moskva Konservatoriyasını bitirmişdir. Ana tərəfdən böyük rus yazışısı Lev Tolstoyun qohumu idi. Vətəndaş müharibəsinin dəhşətlərindən qaçaraq Bakıya sığınmışdır. Ailə qurandan sonra makinaçı-kargüzar işləyirdi.(1)

Valideynlərinin işlə bağlı çətinlikləri səbəbindən (keçmişlərinə görə) o, üç yaşında ikən nənəsinin yanına — Voronejə (Rusiyada şəhər) göndərilir. Orada zadəgan ənənələrinə uyğun tərbiyə alır. Alman dilini alman tərbiyəçidən öyrənir, nənəsi ilə birlikdə fransız və italyan dillərini də mənimsəyir.

Əlaçı olur, baxmayaraq ki, yeddinci sinifdən zavodda çilingər köməkçisi işləməyə məcbur idi. Məktəbi bitirdikdən sonra isə 1941-ci ilin iyun ayında aviasiya məktəbinə müdavim (kursant) kimi qəbul olunmuşdur. Lakin tezliklə zədə ilə əlaqədar məktəbdən xaric olunmuşdur.

Elə olur ki, Məmmədovun kursant kimi qəbul edilməsi ilə Alman faşistlərinin SSRİ-yə hücumu üst-üstə düşür. Buna görə də o, birinci kursda elə edir ki, məktəbdən xaric edilir.

Onun tərcümeyi-halında deyilir ki, guya zədə aldığı üçün xaric edilib, amma necə və hansı zədə olduğu göstərilmir. Buna baxmayaraq, 18 yaşlı gənc Qızıl Ordu sıralarına daxil olur.(6)

Amma cəbhəyə düşmür. Ənvər Məmmədov ingilis, alman, italyan və fransız dillərini bildiyi üçün, onu Baş Qərargahın Kəşfiyyat İdarəsinin hərbi tərcüməçi kurslarına göndərirlər. Sonra döyüş hissələrində ön cəbhədə xidmət edir. Döyüşlərdə göstərdiyi şücaətə görə birinci “Vətən Müharibəsi” ordenini alır.(1)

Müharibə bitməmiş 1943-cü ildə isə onu ordudan tərxis edərək, Moskvaya çağırdılar və SSRİ Xarici İşlər üzrə Xalq Komissarlığında işləməyə göndərdilər. SSRİ xarici işlər naziri Vyaçeslav Molotov Stalinə məruzə edərək deyir: “Hansısa bir tatarı diplomat kimi İtaliyaya göndərmək nəyə lazımdır?”Amma Ənvərin mükəmməl dil savadı Molotovla yanaşı bir çox vəzifəli şəxsin səsini kəsir.(3)

Ənvər Məmmədov xatirələrində yazırdı:



«Məni Moskvaya çağırdılar və izah etdilər ki, xarici siyasətlə məşğul olan idarəyə keçməliyəm. Mən etiraz etdim və XİN-ə qəbul olunduqdan sonra rəhbərliyə bu təyinatla bağlı etiraz ərizəsi yazdım, amma cavab gəlmədi.

Sonra ərizəni birbaşa Ali Baş Komandana yazdım, qeyd etdim ki, diplomatik hazırlığı olmayan bir zabiti xarici əlaqələrlə məşğul olanların yanına göndərmək düzgün deyil.

Nəticə xoş olmadı: məni Müdafiə Nazirliyinin rəhbərlərindən biri yanına çağırdı və çox sərt şəkildə izah etdi ki, mənə böyük şərəf verilib... Əgər etiraz etsəm, “taxta düşərəm”, yəni hərbi hissəyə yox, meşə kəsiminə göndəriləcəyəm».(6)

Bir il sonra — 1944-cü ildə onu ən çətin istiqamətlərdən birinə — İtaliyaya göndərirlər. Burada Mussolini devrilmiş, amma hələ də bəzi əraziləri nəzarətdə saxlayırdı.

Üç sovet diplomatı: səfir, birinci katib və mətbuat attaşesi (Ə. Məmmədov) — 1944–45-ci illərdə Sovet səfirliyinin bütün heyəti idi.

**Nürnberq prosesi**

1945-ci ildə yeni təyinat — Nürnberq prosesində hərbi tribunal heyətinə daxil edilir. Nürnberq prosesi, İkinci Dünya müharibəsinin qalib Müttəfiq dövlətləri tərəfindən məğlubiyyətə uğradılmış Nasist rejminin öndə gələn şəxsiyyətlərini mühakimə etmək üçün 1945–1949-cu illərdə qurduqları məhkəmədir.

Ənvər Məmmədov ömrünün sonunadək XX əsrin əsas məhkəmə prosesi – Nürnberq məhkəməsində iştirakını borcunu yerinə yetirmiş insanın məmnunluğu ilə xatırlayırdı. Bu,

həqiqətən də borc idi – əsrin ən dəhşətli müharibəsinə hüquqi nöqtə qoymaq.

Xatirələrində o, detallarda olduqca dəqiqdir: "İclaslardan birində zalda işıqlar söndürüldü və ekranlarda bizim və müttəfiqlərin operatorları tərəfindən çəkilmiş konslager kadrları nümayiş olundu. Bu dəhşətli kadrları izləmək mümkün deyildi. Bəzi təqsirləndirilənlər gözlərini yumur, bəziləri ağlayır, bəziləri isə sadəcə ağlamağa çalışırdı. Sübut kimi insan dərisindən hazırlanmış abajurlar kimi dəhşətli əşyalar təqdim edilirdi."(2)



1946-cı ildə leytenant Məmmədov tərcümə bürosunun rəis müavini təyin edilir, amma əslində dörd dildə jest və şifahi (surdo) tərcüməçi kimi çalışırdı.

Bu sahədə cəmi iki mütəxəssis vardi: biri sovet nümayəndəsi üçün Oleq Troyanovski, digəri isə prokuror Roman Rudenko ilə çalışan Ənvər Məmmədov.

Ən maraqlısı odur ki, general feldmarşal Fridrix Paulusun Nürnberqə gizli gətirilməsi əməliyyatını da ona tapşırmışdılar. Almanlardan və hətta müttəfiqlərdən gizli saxlanmalı idi. Məmmədov və Paulus təhlükəli səfəri uğurla başa vururlar, lakin diqqəti yayındırmaq üçün göndərilmiş ikinci maşın atəşə tutulur.(6;8)

Gəncliyinə, mənşəyinə və təhsilsizliyinə baxmayaraq, Ənvər Məmmədovun peşəkarlığı və etibarlılığı o qədər yüksək idi ki, ona belə məsul tapşırıqlar verilirdi. O da bunu anlayırdı, buna görə ali təhsil almaq qərarına gəlir və XİN sistemində işləyə-işləyə Moskva Dövlət Xarici Dillər Pedaqoji İnstitutuna daxil olur.

Lakin 1949-cu ildə atasını həbs edirlər. Deyilənə görə, bu, XİN daxilindəki daxili çəkişmələrin nəticəsi idi. 1949-cu ilin martında Molotov vəzifədən çıxarılır, ailəsi həbs olunur. 1950-ci ilin fevralınadək Ənvər Məmmədov SSRİ xarici işlər nazirliyi sistemində müxtəlif vəzifələrdə çalışmışdır. 1950-ci ilin fevralında isə Məmmədov da vəzifəsindən azad edilir.

1953-cü ildə Birinci Moskva Dövlət Xarici Dillər İnstitutunu bitirdikdən sonra onu yenidən XİN-ə çağırırlar. Həmin ildə Stalin vəfat etdiyi üçün, SSRİ-də "Bəraətetmə" kampaniyası başladı və dövlətdə siyasi, iqtisadi və mədəni sahədə islahatlara start verildi. Buna görə də savadlı və təcrübəli kadrlara ehtiyac artdı. Amma Ənvər Məmədov bu təklifdən imtina edir.

Xarici Yayım Baş Redaksiyasında (ABŞ üzrə baş redaktor) işləməyə başlayır. 1956-cı ilədək Ənvər Məmmədov ABŞ, İngiltərə və Latın Amerikasına yayım üzrə Baş redaksiyanın baş redaktoru vəzifəsində işləmişdir. 1956-cı ildə, Xruşşovun ABŞ səfəri ərəfəsində qısa müddətə yenidən XİN-ə qayıdır — 1959-cu ilədək SSRİ-nin ABŞ-daki səfirliyində müşavir-nümayəndə (səfirdən sonra ikinci şəxs) və «USSR» jurnalının baş redaktoru vəzifəsində işləmişdir. Ənvər Məmmədov ABŞ-da "USSR" adlı jurnalı – Sovet İttifaqındakı real həyatı əks etdirən parlaq ingilisdilli nəşri təsis etdi. Bu layihəyə Moskvada necə böyük əhəmiyyət verildiyini başa düşmək üçün bir fakt kifayətdir: Məmmədova məsləhətçi-səfir rütbəsi verildi – bu, səfirdən sonra ikinci diplomatik pillə idi. Halbuki Bakı doğumlu Məmmədovun o zaman cəmi 34 yaşı var idi. 1959-cu ildə isə diplomatik fəaliyyətdən tamamilə ayrılır.(10)

Ənvər Nazim oğlu Məmmədov və SSRİ Dövlət Televiziya və Radio Verilişləri Komitəsi Jurnalistika sahəsinə keçdikdən sonra o, tezliklə bu sahədə də zirvəyə qalxır. 1959–1960-cı illərdə «Sovinformbüro»nun baş redaktoru və sədrin birinci müavini olmuşdur. 1961-ci ildə «Novosti» mətbuat agentliyi sədrinin birinci müavini və siyasi şərhçisi təyin edilmişdir. Qısa müddətdə Politbüro tərəfindən seçilmiş azsaylı "etibarlı jurnalistlərdən" biri olur (bütün SSRİ üzrə cəmi 2–3 nəfər). Onların maaşı nazir səviyyəsində idi, xidməti maşın və şəxsi katib verilmişdi.(10)

Lakin daha vacibi odur ki, onlar XİN və digər qurumların məxfi məlumatlarına çıxışa malik idilər və Sovet İttifaqının istənilən nöqtəsinə səfər edə bilərdilər.

1962–1985-ci illərdə, yəni sovet televiziya və radio yayımının əsl qızıl dövründə, Dövlət Televiziya və Radio Komitəsində dörd sədr dəyişsə də, birinci müavin daim eyni idi — Ənvər Nazim oğlu Məmmədov. Buna görə televiziya və radio sahəsinin yaxın adamları onu sovet teleradio yayımının əsas qurucusu hesab edirlər. Hətta tənqidçilər də!

1970–1985-ci illərdə SSRİ Dövlət televiziya və radio yayımları komitəsinin («Qosteleradio») sədri Sergey Lapinin birinci müavini olmuşdur. Həmin vəzifədə işlədiyi dövrdə hazırda populyar olan bəzi sovet filmlərinin, o cümlədən «Baharın on yeddi anı» və «Qəribə təsadüf və ya həmişə təmizlikdə!» filmlərinin qadağan olunmasına mane olmuşdur.(1)

**"Mayak" radiosu**

1964-cü ilin avqustunda Aleksandr Yakovlevlə birlikdə «Mayak» radiosunun yaradılmasında iştirak etmişdir. Bu radio SSRİ-də yayımlanan qərb radioları ilə rəqabət aparmaq üçün yaradılmışdı.

Bu radiostansiya ideyası Ənvər Məmmədovun Kuba xatirələrindən doğmuşdu. O vaxt orada "Saatlar" adlı radio vardı — yalnız xəbərlər və dəqiq vaxt siqnalları verirdi.

Məmmədov SSRİ-də belə bir radio qurmaq təklifini irəli sürdü, amma Politbüro bunu "mənasız fikir" saydı. O isə ideyanı başqa cür təqdim etdi — guya "Mayak" vasitəsilə "düşmən səslərinin" qarşısını almaq olar. Beləcə, SSRİ-nin ən populyar radiostansiyası yarandı.

1967-ci ildə rejissor Aleksandr Zarxinin ekranlaşdıracağı "Anna Karenina" filminin çəkilişləri zamanı yaradıcı heyəti təşkil edən Ənvər Məmmədov Kremlə çağırılır. Və ona italyan aktrisası Sofi Lorenin bu filmdə Anna rolunda çəkilmək istədiyi bildirilir. Aktrisa ilə görüşən Məmmədov ona rədd cavabı verərək deyir: "Rus qadınları bunu mənə bağışlamaz". Filmə Tatyana Samolyova təsdiq olunur.(5)

1970-ci ildə Dövlət Televiziya və Radio Komitəsinə yeni sədr təyin olunur — Sergey Lapin. Bu, sərt, senzura tərəfdarı bir siyasətçiydi. Televiziyadan və jurnalistikadan az anlayışı vardı. Sergey Lapin televiziya əməkdaşlarına qarşı öz qanunlarını tətbiq edib. Qadın əməkdaşlara şalvar geyinmək qadağan olub, kişilərin mütləq şəkildə kostyumda və qalstukda olması vacib sayılıb. Buna görə Politbüro televiziya işlərinə məsul şəxsi — Ənvər Məmmədovu təyin edir.



Lapinin dövrü daha sərt senzura, bir çox proqram və filmlərin qadağan edilməsi ilə yadda qaldı. "KVN" ("Şən və Hazırcavablar Klubu") və "Kinopanoramma" kimi böyük tamaşaçı auditoriyası olan verilişlər uzun müddət efirdən yığışdırıldı.

Bu dövrdən etibarən, Məmmədov qeyri-rəsmi olaraq televiziya rəhbəri və maraqlı proqramların qoruyucusuna çevrilir. O, məşhur verilişləri müdafiə edir, yeni formatlar uğrunda mübarizə aparır. Hətta bəzi həmkarları düşünürdü ki, o, keçmiş işindən hansısa "kompromat"a malikdir.

Ənvər Məmmədovun şəxsi təşəbbüsləri saysız-hesabsızdır: idman yarışlarının canlı yayımları, ilk çoxseriyalı filmlər, elmi-populyar proqramlar.

Ənvər Məmmədovun fəaliyyəti dövründə (1962–1985) Dövlət Televiziya və Radio Komitəsinin birinci sədr müavini kimi sovet televiziyası "Taqanka" teatrının, Böyük Teatrın, MXAT-ın 200-dən çox tamaşasını nümayiş etdirdi.

Xalq arasında sevilən "Gülüş ətrafında", "13 stul kababxanası", "Aşkar- inanılmaz", "Nə? Harada? Nə zaman?" kimi verilişlər onun iştirakı sayəsində öz çiçəklənmə dövrünü yaşadı. Yeni intellektual format olan "Nə? Harada? Nə zaman?" proqramı çox uğurlu oldu – burada adi sovet təqaüdçüsü birbaşa efirdə professoru imtahana çəkə və hiyləgər sualına görə hədiyyə qazana bilirdi.(6)

Məhz onun təşəbbüsü ilə televiziyada Puşkin Muzeyi, Ermitaj və Tretyakov Qalereyasının sərgiləri göstərilməyə başlandı.

Ənvər müəllim deyirdi: "Biz tamaşaçını sadəcə əyləndirmək yox, onun mədəni səviyyəsini yüksəltmək istəyirik".

O, "Şən və Hazırcavablar Klubu" və "Nə? Harada? Nə zaman?" verilişlərini çox sevirdi. Onu

tanıyanlar deyirdilər ki, o, efirdə verilən suallara bir anda cavab tapır, zəkası ilə həm “biliciləri”, həm də tamaşaçıları geridə qoyurdu.

Məhz o, “Baharın on yeddi anı” filmində almanların ağıllı obrazda göstərilməsini israrla müdafiə edib, filmi efirdə saxlamağa nail olmuşdu.

Ənvər Məmmədovun sayəsində “Qəribə təsadüf və ya həmişə təmizlikdə!” filminin çəkilməsinə icazə verilib, filmin ekranlara çıxması təmin edilib.

Bu gün tanıdığımız bir çox proqram və filmlər yalnız Ənvər Nazim oğlu Məmmədovun sayəsində işıq üzü görüb. Dövlət Televiziya və Radio Komitəsinin birinci müavini həmçinin birbaşa idman yayımlarının təşəbbüskarı idi. 1980-ci ildə keçirilən Moskva Olimpiadasının televiziya versiyası sonradan bütün dünyada Olimpiya oyunlarının işıqlandırılması üçün standarta çevrildi.

Ənvər Məmmədov – cəbhəçi, diplomat, tərcüməçi və unikal jurnalist idi, sovet televiziyasının yaradıcılarından biri idi, lakin həmin televiziyanın arxivlərində onun adı demək olar ki, yoxdur. Onunla müsahibələr barmaqla sayılacaq qədərdir — bu, yalnız təvazökarlığı ilə bağlı deyildi. Ənvər müəllim hesab edirdi ki, əsl dəyəri xalq verməlidir.

Ənvər Məmmədov 1970-1980-cı illərdə respublikamızın bütün sahələrdə əldə etdiyi parlaq uğurların ümumittifaq televiziyası ilə işıqlandı¬rılmasında fəal iştirak etməyi özünə borc bilirdi. Xalqımızın zəngin mədə¬niyyəti barədə Mərkəzi Televiziyada dəyərli telematerialların hazırlanma¬sına xüsusi həssaslıqla yanaşardı.

Sonda qeyd edək ki, görkəmli telejurnalist Ənvər Məmmədov Mos¬kvada yüksək vəzifələrdə çalışdığı illərdə doğma Bakı ilə daim əlaqə saxlayar, həmvətənlərinin, bütöv¬lükdə xalqımızın uğurlarına hədsiz dərəcədə sevinərdi. Xəzəri xüsusilə çox sevirdi.

Ənvər Məmmədov 1979-cu ildə Bakıya gələndə hava limanında insanlar onu duz və çörəklə qarşılayır. O isə deyir: Mən xarici deyiləm ki, məni belə təmtəraqla qarşılayırsınız. Mən vətənimə gəlmişəm”.(4) 1985-ci ildə Qorbaçov birinci katib olduqdan sonra Ənvər Məmmədov işindən uzaqlaşdırılır.

1986–1992-ci illərdə Ənvər müəllim «Novosti» mətbuat agentliyinin siyasi şərhçisi, RİA-radionun məsləhətçisi işləmişdir. 90 yaşı olmasına baxmayaraq, o, «RİA Novosti» agentliyində baş redaktorun məsləhətçisi kimi çalışırdı. O, yeddi orden və on medal ilə təltif edilmişdir.(3)

Oğlu Georgi Ənvər oğlu Məmmədov də diplomatdır. 1997-2003-cü illərdə Rusiya Federasiyası xarici işlər nazirinin müavini olub.

Ənvər Məmmədov 7 sentyabr 2023-cü ildə 100 yaşında vəfat etmişdir. Moskva şəhərində Troyekurov qəbiristanlığında dəfn olunmuşdur.

Onun haqqında çox və uzun yazmaq olar, çünki o, televiziya tarixinin əsl ulduzudur — həm də elə bir ulduz ki, hələ də işıq saçır. Qoy o işıq saçmağa davam etsin və bizi sevindirsin. Ruhu şad olsun!

**İstifadə edilmiş ədəbiyyat və istinadlar:**

1.Ənvər Məmmədov: 100 illik tarix bir şəxsin taleyində. Sputnik.az. Məqalə; 15 avqust 2023

2.»Feldmarşal Paulyusu Nürnberq tribunalına təslim etmiş diplomat». Moderator.az

3.»Kultura» telekanalında Ənvər Məmmədovun 90 illiyinə həsr olunmuş reportaj — 15. avqust 2013

4.Nəriman Əbdulrəhmanlı “Ənvər Məmmədov: Sovet tele-radiosunun əsas siması”, Türküstan.az. Məqalə; 15 iyul 2025

5.Егоров В.В.: Страницы истории. Глава IV. Взгляд по верхам… телевидения. М.: Аспект Пресс, 2004

6.Наталья Саляхова. “Участник Нюрнбергского процесса Энвер Мамедов: Это был суд над людьми, которые являлись воплощением зла”. Москва-Баку, Статья.; 10 мая 2016

7.Сагалаев: вся невероятная биография Энвера Мамедова - это приключения. РИА Новости.; 15 августи 2018

8.Энвер Мамедов: «Я провел Паулюса через посты американской армии», РИА Новости; 03 ноября 2005

9.85 лет Энверу Мамедову. Это благодаря ему мы смотрим Штирлица и «Иронию судьбы» 1tv.ru. Видеорепортаж. 15 августа 2008

# RUHUN VƏ BAĞLILIĞIN MANİFESTİ

***(Lətifə Rəşid yaradıcılığı haqqında)***



Hələ uşaq yaşlarından, sonra isə gənclik vaxtlarından çox böyük anlamı olan ruh və ruhlar dünyası haqqında eşitmişəm.

Bəs ruh nədir?

-Ruh - canlı varlıqların, xüsusilə insanın maddi olmayan tərkib hissəsi, həyat və şüurun əsası, mənəvi varlığın fundamental komponenti, materiyanın fövqündə dayanan və bədənə həyat verən substansiya.

Dini baxımdan izah etdikdə isə «Qurani-Kərim»də Uca Allah Cəbrayıl mələyinin gətirdiyi vəhyi ruh adlandırır. «Ruh bədənə daxil olaraq onu diriltdiyi kimi, «Qurani-Kərim» də insan qəlbini dirildir...» Burada qəlb bizim hesab etdiyimiz qəlb, yəni ürək yox, insan şüurunun pik nöqtəsidir. «Qurani-Kərim»i diqqətlə oxuduqda insanın şüuraltı dünyasına təsir göstərir, onu dəyişir, mükəmməlləşdirir və cahiliyyətdən uzaqlaşdırır. «Qurani-Kərim»də yenə belə bir ayə var: «Səndən ruh haqqında soruşurlar. De - ruh Rəbbimin əmrindədir, sizə az bir bilik verilmişdir.» («Əl-İsra» surəsi, 85-ci ayə)

Ruhlar haqqında fikirlər göründüyü kimi birmənalı olmadığından yanaşmalar da müxtəlifdir. Bəzi insanlar inanmır, bu cür fikirləri absurd adlandırır, bəzi insanlar isə inanırlar. Ruha inanan insanlar hələ insan sağ olarkən həmin insana bağlı olub, onların ölümünü qəbul etməyən insanlardır. Bəs bu bağlılıq haradan irəli gəlir? İnsan doğulandan ilk saatlardan uşaqlıq dövrünə qədər təhlükəsizlik üçün başqalarına güvənir və bağlanır. Məhz, şəxsiyyətin formalaşmasına, inkişafına təsir edən ən mühüm amillərdən biri də bağlılıqdır. Uşağın zehni, emosional və davranışsal inkişafına yaxın münasibətlərin, xüsusilə valideyn-uşaq və bacı-qardaş münasibətlərinin təsiri böyükdür. Ruha bağlılıq da elə buradan irəli gəlir. Yuxarıda qeyd etdiyim kimi, bəzi insanlar doğmalarına, yaxınlarına o qədər bağlanırlar ki, onları itirdikdən sonra ruhlarına bağlanırlar. Belə insanlar bu gözəgörünməz və müqəddəs varlığa təkcə bağlanmır, onları anlamağa, onlarla yaşamağa və onları yaşatmağa çalışırlar. Həmin insanlardan biri də şairə Lətifə Rəşiddir.

Lətifə Rəşid təkcə şairə deyil, həm də ruh bilicisi, metafizik düşüncə daşıyıcısı, din və ağıl arasında münasibət yaradan insandır. Onun yaradıcılığında ruh bədii obrazdır, bu obraz onun bütün şeirlərində özünü təzahür edir. Bu şeirləri oxuyarkən təkcə ruhlar dünyasına səyahət etmirik, eyni zamanda özlüyümüzdə Lətifə Rəşidin ruhuyla yaxınlaşır və tanımadığımız bu insanı ruhu vasitəsilə təsəvvür edirik.

Lətifə Rəşidin ruh anlayışı tamamilə fərqlidir. O, ruha həm də şəxsi ağrıları, mənəvi, daxili sarsıntıları ilə yanaşır. Yəqin bu da onun yaşantılarının bilmədiyimiz sirli və qaranlıq tərəfi ilə bağlıdır:

***-Məhəbbət elə bir ülvi duyğudur,***
***Ahlardan ahlara doğmalıq keçər.***
***Vədəsiz getsə də ölüm karvanım,***
***Ruhlardan ruhlara doğmalıq keçər.***

Şairənin içində dərdi, ələmi, sıxıntısı o qədər böyükdür ki, yalnız ruhuyla təsəlli tapdığı qardaşı Rəşidi köməyə çağırır:

***-De həmişə dinlədinmi səbrini?***
***Göz önünə gətirdinmi qəbrini?***
***Kiçik açar açır böyük dərdimi,***
***Köməyimə o dünyadan can gəlir.***

Lətifə Rəşid müasir dövrdə öz dövrünü aşan bir ruh şairidir. Onun poetik metafizikası nə keçmişə, nə də zamana bağlıdır. O, insanı ruhu ilə düşünməyə çağırır. Onun şeirləri, fikirləri, mənəvi səsi dərdli insanların ruhunun kimliyidir. O şeirləri oxumaq elə özünü oxumaq deməkdir.

Lətifə Rəşidin metafizikası ruhla yox, hislə işlənmiş fəlsəfədir. Şairənin şeirlərini oxuyarkən sanki ruh içimizdə hələ də nəfəs alır...

**Yunis QARAXANLI**
**25.02.2026**



# BƏXTİYAR MƏMMƏDLİ

BƏXTİYAR HƏSƏN OĞLU MƏMMƏDLİ 1952-ci ildə Tərtər rayonunun İrəvanlı kəndində doğulub.

Uşaq yaşlarından şeirlər yazıb.

Şeirləri Avrasiya Şairləri Antologiyasında, «Dəniz» və «Yeni Tərtər» qəzetlərində dərc olunub.

2014-cü ildə «Bir zamanlar bizim idi o dağlar» adlı ilk şeirlər kitabı çapdan çıxıb.

## MƏN

Göz açıb dünyaya gəldiyim gündən
Bircə yol ürəkdən gülməmişəm mən.
Gözümün yaşını silsəm də üzdən
Könlümdən qubarı silməmişəm mən.

Ömrün baharında xəzan görmüşəm,
Çox zaman gül əkib tikan dərmişəm.
Damla sevincimdən min pay vermişəm,
Dəryaca dərdimi bölməmişəm mən.

Dözmüşəm həyatın hər sınağına,
Düşmən tənəsinə, dost qınağına.
Torpaq həsrətinə, vətən dağına
Hələ ki, dözürəm, ölməmişəm mən.

Döyüb boran məni, döyüb qar məni,
Dövran eləməyib bəxtiyar məni.
Ölsəm  ağlamayın a dostlar, məni
Zənn edin dünyaya gəlməmişəm mən.

## MƏNİM

Bir soyuq baxışla dedin hər şeyi,
Qoydun ürəyimdə sözümü mənim.
İndi kimə edim mən bu gileyi,
Niyə tərsə yozdun düzümü mənim?

Könlümü yandırdın sən həsrətinlə,
Onu ovutmadın xoş ülfətinlə.
Elə soyuq baxdın bu nifrətinlə
Saldın öz gözümdən özümü mənim.

Dağ idim, bir ovuc quma dönmüşəm,
Mətin qaya idim, muma dönmüşəm.
Kövrəlib əriyib şama dönmüşəm,
Sən aldın əlimdən dözümü mənim.

Bir daha qarşına çıxan deyiləm,
Sönmüş bir şimşəyəm, çaxan deyiləm.
Sən gələn yollara baxan deyiləm,
Yığdın bu yollardan gözümü mənim.

Büllur çeşmə kimi durulacaqsan,
Sən mənə təzədən vurulacaqsan.
Vallah bu yollarda yorulacaqsan,
Axtara-axtara izimi mənim.

## MƏNİMÇÜN

Məni eşq oduna qalayan gözəl,
Bu eşqin şərbəti nuşdu mənimçün.
Qəlbimi, ruhumu talayan gözəl,
Sevgisiz bu dünya boşdur mənimçün.

Ay mənim ədalı, nazlı gözəlim,
İzn ver önündə səcdəyə gəlim.
Neçə ki, əlinə çatmayıb əlim,
Ömür mənasızdır, puçdur mənimçün.

Ruhumla, canımla bağlıyam sənə,
Min dəfə demişəm, deyirəm yenə.
Gəlməyir,  yazığın gəlməsin mənə,
Verdiyin əzab da xoşdur mənimçün.

Zərifsən, incəsən, məlahətlisən,
Bahar qönçəsitək təravətlisən.
Nədən Bəxtiyarla ədavətlisən,
De, niyə ürəyin daşdır mənimçün?

## BİZİM İDİ O DAĞLAR

Yay olanda zirvəsinə qonardım,
Qış olanda sazağında donardım.
Mən dağları candan əziz sanardım,
Mənim canım, gözüm idi o dağlar.

Doğma idi hər qayası, hər daşı,
Gül ətəyi, göy yamacı, ağ başı.
Vətən ilə, ana ilə yanaşı
Ən müqəddəs sözüm idi o dağlar.

Hər tutanda o dağlara üzümü,
Bir yenilməz ər sanardım özümü.
Ayrı düşüb itirmişəm özümü,
Ürəyimdə dözüm idi o dağlar.

Dar ayaqda cürətimiz olmadı,
Birliyimiz, vəhdətimiz olmadı.
Qorumağa qeyrətimiz olmadl,
Axı bizə lazım idi o dağlar.

Bəxtiyaran, taleyimi söyürəm,
Alışıram, oddan köynək geyirəm.
Həsrət-həsrət indi baxıb deyirəm,
Bir zamanlar bizim idi o dağlar.

## DANIŞIR

Dolaşıbdır zəmanənin kələfi,
Nalayiqlər ləyaqətdən danışır.
Endiriblər heçə adı, şərəfi,
Şərəfsizlər şərafətdən danışır.

Haqq yolunu, ərkanını bilməyən,
Öz eybini, nöqsanını bilməyən,
Atasının ünvanını bilməyən
Əsil soydan, nəcabətdın danışır.

Əbəs imiş mən özümü yorduğjm,
Salam vermir əhvalını sorduğum.
Dünən kömək olub, arxa durduğum
Bu gün mənlə ədavətdən danışır.

Bəxtiyar, nə çıxar ahdan, amandan,
Mərhəmət gözləmə zalım zamandan.
Vicdansız vicdandan, kafir imandan,
Ədalətsiz ədalətdən danışır.

## MƏN ÖMRÜN QIŞINDAYAM

Sən çiçəkli çəməndə,
Mən qaya başındayam.
Əl çatıb ün yetməyən
Bir zirvə qaşındayam.

Sən yazın nübarında,
Mən çillənin qarında.
Sən ömrün baharında,
Mən ömrün qışındayam.

Sən gənclik marağında,
Ağ günlər sorağında.
Mən məzar qırağında,
Əcəlin tuşundayam.

Yolunu çaşma, gözəl,
Həddini aşma, gözəl.
Mənə sataşma gözəl,
Mən baban yaşındayam.



**DAMƏT SALMANOĞLU**

# G Ü L Z A R

hekayə

Bu əhvalat XX əsrin sonlarında – XXI əsrin əvvəllərində baş verib. Sovetlər Birliyi dağılandan sonra yeni yaranmış ölkələrin əlaqələri bir-birindən qırıldığı kimi insanları da perik düşməyə başladı. Kamilin həyatındakı kimi...

Maddiyatı mənəvi həyatdan üstün tutanlar bir həqiqəti unutmamalıdırlar: insan dünyaya gələndə onun varlığı heç də sahib olacağı sərvətlərlə ölçülmür.

Onun gəlişi daha çox mənəviyyatın, saf ruhun və insanın daxili dünyasının zənginliyi ilə dəyərləndirilir. Maddiyat insana yaşamaq imkanı verə bilər, lakin mənəviyyat ona azad, vicdanlı və həqiqi insan kimi yaşamağın yolunu göstərir. Maddiyat bədəni doyurar, mənəviyyat isə ruhu yaşadar.

Kamil illərlə Ukraynada yaşamışdı. O, zəhməti, ağlı və uzaqgörənliyi ilə böyük uğurlar qazanmışdı. Onun adını eşidəndə insanlar hörmətlə baş əyirdi. Öz zəhməti ilə yaratdığı Şirkətləri genişlənmiş, restoranları şəhərin ən məşhur məkanlarına çevrilmişdi. Hər şey vardı — pul, şöhrət, rahat həyat… Amma bütün bunların içində Kamilin ürəyində bir boşluq vardı...

Axşamlar görənləri heyrətə salan dəbdəbəli evinə qayıdanda sükut onu sıxır, o boyda zənginliyin içində tənha qalırdı. Onun ailə həyatı da bu boşluğun bir hissəsi idi. Ukraynalı həyat yoldaşı ilə qurduğu ailə sevgi üzərində deyil, daha çox uyğunluq və rahatlıq üzərində qurulmuşdu. İllər keçdikcə bu münasibət daha da soyudu. Eyni evdə yaşasalar da, iki yad insan kimiydilər.

Kamil mədəni insan idi, bu hal onu çox narahat edirdi. O, tez-tez düşünürdü:

— İnsan hər şeyə sahib olub, yenə də niyə xoşbəxt olmaya bilər?..

Bir gün o, iş məqsədilə Azərbaycana — doğma torpağa qayıtdı. Şamaxının sakit, saf havası, dağların qoynunda yerləşən o qədim diyar onun ruhuna qəribə bir rahatlıq gətirdi.

Elə burada, təsadüf kimi görünən bir anda Gülzarla tanış oldu. Gülzar həyatın çətinliklərini yaşamış, amma qəlbini saf saxlamış bir qadın idi. Onun baxışlarında sakitlik, danışığında səmimiyyət vardı. İlk ailəsi uğursuz olmuş, övladı olmamışdı. Tək yaşayırdı, amma heç vaxt həyatdan küsməmişdi. İnsanlara inamını itirməmişdi.

Onların ilk söhbəti də sadə keçdi, amma o sadəliyin içində dərin bir istilik vardı.

Kamil uzun illərdir hiss etmədiyi bir duyğunu hiss etdi — rahatlıq.

Gülzarın yanında o, olduğu kimi görünə bilirdi. Nə varlı iş adamı, nə də nüfuzlu şəxs… sadəcə, bir insan kimi.

Bu tanışlıq zamanla böyük bir məhəbbətə çevrildi.

Kamil hər dəfə Azərbaycana gələndə Gülzarı görmədən geri qayıtmırdı. Onlar birlikdə Şamaxının dağ yollarında gəzir, qədim küçələrində addımlayır, sadə çay süfrələri arxasında saatlarla söhbət edirdilər.

Kamil üçün bu anlar onun bütün var-dövlətindən daha dəyərli idi.

O, ilk dəfə idi ki, həyatın əsl mənasını anlayırdı.

Amma xoşbəxtlik uzun sürmədi…

45 yaşına çatanda Kamil ağır bir xəstəliyə tutuldu — xərçəng.

Bu xəbər onun həyatını alt-üst etdi. Dünənə qədər güclü, sağlam, hər şeyə qadir olan insan indi zəifləyirdi. Klinikalar, müalicələr, ağrılar… günlər bir-birinə qarışırdı.

Ən ağır zərbə isə yaxınlarından gəldi.

Həyat yoldaşı onu bu vəziyyətdə tərk etdi. Uşaqlarını da götürüb başqa şəhərə köçdü. Maddi maraqlar, rahat həyat istəyi insanlıq hissini üstələmişdi.

Kamil üçün bu, xəstəlikdən də ağır idi.

Bu xəbəri eşidən Gülzar bir an belə tərəddüd etmədi. O, dərhal bilet alıb Kiyevə getdi.

Kamilin müalicə aldığı klinikaya çatanda onun vəziyyətini görüb ürəyi param-parça oldu. Amma özünü itirmədi.

Onun yanında qalmaq üçün bir otaq ayırdılar.

Gülzar gecə-gündüz Kamilin yanında oldu. Ona dərman verdi, yemək yedizdirdi, əllərindən tutub sakitləşdirdi. Bəzən Kamil ağrılardan danışa bilmirdi, amma Gülzar onun gözlərindən hər şeyi anlayırdı.

O, sadəcə qulluq etmirdi — o, sevgisini yaşayırdı.

Kamil bəzən gözlərini açıb Gülzara baxırdı və pıçıltı ilə deyirdi:

— Kaş, səni daha tez tanıyaydım…

Günlər keçdikcə Kamilin vəziyyəti daha da pisləşdi. Həkimlər artıq ümidin az olduğunu deyirdilər.

Gülzar bunu hiss edirdi, amma yenə də ümidini itirmirdi.

Son ana qədər onun yanında oldu.

Bir gün Kamil son dərəcə halsız idi. Otaqda dərin bir sakitlik vardı. Gülzar onun əllərini sıxaraq yanında oturmuşdu.

Kamil son gücünü toplayıb gözlərini açdı, Gülzara baxdı və titrək səslə dedi:

— Gülzar… nə yaxşı ki, sən mənim həyatımda oldun…

Bu, onun son sözləri oldu…

Amma həmin günlərdə baş verən bir hadisə bu hekayətin ən dərin mənasını ortaya qoydu.

Bir gün Kamil tam halsız vəziyyətdə idi. Gülzar sakitcə onun evinə getdi. Evdə olan bütün zinət əşyalarını, dəyərli əşyaları topladı. Heç birinə sahib çıxmaq istəmədi. Onları bir torbaya yığıb Kamilin valideynlərinə göndərdi.

Bu, sadəcə bir addım deyildi — bu, insanlığın, vicdanın, təmiz qəlbin ən ali nümunəsi idi.

Kamil bir neçə gün sonra dünyasını dəyişdi…

Onu doğma torpaqda — Şamaxıda dəfn etdilər. Dağların qoynunda, sakit bir məkanda torpaq onu öz bağrına aldı.

Dəfn mərasimi sadə keçdi. Hamı kədər içində idi. Amma bir nəfər uzaqdan, səssizcə baxırdı — Gülzar.

O, heç kimə görünmədi…

İllər keçdi.

Amma Kamilin məzarı hər zaman təmiz, səliqəli və tər çiçəklərlə bəzədilmiş olurdu.

Qohumları hər dəfə ziyarətə gələndə bunu görür və təəccüblənirdilər.

Bir gün onlar qəbiristanlığın gözətçisindən soruşdular:

— Bu çiçəkləri kim gətirir?

Gözətçi sakitcə cavab verdi:

— Təxminən 35-36 yaşlarında bir xanım gəlir… Həmişə tək olur. Saatlarla bu qəbrin üstündə dayanır. Elə bil kiminləsə danışır…

Sonralar Kamilin ailəsi bir həqiqəti öyrəndi: o qiymətli əşyaları onlara göndərən qadın — Gülzar idi.

Onlar heyrətə gəldilər. Çünki belə bir addımı yalnız böyük qəlbə sahib insan ata bilərdi.

O qadın Gülzar idi…

O, hər dəfə gizlicə gəlirdi. Heç kim bilmədən.

Məzarın üstə diz çökür, sakitcə danışırdı:

— Mən buradayam… sən heç vaxt tək deyilsən…

Onun gətirdiyi tər çiçəklər sadəcə çiçək deyildi. Bu, sədaqətin, saf sevginin və insanlığın yaşayan bir nişanəsi idi.

Bu hekayət bir həqiqəti xatırladır: “Maddiyyat insanın həyatını davam etdirməyə kömək edir, amma mənəviyyat onun necə insan kimi yaşayacağını müəyyənləşdirir.

İnsan anlayır ki, var-dövlət, şöhrət, rahat həyat — bunların hamısı keçicidir. Amma insanlıq, sevgi, sədaqət — bunlar əbədi dəyərlərdir”.

Bəzən bir insanın saf sevgisi, bütün dünyanın sərvətindən daha qiymətli olur…

Gülzarın sevgisi kimi. Çünki həqiqi zənginlik ürəkdədir.



# TALIB MƏMMƏDLİ

Talıb Həsən oğlu Məmmədli 1958-ci ildə Tərtər rayonunun İrəvanlı kəndində doğulub. İbtidai və orta təhsilini Söylən kənd orta məktəbində alıb. 1989-cu ildə Gəncə Baza İnşaat Texnikumunu bitirib. Gənc yaşlarından ədəbi yaradıcılığa başlayıb. Bərdə «Əbədi söz» Birliyinjn üzvüdür. Şeirləri Avrasiya Şairləri Antologiyasında, «Yeni Tərtər», «Azad qələm», «Sözün sehri» və «Əkinçi» qəzetlərində dərc edilib. 2018-ci ildə «Gənclik» nəşriyyatında «Dünya məni əyləndirmə, düşündür» adlı şeirlər kitabı çapdan çıxıb.

## ƏL ATMA

Dünya ki, var, mələk donlu qarıdır,
Sığal desən, hiylə desən varıdır.
Yuvasına çöp uzanmış arıdır,
Balını ye, pətəyinə əl atma.

Oğulluq et, əgər yurda oğulsan,
Qismətinsə, acını da noğul san.
Mərdə güvən dəryalarda boğulsan,
Heç namərdin ətəyinə əl atma.

Talıb, əgər aqil saysan özünü,
Aqil kimi tut hər kəsə üzünü.
Nadana da həlim söylə sözünü,
Hərzə-hədyan kötəyinə əl atma.

## AXTARIR

Bəşər xəlq olandan axtarışdadır,
Yaranan qisməti - nəsib axtarır.
Acı taleyiylə kasıb binəva
Barışıb axtarır, küsüb axtarır.

Dərdiylə, səriylə verib baş-başa,
Dolanır axşamı, səhəri qoşa.
Bəxtitək ayağı dəyəndə daşa
Yazıq ümidini kəsib axtarır.

Dövran, məzən olsun sənin də, məzən,
Qanunun başayaq yozulur bəzən.
Kasıba gələndə ədalət gəzən
Onu da başından basıb axtarır.

Ay Talıb, cəm eylə ağlını başda,
Az haqqa asi ol, fələyi daşla.
Bir nadinc əliylə atılan daş da
Başına düşməyə kasıb axtarır.

## GÖRƏNDƏ

Şərəfsiz namusdan baş bilər pulu,
Beş yüz yol baş əyər "beşi» görəndə.
Yeməyə satılar nəfsinin qulu,
Ütünər, ocaqda şişi görəndə.

Səxasını görən olmaz əlinin,
Dilindən qabarı getməz «bəli» nin,
Qul olar yolunda vəzifəlinin,
Yoxsula qıcayar dişi, görəndə.

Bir qismət ömürü bayquştək sürən,
Şənliklər dağıdıb şəri mülk hörən.
Həyat aynasında bilirmi görən –
Hərə bir iz qoyur işi görəndə.

Demə, Talıb yenə kimə toxuyur,
Sözlər qəzəb saçır, nifrət qoxuyur.
«Küpəgirən»lərə rəhmət oxuyur,
Harda sözgəzdirən kişi görəndə.

## MƏNİM TALEYİMƏ BAX

Yaş keçir yaşın üstən,
Daş düşür daşın üstən.
Çəkilmir başım üstən
Çənim, taleyimə bax.

Niskilim qora dönür,
Bəxtim qumara dönür.
Saçım da qara dönür
Dənim, taleyimə bax.

Qeyrət ha əl-qol açır,
Tapdalanır, alçalır.
Matəmimə əl çalır
Şənim, taleyimə bax.

Gah su səpir közümə,
Gah kül təpir gözümə.
Öz əlimdi özümə
Qənim, taleyimə bax.

Talıbam, dili neyli,
Saysam hələ var xeyli.
Ay taledən gileyli,
Mənim taleyimə bax !

## DÜNYA, MƏNİ ƏYLƏNDİRMƏ, DÜŞÜNDÜR

Çoxdan ötüb keçib uşaqlıq yaşım,
Dünya, məni əyləndirmə, düşündür.
Qoyma nağıllara qarışsın başım,
Dünya, məni əyləndirmı, düşündür.

Bu payız ömrümü yay tanıyarlar,
Qayğısız sanarlar, nay tanıyarlar.
Karsız cahillərə tay ranıyarlar,
Dünya, məni əylındirmə, düşündür.

Əslim nədir, köküm nədir, zatım nə,
Arxa nədir, dayaq nədir, yetim nə,
Dərk eləyim, ölüm nədir, itim nə,
Dünya, məni əyləndirmə, düşündür.

Boş-boş oyuncaqla keçsə həyatım,
Qəzəb öyrət, qoy sındırım, qoy atım.
Kölgə salım, Günə sarı boy atım,
Dünya, məni əyləndirmə, düşündür.

Duyub düşünəndə insan, yaradıb,
Düşüncə müşküldən asan yaradıb.
Tanrım axı məni insan yaradıb,
Dünya, məni əyləndirmə, düşündür

## MƏNİM

Hər yerdə ədayla sözümü kəsib
Guya qandırırsız həddimi mənim.
Nitqim, dəlillərim, boyasız sözüm
Təlxək simanızdan bəddimi mənim?

Nə şeytantək qəlbdən-qəlbə səkirəm,
Nə fitnə uydurub, nə şər əkirəm.
Səbrdən araya sədlər çəkirəm,
Tapdayıb əzirsiz səddimi mənim.

Dilimdə iki söz bitib, vird olub,
Biri vətən olub, biri yurd olub.
İçimdə nə xılt var, nə də qurd olub,
Azca qaralayın rəddimi mənim.

Hələ şöhrət adlı dənə qonarsız,
Hələ halallıqdan, haqdan kənarsız.
Bir vaxt müşküllərə əlac sanarsız
Seyid olmasam da cəddimi mənim.



GÜNAY RZAYEVA

Azərbaycan Respublikası
Dövlət Turizm Agentliyi
İsmayıllı Regional Turizm
İdarəsinin rəisi

# RİXARD ZORGE – BAKIDA DOĞULAN ƏFSANƏVİ KƏŞFİYYATÇI

**“Özümü tamamilə azərbaycanlı hiss edə bilərdim, bəla burasındadır ki, azərbaycanca bir söz belə danışa bilmirəm”.**

***Rixard Zorge***



Rixard Zorge dünya tarixində ən məşhur kəşfiyyatçılardan biri hesab olunur. O, 1895-ci il oktyabrın 4-də Bakı şəhərinin Sabunçu qəsəbəsində neftçi-texnik Adolf Zorgenin ailəsində anadan olmuşdur. Uşaqlıq illərinin bir hissəsini Azərbaycanda keçirsə də, 1898-ci ildə ailəsi ilə birlikdə Almaniyaya köçmüş, orta və ali təhsilini orada almışdır. Ailəsində kommunist ideyalarına bağlı insanların olması onun dünya görüşünə ciddi təsir göstərmişdir. Xüsusilə babası Albert və dayısı Fridrix Zorgenin siyasi fəaliyyətləri Rixardın da bu ideyalara yaxınlaşmasına səbəb olmuşdur. Gənc yaşlarından siyasətə və beynəlxalq hadisələrə maraq göstərən Rixard Zorge sonradan Sovet İttifaqına qayıtmış və 1929-cu ildə Sovet kəşfiyyat xidmətində çalışmağa başlamışdır.




O, qısa müddətdə öz bacarığı, savadı və çevikliyi ilə seçilmişdir. 1930-cu illərdə Almaniya və Yaponiyada fəaliyyət göstərərək

Sovet rəhbərliyi üçün çox mühüm məlumatlar əldə etmişdir. Zorge Almaniyanın Sovet İttifaqına hücum planları barədə əvvəlcədən xəbər vermiş, həmçinin hücumun vaxtı haqqında məlumat çatdırmışdır. Onun ən böyük xidmətlərindən biri isə İkinci Dünya müharibəsi dövründə olmuşdur. Moskva uğrunda ağır döyüşlərin getdiyi bir vaxtda Zorge Yaponiyanın Sovet İttifaqına hücum etməyəcəyi barədə dəqiq məlumat vermişdir. Bu xəbər Sovet rəhbərliyi üçün həyati əhəmiyyət daşıyırdı. Bunun nəticəsində Sovet ordusunun Uzaq Şərqdə yerləşən hissələrinin bir qismi Moskvanın müdafiəsinə göndərilmiş və alman ordusunun paytaxtı ələ keçirməsinin qarşısı alınmışdır. Lakin onun gizli fəaliyyəti uzun müddət davam etməmişdir. 1941-ci ilin oktyabrında Yaponiya polisi onun kəşfiyyat fəaliyyətini aşkar etmiş və Rixard Zorge həbs olunmuşdur. Uzun istintaqdan sonra 1943-cü ildə ona ölüm hökmü çıxarılmış və 1944-cü il noyabrın 7-də edam edilmişdir. Rixard Zorge ilk dəfə Zoşiqaya[1] qəbiristanlığında dəfn olunmuşdur. Hazırda isə onun məzarı Tokio şəhərindəki «Tama»[2] qəbiristanlığında 10-cu kvartal, 10-cü cərgədə yerləşir.

Rixard Zorgenin xidmətləri ölümündən sonra daha yüksək qiymətləndirilmişdir. 1964-cü ildə ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir. Həmçinin onun həyatı və fəaliyyəti haqqında “Who Are You, Mr. Sorge?” adlı bədii film çəkilmişdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan SSR xalq şairi Nəbi Xazri 1974-cü ildə Yaponiyaya səfəri zamanı Rixard Zorgenin qəbrini ziyarət etmiş, bu səfərdən təsirlənərək “Rixard Zorgenin qəbri önündə” adlı şeirini yazmışdır.

Yatırsan yad torpaq qucağında sən
Yaddır, başın üstə asiman, Zorge.
Bakıdan gəlmişəm, eşidirsənmi?
Sənin doğulduğun Bakıdan, Zorge.

Saf vətən suyunu içib gəlmişəm
Yolda neçə səhər, neçə də axşam!
Zorge küçəsindən keçib gəlmişəm,
Sənin öz küçəndən özünə salam!

Ürəyin günəşdi, ətrafın gecə,
O necə yanırmış, indicə bildim.
Bakıdan min ömrü isidən gecə,
Burdan başlanırmış, indicə bildim.

Qartaldın, doğuldun sən uçmaq üçün
Bağlandı qürbətdə qanad-qolların.
Xalqlar ürəyinə yol açmaq üçün
Nə uzaq yollardan düşdü yolların.

Ölüm yuvasında ölməzlik tapan,
Qəhrəman insan!
Nə yaxşı oldu ki, mən səni gördüm,
Diz çökdüm qəbrini öpməkdən ötrü.
Zorge məzarından torpaq götürdüm,
Zorge küçəsinə səpməkdən ötrü.

...O gəzir dünyanı öz hünəriylə
Susarmı məhəbbət qüdrətli ürək?
Qovuşsun bu torpaq zərrələriylə
Həsrətli vətənə həsrətli ürək!

Rixard Zorgenin xatirəsinin əziz tutulduğu ölkələrdən biri də Azərbaycandır. Onun xatirəsinin əbədiləşdirilməsi istiqamətində həm Azərbaycan SSR, həm də Azərbaycan Respublikası dövründə bir sıra addımlar atılmışdır. 1981-ci ildə Bakıda heykəltəraş Vladimir Siqal və memarlar Mikayıl Useynov , Rasim Əliyev , Leonid Pavlov və Y. Dubovun iştirakı ilə Rixard Zorgenin xatirə-memarlıq kompleksi inşa edilmişdir. Kompleksin mərkəzində bürünc və qranitdən hazırlanmış abidə yerləşir. Abidə uzunsov və əyilmiş bürünc lövhə formasında hazırlanmışdır. Formaca radar qurğusunu

***1. Zoşiqaya məzarlığı (雑司ヶ谷霊園, Zōshigaya Reien) Tokio şəhərinin Toşima rayonunun Minami-İkebukuro ərazisində yerləşən və Tokio Metropoliten Hökuməti tərəfindən yaradılmış ictimai qəbiristanlıqdır.***

***2 Tokiodakı Tama qəbiristanlığı（多磨霊園, Tama Reien) Yaponiyanın ən böyük bələdiyyə qəbiristanlığıdır. Tokio Metropolisindəki Fuçu və Koganei şəhərləri arasında bölünür. İlk dəfə 1923-cü ilin aprelində Tama qəbiristanlığı (多磨墓地, Tama Bochi) adı ilə qurulmuş, 1935-ci ildə Tama qəbiristanlığı adlandırılmışdır.***

xatırladan abidənin mərkəzində Zorgenin sifəti təsvir edilmiş, xüsusilə baxışlarına xüsusi ifadəlilik verilmişdir. Heykəltəraş bu kompozisiya vasitəsilə sovet kəşfiyyatçısı obrazını simvolik şəkildə canlandırmağa çalışmışdır. Abidənin açılışı 1981-ci ilin may ayında, Qələbə Günü ərəfəsində keçirilmişdir. Rixard Zorge adına parkda yerləşən abidə şam, çinar, tut və Yaponiyadan gətirilmiş albalı ağacları ilə əhatə olunmuşdur.



Açılış mərasimində həmin dövrdə Azərbaycan SSR-ə rəhbərlik edən Heydər Əliyev də iştirak etmişdir.









Sabunçu qəsəbəsində Rixard Zorgenin yaşadığı evin divarına vurulmuş xatirə lövhəsi

***Mənbə: Azerhistory.com***

Bundan əlavə, Bakının Nəsimi rayonu ərazisində Rixard Zorgenin adını daşıyan küçə və park da mövcuddur. Park Vaqif prospekti ilə Səməd Vurğun küçələrinin kəsişməsində yerləşir və 2,39 hektar ərazini əhatə edir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Rixard Zorgenin abidəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarı ilə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmişdir. Abidə və park ərazisində 2012-ci ildə təmir-bərpa işləri aparılmışdır.

Rixard Zorge öz cəsarəti, vətənə sədaqəti və kəşfiyyat sahəsindəki misilsiz fəaliyyəti ilə tarixdə iz qoymuş şəxsiyyətlərdən biri kimi yadda qalmışdır.

**Ədəbiyyat siyahısı**

https://az.wikipedia.org/wiki/Rixard_Zorgenin_abid)

https://portal.azertag.az/az/encyclopedia/post/1936

Nəbi Xəzri seçilmiş əsərləri, II cild 1983

Azerhistory.com

***Vladimir Efimoviç Siqal (17 sentyabr 1917 - 4 iyul 2013) sovet heykəltəraşı idi.***

***Mikayil Useynov (6 aprel 1905, Bakı – 7 oktyabr 1992, Bakı) — Azərbaycan-sovet memarı və memarlıq tarixçisi, memarlıq doktoru, professor və SSRİ Memarlıq Akademiyasının həqiqi üzvü olmuşdur.***

***Rasim Əliyev (16 iyul 1934, Gəncə – 13 noyabr 2021, Bakı) — Azərbaycan memarı və rəssamı, Azərbaycan SSR əməkdar memarı, Dövlət mükafatı laureatı və bir sıra beynəlxalq memarlıq akademiyalarının həqiqi üzvü olmuşdur.***

***Leonid Nikolaeviç Pavlov (27 iyul 1909 - 18 sentyabr 1990) nüfuzlu sovet avanqardı və sovet modernizminin memarı idi. O, 1960-1980-ci illərdə Sovet İttifaqının ən görkəmli memarlıq xadimlərindən biri kimi tanınır.***



# CAVANŞİR MƏMMƏDLİ

*Cavanşir Həsən oğlu Məmmədli 1963-cü ildə Tərtər rayonunun İrəvanlı kəndində doğulub.*
*Gənc yaşlarından şeir yazır.*
*Şeirləri bir çox mətbu orqanlarında dərc olunub.*

## DƏRƏLƏYƏZ

Səndən ayrı düşən gündən istəmirəm bir an güləm,
Heç olubdur gözlərimdə bütün dünya, bütün aləm.
Vətən deyib sızlayıram, ərşə qalxıb ahım-naləm,
Ovundura bilmir məni burda Qoşqar, nə də Kəpəz,
Çağır məni al qoynuna, ata yurdum Dərələyəz.

Həsrətdən olub ürəyim daş, sinəmi parçalayır,
Süzüldükcə gözlərimdən yaş, sinəmi parçalayır,
Gəlib yetmir ömrün yazı, qış sinəmi parçalayır.
Qovruluram öz içimdə, şəkdiyimi kimsə bilməz,
Çağır məni al qoynuna, ata yurdum Dərələyəz.

Gör nə qədər dağlarında, daşlarında izim qalıb,
Gur bulaqlı yaylağında, qışlağında izim qalıb.
Ürəyimdə deyilməmiş neçə-neçə sözüm qalıb,
Qınayırlar məni əbəs, vallah, buna ürək dözməz,
Çağır məni al qoynuna, ata yurdum Dərələyəz.

Tale niyə ayrı saldı bizi ömrün bu çağında,
Həsrət qaldım, heç doyunca isinmədim ocağında.
Kaş, məzarım qazılaydı sənin isti qucağında,
Baş qoyaydım, torpağında uyuyaydım sakit, dinməz,
Çağır məni al qoynuna, ata yurdum Dərələyəz.

## AĞLAYAYDIM

Vətən həsrətiylə yaşayıram mən,
Yetəydim arzuma kaş, ağlayaydım.
Nə vaxtdır bir həsrət daşıyıram mən,
Olmayaydı ürək daş, ağlayaydım.

Kaş, bir də görəydim Göyçə gölünü,
Sıxaydım köksümə Göyçə gölünü.
Aşıqlar çalaydı «Göyçəgülü» nü,
Axaydı gözümdən yaş, ağlayaydım.

Gələydim həvəsə, coşaydım yenə,
Qarlı gədikləri aşaydım yenə.
Azaydım yolumu, çaşaydım yenə,
Donduraydı məni qış, ağlayaydım.

Taleyim arzumla durmaya qəsdə,
Yığıb gül-çiçəkdən bağlıyam dəstə.
Gedib Ələsgərin məzarı üstə
Diz çöküb qoyaydım baş, ağlayaydım.

## GETDİ

Ata yurdlarımız viranə qaldı,
Dağıldı ellərin binəsi getdi.
Fələk yuvasından didərgin saldı,
Uçdu o göllərin sonası getdi.

Adam düşündükcə gəlir dəhşətə,
El-eldən ayrılıb düşdü qürbətə.
Ürəklər dözmədi bu müsibətə,
Neçə oğulların anası getdi.

Nə qədər zavallı el gözəlinin
Pozuldu düzümü siyah telinin.
Gözü yaşlı qaldı qızın, gəlinin,
Silindi əlinin xınası getdi.

Cavanşir, bu dövran hədərdi, heçdi,
Qoşul köçənlərə köç, köçhaköçdü.
İnsanın ki, ömrü qürbətdə keçdi,
Bil ki, yaşamağın mənası getdi.

### BİLMƏMİŞƏM MƏN

Gözəl dövranımı, gözəl dəmimi
Heç nə vaxt keçmişəm, bilməmişəm mən.
Vaxtsız viran olmuş ömür zəmimi
Əlimlə biçmişəm, bilməmişəm mən

Dünya başdan-başa qəhərmiş demə,
Mən gec oyanmışam, səhərmiş demə.
Verdiyin badələr zəhərmiş demə,
Şərabtək içmişəm, bilməmişəm mən.

Bütün deyilənlər haqmış dünyada,
Elə bil Cavanşir yoxmuş dünyada.
Məndən istəklilər çoxmuş dünyada,
Doğrudan heçmişəm, bilməmişəm mən.

### QARAÇI

Burax, əllərimi sıxıb ovcunda
Ömrümü yuxutək yozma, qaraçı.
Mənim taleyimə baxıb ovcunda
Tanrı yazanları pozma, qaraçı.

Qoy deyim, sən eşit, danışma hələ,
Mən yaranan gündən köləyəm, kölə.
Çevirib bəxtimi belədən belə
Yalandan bir günah gəzmə, qaraçı.

Gəl, Tanrı yanında günaha batma,
Taleyi qəpiyə-quruşa satma.
Gözüm görə-görə məni aldatma,
Sözləri dalbadal düzmə, qaraçı.

Bəxtimə nə düşüb, bilirəm özüm,
Dəhşət içindədir gecəm, gündüzüm.
Barı sən təsəlli ver, bir az dözüm,
Daha ürəyimi üzmə, qaraçı.

Neçə bəxtəvərə yol açmısan sən?
Hansısa bir dərdə əlacmısan sən?
Eləsə bəs niyə əl açmısan sən?
Yolunu bu qədər azma, qaraçı.

# "SƏN DƏ ƏLƏSGƏRSƏN, MƏN DƏ ƏLƏSGƏR"

**Ədəbi mühitdə dillərdə dolaşan bu misranın müəllifi şair Ələsgər Talıboğlunun "Könül yaza tələsir" şeirlər kitabından fraqmentlər**




Şair var, böyük bir külliyyat yaradır, şair də var bapbalaca bir kitab bağlayır... Yaxşı halda hər şairin bir misrası dillərdə dolaşar, o da kimə qismət ola, ya olmaya...

Ələsgər Talıboğlu Azərbaycan ədəbiyyatının XX əsrin sonu – XXI əsrin əvvəlləri dövründə imzasını tanıtmış şairlərdəndi. Yaradıcılığında Məmməd Araz məktəbi duyulur. El arasında Dədə Ələsgərə həsr etdiyi şeirindən bir misra dolaşır: "Sən də Ələsgərsən, mən də Ələsgər!" Bu misrada çox məna ifadə olunur. Ələsgəri bu gün yaşadan, gələcəkdə yaşadacaq bu misra onun yaradıcılığına açar rolunu oynayacaq. Ədəbi tənqidçilər, tədqiqatçı-araşdırmaçılar məhz bu misranı rəhbər tutaraq Ələsgər Talıboğlu yaradıcılığını incələyəcəklər. Buna adım kimi əminəm. Çünki Ələsgər Talıboğlu yaradıcılığında belə möhtəşəm, ölməz misralar onlarladır və bəlkə də daha çoxdur.

Ələsgər Talıboğlu ilboyu başının üstü açıq səma olan Naxçıvan diyarında dünyaya gəlib. Hərdən Zəngəzur dağlarından ötüb keçən pambıq kimi ağappaq buludların səmasını gözəl tabloya çevirmiş Şərur rayo-

nunun Kərimbəyli kəndində zəhmətkeş bir ailədə doğulub, boya-başa çatmışdır. İxtisasca filoloqdur, dilimizin zənginliyini bilir və yaradıcılığında bəhrələnir. Hər şairə nəsib olmayan Məmməd Araz və İsa Muğanna mükafatları laureatıdır. Həm də bəxtəvər şairlərdəndir ki, şeirləri bir sıra xarici dillərə tərcümə olunub, sözlərinə mahnılar bəstələnib və ədəbi-bədii məclislərdə, el şənliklərində şeirlərini aşıqlarımız sevə-sevə saz üstündə oxuyurlar. Azərbaycan Yazıçılar Birliyinin fəal üzvlərindəndir. Bu günlərdə oxucuları ilə növbəti görüşə gəlib. Sayca 21-ci olan şeirlər kitabı "Könül yaza tələsir" adlanır. Bütün bunlara rəğmən Ələsgər Talıboğlu olduqca təvazökardır. Elə bu kitabının üz qabığına seçdiyi şeir parçasında qeyd etdiyi kimi özünü azman şairlərlə müqayisə etmir, "Bir kol dibində tər bənövşəyəm" deyərək cahana yeni qədəm basdığını, hələ sözünü demədiyi, sinəsi dolu novcavan enerjili biri olaraq təsvir edir.

Çoxşaxəli yaradıcılığa malik Ələsgər Talıboğlu poeziyanın bütün formalarında nümunələr yaratmaqla qələmini sınaqdan çıxartmışdır. Yaradıcılığı müxtəlif vaxtlarda ədəbi tənqidçilərin, şair və yazıçıların, jurnalistlərin, yaradıcılığı olan digər sənət adamlarının diqqətini çəkmiş, onun poetik dünyası barədə müxtəlif səpkili məqalələr, resenziyalar, dost yazıları yaranmışdır. Sözsüz ki, növbəti kitabı da əldən-ələ keçərək oxunacaq, layiqli dəyərini alacaqdır.

Ələsgər Talıboğlu da Dədə Ələsgər kimi daima el arasında olan, elin dərd-səri ilə yaşayan, yeri gələndə giley-güzar kimi yox, bir tarix olaraq elin qovxasını mərdanə şəkildə nəzmə çəkən şairdir. "Hər qarış torpağı ləl-gövhər olan vətəndə, hamının bəhrələndiyi halda yerli, aborogen millətin zillət içində yaşadığını, oğulların səfalət ucbatından dərbədər düşdüyünü" yana-yana təsvir edir.

***Mənim oğullarım yad ölkələrdə,***
***Bax, min bir zəhmətlə qultək işləyir.***
***Ən yağlı loxmanı məmləkətimdə***
***Yadlar mənimsəyir, özgə dişləyir.***

"Könül yaza tələsir" – şair kitabına belə bir ad seçib. Könül yaza niyə tələssin? Baharın, yazın gəlişini, demək olar ki, bütün şairlər öz yaradıcılıqlarında, özü də bəziləri dönə-dönə təsvir etmişlər. Onlardan Şah İsmayıl Xətai qədər gözəl, bənzərsiz və yüksək səviyyədə baharı təsvir edən ikinci bir şair yoxdur. Baharın gəlişi təbiəti oyadır, canlandırır. Hər dəfə gözoxşayan, könülaçan, ruhu ilhamlandıran bir mənzərə ilə qarşılaşan şair ürəyi, könlü yaza niyə tələsməsin? Ələsgər Talıboğlunun hikməti bundadır.

Ələsgər Talıboğlu xalq folklorunu kifayət qədər yaxşı bilən, yeri gəldikdə yaradıcılığında məharətlə bəhrələnən şairlərdəndir. Bu yaşında özünün də folklor nümunəsi yarada biləcək cəhdləri uğurlu alınır. Sözün mahiyyətindən mahir usta kimi istifadə etməyi bacaran şair bənzətmələr vasitəsilə sözünü deyir, necə deyərlər, fikrini sətiraltı ötürür.

***Bu gözəlin gün doğmadı baxtına,***
***Bu gözəlin dərdi dağdan ağırdı.***
***Bu gözəlin ürəyinə toxunma,***
***Bu gözəlin köksü dərddən yağırdı.***

Heç şübhəsiz ki, ayıq oxucu şairin bənzətməsini dərhal anlayır. Bütün yaradıcılığı boyu el-obaya, doğma yurda, sevgili vətənə, milli mənsubiyyətə bütün varlığı ilə bağlı olan Ələsgər "bu gözəl" dedikdə ana vətəndən başqa nə düşünə bilər?

***Bu gözəlin sevdaları olub puç,***
***Bu gözəlin eşqi daşa dəyibdi.***
***Bu gözəlin çarxı dönüb tərsinə,***
***Bu gözəlin ruhunu qar döyübdü.***

Odur ki, şair könlü yaza tələsir. Yaz təkcə təbiət fəsli deyil, yaz arzularımızın çiçək açacağı bir dövrdür. Qəlbimizdə bəsləyib saxladığımız, müstəqilliyə qovuşduğumuzdan

bəri gerçəkləşəcək planlarımızın gələcəyi, müharibələrin, soyuq davaların olmayacağı, əmin-amanlığın yaranacağı dövrdür. Hələ ki, şair dediyi kimidir: "Bu gözəlin eşqi daşa dəyibdi", "Bu gözəli dayağı yox söykənə", "Bu gözəlin yaraları qaysaqsız", "Bu gözəlin məlhəm gərək dərdinə".

"Orxan" Nəşriyyat və Poliqrafiya müəssisəsi tərəfindən nəfis tərtibatla 300 nüsxə ilə nəşr olunan 248 səhifəlik kitabda şairin, əsasən, son bir ildə yazdığı şeirlər toplanmışdır. Bu da Ələsgər Talıboğlunun müdrik yaş dövründə məhsuldarlığının göstəricisidir. İndi o, təkcə öz fikirlərinin ifadəsini nəzmə çəkmir, böyük bir millətin saf niyyətinin, ülvi və pak amalının rəsmini sözlə ifadə etməyə çalışır, bir rəssam kimi göz önündə canlandırmağa çalışır.

***Üzüm dirənibdi yoxuşa daha,***
***Gah duman, gah çovğun, yağışa daha.***
***Mat qaldım buncalıq axışa daha,***
***Keçilməz qayalar, sallar görünür.***

Hər bir Azərbaycan aydını kimi Ələsgər Talıboğlu vətənin üzləşdiyi problemləri aydınca görür. Otuz ildən artıq başımızın üstündə dolaşan Qarabağ problemi həll olunsa da, milli əndişələr çözülmək bilmir. Milləti yetmiş yeddi yerə parçalayırlar. Hicaba bürünmüş azyaşlıların sayı artdıqca göbəyi açıq qızlar da durmadan çoxalır. İslami dəyərləri hörmətə mindirənlərlə özünü ateist adlandırıb hər şeyə qarşı çıxanların qovxası bitmək bilmir, günü-gündən də dərinləşir. Xarici təsir altına düşmüş üzüdönüklər vətəndən, millətdən üz döndərənlərin sayını durmadan artırırlar. Ələsgər Talıboğlunun silahı sözdür və o, sözünü deyir. Sözü isə qanana deyərlər, həm də kəskin sözü deməyin fərqi yoxdur, ya pıçıltı ilə söylə, ya Koroğlu nərəsi ilə hayqır.

***Gəldim məzarlığa ziyarətə mən,***
***Bir bilsəniz burda off... kimlər yatır.***
***Ömrünü dopdolu yaşayanla bir***
***Çiçəyi burnunda nakamlar yatır.***

Dil, din və torpaq uğrunda döyüşdə, mübarizədə canını fəda etmişlər şəhidlik zirvəsinə yüksəlirlər. Ələsgər Talıboğlu gəncliyində Azərbaycanın digər dəliqanlı, comərd cavanları ilə bərabər silaha sarılıb, vətəni erməni separatçılarından, qəsbkarlarından qoruyub. Əlinə qələm aldığı gündən dilimizin saflığı uğrunda cəngə girib. Ağsaqqal yaşında elin adət-ənənələrinə, milli-mənəvi dəyərlərə, ən əsası da İslam dininin məntiqi əsaslarına söykənən yaşam tərzinə dayaq olub. Yetkin ömrü mübarizələrdə keçib. Günü-gündən artan, özü də ildırım sürəti ilə artan Şərlə mübarizədə Xeyirin gücsüzlüyünü görüb bəzən bədbinliyə düçar olur, nikbinliyini zəiflədir.

***Qəlbimi yurd etdim dərd köhlənimə,***
***Sevincin dadını dada bilmədim.***
***Bunca ağrıları hey çəkə-çəkə,***
***Verdim bir ömürü bada, bilmədim.***

Amma, necə deyərlər, haqq nazilər, üzülməz. Məzarlığı ziyarət edərkən ürək ağrısı və təəssüf hissi ilə orda kimlərin, hansı dahi və fədakarların yatdığını qeyd edən şair bilməlidir ki, haqq iş həmişə davam etdiriləcəkdir. Şagirdləri isə zaman özü yetişdirəcək.

***Daşıya-daşıya bu fil yükünü,***
***Yaşadım min ağrı, acı içində.***
***Göyləri boyadı ahımın rəngi,***
***Bir üzüm gülmədi ömür köçündə.***

Başı müsibətlər çəkmiş Azərbaycanın ömrü min illər boyu ağrı, acılar içində keçib, amma heç vaxt sarsılmayıb. Bilib ki, onun mərd oğulları ən çətin, ümidlərin üzüldüyü son anda belə yetişəcək, dayağında duracaq. Nə qədər ələsgərlər gəlib getsə də belə olub, belə olacaq. Təki könüllər pərvaz olsun, üzü yaza köklənsin!

**Əli BƏY AZƏRİ,**
**"Xəzan" jurnalının baş redaktoru**
**21 aprel, 2026, Xırdalan şəhəri**



## ƏLƏSGƏR TALIBOĞLU

### Dİ GƏL Kİ... MİLLƏTİM DİLƏNÇİ GÜNDƏ

Övladı olduğum bu Vətənimin,
Hər qarış torpağı ləldir, gövhərdir.
Altı da, üstü də ulu Tanrının
Bizə bəxş etdiyi bardır, bəhərdir.

Di gəl ki... millətim dilənçi gündə,
Bir qarın tapsa da, biri ac gəzir.
Sabahdan axşama ha çalışsa da,
Bir tikə çörəyə eh... möhtac gəzir...

Neftdən, həm qazdan gələn milyardlar
Görəsən, haraya axıb da gedir?
Çölüm özgəsini, içim özümü,
Yandıra-yandıra yaxıb da gedir.

Mənim oğullarım yad ölkələrdə,
Bax, min bir zəhmətlə qul tək işləyir.
Ən yağlı loxmanı məmləkətimdə
Yadlar mənimsəyir, yadlar dişləyir.

Yad ana döşündən süd əmən kəslər,
Nə qədər ağalıq edəcək yurda.
Millət başdan-başa əzab içində,
Buna dözə bilməz heç vaxt manqurt da...

Dərdimiz dil ilə deyilən deyil,
Bizə yol göstərən ağıl gərəkdir.
Milləti zillətdən qurtarmaq üçün,
Min-min ağıllı baş, oğul gərəkdir.

**19.11.2025**

### QOY, SIĞINIM QOYNUNA

Ata yurdum, səni deyib gəlmişəm,
Sığınım qoynuna, nolar, qoy, bir də…
Nə olsun ki, sənə sahib çıxmadım,
Sığınım qoynuna, nolar, qoy, bir də…

Haqdır, sənə sadiq oğul olmadım,
Qanadından tutan ağıl olmadım...
Sinən üstə şirin nağıl olmadım,
Sığınım qoynuna, nolar, qoy, bir də…

Fələk məni səndən uzaq saldı da,
Ürəyimə bitməz sazaq saldı da..
Bunca dərdi hara yazaq... saldı da,
Sığınım qoynuna, nolar, qoy, bir də…

İllərdir ki... kişnəməkdə göynəyim,
Külmü töküm, de... başıma neynəyim...
Sənsən mənim Vətən adlı örnəyim,
Sığınım qoynuna, nolar, qoy, bir də…

Yox ki… yurdum, bundan özgə umacaq,
Eşqin ilə könlüm hər an yanacaq...
Talıboğlu, özün qərib sanacaq,
Sığınım qoynuna, nolar, qoy, bir də…

**22.01.2025**

### ÖMRÜMÜN

Harda salıb itirdimsə bilmədim,
Arayıram itiyini ömrümün.
Əldən verib şahlıq kimi gəncliyi,
Qoruyuram bitiyini ömrümün...

Ömrü axar selə verdim bilmədən,
Düşdüm min bir dildən-dilə bilmədən...
Göz yaşını silə-silə bilmədən,
Daşıyıram kötüyünü ömrümün...

Ayı, günü heç almadan mən saya,
Kimsələri çağırmadan bir haya...
Hər yoluma vura-vura sərt qaya,
Tətiklədim tətiyini ömrümün...

İlkinimdən ömrüm duman, ya çəndə,
Dərd yoğurur, bax, aldığım hər dən də...
Dözə bilməz mən dözən tək bir bəndə,
Çalmaqdayam tütəyini ömrümün...

Talıboğlu, ömür başdan kəc gəldi,
Hər gələn də gözlənəndən gec gəldi...
Hər addımda dərdlər mənə güc gəldi,
Tutammadım yetiyini ömrümün...

**08.01.2025**

## XATIRLA MƏNİ

Bir həzin, bir kövrək xatirə kimi,
Acı-şirinimlə xatırla məni.
Yaddaşda yurd salan sehirli iz tək,
Dayaz-dərinimlə xatırla məni.

Ağla bulud-bulud yağışın ilə,
Fələk qarğadığı qarğışın ilə...
Qəlbinə nəqş olan naxışın ilə,
Zərif-narınımla xatırla məni.

Etdiyin silinməz günahlarınla,
Köksünü hey deşən süs ahlarınla...
Tanrıdan umduğun pənahlarınla,
İsti-sərinimlə xatırla məni.

Bir vaxtlar mən idim Ayın, Günəşin,
De, nədən beləcə döndü gərdişin...
Qəlbini yandıran sönməz atəşin,
Qızğın-korunumla xatırla məni.

Sığına-sığına əski duyğuya,
Heç yatıb qalmadan şirin «uyquya»..
Talıboğlu xoşhal belə sayqıya,
«Dün"üm-»yarın»ımla xatırla məni...

**07.02.2025**

## BU GÖZƏLİN

Bu gözəlin gözlərinə baxın siz,
Bu gözəlin gözləri göy dənizdi.
Bu gözəlin qəlbi çağlar dağ çayı,
Bu gözəlin yanağı al bənizdi.

Bu gözəlin gün doğmadı baxtına,
Bu gözəlin dərdi dağdan ağırdı.
Bu gözəlin ürəyinə toxunma,
Bu gözəlin köksü dərddən yağırdı.

Bu gözəlin sevdaları olub puç,
Bu gözəlin eşqi daşa dəyibdi.
Bu gözəlin çarxı dönüb tərsinə,
Bu gözəlin ruhunu qar döyübdü...

Bu gözəlin maya tutmur sevinci,
Bu gözəlin gözləri qəm buludu.
Bu gözəlin dayağı yox söykənə,
Bu gözəlin qarsılıbdı umudu...

Bu gözəlin yaraları qaysaqsız,
Bu gözəlin məlhəm gərək dərdinə.
Bu gözəlin ağrıları dur bilməz,
Anla onu, qüssəsi nə, dərdi nə...

**02.02.2025**

## HƏR YADIMA DÜŞƏNDƏ

Hər yadıma düşəndə
o əski yurd yerləri,
Ruhum yerindən oynar,
zarın-zarın ağlaram,
Gözlərimin önündə
tablolaşan kəndimiz,
Könlüm qana bələnər,
narın -narın ağlaram.

Yanaram için-için
sevdasıyla ahəstə,
Dolaşaram xəyalən
qəlbim də min həvəsdə...
Çırpınaram eşqiylə,
daim nəfəs-nəfəsdə,
Unutmadan bir an da
korun-korun ağlaram....

Talıboğlu, bu eşqdən
ruhum da gələr cana,
İstərəm ki, sevdamı

yayam bütöv cahana.
Özümü o yerlərin
qoynunda sana-sana,
Ala-ala yeni güc
qorun-qorun ağlaram...

**04.06.2025**

## AYRILIQLAR YORDU MƏNİ

Ayrılıqlar yordu məni,
bir ömürün axarında.
Binə saldı həsrət, nisgil,
gərdişimin çıxarında...

Nə bir sonu görünür ki..,
bunca dərddən qurtaram can.
Nə də bir tab qalıbdır ki..,
dözəm günəş doğanacan...

Ağrılarım həsrət yüklü,
axşam-sabah əzir məni.
Hicran odu bu həyatdan,
əllərimi üzür mənim...

Ömür qısa, bitər bir gün,
hicran isə yol yoldaşı...
Yaşamağı sevirsənsə,
bu yükü də di gəl, daşı...

**09.01.2025**

## NƏFƏS-NƏFƏSƏ GEDİRƏM

Yol alaraq bu dünyadan
Zülmət qəfəsə gedirəm...
Yaradanla addımbaşı,
Nəfəs-nəfəsə gedirəm...

Axşam-sabah yarışdayam,
Ruhu qarma-qarışdayam...
Kor fələklə barışdayam,
Hər kəslə bəhsə gedirəm...

Ömür gödək... həyat şirin,
Öz yeri var xeyrin, şərin.
Ha da coşub, ha da kirin,
Əfsunlu səsə gedirəm...

Üz tutub da doğan dana,
Qor, közünə yana-yana...
Talıboğlu, gəlib cana,
Gör, nə həvəsə gedirəm...

**24.01.2025**

## XATİRƏLƏR AĞUŞUNDA

Bir ömürdür yaşayıram
xatirələr ağuşunda.
Yuyunuram axşam-sabah
həzin-həzin yağışında.

Şırım açıb ürəyimdə,
ən zərifi, incisi də.
Mışıl-mışıl mürgü döyür
işıqlısı, «zənci»si də...

Yaşayırıq deyə-gülə,
dirisi var, öləni var....
Hər birinin köksümdəcə
öz düyünü, şöləni var...

**18.01.2025**

## HƏYAT EŞQİM

Həyat eşqim axar çaydı,
Dərinim var, dayazım var.
İçdən axan nəğmələrdən
Qaraşınım, bəyazım var...

Günbatanda batan Ayım,
Haylayacaq qıyım, hayım...
Ürək dolu şeir payım,
Yazılacaq çox yazım var...

Gündoğanda hürr Günəşim,
Köks isidən şux atəşim.
Özgəsiylə eh... nə işim,
Öndə qışım, payızım var.

Bir bulaqdır ruhum coşqun,
Gündən-günə artır şövqüm...
Yaşam boyu bitmir məşqim,
Hicran notlu avazım var...

Ömrüm dərdə olsa da tuş,
Sevə-sevə edirəm nuş..
Talıboğlu eşqdən sərxoş,
Qəlbə hopan avazım var...

**16.02.2025**

# İNSAN QƏLBİNİN MÜHƏNDİSİ
## (Zakir İsmayıl poeziyasının incəlikləri)



"Əsl şair öz daxili dünyasından, hisslərindən və mənliyindən bəhs edərkən, əslində bütün insanlığın ortaq duyğularından bəhs etmiş olur. Çünki bəşəriyyətin duyduğu onun təbiətindədir. Odur ki, onun hüzründə hər kəs öz hüzrünü duyur, onun ruhunda hər kəs öz ruhunu tanıyır və onun simasında yalnız şairin özünü deyil, bəlkə eyni zamanda insanı, bəşəriyyəti görür". (Rus ədəbi tənqidinin banisi Vissarion Belinski).

Zakir İsmayıl da belə şairlərdəndir. Onun poeziyası ilə elə ilk tanışlığımdan XIX əsr məşhur fransız yazıçısı L.Hollanın poeziya haqqındakı fikrini xatırladım: "Poeziya silahdan açılmış gülləyə bənzəyir; bəziləri birbaşa insanın ürəyinə batır, bəziləri də qulağının yanından ötür".

Zakir bəyin poeziyası elə ilk oxunuşdan mənim ürəyimə və beynimə batdı. Lirik şeirin başlıca mövzularından olan eşq-məhəbbət anlayışı poeziyamızda hər zaman insan varlığının mayası olmuşdur. Zakir İsmayıl yaradıcılığının əsas mövzularından biri də bəşəriyyətin əzəli və əbədi mövzusu olan sevgi-məhəbbətdir. Onun "Bal kimisən acınla" şeirində olduğu kimi. Sevgilisinin soyuqluğu, diqqətsizliyi, laqeydliyi də ona xoş gəlir:

***İncidirsən sən məni,***
***Bu inciklik nə xoşdur.***
***Təkcə sevirəm səni,***
***Sənsiz ürəyim boşdur.***

Yaxud:
***Bu gözəllik səndədir,***
***Bal kimisən acınla.***
***Sevgin ürəyimdədir,***
***Gül-çiçəkli tacınla.***

Şairlərin missiyası sözlərini deyə bilməyənlərin, ya da demək iqtidarında olmayanların fikirlərini ifadə etməkdir. Bu fikirlər içərisində iztirabla, insan dərdləri ilə yanaşı həyatla mübarizə və qələbə inamı var. "Yoxdur bizim yiyəmiz" şeirində olduğu kimi:

***İlahi, dön geriyə,***
***Qurtar bizim milləti.***
***Yenə sahib çıx bizə,***
***Bitir bu cür zilləti!***

Yaxud "Biz nədən keçmədik" şeirində yazdığı kimi:

***Biz nədən keçmədik, görmədik nələr?***
***Düşmənə torpaqdan kəsib pay verdik.***
***Sonra da onlardan hər gecə, səhər***
***Xaincə vurulmuş zərbələr yedik.***

"Müsavat əsgəriyəm" şeirində:

***Hər çağırış gələndə***
***Meydandakı biriyəm.***
***Zülmün qaranlığında***
***Yaşasam da, diriyəm.***

Belə bir deyim var: "Şairləri şair edən onların çəkdikləri iztirab və dərdlərdir". Lakin Zakir İsmayıl poeziyasının əsas qayəsi ölkədə, cəmiyyətdə baş verən ədalətsizliklərlə, biganəliklərlə, haqqın tapdalanması ilə əlaqədar yaranmış qəm-kədərdir. Bu qəm-kədəri qovmaq üçün yalnız bu yolla mübarizə aparmaq lazımdır və bu yolun əsas yolbəyi inamdır. Şairin "Ey qara buludlar" adlı şeiri onun belə hisslərinin bariz nümunəsidir:

***Ey qara buludlar,***
***Qorxum yox sizdən,***
***O qara işiniz silinər bir gün.***
***Bir gün günəş doğar göyün üzündən,***
***Dünya nura çökər həmən, büsbütün.***

Müəllif inanır ki, sözün qüvvəti, insanın cürəti bu dövlətin, bu millətin başının üzərindən qara buludları qovacaq. Təsadüfi deyil ki, böyük fransız yazıçısı və filosofu Dedni Didro da "Həqiqətləri yazmaq üçün yazıçıda savaş meydanına girmiş əsgərin cəsarəti gərəkdir" yazmışdır. "Müsavat əsgəriyəm" şeirində Z.İsmayıl yazır:

***Ruhum sənin ruhunda,***
***Rəsulzadə öndərim.***
***O kəfənsiz yatanlar,***
***Biri də mən – əsgərin.***

Şair bir döyüşçü kimi sözlərindən silah düzəldərək mübarizə meydanına atılır və onun sözləri güllə kimi oxucunun ürəyini tuşlayır:

***Qələmim əlimdə silah,***
***Mürəkkəbim torpağımdır.***
***Yazmağa ruh mələyim var,***
***O, üçrəngli bayrağımdır!***

Zakir İsmayıl poeziyasının özəlliyi ondadır ki, o, təkcə məhəbbət şairi, yaxud nəğməkar şair, nə də inqilabçı şair deyil, onun poeziyası mövzu baxımından rəngarəngdir. Amma qeyd etmək lazımdır ki, onun vətənpərvərlik mövzusunda yazdığı əsərlər digərlərindən daha çoxdur.

XVII əsr klassikləri poeziyanın gözəlliyini onda olan metaforaya - bənzətmələrə görə dəyərləndirirlər. Şairin çox maraqlı, heç kəsə bənzəməyən metaforaları var. Məsələn, "Ürək" şeirində o, ürəyi teli qırılmış saza, Tanrının açdığı qapıya bənzədir:

***Tanrının açdığı qapıdır ürək,***
***Amma o qapını bağlayar zaman.***
***Həyatın döyünən sazıdır ürək,***
***Bir tel qırılarsa, ağlayar zaman.***

Yaxud şair ilk sevgini "könüldə açılmış yara", "yanar ocaq" kimi təsvir edir:

***İlk sevgi könüldə açılmış yara,***
***Sevdanın zülmətdən yanar çırağı.***
***İlk dəfə vuruldum mən nazlı yara,***
***Sönmədi içimdə yanar ocağı.***

Şairin şeirlərindəki fikir ardıcıllığını, axıcılığı, ifadə gözəlliyini görməmək mümkün deyil.

Ataların belə bir məsəli var: "Qələm yazanı qılınc poza bilməz". Zakir bəy, arzu edirəm ki, poeziyanız oxucularınızın ürəyini elə fəth etsin ki, onu heç kəs, heç vaxt qılıncla da poza bilməsin.

**Nüşabə SADIXLI,**
**Filologiya üzrə fəlsəfə doktoru**



# ZAKİR İSMAYIL

## İLAHİ MƏHƏBBƏT

Tanrı nəfəsini duyduqca ürək,
İçim işıqlandı, ruhum oyandı.
İlahi məhəbbət zirvələrədək
Ucalıb zirvədən yerə boylandı.

Həyatda elə bir sevgi göstərin,
Ucaltsın yerlərdən göylərə məni.
Belə bir sevginin, belə dəyərin
Qəlbimdə bir məbəd olar məskəni.

Ruhani səyahət başqa bir duyğu,
Mərhəmət nur kimi axar qəlbimə.
Tanrının nəfəsi – sükunət, uyğu,
Sevgisi dərmandır mənim dərdimə.

Sevdikcə duaya dönər hər anım,
İlahi bir sükut çiçəktək açar.
Sevdikcə mənalı keçər zamanım,
Ruhum qanad açıb səmaya uçar.

Bu eşqdə mən yoxam, Tanrı var indi,
Sevdamla birləşib nurda yanaram.
Sonsuz bir həyat var, o da mənimdi,
Əbədi dənizdə səni anaram.

Ruhun duasıdır Tanrının səsi,
Mələk pıçıltısı, səma sevgisi.
Yağışla səslənir nurun nəğməsi,
Tanrı məhəbbəti - ruhun nəfəsi.

**04.10.2025**

## ODLA YANMAQ

Hərdən yada düşürsən,
Qəlbim səni anır da.
Ürəyim daş deyil ki,
Közə dönüb yanır da.

Sevgim gözlə görünmür,
Gərək onu anasan.
Eşqimi anmaq üçün
Çınqı olub yanasan.

Bir baxışla yandı qəlb,
Yandı odum, o sönməz.
Səni görməsəm əgər,
Günüm dolub-bitəmməz.

Əlim çatmırsa, yenə
Qəlbim sənə toxunur.
Dost-tanışın dilində
Adımız bir oxunur.

Sözlər deyə bilmirəm,
Çünki ürəyin bilir.
Hər sevgiylə baxanda,
O vaxt gözlərin gülür.

Amandır, səni sevmək
Odla oynamaq kimi.
Həyəcanla alışır
Qəlbimin sarı simi.

Ayrılıq da dad verir,
Sevgi özü də acı.
Sən olmusan başımın
Bu həyatda tək tacı.

**08.09.2025**

## EŞQ ÜRƏYİN TANRISIDIR

Bir baxışla könlüm sevdi,
Bahar gəldi ürəyimə.
Elə bil ki, ən şirin dərd
Qüvvət verdi diləyimə.

Ağlım yolunu itirdi
Gözüm görən andan onu.
Baxışı dilə gətirdi,
Bitdi uşaqlığın sonu.

Yarın adın çəkdi külək,
Hər gülüşü çiçək açdı.
Sanki səhər günəşitək
Erkən durub şəfəq saçdı.

Qəlb sevəndə dağ yumşalar,
Sevgi çeşmənin səsidir.
Eşq gələndə ağıl qaçar,
Sevgi hissin nəfəsidir.

Ürək yanmasa, doğulmaz,
O, yanan bir nur kimidir.
Sevməyən şəxsdə duyulmaz,
O, qəlbin sarı simidir.

Susuz torpaq, sevgisiz can,
Qorxan sevməz, sevən qorxmaz.
O, damarda durmayan qan,
Sükut olar, şimşək çaxmaz.

Ruhun səsi - duadır o,
Ürək sevsə, ağıl susar.
Mənadır o, sualdır o,
Hər baxışla bir qəlb yaxar.

O, Tanrının titrəyişi -
Yanmayanı heç yandırmaz.
Sevmək cəsurların işi,
Sevməyənlər onu anmaz.

Eşq ürəyin Tanrısıdır,
Sevgi bir baxışın ömrü.
Eşq bir ömürlük yanğıdır,
Yağan bir yağışın ömrü.

**17.10.2025**

## RUHUMA SƏN GƏLMİSƏN

Ruhuma sən gəlmisən,
Yamanca şən gəlmisən,
Əlim-qolum bağlanıb,
Yar, mənə əngəlmisən?

Yandırmısan peçimi,
Qovurmusan içimi,
Bir qurtum su içimi
Ver, halımı görmürsən?

Gülüşün qəm əritdi,
Gözümdən nəm əritdi,
Alnımda qan-tər bitdi,
Sən məni öldürmüsən.

Ceyran gözlüm, ruh incə,
Uca boylum, şux, incə,
Etiraf et, çıx incə -
Təkcə məni sevmisən.

**02.10.2025**

## SAF EŞQİNİN XƏTRİNƏ

Yenə o bağ olmasın,
Başqa bağ daha yaxşı.
Çiçəklərə dolmasın
O bağçanın naxışı.

O bağdakı xatirə
Elə orada qalsın,
Saf eşqinin xətrinə
Bəlkə qəlbim açılsın.

Bir məhəbbət bağçası
Bəxş eləyim mən sənə.
Eşqindən gül xonçası
Hörüb, bağışla mənə.

**17.10.2013**

## MÜRƏKKƏBİM

Qələmimdən su yerinə
Axan qandır mürəkkəbim.
Xəstə ruha qida verən
Sağlam candır mürəkkəbim.

Xalqın dərdini danışan
Qələmimin göz yaşıdır.
Vərəq üstündə sayrışan
Ürəyimin öz yaşıdır.

Hökm kəsən yazılarda
Sanki xandır mürəkkəbim.
Şeir yazan şair üçün
Addır, sandır mürəkkəbim.

Əgər qələmim susarsa,
Yazdıqlarım, sözüm qalar.
Mürəkkəbim möhür vurar,
Ömrüm boyu izim qalar.

**01.01.2026**

## ƏGƏR ÜZÜN OLDUMSA

Sən məni yaratmadın,
Güzgü etdin üzünə.
Çəkdiyin əsərinlə
Qiymət verdin özünə.

Bu güzgünün alnına
Yazdın alın yazısı,
Üstündən möhür vurdun,
Pozulmasın pozusu.

Mən də sənin əlində
Zərif şüşə kimiyəm.
Sən Tanrısan dilimdə,
Bəs mən kimin kimiyəm?

Əgər üzün oldumsa,
Yaşamaq da haqqımdır.
Saraldımsa, soldumsa,
Demək, getmək vaxtımdır.

**17.01.2026**

## MƏN ÖLƏNDƏ AĞLAMA

Məni sağ ikən ara,
Seyrək telimdən dara,
Öz dərdinə qıl çarə,
Mən öləndə ağlama.

Axtar həyat boyunca,
Gözün nurdan doyunca,
Həsrət baxıb dalımca,
Mən öləndə ağlama.

Qanım sənin qanından,
Ömrüm keçdi yanından,
Bir parçasan canımdan,
Mən öləndə ağlama.

Yanıram köz önündə,
Durmuşam göz önündə,
Görməsən öz önündə,
Mən öləndə ağlama.

Özün üçün ağla ki,
Ürəyini dağla ki,
Bir gün yoxam, anla ki,
Mən öləndə ağlama.

**17.04.2026**

# ARZULAR, TALELƏR

## Təhsil aldığı 187 saylı tam orta məktəbin rəsmi saytında, nailiyyətlər bölümündə Cahan Babazadənin bütün nailiyyətləri qeyd olunmuşdur





Onun yolunu ailəsi çox gözlədi. Babayevlər ailəsi 20 ilə yaxın dualar edib Allahdan övlad istədi. “Gec gəldi, amma gözəl gəldi. Çox şükür”, - deyir ata-anası. Haqqında bəhs etmək istədiyimiz bu il 10 yaşını qeyd edəcək istedadlı balamız Cahan Babazadədir.

Valideyn sevgisindən başlanan körpəlik yolu sonradan məktəbə, həyata vəsiqə almağa yönəlir. Bu pillələrlə irəliləyən fidan balalardan biri də hazırda Bakıda yaşayan Babazadə Cahan Ələkbər qızı 25 sentyabr 2016-cı ildə Bakı şəhərində ziyalı ailəsində doğulmuşdur. O, 2022-ci ildə Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsində yerləşən 187 saylı tam orta məktəbin birinci sinfinə daxil olmuşdur. Hazırda həmin məktəbin 4 “Ə» sinfinin şagirdidir, dərs əlaçısıdır.

2023-cü ildə Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsində yerləşən 10 saylı Uşaq Musiqi Məktəbinin fortepiano sinfinə qəbul olmuşdur. Bu gün həmin məktəbin 3-cü sinfində təhsilini uğurla davam etdirir.

“Cahan Babazadə musiqi məktəbinin ən çalışqan, ən aktiv şagirdlərindən biridir” - deyə musiqi müəlliməsi Gülxanım Şükür qızı Aslanova danışır. “O, mənim balaca parlaq ulduzumdur”, - deyir Cahan haqda.

**Gülxanım Aslanova** 10 nömrəli Uşaq Musiqi Məktəbində fortepiano üzrə şöbə müdiridir. O, illərdir çalışdığı bu məktəbdə sözünü demiş, istedadlı yetirmələri və məktəbə gətirdiyi uğurlar, mükafatlarla təsdiqləmiş, müəllim adını daim zirvələrdə tutandır. Şagirdlərinə tək müəllim yox, ana qayğısı göstərərək sevdirir musiqini. Hər əsəri, hər notu bir başqa cür təsvir edir, sevdirir körpə istedadlara. Cahan Babazadə ilə də bir çox uğurlar qazanmışdır.

Bu uğurlardan növbətisi, ən son 28-29 mart 2026-cı il tarixlərində Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi, Qazaxıstan Respublikasının “Xoşbəxt Ölkənin Uşaqları» İctimai Fondu və Cövdət Hacıyev adına 3 nömrəli 11 illik Musiqi Məktəbinin birgə təşkilatçılığı ilə “Biz Bakıttı Balamız» adlı çoxjanrlı Beynəlxalq Musiqi Festivalında qazandığı Qran-Pri olmuşdur. “Bu, hələ son deyil» - deyir Cahan. O bu gün də qarşılıqlı sevgi və sevinclə, sevimli musiqi müəllimi Gülxanım müəllimə ilə zirvələrə doğru addımlamaqdadır.

Valideynləri üçün əvəzsiz bir varlıq olan Cahanı hər kəs çox istəyir. Bu fidan bala ar-

zularla yaşayır. Dərs əlaçısı olan bu qızın ən başlıca arzusu böyüyəndə həkim olmaqdır. Həyatda hamını sağlam görmək istəyən Cahana arzusunun çin olmasını diləyirik.

Əlinə çanta alıb məktəbə qədəm qoyduğu ilk gündən əla oxumağı ilə müəllimlərinin, valideynlərinin sevimlisinə çevrilib Cahan. Özünü həmişə öncüllər sırasında görmək istəyən bu balaca qızcığaz yaxşı başa düşür ki, həyatda yaxşı biliyə malik olmaqla arzularını reallaşdıra bilər. Odur ki, üzərinə düşən məsuliyyəti dərindən dərk edib böyük həvəslə çalışır, pianoda ifa etməyi də bir növ özünün xobbisi hesab edir.

Cahan Babazadənin dedikləri:

-Məktəbdə mənim çoxlu dostum, rəfiqələrim var. Biz yaxşı oxuyur, Azərbaycanımızı ürəkdən sevirik. Vətənimiz haqda şeirləri də əzbərdən bilirik. Mən yaxşı oxuyub həkim olmaq istəyirəm. Heç kimi xəstə görmək istəmirəm.

Cahanın bütün müəllimləri onun haqda demək olar ki, eyni sözləri deyirlər.



Ən çox sevdiyi müəllimi, 187 nömrəli tam orta məktəbin sayılıb-seçilən müəllimlərindən olan **Elnarə Quliyeva** deyir ki, zəmanəmizdə şagirdlərin yaxşı oxuması üçün dövlətimiz tərəfindən hər bir şərait yaradılıb. Bunun da müqabilində əlaçı şagirdlərimiz çoxdur. Onlardan biri də Cahan Babazadədir. Çox mehriban olan Cahan yaxşı oxuması, tərbiyəsi ilə hamımızın sevimlisinə çevrilib. Dərslərinə diqqətlə yanaşır, hər zaman hazırlıqlı gəlir. Nümunəvi davranışlar sərgiləyir. İnanıram ki, digər şagirdlərimiz kimi, o da yaxşı təhsil alıb istəyinə çatacaqdır. Ayrıca pianoya olan sevgi və istedadını da görürük . Onun uğur və qələbələri daim biz müəllimlərini sevindirir. Biz müəllimlərə də belə istedadlı yetirmələrimizlə fəxr etmək qalır.



Qayğıkeş sinif rəhbəri **Günel Ələsgərova** deyir:

-Cahan nümunəvi şagirdlərimizdən biridir. Natiqlik qabiliyyəti və biliyi ilə çoxlarına örnəkdir bu balaca qız. Bir pedaqoq kimi inanırıq ki, məktəbimizi əla qiymətlərlə bitirib ali təhsil alaraq, arzuladığı sahədə Azərbaycanımıza layiqli mütəxəssis olacaqdır. Bu qızda elmə, vətənə bağlılıq amilləri demək olar ki, bir vəhdət təşkil edir. Biz müəllimlər də yaxşı oxuyan, səmimi davranan şagirdlərimizlə həmişə qürur hissi duyuruq. Şagirdlərimizin hər bir uğuru müəllim əməyinin və valideyn diqqətinin bəhrəsidir .

Onu da deyim ki, Cahan əlaçı olmaqla bərabər, həm də əsl musiqiçidir. O, pianoda elə məharətlə ifa edir ki, onun balaca barmaqlarını pianonun dilləri üzərində belə görmək olmur. Bu da bizdə Cahanın gələcəkdə məşhur bir pianoçu kimi Azərbaycanımızı dünyada layiqincə təmsil edəcəyinə inam yaradır.

Anası Elnarə xanımın dediklərindən:

-Cahan uşaqlıqda çox sakit olub. Hələ körpəlikdən onda bir çox istedadların ola-

cağına inanırdım. Verdiyi suallar, maraq dairələri, düşüncə tərzi, hər şeyi ilə fərqli idi Cahan öz yaşıdlarından. Uşaq ikən ondan soruşanda ki, sən böyüyəndə kim olmaq istəyirsən, o, hər dəfə “Mən həkim olub insanları sağaldacağam» - deyə cavab verirdi. Səbəbini soruşduqda isə “İnsanlara kömək etmək istəyirəm» - bildirirdi. Bu gün isə mən bir ana kimi övladımdan yerdən-göyə kimi razıyam. O, hər yerdə mənim üzümü ağ eləyir. İstər orta məktəbdə, istər musiqi məktəbində, getdiyi hər yerdə qazandığı uğurlar məni fərəhləndirir










Musiqi təhsili üzrə qazandığı uğurlar da çoxdur. Oxuduğu məktəbdə də bu balaca qızı hamı pianoçu kimi tanıyır. Axı onun pianoda etdiyi ifalar dəfələrlə münsiflər tərəfindən xüsusi qiymətə layiq görülüb. İfa etdiyi mahnılara görə bir çox fəxri fərmanlara və digər mükafatlara layiq görülüb. Oxuduğu 187 saylı tam orta məktəbin rəsmi saytında, nailiyyətlər bölümündə Cahanın bütün nailiyyətləri qeyd olunmuşdur. Təbii ki, bu, həm də məktəbin uğurudur.

Kitabları çox sevən bu şirin-şəkər bala anası Elnarə xanımın, yəni şairə Elnarə Cahanın da nağıl, şeir, hekayələrini həvəslə oxuyur və körpəlikdən anasının ilk dinləyicisidir. Söz, şeir, hekayə, nağıl içində, ananın yazıları, əsərləriylə böyüyən Cahan özü də kitabsevər olur. Bədii qiraəti, mütaliəni çox sevir. Ədəbiyyata olan bu sevgisi hələ körpə yaşdan onu da yazıb-yaratmağa sövq edir. Cahan artıq anasının yazdığı əsərlərin baş qəhrəmanına çevrilmişdir. Belə ki, anası Elnarə Cahan yazdığı ilk uşaq kitabının adını belə “Cahanın danışan göy qurşağı» qoymuşdur.

Bu şəkər balanın adını da atası qoyub. Atası deyir ki, mən Cahanı və onun balaca bacısı Səmanı hədsiz dərəcədə sevirəm. Onlarla mən nəfəs alıram. Həm də yaxşı bilirsiniz ki, atalar qız övladını daha çox istəyir. Bu da ondan irəli gəlir ki, qız incədir, daim köməyə ehtiyacı var, amma oğlan uşağı yeniyetmə olduqdan sonra həyatda enişli-yoxuşlu yolları daha sərbəst qət edə bilir.

Bəli, bir övladın uğurları hər bir valideynin böyük sevincidir. Biz də arzu edirik ki, Cahan Babazadənin də uğurları hər zaman bol olsun, xoş sədası gəlsin və valideynlərinin sevincinə səbəb olsun. İnşallah.

Cahan Babazadənin gələcəkdə həm peşəkar həkim, həm də məşhur bir pianoçu kimi Azərbaycanımızı dünyada layiqincə təmsil edəcəyinə inanırıq.

**Cahan SALMANQIZI,**
**“Açıq Səma” qəzetinin redaktoru,**
**peşəkar jurnalist, “Vicdanlı qələm”**
**və “Ustad qələm sahibi”**
**media mükafatları laureatı**

# PEŞƏSİNİ SEVƏN MÜƏLLİMƏ

**müsahibə**



«Ziyalılarımızı tanıyaq və tanıdaq» rubrikasının bu günkü qonağı dəyərli xanım ziyalılarımızdan biri olan Qamət Abbasov adına 284 nömrəli tam orta məktəbin tarix müəllimәsi Zöhrə Vahid qızı Səmədovadır.

**-Özünüzü təqdim edərdiniz. Zöhrə Səmədova kimdir?**

-Zöhrə Səmədova, ana, valideyn və müəllimə. İşinə, peşəsinə həvəslə yanaşan, peşəsini sevən müəllimə.

**-Müəllim kimdir? Sizcə əsl müəllim necə olmalıdır?**

-Müəllim əslində bir ziyalıdır. Müəllim təkcə elmin sirlərini öyrətməklə yetinməməli, insanlığın sirlərini, insaniyyəti də öyrətməyə çalışmalıdır. Fənni və özünü sevdirməklə yanaşı insanlığı da sevdirməlidir. Cəmiyyətdə şagirdin şəxsiyyət kimi formalaşmasında müəllimin bilavasitə rolu böyükdür.

**-Təhsilimizdəki yeniliklərlə razısınızmı? Ümumiyyətlə, təhsilimizdəki yeniliklər hansı səviyyədədir?**

-Razıyam. Təhsilimizdəki yeniliklər əsasən fəallığın nəticəsidir. İnşallah, bu yeniliklər müsbət nəticə verər. Lakin bu yeniliklər pilləli və mərhələli şəkildə icra olunmalıdır.

**-Müəllim-valideyn-şagird, bu zəncirvari bağlılığa münasibətiniz?**

-Müəllim-valideyn əməkdaşlığı düzgün qurulmalı və tənzimlənməlidir. Hər bir valideyn, müəllim və şagird daim bir-birilə ünsiyyətdə olmalıdır, şagirdin məktəbdə davranışı, təhsili barəsində müntəzəm olaraq valideyn məlumatlandırılmalıdır.

**-Təhsil sahəsində hansı uğurlarınız var?**

-Təhsil sahəsində bir müəllim kimi uğurlarım şagirdlərimin sevgisini qazanmaqdır.

**-Təhsil sistemində hansı çətinliklərlə üzləşmisiniz?**

-Çətinliklərim olub, amma çalışıb öhdəsindən gəlmişəm.

**-Bir müəllimə və eyni zamanda bir qadın olaraq ən böyük zəifliyiniz və ən böyük gücünüz nədir?**

-Müəllim olaraq zəifliyim yoxdur, ən böyük gücüm şagirdlərimin məktəbi bitirdikdən sonra bir vətəndaş kimi cəmiyyətdə tutduqları mövqedir. Bir qadın olaraq isə zəifliyim sadəliyim, ürəyimin yumşaqlığı, ən böyük gücüm isə özümə inamım və güvənməyimdir.

**-Milli-mənəvi dəyərlərimiz məktəblərdə şagirdlərə necə aşılanır?**

-Hər bir müəllim şagirdə təhsillə yanaşı tərbiyə də verməlidir. Çünki valideyn övladını müəllimə etibar edir. Müəllimliklə yanaşı mən də valideynəm. Yəni, cəmiyyətin bir üzvü kimi özümə qarşı necə rəftar və davranış gözləyirəmsə, valideynlərə də o prizmadan münasibət bəsləyirəm. Sözümün əvvəlində dediyim kimi, müəllim-valideyn-şagird, böyük-kiçik münasibətləri düzgün tənzimlənərsə, cəmiyyətdə milli-mənəvi dəyərlər də pozulmaz.

**-Böyüməkdə olan gənc nəslə və şagirdlərinizə tövsiyələriniz?**

-Vətənə, valideynlərinə layiqli övlad olsunlar, vətənlərini, valideynlərini sevsinlər. Çünki onlar bizim gələcəyimizdir. Valideyn tərbiyə verib məktəbə göndərir, müəllim isə savad, bilik, elm verərək, cəmiyyətdə düzgün mövqe tutmaq üçün yönəldir.

**-Zöhrə xanım, təklifimizi qəbul edərək, müsahibə verdiyiniz üçün sizə təşəkkür edirik. Sağ olun.**

-Sağ olun.

**Yunis QARAXANLI**
**27.02.2024**



MÜRŞÜD
MİRAC

# POEZİYA ÇƏLƏNGİ

## I

...qalaq-qalaq sıra-sıra dağların
yerini necə ala bilir ürəyə yığılan şeir
nəyə səbəb olurmuş təbiətdə
bir nizam pozuntusu
necə təsir eləyirmiş göz ucu rəddedilmək.

Bir tutam saç sərgilərkən açıq-açıq
bir qəpiyə dəyməzmiş duyğularımız.

Heyif, əl içi qədər təmiz deyilik daha,
ovuclamışıq nifrətdən düşən payı.
Suyun bulandığı bilinir çöhrəmizdən,
nə açıqlanası bir söz, nə bir iradımız var
ovcumuzdakı üzə.

Açıqlansın, yaxşıca açıqlansın
cod məftillər əyməkdən
keyiyən barmaqlarım.
İşarə verib qalsın ağrıyan mənzərəni.

Açıqlansın deyirəm – nəyi var açıqlansın,
niyə dağdan ağırmış bir başda göz
gəzdirmək?
Əndamı gözəl görmək sehir tapmaq üçünmüş,
hər səhər tələşında çiyindən yara almaq da.

Ağlımızın ortasındakı
ümidi boşa gedən
həftələrin yaratdığı burulğan
karlıq,, korluq,, dəlilik –
dirənmə,,ağızlaşma,
ən sərt əsən küləklərin höcəti,
ilk qəzəbi tapanlarla partlayanlar;
nardı,
gündü,
oddu,
küldü,
canlıdı, ya canlı deyil,
bizi yandıracaq bu fənalıq, nədirsə...

...gecə onun məhrəm yerlərinə də göz qoydum.
Bir idim, iki oldum,
ikiykən bir baxdım,
elə boynum ipdə qan uduram,
zəqqumların altında məhlimli kölgə çoxdu.

Burdan ömür qovalayır,
ordan həyat,
səbrdən və manatdan çıxarır adamı.

Vəsait də əl verir küyə getməyə,
getdim
ən hiyləgər masadan bir kətil dartdım,
qamarladım nifrətdən mənə düşən payı,

sınadım dostu, düşməni,
gördüm vəsiqələr saxta,
gördüm
üz görmüş üzlər
dəhşət deyilmiş
“məgərsə-çığrıq” imiş parolun adı.

***

Ürəyimi işğal edən səslər var,
hər əsnəyən
bir heyvanla birləşməyə istəkli.
Xətalar və tövbələr yemləyən
bir bucaqda topun qara dodağından çıxan
səslər.
Bir bucaqda tüfəng üçün doğuzdurulmuş
ceyran,
zilə çıxmış ahu-zar,
martın pişik yalvarışı,
bildirçindən bir neçə not.

Kim olsa dinləyən,
bir mərəkə,
bir dünyanın yıxımı,
bir ananın
toz qaldıran ölüsü ürpəndirər onu.

Çək qara başını sinəmdən,
uçuşan oxları çıxar qoynumdan.

Qalıbsa orda, getməyən bir kimsə,
qalıbsa vaylı bir dost,
qalıbsa Leyli bir yar,
o top-tüfəng səsindən ürəyimdə bircə tük,
bircə qanad qalıbsa
ümidi kəsilməyən ünvanlardan.
O halda, qaçıb
dağıdılmış türbələrdən naxışlar sökməli,
təptəzə saraylar qaldırmalıyam qəlbimdə,
göyərçinin ayağındakı palçıq
böyrəkdə yığılan daş üçün.

## II

Ürəyə alınacaq hər qiymətli şey
havayla, suyla alınmalıdır

Ürək, göz yaşının həm duzlu,
həm də çirkab mayelərin tuluğu
dənizi də saxlaya bilər-
yeriyən hər qan damlası
dalğalanan dənizdən də üstündür
sonsuzdur, sahilsizdir,
uzağ gedir
əbədi və köklü qalır.

## III

Mənim qəlbim bədənlərin şiş yerindən
alınaraq yaradılıb,
qazonlar da döşənib içinə, tollar da,
gah bir eşqə alışıb
gah da yanğıyla çırpınıb
köksümdə iynə kimi dim-dik titrəyən odur
hər tufanla rəqsində burxulan da o

Onu, külək sevişməkdən savayı da xatırlayır
bir küncündə yarpaqları dağıdar
bir küncündə ağrılı və acılı…

## IV

Mənə ölüm mərmilərdən yeriməz
heç kimin badalağı qorxutmaz məni
nə yayların torpaq yaxıb oyatdığı əcinnələr
qorxudar
nə ayların gicgahıma dirədiyi şüalar
Amma, kin!
kölgəmi kitablarda süründürən ondakı o
küskünlük
bir qabırğa,
qanlı bir çəpər çəkər hər dəfə aramıza
Gücü çatırsa ruhun bunları qaldırmalıyam
Tanrının mənim üçün yarımçıq süzdüyü
bütün
sevgiləri
başıma çəkib sındırmalıyam bütləri.



NƏZAKƏT
EMİNQIZI

# NAKAM TALE

**hekayə**

Anarın valideynləri illər idi övlad həsrətindəydilər. Nəhayət, bir gün onların da qapısına xoş xəbər gəldi. Arzu ana olacaqdı... Ailə həyəcanla nənə, baba, bibi, dayı olmağı, əsas - Anar ata, Arzu isə ana olmağı gözləyirdilər!...

Beləliklə, aylar, günlər keçdi, bapbalaca bir qız hamını arzusuna çatdırdı. Ailəyə sevinc, xoşbəxtlik gətirdiyinə görə elə adını da Sevinc qoydular...

Sevinc ailənin qayğıları əhatəsində böyüməyə, böyüdükcə də gözəlləşməyə başlayırdı. Sonralar ailəyə ard-ardınca qız və oğlan uşaqları da gəldi. Sevinc bacı-qardaşı üçün evə sevinc gətirmişdi. Şən, şad və xoşbəxt ailə tablosu yaranmışdı. İlk nəvə olduğu üçün nənə-baba onu daha çox əzizləyirdi. Bu zaman bacı və qardaşın da uşaq qısqanclığı yaranır, böyüklərin zarafatları ilə də keçib gedirdi...

İllər keçdi... Sevinc elə gözəl qız olmuşdu ki, ona baxmamaq və bu gözəllik qarşısında sakit dayanmaq olmurdu. Dodaqucu hərə bir replika atır, onu özlərinə cəlb etməyə çalışırdılar. Sevinc bununla daha da qürurlanır, özünü layiqli, tərbiyəli, ədəbli aparırdı. Bu xüsusiyyətlər onu daha cazibədar edirdi... Sevinc məktəbdə nümunəvi şagird idi. Müxtəlif fənn olimpiadalarında yüksək uğurlar qazandıqca müəllimlərin də sevimlisinə çevrilirdi.

Nəhayət, orta məktəbi əla qiymətlərlə bitirib, ali məktəbə qəbul oldu! Onun sevincinin həddi-hüdudu yox idi! Gələcəyin bacarıqlı mühəndisi olmaq çoxdankı arzusu idi. Axı, atası bu sahənin tanınmış mütəxəssisi idi. Onun davamçısı olacağıyla fəxr edirdi!..

Bir gün seminar məşğələsindən çıxıb evə gəlirdi. Evlərinə avtobusla 4-5 dayanacaq vardı. Avtobusa minib kartını vuranda gördü ki, balans bitib. Arxasınca maşına minən gənc tez onun üçün də gediş haqqını ödədi. Sevinc çantasındakı xırda pullardan ayırıb oğlana uzadaraq təşəkkür etdi. Sevincin bütün təkidlərinə baxmayaraq gənc oğlan pulu almadı.

Avtobus həmişəki kimi, adamla dolu olduğundan onlar yanaşı durdular. Oğlan bu sıxlıqdan istifadə edib, Sevinclə əlaqə qurmaq üçün soruşdu:

-Xanım, uzaqda olursuz?

Sevinc ona cavab verməməyi kobudluq saydı və:

-Xeyr, yaxında düşəcəyəm. - dedi.

-Adınız nədir?

-Sevinc. - deyərək üzünü yana tutdu. - Bəs sizin?

-Sahibdir. - dedi.

Sahib bir az dayanıb söhbətinə davam etdi.

-Harada oxuyursan?

-İnşaatçı mühəndis olacağam!

O, bunu fəxrlə dedi. Sahib bu gözəl xanımla ünsiyyət qura bildiyinə sevinirdi...

-Bəs siz? – soruşanda:

-Mən pilot olacağam, - dedi.

Sevinc qeyri-ixtiyari onun çətin və maraqlı sahədə təhsil aldığına ürəyində sevin-

di. O, qəribə bir hisslər aləmində idi. Dayanacağa çatanda avtobusdan düşüb yol boyu özü-özüylə danışmağa başladı: “Axı, niyə birbaşa suallarına cavab verdim ki?! Qardaşım, valideynlərim bilsələr mənə yaxşı baxmazlar”, - fikirləşdi. Odur ki, bu günkü tanışlıqdan ehtiyat etdi. “Birdən düşər dalımca, görən olar, ailəmə çatar!” Bu xəyallarla bir də gördü ki, evlərinə çatıb. Bloka girib liftə mindi. Otağın qapısini astaca taqqıldatdı. Anası qapını açdı. O, içəri girib, həmişəki kimi hamıya salam verdi. Üzündəki qızartını anası hiss etdi. Təəccüblə qızına baxdı. Sevinc baxışlarından hiss etdi ki, anası duyuq düşüb. Odur ki, atası görməsin deyə anasına him-cimlə işarə etdi ki, danışarıq. Otağına keçib əynini dəyişdi. Yeməyini yedi, sonra anasına işarə etdi ki, otağına gəlsin. Sevinc olduğu kimi əhvalatı anasıına danışdı. Ana narahatlıq keçirdi.

-Qız uşağısan, aldanarsan, biabır olarıq. - deyə Sevincə xəbərdarlıq etdi.

Anasının sözləri Sevinci xeyli düşündürdü. Amma ürəyində Sahiblə olan söhbət barədə fikirləşirdi. Necə maraqlı gənc idi. Üz- gözündən, danışığından da mərifətli, tərbiyəli oğlana oxşayirdı.

-Eee, bu nədir düşünürəm, - dedi öz-özünə! – Mənə nə kimdir, nəçidir?!

Amma düşüncələri onu rahat buraxmırdı.

Beləliklə, nə zaman yuxuya getdiyini hiss etmədi...

Ertəsi gün dayanacağa yaxınlaşanda Sahibin də orada dayandığını gördü. Sahib isə özünü elə aparırdı ki, guya onu görmürmüş. Sevinc Sahibin dönüb ona salam verdiyini eşitdi. Ürəyi çırpınmağa başladı, sakitcə salamını aldı və üzünü avtobus gələn tərəfə tutdu. Sahib Sevincin avtobusa özündən sonra minməsinə şərait yaratdı ki, ödənişi özü etsin. Lakin Sevinc:

-İcazə verin, mən minim, - dedi və avtobusa minib iki adamlıq gediş haqqını ödədi.

Sahib onun bu hərəkətindən tutuldu. Avtobusdakılar eşitməsin deyə astaca:

-Deməli, borcunuzu qaytardınız, - dedi.

Sevinc bilmədi cavab versin, ya sussun. Sahib gözlərini qızdan ayıra bilmirdi. O, Sevinclə yanaşı durduğuna sevinirdi... Nəhayət, Sevinc universitetin yanında avtobusdan düşəndə Sahibin də düşdüyünü gördü. O:

-Cavan oğlan, məncə sizin yolunuz başqa olmalı idi, - dedi.

Sahib bundan istifadə edərək:

-Xeyr, Sevinc xanım, mənim yolum elə burayadır, - dedi.

Sevinc gülümsündü:

-Onda buyurun, keçin, - deyib, ona irəli keçməyə yol verdi.

Sahib ona baxıb:

-Sevinc, sən mənim çox xoşuma gəlirsən, - dedi.

Sevinc gözlənilməz etirafdan diksindi. Ürəyində: “Bu nə cürət edib mənə açıqca münasibətini bildirdi?!” deyə fikirləşdi. Bu sözdən üzü qıpqırmızı pörtdü. Ona heç nə deyə bilməyib, arxasına da baxmadan qapıdan içəri girdi. Sahib də içəri girmək istərkən qapıçı onu buraxmadı. Çarəsiz qalıb dərslərin bitməsini gözləməyi qərara aldı. Həyətdə gəzişməyə başladı. Vaxtın nə zaman keçdiyini hiss etmədi. Tələbələrin bir-biriylə danışıb-gülən səsləri arasında Sevinci axtarmağa başladı. Budur, axırda Sevinc rəfiqəsi ilə asta-asta gəlirdi. Ürəyinə dammışdı ki, Sahib, bura qədər gəlmişdisə mütləq onu gözləyəcək!! Elə də oldu! Sahibin onların qabağına gəldiyini görüb, rəfiqəsinə:

-Sən get, mən əmim oğluynan gedərəm, - dedi.

Bu söz Sahibin xoşuna gəldi və tez: “əmiqızı, salam”, dedi. Onlar birlikdə səssizcə dayanacağa tərəf getməyə başladılar. Sükutu Sevinc pozaraq onun düzgün hərəkət etmədiyini bildirdi.

-Axı, məni tanıyanlar valideynlərimə xəbər verər, pis vəziyyətdə qalaram.

Sahib xəfifcə gülümsəyərək ona:

-Axı mən nə edirəm ki? Əmim qızını yola salıram da...

Gəzə-gəzə yaxınlıqdakı parka gəldilər. Sahib boş oturacaq tapıb:

-Gəl əyləş, bir az vaxtını alacağam, - dedi.

İlk dəfə belə bir görüşdən qız yaman tutulmuşdu. O, həm sevinir, həm də çəkinirdi. “Birdən görən olar”, fikrini Sahibə bildirdi. Sahib:

-Görsünlər də! Mən nə edirəm ki! Sadəcə söhbət edəcəyəm!

Sevincin başqa əlacı qalmamışdı, onu dinləmək məcburiyyətində qaldı. Sahib gözlərini qızın gözlərinə dikib dedi:

-Sevinc mənə elə gəlir ki, bu görüş, Allahın mənə ən gözəl mükafatıdır. Səni görəndən ürəyimdən çıxmırsan. Elə ilk baxışdan sənə vuruldum! Nə deyirsən de, səni sevdim. Sən mənim xəyallarımda axtardığım,

arzuladığım gözəl qızsan!

Sevincin ürəyi quş kimi çırpınmağa başladı. Ona deməyə söz tapmırdı. İlk dəfə idi ki, belə xoş sözləri eşidirdi. .Doğrusu, ona elçilər gəlsə də nə özü, nə də ata-anası razı olmurdu. İndi nə baş verir. O, Sahibə olan hisslərini gizlətməyə çalışsa da bacarmırdı.

Sahib də bunu hiss edirdi. Sevinc Sahibin onu yaxından tanımadığını və özünün də Sahibi yaxşı tanımadığını eşitdirdi.

-Nə sən məni, nə də mən səni tam tanımırıq.

Sahib bir az da ürəkləndi:

-Valideynlərimiz tanıtdırarlar, - deyə tez cavab verdi.

Sevinc çaşqınlıq içində bilmirdi nə desin, Sahib birdən:

-İcazə ver, anam sizə gəlsin, - dedi.

Sevinc anası ilə danışıb cavab verəcəyini bildirdi və tez ayağa qalxıb:

-Gec oldu, evə getməliyəm, məni danlayacaqlar. - fikrinə hörmətlə yanaşaraq ayağa durdu və dayanacaga tərəf getdilər.

Avtobusda danışmasalar da sadəcə baxışırdılar. Hərə öz ürəyindəkilərinin necə nəticələnəcəyini fikirləşirdi. Sevinc evlərinə çatanda astaca maşından düşdü. Sahib də düşdü. O, qızın hansı binada yaşadığını bilmək istəyirdi. Sevinc ona 8-ci mərtəbə, 162-ci mənzil deyib gülümsündü. Sahib qızın razılığını aldığına çox sevindiyindən gedib anasını da sevindirməyə tələsdi. Anasına vaxtı uzatmadan elçi gedib qızı almağı bildirdi. Çünki, belə ağıllı, gözəl, cazibədar qızı itirə bilərdi...

Bir neçə gündən sonra Rəfiqə xanım Sevincgilə elçi getdi. Elə ilk görüşdən Arzudan da xoşu gəldi. Arzu xanım bu barədə qızın atası ilə məsləhətləşəndən sonra onun qərarını Rəfiqə xanıma çatdıracağını bildirdi. Həyətdə anasını intizarla gözləyən Sahib də çox həyəcanlı idi. Birdən atası razı olmasa? Anası:

-Onu deyə bilmərəm, - cavabını verdi.

Ana-oğulu kandarda ata gözləyirdi.

-Qız gəldiniz, yoxsa oğlan? – deyə soruşdu.

-Hələ deyə bilmərəm, o sabah bilinər.

Sahib gecəni səhərə kimi yata bilmədi... Tezdən dayanacağa gəlib Sevinci gözləməyə başladı. Uzaqdan onun gəldiyini görüb, qabağına getdi.

-Salam, Sevinc xanım, necəsən? Vəziyyət necədir? - soruşdu.

-Vallah, atam qəti qərara gələ bilmir, - dedi.

Sahib çox narahat oldu:

-Necə yəni, niyə? Atamgili elçi gəlmək istəyirlər axı!

-Mən nə deyə bilərəm ki!? Bir də mən hələ oxuyuram.

-Nə olsun, oxuyacaqsan da...

Sahib çox həyəcan keçirirdi. Elə Sevinc də... Onlar Universitetə çatmamış avtobusdan düşdülər. Parka gəlib söhbətlərini davam etməyə başladılar. Sahib qeyri-ixtiyarı qızın əlindən tutdu. Sevinc əlini çəkmək istəsə də Sahib onu buraxmadı.

-Sevinc, mən bu əlləri heç kəsə verməərəm, - dedi.

Qızın əlləri əsməyə başladı. “Bu nədir, mənə nə oldu?” - fikirləşdi... Sahib onun həyəcanını ğörüb özünə tərəf çəkib qucaqladı. Sevinc daha da həyəcanlandı:

-Sən nə edirsən? - dedi və çırpınıb onun qolları arasından çıxmağa çalışdı, lakin bacarmadı.

Sanki bu təmasdan yumşalmağa başlamışdı. Sahib ona bir daha xatırlatdı:

-Sevinc, mən səndən əl çəkən deyiləm! Sən yalnız mənim qismətimsən. Çalışın, atanı razı salın, Sevincim!

Qızın üz-gözü qıpqırmızı alışıb yanırdı. O, bu halda audiotoriyaya necə girəcəyini bir anlıq düşündü. Sahib ona:

-Məni bağışla, düzgün hərəkət etmədim, - dedi.

Sevinc dinməzcə yoluna davam etdi...

Ertəsi gün Sahib həmişəki kimi dayanacağa gəlib, nə qədər gözlədisə də qız gəlib çıxmadı. Çox qorxdu. Görəsən, ona nə oldu? Burda nəsə baş verib? Amma nə etsin, bilmədi. Kimdən soruşsun? “Kaş, telefon nömrəsini alaydım”, - deyə içindən özünü danladı və dünənki hərəkətinə görə xəcalət çəkdi. Bir neçə saat gözlədi, gələn olmadı.

Nəhayət, ümidini üzüb, kor-peşiman qayıtmaq istərkən yolu keçən maşında qızı gördü. Maşın onların binası önündə dayandl. Sevinc əzgin halda astaca maşından düşdü. Onu gətirən ucaboylu, yaşlı bir kişi də maşından düşüb qapını bağladı. Onlar birlikdə bloka girdilər...

Sonra öyrəndi ki, sən demə, dünən dərsdən qayıdanda onun halı pisləşib. Bu gün atası onu dərsə aparıb gətirib...

Ata hələ də bilmirmiş elçi gələcəyini. Arzu Anara elçilik məsələsini söylədi. Anar üçün bu xəbər gözlənilməz oldu. Arzu ona

Rəfiqədən, Sahibdən xeyli məlumat verdi. Anar qızın fikrini soruşdu. Arzu ona: “soruşacagam”, dedi. Guya onun heç nədən xəbəri yox idi. Guya bilmirdi ki, qızın da Sahibdən xoşu gəlir...

Xeyli vaxt keçdi.

Nəhayət, Arzu yoldaşına bildirdi ki, qızın da razılığı var, məncə. Anar bu ani hadisələrdən çaşıb qalmışdı. Fikrini toplayıb qəti qərara gələ bilmirdi. Eyvana çıxıb bir siqaret çəkdi. Çox fikirli və tərəddüd içində yenə Arzunun yanına gəlub:

-Düzü çox fikirləşirəm, qızın təhsilini bitirməyə hələ bir neçə ili var. Məncə, əyər Sevincin də qərarı qətidirsə, onda gərək bir qənaətə gələk..

Ata-ananın söhbətini gizlicə eşidən Sevinc özünün şirin xəyalları ilə yuxuya getdi…

Səhər zəngin səsinə dik atılıb oyandı. Dərsə getməyə az vaxt qalırdı.. Tez əl-üzünü yuyub,  yeməyə oturdu. Anasının bişirdiyi yumurtanı yeyib, şirin çayını içəndən sonra Universitetə yollandı. Dayanacaqda Sahibin onu gözlədiyini gördü. Çöhrəsinə səmimi görüşün şirinliyi çökdü. Sahib qızın əhvalını şən görüb rahatlaşdı. Deməli, razılıq olacaq!..

Bir neçə gündən sonra elçilər Arzugilldən razılıqla, sevinclə qayıtdılar. Sahibin quşu göylərdə uçurdu. Sevindiyindən bilmirdi ki, qıza nə desin, nə qalsın...

Sevinc də ona elə bağlanmışdı ki, günlərin, ayların necə keçdiyini hiss etmirdi. Onlar hər gün dərsdən sonra, müxtəlif parklarda, muzeylərdə, kino mərkəzlərində görüşür, doyunca şirin-şirin söhbətlər edirdilər. Xoşbəxt günlər bir-birini əvəz edirdi.

Beləcə, dərs ili başa çatdı, o, son kursa keçdi. Artıq barmağındakı nişan üzüyü də par-par parıldayır, yaxınlarda toylarının olacağından xəbər verirdi. Onların xoş keçən günlərinin sayı-hesabı yox idi. Gah bulvarda, gah Qış parkında, gah da Meşə parkda....və bir çox yerlərdə görüşür, gələcək planlarından – ailə həyatları barədə qurduqları xəyallardan danışır, parkda istirahət edən ana və körpələrə gülümsəyərək baxır, xəfifcə xoş duyğulara dalırdılar. Çox xoşbəxt idilər...

Bir neçə aydan sonra “Vağzalı” sədaları altında Sevinc həsrətlə gözlədiyi və sevdiyi Sahibgilə gəlin köçdü.

Gəldiyi gündən ailəyə bağlandı. Qaynanası onun bişirdiyi xörəklərdən, evdə-eşikdəki təmizlik işlərindən tam razı idi. Ailənin hörmətini qazana bildi. Hamı onu mehribanlığına, saflığına, etibarına görə çox sevirdi... Aylar keçdikcə Sahibin ata, Sevincin ana, Arzunun nənə, Anarın baba olcağı günlər yaxınlaşırdı...

Sən saydığını say, gör fələk nə sayır?

...Son vaxtlar cəbhə xəttindən bəd xəbərlər gəlirdi, havanı müharibə qoxusu bürümüşdü... Valideynləri və Sevinc gərgin halda gündəlik xəbərləri izləyirdilər. Sahib onlardan gizli hərbi komissarlığa gedərək döyüşlərdə iştirak etmək arzusunu bildirmişdi. Son hadisələrdən cana gəlmiş oğullarımız hücum əmrini intizarla gözləyirdilər. Bəli, vəhşilərin başına dəmir yumruğu vurmağın zamanı gəldi. Müharibə başlandı. Yerdən, havadan, sudan atılan zərbələr düşməni doğma torpaqlarımızdan qovulub qaçmaga məcbur etdi. Hər gün televiziyadakı xəbərləri dinləməkdən hamı çox sarsılırdı! Hər gün şəhidlərimiz və azad olunan torpaqlarımız barədə kədərli xəbərlər alır və şəhid ailələrinə gedərək, onlara təsəllı verən sözlərlə mənəvi dayaq olmağa çalışanların arasında Anarğilin ailəsi də vardı.Təyyarə səsi eşidən kimi çölə çıxıb göyə baxmaq vərdiş halını almışdı. Elə bilirdilər ki, Sahibin təyyarəsidir! Sahib ön cəbhədə idi. O verilən tapşırıqları cəsarətlə yetinə yetirir, düşməni məhv etdikcə rahat nəfəs alırdı... Növbəti uçuşa gedərkən düşmənə tuş gəldi, snayperdən açılan güllə qolunu yaraladı, ona eniş komandası verildi. Lakin Sahib vətənimizin şəhid oğullarının qisasını almağı özünə mənəvi borc hesab etdiyindən, geriyə dönmədi! Bir müddətdən sonra özündə zəiflik və kəskin ağrı hiss etdi...

Tibb bacıları onun yanğısını elə avtobusda hiss etdilər!

Yara dərin idi! Sahib bir qolunu itirdi!

Onu dərin dərd almışdı. Görəcən, öglumu qucağıma ala biləcəyəmmi?

Müharibə qələbəmizlə bitdi! Sahib ürəyində tutmuşdu ki, evə dönəndə oğlunu sinəsinə basaraq qucaqlayıb öpəcək! Arzusuna yetə bilmədiyinə görə yaman sarsılmışdı! Evdəkilər onun sağ gəlməsinə görə sevinir, ayağının altında qurban kəsdilər. Sahib nakam taleyindən sarsılsa da, əzizlərinin yanında olduğuna, qayğı ilə əhatələndiyindən razı idi. Oğlu körpəcə gözlərini onun gözlərinə dikib, əlləri ilə onu qucagına almagını gözləyirdi...



# ÜLVİYYƏ ƏSGƏROVA

## YIĞIŞDIRDIM SEVGİNİ

Yığışdırdım sevgini köhnə əşyalar kimi,
Yandırdım körpüləri, kəsdim gələn yolunu.
Vuruşdum öz-özümlə amansız düşmən kimi,
Tapşırdım gözlərimə görməsin bir də onu.

Qəlbimin qapısına sirli qıfıl bağladım,
Bacasına şiş çəkib, kösövlədim, dağladım.
«Adını çəkmə» - deyib, dilimi yasaqladım,
Tapşırdım ürəyimə anmasın bir də onu.

Ocağına su töküb, söndürdüm, olsun hədər,
Özüm yazdım bu sonu, çatdırın ona xəbər.
Ucaltdım aramızda aşılmaz olsun çəpər,
Tapşırdım gözətçilər buraxmasınlar onu.

Endirdim pərdələri, səhnə boşdur, səs də yox,
Bu Eşqin yollarında daha bir nəfəs də yox.
Onu geri səsləyən bir kiçik həvəs də yox,
Tapşırdım and-amana göndərməsinlər onu.

Səsi gəlsə, ruhumun qulağın kar edərəm,
Hərarətini duysam, dondurub qar edərəm.
Qəlbimdə məzar qazıb ahı-fəryad edərəm,
Vəsiyyətimdir; çaşıb həkk etməsinlər onu,
Tapşırdım: «Daş kitabə» yazmasınlar bu sonu.

## GÖYLƏRTƏK UZAQDASAN

Göy üzü uzaqdır, əllərim çatmır,
Buludlar saxlayır öz kölgəsində.
İstərdim ruhuna bir sığal çəkim,
Amma yollar itir göy qübbəsində.

Bilirəm, yolların yorubdur səni,
Taleyin yükünü tək daşıyırsan,
Bəlkə də qəlbini incidib didən,
Küsmüş ümidləri barışdırırsan.

Baxma ki, mənim də arzularım var,
Mümkünmü səsimi sənə yetirsin?
Duamın əlləri yoxdur ki, gülüm,
Tutub əllərimdən sənə götürsün.

Nə sən yetişirsən, nə mən gəlirəm,
Bəlkə də bu ərşin hikmətindədir.
Biz elə uzaqkən doğma olmuşuq,
Ruhumuz göylərin vəhdətindədir.

## ƏGƏR YAŞAMAQSA, BELƏ YAŞAMAQ

Başını qoyubsan dizlərin üstə,
Hansı xatirəni yada salırsan?
Yoxsa öldürdüyün məhəbbətini,
Gizlədib özündən belə danırsan?

Güzgüyə baxanda gördüyün əksin,
Sənin öz surətin, çəkdiyin rəsmin.
Təkcə oxşatdığın bir cüt gözlərin –
Onu da yumaraq kor saxlayırsan.

Keçmişə baxmağa yox cəsarətin,
Ağarmış saçlardan küsür qamətin.
Yaşadığın ömrün qədrin bilmədin,
İndi hansı gündən sən utanırsan?

Başını qoyduğun dizlərin üstə,
Axtarma özünü itmiş özündə.
Gileyli dilindən bezmiş sözün də,
Deyinə-deyinə sən qocalırsan.

Gözlərin tavanda yenə yol çəkir,
Məskənin dörd divar, otaq buz kəsir.
Çöldə həyat gülür, qəhqəhə çəkir,
Bunlardan xəbərsiz sən yaşayırsan.

Əgər yaşamaqsa, belə yaşamaq...

## GÖZ YAŞI YARAŞMIR SƏNƏ

Nə qədər köksündə olarsa acın,
Ağlama, göz yaşı yaraşmır sənə.
Kəsilsə hamıdan çarən, əlacın,
Ağlama, göz yaşı yaraşmır sənə.

İncitsə bu həyat, sındırsa səni,
İmtahan eyləyib sınasa səni.
Bəzən sevdiklərin qınasa səni,
Ağlama, göz yaşı yaraşmır sənə.

Ürəyin dolarsa boşaltmaq üçün,
Çəkil daldalığa görməsin heç kim.
Bacarsan boğ, öldür içində hissin,
Ağlama, göz yaşı yaraşmır sənə.

Zəifdir tutulan göz yağışına,
Burax həyatını öz axışına.
Qismətdir yazılır öz naxışına,
Ağlama, göz yaşı yaraşmır sənə.

Eşit, deyilibdir ata məsəli,
Dəm-dəmi gətirər, qəm də ki qəmi.
Ömür də yaşadar qəlbdən güləni,
Ağlama, göz yaşı yaraşmır sənə.

Hər kəsin keçmişi bənzər nağıla,
Cəm eylə fikrini bir az ağıla.
Ağlayanı gülüb qoyarlar lağa,
Ağlama, göz yaşı yaraşmır sənə.

Padşahı şah edən onun tacıdır,
Nökərin bəxtinə düşən yazıdır.
Allah razıdırsa, qul da razıdır,
Ağlama, göz yaşı yaraşmır sənə.

Ümidi səbirdir, güclü olanın,
Səbr etsən sevəcək səni Allahın.
Gün gələr sənin də açılar qapın,
Ağlama, göz yaşı yaraşmır sənə.

## CƏZALI ÜRƏK

*(Qoy çəksin cəzasın mənim ürəyim)*

Min dəfə düşündün, min yol and içdin,
Bilirsən sən zalım nələrdən keçdin?
Ağlını oynatdın, canından keçdin
Olubsan qəsdinə qənim, ürəyim
İndi çək cəzanı, mənim ürəyim.

Salıbsan özünü bunca günaha,
Susursan, sus artıq, dillənmə daha.
Yalvarma boş yerə indi Allaha,
Büküldü qaraya günün, ürəyim.
Qurtarmaz bu cəzan, mənim ürəyim.

Kürkünə bürünüb sis dumanların,
Qurbanı olmusan boş gümanların.
Sökülüb bünövrən, uçub yanların,
Dəlibdir bağrını qəmin, ürəyim
Gör necə yanırsan mənim ürəyim.

Boş qalıb limanı sevda gəminin,
Yükü həsrət olub könül evinin.
Daha nə mənası and içməyinin?
Sınıb yelkənlərin, batır, ürəyim,
Nə yaman agırdır cəzan, ürəyim.

## RUHUM GÖYLƏRƏ HƏSRƏT

Yuxuya dönəydi bütün kainat,
Yuxuya dönəydi kaş ki, bu həyat.
Yataydı bir omür, oyanmayaydı,
Gecəni vuraydı kaş ki, hər saat.

Özümü görəydim cənnət bağında,
Səadət solumda, vüsal sağımda.
Mələklər dövr edir dörd bir yanımda,
Uçuram göylərdə firavan, rahat.

Kövsər bulaqları layla çalaydı,
Dərdimi, fikrimi məndən alaydı.
Nə ola, bu yuxum gerçək olaydı,
Olmayaydı ruhum bir də narahat.



**FATİMƏ AĞAYEVA**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəssamlıq fakültəsinin Sənətşünaslıq ixtisasının IV kurs tələbəsi**

# XVIII–XIX ƏSRLƏRDƏ QARABAĞ XANLIĞININ MÜDAFİƏ SİSTEMİNDƏ ƏSGƏRAN QALASININ STRATEJİ VƏ TARİXİ-MEMARLIQ ƏHƏMİYYƏTİ

**Açar sözlər:** Əsgəran, qala, müdafiə, strateji, istehkam

XVIII–XIX əsrlərdə Qarabağ xanlığı kontekstində qalalar strateji mövqelərin qorunması və inzibati idarəetmənin təmin edilməsində mühüm rol oynamışdır. Bu qalalar yalnız hərbi müdafiə funksiyasını yerinə yetirməklə kifayətlənməyib, həm də regionun siyasi, iqtisadi və mədəni həyatının mərkəzləri kimi fəaliyyət göstərmişdir. Şuşa və Əsgəran qalaları, eləcə də Bayat və Şahbulaq kimi digər müdafiə qurğuları, Qarabağ xanlığının strateji müdafiə xəttini formalaşdıran əsas nümunələr kimi tarixdə öz əhəmiyyətini qoruyub saxlamışdır.

Şuşa və Əsgəran qalalarının strateji əlaqəsi Qarabağın müdafiə sistemini tamamlayırdı. Əsgəran qalası, Şuşadan 25 km məsafədə, Qarqarçayın sahilində yerləşərək ovalıqdan gələn hücumların qarşısını almaq üçün nəzərdə tutulmuşdu. Divarlarının hündürlüyü 8 m, qalınlığı 2 m, çayın yatağında yerləşən iki qülləsi ilə keçilməz müdafiə xətti təşkil edirdi. Rzaqulu bəy Cavanşir yazır ki, bu qalalar piyada qoşunları üçün möhkəm mövqe təmin edir, düşmən ora keçə bilmir və əhali burada sığınacaq tapırdı. Əsgəran qalası haqqında qeyd olunur ki, "Bu qala indi də Şuşaya gedən yeganə Ağdam yoluna hakim olması hesabına Qarabağın kilidi sayılmaqdadır." [5, s.87]

Əsgəran qalasının yerləşdiyi strateji mövqe, onun yalnız müdafiə funksiyasını deyil, eyni zamanda region üzərində nəzarəti təmin etməsini də mümkün etmişdir. Qala, Şuşaya gedən əsas yolları və ətraf əraziləri kontrol altında saxlayaraq hərbi və inzibati baxımdan mühüm rol oynamışdır. Bu xüsusiyyətlər, qalaya "Qarabağın kilidi" adı verilməsinə səbəb olmuş və onun Cənubi Qafqazın müdafiə şəbəkəsində əvəzolunmaz yerini göstərmişdir.

Əsgəran qalası Cənubi Qafqazın strateji baxımdan mühüm ərazilərindən birində yerləşir və onun inşası dövrün siyasi qarşıdurmaları, müharibələri və ərazi mübahisələri ilə sıx bağlı olmuşdur. Qala sonrakı mərhələlərdə də hərbi əhəmiyyətini qoruyaraq müxtəlif silahlı toqquşmalarda iştirak edən mühüm istehkam kimi çıxış etmişdir.

Memarlıq baxımından Əsgəran qalası orta əsr müdafiə tikililərinə xas xüsusiyyətləri özündə birləşdirir. Yüksək və qalın müdafiə divarları, möhkəmləndirilmiş giriş qapıları və funksional baxımdan bölünmüş daxili quruluşu onun əsas səciyyəvi cəhətlərindəndir. Qalanın daxilində hərbi, yaşayış və ehtimal ki, dini məqsədlər üçün istifadə olunan sahələrin mövcudluğu ehtimal edilir. Tikinti prosesində əsasən yerli daş materiallardan istifadə olunmuş, bu da tikilinin möhkəmliyini və davamlılığını təmin etmişdir. Müdafiə sistemində divar qalınlığı, istehkam

elementləri və planlaşdırma prinsipləri düşmən hücumlarına qarşı dayanıqlılığı artırmağa yönəlmişdir.

Memarlıq xüsusiyyətlərinə görə Əsgəran qalası regionun digər müdafiə qurğuları ilə müəyyən oxşarlıqlar nümayiş etdirir və ümumilikdə orta əsr istehkam memarlığının inkişaf xəttinə daxil edilir. Bu baxımdan o, Dərbənd qalası və Gilgilçay səddi kimi müdafiə kompleksləri ilə müqayisə oluna bilər.

Əsgəran qalasının memarlıq xüsusiyyətləri, onun müdafiə qabiliyyətini artırmaqla yanaşı, regionda mövcud olan digər orta əsr istehkamları ilə oxşar prinsiplər əsasında inşa edildiyini göstərir. Qalanın yüksək və qalın divarları, möhkəmləndirilmiş giriş qapıları, bürc və müşahidə məntəqələrinin yerləşmə sxemi düşmən hücumlarına qarşı dayanıqlılığı təmin etmişdir. Bu xüsusiyyətlər onu yalnız müstəqil müdafiə qurğusu kimi deyil, həm də regional strateji sistemin bir hissəsi kimi qiymətləndirməyə imkan verir.

“Təsadüfi deyildir ki, Mir Mehdi Xəzani yazmışdır: «İbrahimxəlil xan bir ümdə əsəri dəxi Əskəran dağının iki qalasıdır. Çünki Şirvan, Şəki və Dağıstan xalqı Pənah xan ilə düşmən idilər. Ehtiyatən vəsiyyət elədi ki, hərgah mənə fürsət olmasa, gərək mənim oğlum İbrahimxəlil xan bu iki dağın arasmda iki qala təmir edə... vaxtında elat xalq o dağlarda və dərələrdə sığınacaq edib, Əsgəran qalalarında qoşun və tüfəngi qoysalar, düşmən keçib qala üstünə müşkül edə bilməz.” [4, s.201]

Tarixi hadisələr kontekstində qala müxtəlif dövrlərdə baş verən hərbi qarşıdurmaların mərkəzində olmuşdur. Xüsusilə Birinci Rusiya-İran müharibəsi (1804–1813) zamanı onun ətrafında hərbi əməliyyatlar aparılmış, 1810-cu ildə isə tərəflər arasında danışıqların keçirildiyi məkan kimi çıxış etmişdir. Bu faktlar Əsgəran qalasının yalnız müdafiə istehkamı deyil, eyni zamanda siyasi və hərbi-strateji əhəmiyyətə malik obyekt olduğunu göstərir.

Mir Mehdi Xəzaninin sözləri Əsgəran qalasının strateji əhəmiyyətini və onun qorunma funksiyasını açıq şəkildə təsdiqləyir. Qala yalnız fiziki müdafiə vasitəsi kimi çıxış etməmiş, eyni zamanda əhalinin sığınacaq yeri və hərbi qüvvələrin mövqeləndiyi mərkəz olmuşdur. Bu baxımdan, qala təkcə regionun müdafiəsini təmin etməklə kifayətlənməyib, həm də siyasi və hərbi-strateji proseslərin aparıldığı bir obyekt kimi rol oynamışdır.



Beləliklə, Bayat, Şahbulaq, Əsgəran və xüsusilə Şuşa qalaları XVIII–XIX əsrlərdə Qarabağ xanlığının həm müdafiə, həm də siyasi idarəetmə strukturunun əsas dayaqları olmuşdur. Bu qalalar yalnız hərbi istehkam deyil, eyni zamanda mərkəzləşmiş hakimiyyətin formalaşması və regional siyasi proseslərin idarə olunmasında mühüm rol oynamışdır.

Qarabağ xanlığının strateji qalaları yalnız hərbi müdafiə funksiyasını yerinə yetirməmiş, eyni zamanda inzibati, siyasi və sosial həyatın mərkəzi kimi çıxış edərək xanlığın uzunmüddətli mövcudluğunu təmin etmişdir. Bu baxımdan, həmin qalalar və onların ətrafındakı infrastruktur xanlığın həm daxili idarəçiliyinin, həm də regional siyasi proseslərin idarə olunmasının əsas dayaqları olmuşdur.

**Ədəbiyyat siyahısı:**

Azərbaycan tarixi (ən qədim zamandan XX əsrədək) I cild. (Ziya Bünyadov və Yusif Yusifovun redaktəsində). Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1994, 688 səh

Azərbaycan tarixi üç cilddə. II cild. Bakı. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. 1964

Azərbaycan tarixi üç cilddə. III cild. Bakı. Elm nəşriyyatı. 1973

Mir Mehdi Xəzani. Kitabi-Tarixi Qarabağ // Qarabağnamələr, II c., Bakı, Yazıçı, 1991, s. 93-202.

Zeynaloğlu Ç. Müxtəsər Azərbaycan tarixi. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1992, 144 səh.



# XƏLİL TAHİRBƏYLİ

## XƏSTƏYƏM, YATAQDA YATIRAM İNDİ

Dərdliyəm, elə bil, batıbdır gəmim,
Ondandır başlayıb bunca dərd-qəmim.
Çıxılmaz duruma düşübdür zəmim,
Ağrılar içində batıram indi,
Xəstəyəm, yataqda yatıram indi.

Hər kəs çıxıb gedib, tək qalmışam, tək,
Baxıram dörd yana hey hürkək-hürkək…
Bax, sanki ölümə edilmişəm tək,
Ağrılar içində batıram indi,
Xəstəyəm, yataqda yatıram indi.

Başım açılmayır ağrı-acıdan…
Xəlil, uzaq düşdüm qardaş-bacıdan,
Necə can qurtarım bunca sancıdan,
Ağrılar içində batıram indi,
Xəstəyəm, yataqda yatıram indi.

## KİMSƏ HARAYIMA

İllərdir ki, yanıram dərd əlində,
Gəl ki, kimsə harayıma çatmadı.
Mən yatsam da gecələri sübhəcən,
Köksümdəki ağrım-acım yatmadı.

Axşam-sabah göynəməkdə ürəyim,
Bu dünyaya etibarım qalmadı.
Çoxaldıqca gözlərimdən axan yaş,
Kimsə məni bircə yada salmadı.

Nə qədər su səpdim könül bağıma,
Baxçamda bir dənə gül də bitmədi.
Nalə çəkib yürüsəm də yollarda,
Nə dost-qardaş fəryadıma yetmədi.

## SƏN MƏNİ SEVSƏYDİN

Bu dünya çoxuna olubdur məzar,
Sən məni sevsəydin nə xoş olardı.
Namərdlər mərdlərə min quyu qazar
Sən məni sevsəydin nə xoş olardı.

Açan çiçəklərim solmazdı heç vaxt,
Qəlbim dərd-qəm ilə dolmazdı heç vaxt.
Dərdlər girdabına salmazdı heç vaxt,
Sən məni sevsəydin nə xoş olardı.

Aylar, illər ötüb keçir ömürdən,
Ürək, vallah, heç də deyil dəmirdən…
Fərqi yox hər günün qara kömürdən
Sən məni sevsəydin nə xoş olardı.

Uçar durnalar da, bil, qatar-qatar,
Günəş səhər çıxıb, axşamı batar.
Kim mənim könlümdə şux sevda çatar,
Sən məni sevsəydin nə xoş olardı.

## MƏNİM HƏYAT YOLDAŞIM

Çox gözəldir mənim həyat yoldaşım,
Odur mənim bir ömürlük sirdaşım.
O var ikən həyatımda mənimlə,
Başqasına, deyin, necə alışım.

Bax, onunla açılır hər səhərim,
Bax, onunla yoxa çıxır qəhərim.
Ömrümə nur saçan günəşə bənzər,
Elə odur sevgi adlı bəhərim.

Odur mənim ən dəyərli varlığım,
Köksümdəcə daşıdığım yarlığım.
Hər arzumuz, istəyimiz üst-üstə,
Onunla bir olmaz ki, heç zorluğum.

# GÜLNARƏ İSRAFİLİN ŞEİRLƏRİ

Gülnarə İsrafilin şeirləri ilə tanışlığım dörd il əvvəl başlayıb. Sonra özüylə görüşdüm. "Sirran" adlı axırıncı şeirlər kitabını və son illərdə yazdığı şeirləri də mənə verdi ki, oxuyum, fikirlərimi bildirim, "Torpaq adamlar" və "İki" adlı iki şeir kitabını da əldə etdim. İndi mən onun şeir dünyası ilə üz-üzəyəm.

Bir şeir dünyasından nələr əxz etdim? Oxuduğum şeirlər müasir poeziyamızın yaddaşında yaşaya biləcəkmi? O şeirlər təkcə Gülnarə İsrafilin deyil, bizim də könül duyğularımıza yol tapa biləcəkmi? Gülnarə İsrafilin şeirlərində onun bir şair kimi özünəməxsusluğu nəzərə çarpırmı?

Adını çəkdiyim şeir kitablarına yazılan ön sözlərinə nəzər yetirirəm.

Kənan Hacı "Torpaq adamlar"a yazdığı ön sözdən: "Gülnarənin şeirlərini oxuduqca görürsən ki, o, sanki öz hisslərini çarmıxa çəkir, yaşantılarının maddi formasını - söz formasını yaratmağa cəhd edir. Gülnarə hansı sözün hansı formanı tələb etdiyini duyur və hisslərini həmin formada ifadə etməyə çalışır. Onun şeirlərinin fərqli bir intonasiyası var".

Bilal Alarlı "İki" şeirlər kitabına yazdığı ön sözdə deyir: "Gülnarə İsrafilin poetik dünyası, fərqli dil üslubu, obrazlı ifadəsi ilə diqqət çəkir".

"Sirran" şeirlər kitabındakı ön söz müəllifi isə Naibə Yusifdir. O, şairin ayrı-ayrı şeirlərindən söz açır və onun bir şair kimi özünəməxsusluğunu nəzərə çarpdırır. "Özünəməxsusluq, bənzərsizliyi onun poeziyasının özəlliyidir".

Əlbəttə, hər üç ön sözdə tərif ahəngi üstündür. Belə də olmalıydı, çünki bu gün nəşr olunan bütün şeir kitablarına yazılan ön sözlərdə bu ahəng pozulmur.

Gülnarə İsrafili özünəməxsus bir şair kimi səciyyələndirmək üçün onun bir neçə şeirinə müraciət etmək istəyirəm.

Vətən və müharibə mövzusu son otuz ilin poeziyasında şairlərimizi düşündürüb və bu düşüncələr də müxtəlif şəkildə öz əksini tapıb. Nədir bu müxtəlflik?

İlk növbədə, ənənəvi tərzdə, demək olar ki, "sovet şeiri" üslubunda - Vətəni və müharibəni məlum ifadə vasitəsi ilə yazılan şeirlər.

İkincisi, dövrün, zamanın, gerçəkliyin ruhuna uyğun yazılan şeirlərdir. Burada Vətənin təsvir və tərənnümü o qədər də ardıcıl deyil, əsas məsələ vətənpərvərlik və səfərbərlik ruhunun aşılanmasıdır. Məsələn: Məmməd Arazın, Xəlil



Rza Ulutürkün, Zəlimxan Yaqubun "Qalx ayağa Azərbaycan" çağrışlı şeirləri kimi.

Üçüncü isə, Vətən və müharibə mövzusuna tamamilə fərqli bucaq altında yanaşan şeirlərdir. Bu tipli şeirlərdə ağrı, kədər motivləri üstünlük təşkil edir və əlbəttə, bu motivlər vətənpərvərliyin ağrı səviyyəsində dərki deməkdir.

"Müharibə" şeirində müəllif bir nənənin müharibəylə bağlı ömrü qısaca "səhifələnir".

"Nənəmin tellərində ağarmışdı müharibə,
ala gözləri qonurlaşmışdı yanğıdan". – Bu nənə ümumiləşmiş bir obrazdır, "qara kağız öpdü nənəmin kəhraba əllərini". O nənə hər gün ölür, "son dəfə öləndə gözündəki yaş nəsə deyirdi". - Metaforalardan ibarət bu şeirdə, nənə-qara kağız, ölüm simvollarında reallaşır. Göründüyü kimi, sırf müharibə nə deməkdir şeirlərdən fərqli olaraq, Gülnarə İsrafil ənənəvi mövzuya təzə rəng qatır.

"Vətən" şeiri mən deyərdim, Gülnarə İsrafilin metaforik şeirlər sırasında ən görümlü, duyumlu şeiridir.

***"Bir şəhid gördüm ki, mən***
***Köynəyi can verirdi.***
***Dilində ilk yaddaşı,***
***Qurumuş son kəlməsi***
***Yerdən torpaq dərirdi.***

***Unudurdu nəğməni***
***Dodaqları qaçaraq,***
***Pıçıltı qovlayırdı,***
***Hənirti axtarırdı***
***Canından can açaraq.***

***Bir şəhid görüm ki, mən***
***Torpaqdan don geyinmiş.***
***Anadan köz atəşi,***
***Atadan sirr daşları***
***Geyinmiş də, geyinmiş...***

***Bir şəhid görüm ki, mən***
***Vətən olmuşdu, Vətən!"***
***Kimdir o şəhid? Anamı, atamı, oğulmu?***

Sonda Vətənləşir o şəhid. Gülnarə İsrafil "Şəhid Vətən" ümumiləşmiş bir obraz yaradır. Gülnarə İsrafilin şeirlərində obraz yaratmaq xüsusiyyəti daha qabarıq nəzərə çarpır. O, ayrı-ayrı fərdlərin (müşahidə etdiyi insanların taleyi ilə maraqlandığı) obrazlarını həm zahiri, həm də daxili - mənəvi planda təqdim edir.

***"Nə durmusan yol üstündə,***
***qarı nənə!***
***Gedənə də,***
***gələnə də əl açırsan,***
***ovcuna qəpik düşəndə***
***küçələrdə***
***qəpik-qəpik gül açırsan.***
***Kədərin yoxmu sənin***
***üzüləsən?"***

İlk baxımdan adət etmədiyimiz bir mənzərə ilə qarşılaşırıq. Bir nənə dilənçilik edir, yalvarış, sızıltı ilə yox... Əksər dilənçilərə xas olan "yalvarış mexanizmindən" uzaq bir nənə. Amma bu zahiri bir görüntüdür və bu görüntü elə buradaca sona çatır. Amma Gülnarə İsrafil bu obrazı böyüdür, ümumuləşdirir və şeirin ifadə etdiyi məna bir dairədən digərinə adlayır.

***"Sən dalansan,***
***sən küçəsən,***
***yox, elə sən,***
***özün boyda bir şəhərsən."***

O qarı nənə bütün gəlib keçənlər üçün bir dayanacaqdır, onun "əvvəlki şəhərinə" qayıtması lazımdır. Şeirdə bir insan həyatından cəmiyyət həyatına keçid diqqəti cəlb edir. Təfərrüata varmadan Gülnarə İsrafilin "Viran şəhərlərin uşaqlarıyıq", "İşıqçı", "Hər gülün dibində bir şəhid", "Ağdam", "Balacam", "İnsan" şeirləri haqqında da eyni fikirləri söyləmək olar. Mən Gülnarə İsrafilin nakam şair Həsən Kürə həsr etdiyi şeiri onun ən kədərli şeiri hesab edirəm.

Niyə "ən kədərli"? Çünki, Həsən Kürün faciəli həyatına şairin də öz kədəri qarışır. Ümumiyyətlə, Gülnarə İsrafil bir çox şeirlərində kədər, ağlamaq, sıtqamaq yox, düşünmək əhvalını yaradır.

"Düşünmək əhvalı" ifadəsini nahaq yerə işlətmirəm. Əlbəttə hər hansı şeirdə müəyyən düşüncə - fikir öz ifadəsini tapmalıdır. Təbii ki, bu düşüncələr obrazlı şəkildə əks olunmalıdır.

Mən onun "Yol" və "Elə istəyirəm" şeirlərini bu baxımdan bitkin şeir hesab edirəm. O, yol obrazını insan obrazı ilə vəhdətdə təqdim edir.

***"Bu yol məhəbbətdi, bu yol məşəqqət,***
***Ayağım torpaqda sırsıralanıb.***
***Yolun üzündəki mənim göz yaşım,***
***Yolun ürəyində sirr sıralanıb.***

***Bu yol arzuların budağı kimi,***
***Bu yol günahların otağı kimi,***
***Bu yol dirilərin ölüm ayağı,***
***Bu yol ölülərin torpağı kimi."***

Gülnarə İsrafilin şeirlərində lirik qəhrəman obrazı daha çox üstünlük təşkil edir. Bu lirik qəhrəman sevgi yolunun yolçusudur.

O öz sevgi yolunda "Mən"dən "Sən"ə doğru yol gedir və bu yolda xoşbəxtliyə ümid və çağrış da var, üzüntü də var, məyusluq da, anlaşılmazlıq da. Onun digər şeirlərindəki təzadlı hisslər, sevgi şeirlərində də öz əksini tapır.

***"Yandırıb eşq oduna,***
***Qəlbimi şan-şan etmisən.***
***Şirinin qəmdən acı,***
***Qəmimi al-qan etmisən.***
***Nə məni öldürmüsən,***
***Nə də məni var etmisən.***
***Yaralanmış ürəyimi***
***hansı yana alım gedim?***
***Dəvətsiz qonaq olmuşam***
***bu sevgiyə, qalım, gedim?"***

Qalsa yaxşıdır... Çünki sevgi ömrü tükənmir. Füzuli babamız demişkən:

***"Ey Füzuli, çıxdı can,***
***çıxmam təriqi eşqdən,***
***Pərgüzari əhli-eşq***
***üzrə qılın mədfən mənə".***

Gülnarə İsrafilin şeirlərində sərbəst dil manerası ilə rastlaşdım. Doğrudur, çətin anlaşılan sözlər, ifadələr də var, amma bundan keçmək olar. Fəqət bir çox şeirlərində şeirə uyuşmayan sözlərə, ifadələrə nə deyəsən? Şair bir də baxsın "Mən adlı kim qaldı ki...", "Boşluqda ulayan "mən"im", "Sonsuzluq" şeirlərinə... Bu şeirlərdə fikir var, amma şeir yoxdur. Bir də baxsan "Payız" və "Dirilim" şeirlərinə əsl şeir kimi şeir...

Gülnarə İsrafil! Sənin üç kitabının şeirlərini mən oxudum. Sevindim ki, sən, əsl şairsən... Yoluna davam et!

**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# YUNİS QARAXANLI



## Ü R Ə K

felyeton

***Mən səni sevirəm bilirsən, Ürək,***
***Nəğmələr qoşuram çəkdiyim ahdan.***
***Ağlayan səsimdən yer-göy də kövrək,***
***Çəkinib qorxmursan zərrə günahdan.***

-Bəli, «Ürək» - sevgililərin bir-birinə xitabən müraciət forması. Bunun da əsasında güclü sevgi dayanır.

Sevənlərin bir-birini «Ürək adlandırması və «ürək» simvolu XIII əsrdə Avropada saray əhli arasında məşhur idi. Şairlər və ozanlar «fin amor» kimi tanınan sevgi növündən bəhs edirdilər. Bu termini hansı bir dilə tərcümə etmək mümkün olmasa da, «ideal sevgi» mənasına gəlir. Bu növə görə ozan və ya şair qəlbini bir nəfərə verir və qəlbinin əbədiyyətəcən ona aid olacağına dair əhd-peyman bağlayır. Beləcə ozan və ya şair lira və ya arfanın müşayəti ilə saray əhlinin qarşısında qəlbi və sevgisi haqqında mahnılar, şeirlər oxuyardı. Fransada başlayan bu cərəyan sonradan İspaniya, Portuqaliya, İtaliya, Almaniya, Macarıstan və Skandinaviyaya yayıldı. Şairlərin və ozsnların sayəsində sevgi sadəcə ədəbi bir anlayış olmaqla qalmadı, eyni zamanda ictimai əhəmiyyətli dəyərə çevrildi və insan olmağın özünü əmələ gətirdi.

Ürək həm də bioloji olaraq insan orqanıdır. İnsanın döş qəfəsinin orta döş xəttindən solda yerləşir. Təxminən aid olduğu insanın yumruğu böyüklüyündə əzələvi orqandır. Ürək qanın damarlara cəryanını təmin edir. Qan dövranı sistemində hərəkətverici qüvvə olan ürək daim arteriyalara qan vurmaq funksiyasını daşıyır.

Müasir dövrdə düzgün və vaxtlı-vaxtında qidalanmamaq, səhhətə düzgün və yerində nəzarət etməmək, məişət problemləri müxtəlif ürək xəstəliklərinin yaranmasına səbəb olur. Davamlı stress halında olmaq, xroniki ürək çatışmazlığının olması, ürəyin böyüməsi ilə gedən ürək əzələsinin xəstəlikləri, ürək ritminin pozulması qəfləti ürək ölümünə səbəb ola bilər.

Nə isə... Sonda onu demək istəyirəm ki, ürəyimizi daxili və xarici təsirlərdən qorumalıyıq.

**09.01.2025**

# YAZI DÜZÜMÜ

## Redaktor guşəsi

**-"Qurban bayramı divanı"**.........1

## Publisistika

**-Fazil MUSTAFA** – "Əsəd Cahangir – 60".........2
**-Sabir RÜSTƏMXANLI** – "Azadlıq meydanından söz meydanına" (Əsəd Cahangirin 60 yaşına).........3
**-Əsəd CAHANGİR** – "Sözümün canı" (metafizik-strukturoloji essedən bir hissə).........8
**-Qafar CƏFƏRLİ** – ""Şəfəq" – cənubun ədəbi mayakı".........20
**-Arzu HEYDƏROVA** – "Bir ömrün hekayəsi" (Şair Ədalət Bədirxanlının həyatı, yaradıcılığı və poemaları haqqında düşüncələrim), (oçerk-müsahibə).........34
**-Güldanə MEHDİYEVA** – "Mənəviyyat çırağı – müəllim".........48
**-Zarina TAĞIYEVA** – "Ənvər Nazim oğlu Məmmədov — azərbaycanlı, bakılı və sadəcə olaraq möhtəşəm bir insan".........60
**- Yunis QARAXANLI** – "Ruhun və bağlılığın manifesti" (Lətifə Rəşid yaradıcılığı haqqında).........65
**-Günay RZAYEVA** – "Rixard Zorge: Bakıda doğulan əfsanəvi kəşfiyyatçı".........72
**-Əli BƏY AZƏRİ** – ""Sən də Ələsgərsən, mən də Ələsgər"" (Ədəbi mühitdə dillərdə dolaşan bu misranın müəllifi şair Ələsgər Talıboğlunun "Könül yaza tələsir" şeirlər kitabından fraqmentlər".........76
**-Nüşabə SADIXLI** – "İnsan qəlbinin mühəndisi" (Zakir İsmayıl poeziyasının incəlikləri).........82
**-Cahan SALMANQIZI** – "Arzular, talelər" (Cahan Babazadənin nailiyyətləri).........86
**-Yunis QARAXANLI** – "Peşəsini sevən müəllimə" (Tarix müəllimi Zöhrə Səmədova ilə müsahibə).........89
**-Fatimə AĞAYEVA** – "XVIII–XIX əsrlərdə Qarabağ xanlığının müdafiə sistemində Əsgəran qalasının strateji və tarixi-memarlıq əhəmiyyəti".........98
**-Vaqif YUSİFLİ** – "Gülnarə İsrafilin şeirləri".........101

## Poeziya

**-Zeynəb CƏMALƏDDİN** – "Dəryadan damlalar", "Ağıllı gözəl", "Xəyallar", "Adamlar", "Lətifə xanım", "Xanım İsmayıl", "Təkqafiyəli sonet", "Yazaraq danışıram", "Göz ilə qaş arasında", "Niyə getdin?", "Nuh babamız, hardasan?", "Baş adım" (şeirlər).........24
**-Ədalət BƏDİRXANLI** – "Bəsirət gözü", "Yazırıq", "Xocalı" (poema), "Eşqin məqamı", "Sual və cavab" (şeirlər).........39
**-Hafiz ƏLİMƏRDANLI** – "Rübailər".........46
**-Səadət QƏRİB** – "Sus, ürəyim, daha sus!", "Yük", "Qaçmaq istəyirəm çox yzaqlara", "İnsan ömür boyu yıxılıb qalxar", "Şeirdən evlər tikir", "Gəncliyim uzaqdan baxıb kövrəlir", "İstədim", "Mən bir həyat hekayəsi", "Ağlayan xatirələr", "Tanrım, xoş xəbər ver", "Şair olmasam da, şair təbliyəm" (şeirlər).........52
**-Mail MƏMMƏDLİ** – "Xəyallar burulğanında", "Qayıdım", "Ruhumun səsi", "Sənsən yanımda", "Niyə gəlmisən?", "Küsürəm, lələ" (şeirlər).........58
**-Bəxtiyar MƏMMƏDLİ** – "Mən", "Mənim", "Mənimçün", "Bizim idi o dağlar", "Danışır", "Mən ömrün qışındayam" (şeirlər).........66
**-Talıb MƏMMƏDLİ** – "Əl atma", "Axtarır", "Görəndə", "Mənim taleyimə bax", "Dünya, məni əyləndirmə, düşündür", "Mənim" (şeirlər).........70
**-Cavanşir MƏMMƏDLİ** – "Dərələyəz", "Ağlayaydım", "Getdi", "Bilməmişəm mən", "Qaraçı" (şeirlər).........75
**-Ələsgər TALIBOĞLU** – "Di gəl ki... millətim dilənçi gündə", "Qoy, sığınım qoynuna", "Ömrümün", "Xatırla məni", "Bu gözəlin", "Hər yadıma düşəndə", "Ayrılıqlar yordu məni", "Nəfəs-nəfəsə gedirəm", "Xatirələr ağuşunda", "Həyat eşqim" (şeirlər).........79
**-Zakir İSMAYIL** – "İlahi məhəbbət", "Odla yanmaq", "Eşq ürəyin tanrısıdır", "Ruhuma sən gəlmisən", "Saf eşqinin xətrinə", "Mürəkkəbim", "Əgər üzün oldumsa", "Mən öləndə ağlama" (şeirlər).........84
**-Mürşid MİRAC** – "Poeziya çələngi".........90
**-Ülviyyə ƏSGƏROVA** – "Yığışdırdım sevgini", "Göylərtək uzaqdasan", "Əgər yaşamaqsa, belə yaşamaq", "Göz yaşı yaraşmır sənə", "Cəzalı ürək", "Ruhum göylərə həsrət" (şeirlər).........96
**-Xəlil TAHİRBƏYLİ** – "Xəstəyəm, yataqda yatıram indi", "Kimsə harayıma", "Sən məni sevsəydin", "Mənim həyat yoldaşım" (şeirlər).........100

## Nəsr

**-Vaqif ƏSƏDOĞLU** – "Sərvət və məhəbbət" (fantastik hekayə).........28
**-Nazilə GÜLTAC** – "Badam çiçəkləmişdi" (hekayə).........42
**-Zəminə RƏSULOVA** – "Balaca Qozanın nağılı" (hekayə).........56
**-Damət SALMANOĞLU** – "Gülzar" (hekayə).........68
**-Nəzakət EMİNQIZI** – "Nakam tale" (hekayə).........92
**-Yunis QARAXANLI** – "Ürək" (felyeton).........103